# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YETMİŞ BEŞİNCİ KİTAB

## İYUL 2016 - SENTYABR 2016

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2018, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Qırğız Respublikasına səfəri, Ukrayna Respublikasının və İran İslam Respublikasının prezidentlərinin ölkəmizə səfərləri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanmışdır.

Cilddə, həmçinin ölkə başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, uşaq bağçaları və parkların, sənaye müəssisələrinin açılışında və ictimaiyyətin nümayəndələri ilə görüşlərində çıxış və nitqləri, həmçinin ölkəmizə səfərə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşləri, xarici ölkələrin televiziya kanallarına verdiyi müsahibələri də geniş yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{0801000000}{М - 651(07) - 2018}$ **ББК - 32**

© Azərnəşr, 2018

# RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ SERGEY LAVROV İLƏ GÖRÜŞ

*11 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz, hörmətli Sergey Viktoroviç! Sizi yenidən Bakıda görməyimə çox şadam. Biz bu yaxınlarda Peterburqda görüşmüşdük. Buna qədər də görüşmüşdük. Mən keçmiş cədvələ baxdım, biz hər ay görüşmüşük: apreldə Bakıda, mayda Vyanada, keçən ay Sankt-Peterburqda, sonra yenidən Bakıda. Bu bizim münasibətlərimizin necə inkişaf etdiyinin yaxşı göstəricisidir, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında Rusiyanın necə səmərəli rol oynadığının göstəricisidir.

Biz Rusiya tərəfinin, şəxsən Prezidentin səylərini yüksək qiymətləndiririk. Mən həm Sizə, həm də Rusiya Prezidentinə Sankt-Peterburqda görüşün keçirilməsi təşəbbüsünə görə təşəkkürümü bildirmək istərdim. Biz bu görüşü çox səmərəli və müsbət görüş kimi qiymətləndiririk. Əlbəttə ki, son 3-4 ayda danışıqlar prosesində nəzərəçarpan müsbət dinamikanın davam edəcəyinə ümid bəsləyirik. Hesab edirəm ki, danışıqların bu dövrü ən dinamikdir və ümidvaram, həm də ən səmərəli olacaq. Sizin bu gün Bakıya, bundan əvvəl isə İrəvana səfəriniz bir daha sübut edir ki, Rusiya hər iki ölkənin dostu, qonşusu kimi, münaqişənin nizamlanmasında maraqlıdır. Təbii ki, biz də maraqlıyıq, regionda sülhün və təhlükəsizliyin bərqərar olması üçün münaqişənin tezliklə həllini istəyirik.

Həmçinin, əlbəttə ki, sizin səfəriniz ikitərəfli münasibətlərin gündəliyini müzakirə etmək üçün yaxşı imkandır. Keçən ay biz bu məsələləri Rusiya Prezidenti ilə müzakirə etmişdik. Elə bir mövzu

tapmadıq ki, ani müdaxilə tələb etsin. Bizim əsas vəzifəmiz bütün istiqamətlər üzrə – həm siyasi, həm iqtisadi, həm nəqliyyat, energetika, humanitar əməkdaşlıq sahələrində münasibətləri möhkəmləndirməkdir. Biz dost və tərəfdaş kimi, inamla irəliləyirik. Əminəm ki, Sizin səfəriniz uğurlu olacaq və ölkələrimizin daha da yaxınlaşmasına təkan verəcək. Bir daha xoş gəlmisiniz!

**S e r g e y L a v r o v**: Çox sağ olun, hörmətli İlham Heydər oğlu. Gözəl Bakı şəhərində, ümumi Xəzər dənizimizin sahilində yenidən olmaq həqiqətən, çox xoşdur. Həm də ki, sabah Xəzər beşliyi ölkələrinin Xarici İşlər nazirlərinin növbəti görüşü baş tutacaq. Həmkarım və dostumla, o cümlədən Bakıda keçirilmiş Sammitdə başlanan səyləri davam etdirəcəyik və nəticəyə nail olmağa çalışacağıq.

İlk növbədə, Vladimir Vladimiroviç Putinin səmimi salamlarını çatdırmaq istərdim. O da Sizin kimi, Sankt-Peterburq görüşünü xoş sözlərlə xatırlayır. Orada siz həm ikitərəfli münasibətləri müzakirə etdiniz, həm də Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı üçtərəfli görüş keçirdiniz. Bizim ikitərəfli gündəliyimiz çox zəngindir. Siz indi bu haqda dediniz. İlin sonunadək hökumətlərarası ticari-iqtisadi Komissiyanın iclası, Rusiya–Azərbaycan Regionlararası Forumu, Azərbaycan və Rusiya prezidentlərinin birgə himayəsi ilə keçirilən ənənəvi V Bakı Beynəlxalq Humanitar Forumu nəzərdə tutulub. Sözsüz ki, Azərbaycanın Xarici İşlər nazirinə və mənə indiki mərhələdə dövlət başçıları tərəfindən hər hansı bir müdaxilənin tələb olunmadığı barədə fikrinizi eşitmək xoşdur.

Biz bütün istiqamətlərdə əməkdaşlığın inkişafında maraqlıyıq. Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Rusiya tərəfinin təşəbbüsünə Sizin münasibətinizi yüksək qiymətləndiririk. Proses həqiqətən, gedir və prezident Vladimir Putin Sankt-Peterburq görüşünün nəticəsindən razıdır. Sizin dediyiniz kimi, mən Prezidentin tapşırığı ilə hər iki ölkənin paytaxtına səfər etmişəm.

Hesab edirəm ki, bugünkü görüş tamamilə konkret planda daha dəqiq addımları müəyyənləşdirməyə kömək edəcək. Qonaqpərvərliyə və xoş sözlərinizə görə bir daha çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Mənim salamlarımı və ən xoş arzularımı Vladimir Vladimiroviçə çatdırın.

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SERCİO MATTARELLAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin cənubunda sərnişin qatarlarının qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İtaliya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyul 2016-cı il*

**İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MATTEO RENZİYƏ**

Hörmətli cənab Baş nazir!

İtaliyanın cənubunda sərnişin qatarlarının qəzaya uğraması nəticəsində çox sayda insanın tələf olması və xəsarət alması xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyul 2016-cı il*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ PETRO POROŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*14 iyul 2016-cı il*

*Azərbaycanda rəsmi səfərdə olan Ukrayna Respublikasının Prezidenti Petro Poroşenkonun iyulun 14-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Ukrayna Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Ukrayna prezidenti Petro Poroşenkonu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Ukrayna Prezidentinə raport verdi.*

*Ukraynanın və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və prezident Petro Poroşenko Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Ukrayna Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Petro Poroşenkoya, Ukraynanın nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycan və Ukrayna prezidentləri rəsmi foto çəkdirdilər.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ PETRO POROŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*14 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Respublikasının Prezidenti Petro Poroşenkonun iyulun 14-də rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə Ukrayna prezidenti Petro Poroşenkonun Azərbaycana ilk rəsmi səfərinin önəmi vurğulandı. Qeyd olundu ki, Azərbaycan–Ukrayna əlaqələrinin böyük tarixi var və xalqlarımız arasında daim dostluq münasibətləri hökm sürüb. İkitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə perspektivləri müzakirə olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ ŞURASININ BEŞİNCİ İCLASI

*14 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Respublikasının Prezidenti Petro Poroşenkonun iyulun 14-də təkbətək görüşündən sonra iki ölkənin Prezidentləri Şurasının beşinci iclası keçirilmişdir.*

*İclasda Azərbaycan və Ukrayna nümayəndə heyətlərinin üzvləri iştirak etmişlər.*

*Azərbaycan prezidenti İlham Əliyev görüşdə ikitərəfli münasibətlərimizin müxtəlif sahələri üzrə geniş müzakirələrin aparıldığını bildirdi. Bu səfərin əlaqələrimizin inkişafında önəmini qeyd edən dövlətimizin başçısı Azərbaycan və Ukrayna Prezidentləri Şurasının beşinci iclasının müzakirələrin aparılması və qərarların qəbul edilməsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Prezident İlham Əliyev dedi ki, qarşılıqlı maraqlar nəzərə alınmaqla, müzakirə olunacaq məsələlərin həlli üçün yaxşı potensial var. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Ukrayna prezidenti Petro Poroşenkonun Azərbaycana ilk səfəri ölkələrimiz arasında müxtəlif sahələr üzrə qarşılıqlı fəaliyyətin müəyyənləşdirilməsi və Azərbaycan ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaradacaq.*

*Nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Ukrayna prezidenti Petro Poroşenko ölkəmizin paytaxtında ilk saatlardan gördüklərinin onlarda dərin təəssürat yaratdığını bildirdi.*

*İclasda siyasi, iqtisadi, energetika, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlıqla bağlı gündəlikdə duran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 iyul 2016-cı il*

*Azərbaycan və Ukrayna Prezidentləri Şurasının beşinci iclasından sonra iyulun 14-də Azərbaycan–Ukrayna sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan və Ukrayna Prezidentləri Şurasının beşinci iclasının Protokolu»nu Azərbaycan prezidenti İlham Əliyev və Ukrayna prezidenti Petro Poroşenko imzaladılar.*

*«Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ukrayna Respublikasının Dövlət Fiskal Xidməti arasında malların hava nəqliyyatı ilə daşınmasına dair gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol»u Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Ukrayna Respublikasının Dövlət Fiskal Xidmətinin sədri Roman Nəsirov imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Ukrayna Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2016–2020-ci illər üzrə mədəniyyət və incəsənət sahəsində əməkdaşlığa dair Proqram»ı Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Ukraynanın Xarici İşlər naziri Pavlo Klimkin imzaladılar.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ PETRO POROŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*14 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Respublikasının Prezidenti Petro Poroşenko iyulun 14-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu Sizin Azərbaycana birinci səfərinizdir və mən şadam ki, səfər çox uğurlu keçir. Bu gün apardığımız danışıqlar, imzalanan sənədlər bunu bir daha təsdiqləyir.

Biz Sizinlə bu ilin əvvəlində Davosda görüşmüşdük. O görüşün çox böyük əhəmiyyəti vardır. Çünki o görüşdən sonra Ukrayna–Azərbaycan əlaqələrinin inkişafı istiqamətində çox önəmli addımlar atılmışdır. Ondan sonra Ukraynadan Azərbaycana yüksəkvəzifəli nümayəndə heyətləri gəlməyə başladı. Bu ayın əvvəlində hökumətlərarası birgə Komissiyanın iclası keçirildi və bu gün biz Sizi Azərbaycanda rəsmi səfərdə qarşılayırıq.

Fürsətdən istifadə edərək, bizim dəvətimizi qəbul edib Azərbaycana gəldiyiniz üçün Sizə minnətdaram.

Bu gün həm təkbətək görüşdə, həm də Prezidentlər Şurasının iclasında Ukrayna–Azərbaycan əlaqələrinin müxtəlif aspektləri

geniş müzakirə olundu və gələcək birgə fəaliyyət üçün addımlar müəyyən edildi. Şuranın gündəliyi çox geniş idi. Bir çox önəmli məsələlər müzakirə edildi – energetika, nəqliyyat, hərbi-texniki əməkdaşlıq, siyasi əlaqələr, beynəlxalq təşkilatlarda fəaliyyətimiz. Demək olar ki, müzakirə edilən bütün məsələlərlə bağlı çox ciddi tapşırıqlar verildi. Əminəm ki, bu tapşırıqların yerinə yetirilməsi nəticəsində ölkələrimiz bir-birinə daha da yaxın olacaq və ticarət dövriyyəsi daha da artacaq. Çünki hazırda ticarət dövriyyəsi nə bizi, nə Ukrayna tərəfini qane edə bilməz.

Siyasi əlaqələrin inkişafı geniş müzakirə edildi. Biz bir çox beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik və bundan sonra da bu təşkilatlarda, xüsusilə BMT-də, ATƏT-də, Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda əməkdaşlığımızı dərinləşdirəcəyik.

İqtisadi məsələlərə gəldikdə, bu sahədə çox böyük potensial var. Burada həm qarşılıqlı ticarətin genişləndirilməsi üçün imkanlar var – biz danışdıq ki, Azərbaycan idxal edilən malların ölkəmizə gətirilməsi işində Ukrayna şirkətlərinə diqqət yetirəcək – eyni zamanda, Azərbaycanın artıq çox geniş ixrac imkanları vardır və Ukrayna bazarı – böyük bazar bizim üçün çox maraqlıdır. Konkret tapşırıqlar verilmişdir.

Birgə investisiya layihələrinin icrası nəzərdə tutulur və müvafiq göstərişlər verildi ki, hər iki ölkənin investisiya imkanları araşdırılsın. Çünki buna çox böyük maraq var.

Energetika sahəsində qeyd edildi ki, Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR artıq Ukraynada fəal iştirak edir, böyük həcmdə – 200 milyon dollardan çox sərmayə qoyubdur, 60 yanacaqdoldurma məntəqəsi vardır. SOCAR-ın Ukraynada fəaliyyəti çox uğurludur və ölkələrimizi daha da birləşdirir.

Eyni zamanda, vaxtilə çox ciddi şəkildə müzakirə olunan Odessa–Brodı layihəsinin canlanması işində müvafiq göstərişlər verildi. Azərbaycan dünya bazarlarına, o cümlədən Avropaya böyük həcmdə öz neftini ixrac edir. Eyni zamanda, Xəzərin şərq sahillərində yerləşən ölkələr üçün tranzit rolunu da oynayır. Azərbaycan ərazisindən dünya bazarlarına neft ixrac olunur və

hesab edirəm ki, Odessa–Brodı layihəsinin canlanması üçün imkanlar vardır.

Bütövlükdə Xəzər dənizi–Qara dəniz–Aralıq dənizi–Baltik dənizi əməkdaşlığı formatı hesab edirəm ki, çox böyük potensialı özündə ehtiva edir. Burada şübhəsiz ki, nəqliyyat dəhlizlərinin fəaliyyəti də çox önəmlidir. Artıq birinci sınaq layihə icra edilib. Ukraynadan gələn bəzi yüklər Azərbaycan ərazisindən Orta Asiya ölkələrinə nəql edilib. Bu gün qərara gəldik ki, bu dəhlizi iqtisadi cəhətdən daha da cəlbedici etmək üçün biz tariflərə baxmalıyıq. Çünki tariflər yükgöndərənlər üçün məqbul olmalıdır ki, daha da böyük həcmdə yüklər hər iki istiqamətə getsin.

Mən Prezidenti məlumatlandırdım ki, biz yaxın zamanlarda Bakı–Tbilisi–Qars dəmir yolunun istismarını təmin edəcəyik. Bu yol İpək yolunun bərpası deməkdir və burada Ukrayna şirkətləri üçün də yeni imkanlar açılır. Eyni zamanda, Azərbaycan tərəfdaş ölkələrlə Şimal–Cənub dəhlizinin yaradılması üçün səylər göstərir. Gələcəkdə Ukrayna tərəfi bu yoldan da istifadə edə bilər. Bir sözlə, nəqliyyat sahəsində çox geniş imkanlar var və əminəm ki, bu gün verilmiş tapşırıqların yaxşı nəticələri olacaq.

Birgə sənaye sahələrinin yaradılması istiqamətində də fikir mübadiləsi aparıldı. Bu həm ağır sənayeyə aiddir, eyni zamanda, hərbi-texniki sənayenin inkişafı üçün imkanlar var. Bu sahədə əməkdaşlığımızın artıq gözəl təcrübəsi var və bu məsələlər də müzakirə edildi.

Humanitar sahədə əməkdaşlığın çox böyük əhəmiyyəti var. Azərbaycanda yaşayan ukraynalılar, Ukraynada yaşayan azərbaycanlılar, əlbəttə ki, ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynayırlar. Eyni zamanda, mədəniyyətlə, təhsillə, turizm imkanlarının genişləndirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi aparıldı.

Mən bu danışıqlardan çox məmnunam, çox razıyam. Onlar çox konkret xarakter daşıyırdı. Nümayəndə heyətlərinin üzvləri hər bir konkret layihə haqqında arayışlar vermişlər, məruzələr söyləmişlər. Əminəm ki, müzakirə edilmiş hər bir məsələ ilə bağlı yaxın gələcəkdə konkret nəticələr olacaq.

Mən Prezidentlər Şurasının iclasını bütövlükdə çox yüksək qiymətləndirirəm və əminəm ki, gələcəkdə Ukrayna–Azərbaycan əlaqələri bu gün Bakıda müəyyən edilmiş istiqamətlər üzrə davam etdiriləcək.

Bir daha qeyd etmək istəyirəm ki, prezident Poroşenkonun Azərbaycana rəsmi səfəri ikitərəfli əlaqələrimizin indiki mərhələsində çox önəmli, çox ciddi siyasi addımdır. Əminəm ki, bu səfərin gözəl nəticələri gələcəkdə Ukrayna və Azərbaycan dövlətlərini, xalqlarını bir-birinə daha yaxın edəcəkdir.

Cənab Prezident, bir daha xoş gəlmisiniz və Sizə gözəl səfər arzulayıram.

## Ukrayna prezidenti Petro Poroşenkonun bəyanatı

Səmimi olaraq deyə bilərəm ki, bu səfər məndə çox böyük təəssürat oyadıb. Bakı qədim tarixi və müasirliyi özündə ehtiva edən bir şəhərdir. Şəhərin böyüklüyü Azərbaycan xalqının nə dərəcədə qüdrətli və böyük xalq olduğunu nümayiş etdirir. Mən dünən gecə yatmaq əvəzinə, Bakının küçələrini gəzdim, köhnə şəhərdə – İçərişəhərdə ekskursiyada oldum.

Bu gün burada Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevi xatırlamaya bilmərəm. Çünki müasir Azərbaycanın banisi məhz bu şəxs olmuşdur. Onun yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan bu gün bu dərəcədə çiçəklənən müasir ölkəyə çevrilib. O ölkəyə ki, onunla beynəlxalq müstəvidə hər kəs hesablaşır.

*Prezident Petro Poroşenko Azərbaycan və Ukrayna Prezidentləri Şurasının beşinci iclasının yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Ukrayna Prezidenti iqtisadi sahədə əməkdaşlığın perspektivlərinə toxunaraq dedi:*

– Düşünürəm ki, ən perspektivli layihələrdən biri – cənab Prezident də onu qeyd etdi – Azərbaycana AN-178 tipli təyyarələrin satışı olacaqdır. Burada – Azərbaycanda onların birgə istehsalının yaradılması da çox maraqlı bir layihədir. Düşünürəm ki, bu, yeni bazarların kəşfi üçün maraqlı bir layihə olacaqdır.

Biz yanacaq və energetika sahəsində əməkdaşlığımızı müzakirə etdik. Burada söhbət Azərbaycanın ehtiyatlarının və Ukraynanın tranzit ehtiyatlarının tətbiq edilməsindən gedir.

*Ukrayna dövlətinin başçısı iki ölkənin beynəlxalq təşkilatlarda əməkdaşlığından danışaraq qeyd etdi:*

– BMT Təhlükəsizlik Şurasında bizim əməkdaşlığımız çox vacibdir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmuşdur və orada da Ukrayna daim müdafiə edilmişdir. Mən Sizi əmin edə bilərəm ki, bu gün Ukrayna 2016–2017-ci illər üzrə həmin mövqedədir və Azərbaycanın mövqeyi orada müdafiə ediləcək. Bundan əlavə, biz Azərbaycanın GUAM təşkilatında sədrlik məsələsini və danışıqlar zamanı ölkələrimiz üçün digər maraqlı məsələləri də müzakirə etdik. Ölkələrimizin qarşılıqlı şəkildə suverenliyi və ərazi bütövlüyünün müdafiəsi məsələsini müzakirə etdik. Ukrayna Dağlıq Qarabağın statusu ilə bağlı Azərbaycanın mövqeyini dəstəkləyir və biz bilirik ki, Azərbaycan da Ukraynanın ərazi bütövlüyü məsələsində birmənalı mövqe tutur.

Prezidentlər Şurasının beşinci iclasının nəticələrini bir daha yüksək qiymətləndirirəm. Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə bu çox səmimi atmosferin yaradılmasına və yüksək səviyyədə danışıqların aparılmasına görə təşəkkürümü bildirirəm.

Cənab Prezident, Sizi növbəti iclasımızı ən yaxın gələcəkdə – ya bu ilin sonunda, ya da gələn ilin əvvəlində keçirmək üçün Ukraynaya dəvət edirəm. Təşəkkür edirəm.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*14 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından iyulun 14-də Ukrayna Respublikasının Prezidenti Petro Poroşenkonun şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

*Mərasimdə Ukrayna Prezidentinin ölkəmizə səfərinin münasibətlərimizin inkişafına təkan verəcəyi vurğulandı. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimizin perspektivlərinin müzakirəsi baxımından bu səfərin yaxşı imkan yaratdığı bildirildi. Müasir Azərbaycanın inkişafında ulu öndər Heydər Əliyevin xidmətləri və ümummilli liderin siyasi xəttinin prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi xüsusi qeyd olundu.*

*Dövlət başçıları ölkələrimiz və xalqlarımız arasında dostluq və əməkdaşlıq əlaqələrinin tarixi ənənələrə malik olduğunu vurğuladılar. Mərasimdə Bakıda gedən inkişaf proseslərinin Ukrayna nümayəndə heyətinin üzvlərində dərin təəssürat yaratdığı bildirildi.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Bu yaxınlarda Varşavada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşünü və ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi ilə bağlı danışmaq fürsəti əldə etdiklərini məmnunluqla vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini dedi. Prezident İlham Əliyev Türkiyənin Baş naziri Binəli Yıldırımın ilk xarici səfərini Azərbaycana etməsinin önəmini də qeyd etdi. Birgə layihələrin vaxtında icra olunmasına toxunan dövlətimizin başçısı Azərbaycan–Türkiyə birliyinin və dostluğunun getdikcə daha da möhkəmləndiyini və artıq bir çox sınaqlardan çıxdığını qeyd edərək bildirdi ki, xalqlarımız və digər ölkələr bu birliyin və qardaşlığın möhkəm və sarsılmaz olduğunu görürlər. Ölkələrimizin bundan sonra da bir-birinin yanında olacağını deyən prezident İlham Əliyev Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunun Azərbaycana bu səfərinin ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsi istiqamətində növbəti addım olacağına əminliyini ifadə etdi.*

*Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu prezident Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdırdı. O, prezident İlham Əliyevin NATO-nun Varşava Zirvə toplantısında iştirakının və keçirdiyi görüşlərin önəmini vurğuladı. Mövlud Çavuşoğlu Türkiyə*

*ilə Rusiya arasında əlaqələrin düzəlməsində verdiyi güclü dəstəyə görə ölkəsi və xalqı adından prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Türkiyənin Xarici İşlər naziri son vaxtlar Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan addımların yaxşı nəticələr verdiyini dedi və bu uğurların ölkəsində sevinclə qarşılandığını qeyd etdi. Türkiyə–Azərbaycan ikitərəfli münasibətlərinin mükəmməl olduğunu vurğulayan Mövlud Çavuşoğlu xüsusilə son 1 ildə əlaqələrimizin daha sıx şəkildə inkişaf etdiyini dedi.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş nazir Binəli Yıldırımın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## İSVEÇRƏ KONFEDERASİYASININ MALİYYƏ NAZİRİ ULRİX MAURERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də İsveçrə Konfederasiyasının Maliyyə naziri Ulrix Maurerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İsveçrə Konfederasiyasının Maliyyə naziri Ulrix Maurer ölkəmizə səfərinin məqsədi və keçirdiyi görüşlər barədə dövlətimizin başçısına məlumat verdi. İsveçrə–Azərbaycan münasibətlərinə toxunan qonaq Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İsveçrədəki fəaliyyətinin önəmini qeyd edərək, ölkələrimiz arasında mövcud olan yaxşı əlaqələrin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirdi.*

*Azərbaycan Respublikası ilə İsveçrə Konfederasiyası arasında çox səmərəli ikitərəfli əlaqələrin mövcudluğunu vurğulayan prezident İlham Əliyev bu əlaqələrin iqtisadi, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu dedi. Enerji sahəsində əməkdaşlığa toxunan dövlətimizin başçısı İsveçrə Konfederasiyasının TAP layihəsinə verdiyi dəstəyin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev İsveçrə şirkətlərinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində aktiv fəaliyyətini yüksək qiymətləndirdi.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB FRANSUA OLLANDA**

Hörmətli cənab Prezident!

Nitsa şəhərində törədilmiş dəhşətli terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi olduqca sarsıtdı.

Biz bu qəddarlıq əməlindən son dərəcə hiddətlənir, bütün dünya üçün dəhşətli bir bəlaya çevrilmiş terrorizmə qarşı mübarizə sahəsində qüvvələrin səfərbər olunmasını, birgə və qətiyyətli səylər göstərilməsini vacib və zəruri hesab edirik.

Bu ağır anlarda kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Fransa xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 iyul 2016-cı il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ XANIM TEREZA MEYƏ**

Hörmətli xanım Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin edilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlər bizim üçün xüsusi əhəmiyyət daşıyır. Bu mənada dostluq əlaqələrimizin gündən-günə genişlənməsi və dərinləşməsi məmnunluq doğurur. Azərbaycanın neft-qaz yataqlarının işlənməsi, enerji daşıyıcılarının hasilatı və onların dünya bazarlarına ixracı sahələrində ölkələrimizi təmsil edən şirkətlərin birgə səmərəli işi qarşılıqlı faydalı əməkdaşlığımızın göstəricisidir.

Ümidvaram ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq əlaqələrinin xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi üçün birgə səylər göstərəcəyik.

Hörmətli xanım Baş nazir, bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 iyul 2016-cı il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Ötən gecə Türkiyədə baş vermiş dövlət çevrilişinə cəhd ilə bağlı hadisələri böyük narahatlıqla və üzülərək izlədim. Bu bir tərəfdən, Türkiyənin dövlətçiliyinə, digər tərəfdən, Türkiyə xalqına, onun iradəsinə və seçiminə qarşı törədilən dəhşətli cinayətdir.

Həmişə Türkiyə xalqının və dövlətinin yanında olan Azərbaycan xalqı və dövləti Türkiyənin Konstitusiyasına, demokratiyasına qarşı yönəlmiş bu cinayəti qətiyyətlə pisləyir və qəbuledilməz hesab edir. Əminəm ki, Türkiyə xalqı və hakimiyyətinin birliyini nümayiş etdirərək, çevriliş cəhdinin qarşısının alınması istiqamətində həyata keçirdiyiniz qəti tədbirlər nəticəsində qardaş ölkədə vəziyyət qısa zamanda sabitləşəcək və əvvəlki qaydasına düşəcəkdir.

Əziz qardaşım, mən dövlət çevrilişi cəhdinin qarşısının alınması üçün canlarını verən şəhidlərin ailələrinə və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2016-cı il*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı – Kralın Andiçmə Günü münasibətilə Sizə və Sizin simanızda bütün belçikalılara şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Belçika xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyul 2016-cı il*

## RİO DE JANEYRODA KEÇİRİLƏCƏK XXXI YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK EDƏCƏK AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN RƏSMİ YOLASALMA MƏRASİMİNDƏ İŞTİRAK

*18 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev iyulun 18-də Braziliyanın Rio de Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəsmi yolasalma mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz dostlar!

Bildiyiniz kimi, avqustun 5-də Rio de Janeyroda XXXI Yay Olimpiya və Paralimpiya oyunları keçiriləcək. Bu gün bu rəsmi mərasimdə biz idmançıları oyunlara yola salırıq, onlara uğurlar arzulayırıq. Əminəm ki, həm olimpiyaçılar, həm paralimpiyaçılar ölkəmizi ləyaqətlə təmsil edəcəklər və Vətənə böyük qələbə ilə qayıdacaqlar.

Bu oyunlarda Azərbaycan olimpiya komandası böyük heyətlə – 56 idmançı ilə iştirak edəcək. Lisenziyaların sayı isə 57-dir. Bu, keçən Yay Olimpiya oyunlarından çoxdur. Biz London Yay Olimpiya oyunlarında 53 idmançı ilə iştirak etmişik və bildiyiniz kimi, böyük qələbə – 10 medal qazanmışıq, onlardan 2-si qızıl medaldır. Bu dəfə isə daha da böyük heyətlə iştirak edəcəyik və əlbəttə ki, yaxşı nəticələr gözləyirik. Bunu deməyə əsas var. Çünki idmançılarımız son 4 il ərzində müxtəlif beynəlxalq yarışlarda,

dünya və Avropa çempionatlarında bizi sevindiriblər, ölkəmizin şöhrətini ucaldıblar və müxtəlif yarışlardan Vətənə böyük qələbələrlə qayıdıblar. Əminəm ki, Rio de Janeyroda da idmançılarımız vətənpərvərlik, peşəkarlıq, əzmkarlıq göstərərək, ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

Azərbaycan idman dövlətidir. Bunu bütün dünya, idman ictimaiyyəti qəbul edir, bilir. Azərbaycanda idmanla, olimpiya hərəkatı ilə bağlı məqsədyönlü siyasət aparılır. Məhz bu siyasət nəticəsində biz bu gün bu uğurlar haqqında danışa bilərik. Düşünülmüş siyasət, məqsədyönlü işlər idmanı Azərbaycanda, cəmiyyətdə önəmli bir ictimai amilə çevirib. Bu gün idmançılara cəmiyyətdə çox böyük hörmət var. İdmançılar cəmiyyətdə layiqli yer tutublar. İdmanla məşğul olmaq istəyənlərin sayı getdikcə artır. Bunun əsas səbəbi idmançılarımızın uğurlarıdır və idmançılara göstərilən dövlət qayğısıdır. İdmançıların bütün problemləri öz həllini tapır. Artıq 20 ilə yaxındır ki, hər il ənənəvi olaraq, idmançılara, idman mütəxəssislərinə, veteranlara dövlət tərəfindən mənzillər verilir. Hər il 20–30 mənzil verilir.

Azərbaycanda idman infrastrukturu yaradılır. Son illər ərzində bölgələrdə 40-dan çox Olimpiya İdman Mərkəzi yaradılıb, tikilib. Bakıda isə idman infrastrukturu ən yüksək səviyyədədir. Təkcə son 1-2 il ərzində bir neçə gözəl, möhtəşəm idman obyekti istifadəyə verilib – Milli Gimnastika Arenası, Bakı Olimpiya stadionu, Beynəlxalq Atıcılıq Mərkəzi, Su İdmanı Sarayı. Bu idman obyektləri eyni zamanda, gözəl memarlıq əsərləridir. Bu binalar, bu qurğular Bakını daha da gözəlləşdirir. Onların ətrafında böyük abadlıq, təmizlik işləri aparılıb. Bakı Olimpiya stadionunun ətrafı ekoloji fəlakət zonası idi. Bir tərəfdən, bataqlıq, digər tərəfdən, Böyükşor gölü ekoloji təhlükə mənbəyi idi. Bütün o ərazilər təmizləndi, neftlə və digər tullantılarla çirklənmiş torpaqlar oradan çıxarıldı, böyük abadlıq işləri aparıldı. Böyükşor gölünün bir hissəsi tamamilə təmizləndi, 1 kilometr uzunluğunda yeni bulvar, parklar salındı. Su İdmanı Sarayının ətrafı da əvvəllər neft mədənləri idi. Onlar da oradan götürüldü, təmizləndi. Bu gün Su

İdmanı Sarayının ətrafında 10 hektarlarla ölçülən gözəl park salınıb və Bakı vətəndaşları bu imkanlardan istifadə edirlər.

Biz bu işləri görərkən bir neçə məqsədi güdürdük. Avropa oyunlarının keçirilməsi üçün Bakıya yeni idman obyektləri lazım idi. Eyni zamanda, ekoloji məsələlər də öz həllini tapdı, şəhərimizin gözəlləşməsi, abadlaşması daha da sürətlə getdi.

İdman infrastrukturunun xüsusilə regionlarda yaradılması imkan verir ki, bölgələrdə yaşayan uşaqlar, gənclər idmanla məşğul olsunlar. Mən bütün regional olimpiya mərkəzlərinin açılışlarında şəxsən iştirak etmişəm və demişəm – əsas vəzifə ondan ibarətdir ki, biz idmanın kütləviliyini təmin edək. Əlbəttə, bizə qələbələr, çempionlar lazımdır və bu bizdə var. Amma eyni zamanda, bizə sağlam gənclər, sağlam millət lazımdır. İdmanla məşğul olan uşaq, yeniyetmə fiziki cəhətdən sağlam olur. Eyni zamanda, yüksək mənəvi keyfiyyətlərə də malik olur.

Bizim qabaqcıl, görkəmli idmançılarımız bütün idmançılar üçün nümunədir. Çünki onlar həm idmanda böyük uğurlar qazanıblar, həm də onların hamısı vətənpərvər gənclərdir, çempionlarımız cəmiyyətdə də özlərini çox ləyaqətlə aparırlar. Bu bir yeni davranış nümunəsidir. Uşaqlar, yeniyetmələr, idmanla məşğul olmaq istəyənlər də sizə – burada əyləşən idmançılara oxşamalıdırlar. Onlar görürlər ki, əgər sən idmanda böyük uğur əldə etmisənsə, cəmiyyətdə özünü ləyaqətlə aparırsansa öz həyatını ləyaqətlə qura bilərsən. Ona görə son illər idman bölmələrinə müşahidə olunan kütləvi axın bu səbəblərdən qaynaqlanır. Bu məni çox sevindirir. Çünki bizim gənclər idmanla nə qədər çox məşğul olsalar, onlar üçün də, dövlət üçün də bir o qədər yaxşı olacaq. İdmanla məşğul olanlar vətənpərvər insanlardır. İdman qələbələri hər bir vətənpərvər Azərbaycan vətəndaşını sevindirir. Hər dəfə biz beynəlxalq yarışlarda görəndə ki, bizim bayrağımız qaldırılır, ürəyimiz fərəhlə dolur. Bu sevinc anlarını bizə idmançılar yaşadır. Əminəm ki, gələcək yarışlarda idmançılar yenə də qələbə qazanacaqlar, Azərbaycan xalqını sevindirəcəklər.

Ölkəmizdə bir qayda olaraq, beynəlxalq idman yarışları keçirilir. Biz bunu artıq neçə ildir müşahidə edirik. İldən-ilə bu yarış-

ların sayı da artır, səviyyəsi də yüksəlir. Bu gün dünya, Avropa çempionatlarının Azərbaycanda keçirilməsi adi hala çevrilib. Əgər əvvəlki illərdə, xüsusilə 2000-ci illərin əvvəllərində hansısa gənclər və yaxud da yeniyetmələr arasında Avropa və ya dünya çempionatı keçirilirdisə və biz bundan fərəhlənirdiksə, bu gün dünya çempionatları, Avropa çempionatları, Olimpiya oyunlarına təsnifat turnirləri, müxtəlif digər beynəlxalq yarışlar Azərbaycanda, demək olar ki, ildə bir neçə dəfə keçirilir. Bu, beynəlxalq idman aləmi tərəfindən bizə göstərilən böyük hörmətdir.

Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi Azərbaycanda idman sahəsində görülən işlərə çox yüksək qiymət verir. Bir məsələni də vurğulayırlar və siz də bunu yaxşı bilirsiniz ki, Azərbaycanda idmanla bağlı dövlət siyasəti aparılır. İdmana cavabdehlik daşıyan bütün qurumlar bir komanda kimi fəaliyyət göstərir və bizim uğurlarımızın təməlində məhz bu birlikdir. Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, klublar bir məqsədi güdür ki, Azərbaycanda idman inkişaf etsin, Azərbaycan idmançıları beynəlxalq yarışlarda həmişə yüksək pillələrdə olsunlar.

Bu gün mən deyəndə ki, Azərbaycan idman dövlətidir, bax, bunu bu səbəblərə görə deyirəm. Birincisi, bizdə ən müasir idman infrastrukturu yaradılıb və bu infrastruktur imkan verir ki, biz bütün ən yüksək səviyyəli oyunları keçirək. Avropa oyunlarının Azərbaycanda keçirilməsi bunun əyani sübutudur. İkincisi, Azərbaycan idmançıları müxtəlif yarışlarda, Olimpiya oyunlarında, dünya çempionatlarında, Avropa çempionatlarında, yeniyetmələrin Olimpiya oyunlarında həmişə yüksək pillələrdədir. İdmanın inkişafı və kütləviliyi ilə bağlı da çox düşünülmüş, ardıcıl siyasət aparılır və bu siyasət özünü artıq dəfələrlə göstərmişdir. Ona görə əminəm ki, gələcək illərdə də beynəlxalq idman qurumları Azərbaycana həmişə böyük hörmətlə yanaşacaqlar. Biz də çalışacağıq ki, Azərbaycan idman dövləti kimi, gələcəkdə də özünü göstərsin və öz imkanlarını ortaya qoysun.

Mən qeyd etdim ki, Bakıda artıq bir neçə mötəbər beynəlxalq yarış keçirilib. Onların arasında Avropa oyunları xüsusi yer tutur. Çünki bu, tarixdə ilk dəfə keçirilən oyunlar idi. Başqa qitələrdən fərqli olaraq, nədənsə Avropada qitə oyunları heç vaxt keçirilməmişdi və Avropa Olimpiya Komitəsi həmin təşəbbüsü irəli sürəndə bu heç də bütün Olimpiya komitələri tərəfindən birmənalı qarşılanmamışdır. Bildiyiniz kimi, bu oyunların keçirilməsi üçün o qədər böyük maraq da müşahidə edilmirdi. Çünki birincisi, bu, yeni bir təşəbbüs idi. İkincisi, bu oyunların keçirilməsi üçün görüləcək işlər haqqında heç kimdə təsəvvür yox idi. Azərbaycan burada da liderlik keyfiyyətlərini ortaya qoydu. Biz dedik ki, buna hazırıq və hazır ola bilərik. Baxmayaraq ki, oyunların hazırlanmasına cəmi 2 il vaxtımız var idi. Olimpiya oyunlarının hazırlanmasına 7-8 il vaxt verilir. Bu dəfə isə cəmi 2 il ərzində biz bu oyunları keçirməli idik. Ancaq biz əmin idik ki, bu şərəfli işin öhdəsindən gələcəyik. Çünki Azərbaycan güclü dövlətdir. Artıq o vaxt da bizim güclü idman infrastrukturumuz var idi və təşkilatçılıq qabiliyyətimiz yüksək səviyyədə idi. Ona görə biz öz namizədliyimizi irəli sürdük və böyük səs çoxluğu ilə Azərbaycan bu şərəfli missiyanı öz üzərinə götürdü.

Hamımız yaxşı xatırlayırıq, bu oyunlar 1 il bundan əvvəl keçirilib. Bu oyunlar doğrudan da Yay Olimpiya oyunları səviyyəsində keçirilmiş, 6 min idmançı iştirak etmiş, minlərlə qonaq Azərbaycanla tanış olmuşdur. Bu oyunlar Avropada və digər qitələrdə televiziya vasitəsilə göstərilmişdir. Bütün dünya bir daha gördü ki, Azərbaycan inkişaf etmiş, müasir, gözəl ölkədir. Gördülər ki, bu gözəl ölkənin çox güclü idmançıları var. Avropa oyunları bizim tarixi nailiyyətimizdir, tarixi qələbəmizdir. Bu, Azərbaycan idmanının və Azərbaycan dövlətinin zəfəridir. Çünki bu oyunları qısa müddət ərzində ən yüksək səviyyədə keçirdik. Bu oyunları Azərbaycanda çoxsaylı qonaqlar, Beynəlxalq Olimpiya Komitəsinin üzvlərinin əksəriyyəti izləmişdir.

Digər tərəfdən, idmançılarımız tarixi qələbə qazanmış, komanda hesabında ikinci yeri tutmuşlar. Qazanılan 56 medaldan 21-i qızıldır və bu da tarixi nailiyyətdir. Mən həmişə deyirəm, əslində

biz birinci yerdə idik. Çünki Avropada Rusiya komandası ilə heç bir komanda rəqabət apara bilməz. Rusiya komandası böyük fərqlə, təbii ki, birinci yerdə idi. Ancaq ondan sonra Azərbaycan ikinci yerdə qərarlaşmışdır və bu doğrudan da bizim böyük qələbəmizdir. Biz hamımız o gözəl günləri xatırlayırıq. Bütün cəmiyyət bir daha birləşmiş, hər bir vətənpərvər insan bu oyunları qürur hissi ilə izləmiş, idmançılarımızın qələbələrinə sevinmişdir.

Avropa oyunları tarixdə qaldı. Onu da qeyd etməliyəm ki, mənə çatan məlumatlara görə, bəzi ölkələr indi bir az ehtiyat edirlər. Deyirlər ki, bu oyunları Azərbaycanın keçirdiyi səviyyədə keçirə bilmərik. Ona görə bir qədər ehtiyat edirlər, hələlik növbəti yerin adı açıqlanmır ki, oyunlar harada keçiriləcək.

Biz isə öz yolumuzla gedirik. Biz öz gücümüzü göstərdik. Bir daha göstərdik ki, güclü dövlətin güclü insanları, güclü idmançıları var. Bu gün Azərbaycan artıq dünya miqyasında çox gözəl, inkişafda olan ölkə kimi tanınır. Bildiyiniz kimi, keçən ay Azərbaycanda ilk dəfə olaraq «Formula-1» yarışı keçirildi. Bu yarış beynəlxalq reytinqə görə Yay Olimpiya oyunlarının və futbol üzrə dünya çempionatının səviyyəsində olan yarışdır. Bunun tamaşaçı auditoriyası 500 milyon insandır və 500 milyon insan Bakının gözəlliyini seyr etdi.

Bu yarışın Azərbaycanda keçirilməsi, əlbəttə ki, bizim tarixi nailiyyətimizdir, bir daha ölkəmizin gücünü göstərir. Bakı «Formula-1» yarışlarının keçirildiyi 21-ci yerdir. 20 şəhərdə keçirilib və Bakı 21-ci şəhərdir. Əgər o şəhərlərin siyahısına nəzər salsanız görərsiniz ki, bu şəhərlər inkişaf etmiş şəhərlərdir. Bakı da o sıradadır. Bizim istəyimiz o idi ki, oyunlar şəhərin küçələrində keçirilsin. Bu da yarışlara əlavə gözəllik verir və bütün dünya Bakının gözəlliyini görəcək. Biri var, stadionda – bu halda, hansı şəhərdə keçirildiyi bəlli olmur – biri də var ki, şəhərimizin mərkəzi küçələrində keçirilsin. Mənə çatan çoxsaylı məlumatlara görə, artıq Bakı turizm mərkəzinə çevriləcəkdir. Biz bunu artıq görürük. «Formula-1» yarışı Azərbaycanın turizm potensialının inkişafında xüsusi rol oynayacaq. Artıq biz bunu müşahidə edirik. Bakıya gələnlərin, şəhərimizi, ölkəmizi tanıyanların sayı artır. Onların

çoxu Bakıya ilk dəfə gəlirlər. Onlar görürlər ki, Bakı necə gözəl, necə inkişaf etmiş şəhərdir.

Bu il Bakıda Dünya Şahmat Olimpiadası keçiriləcək. Gələn il İslam Həmrəyliyi oyunları keçiriləcək. Bu, ölkəmizin potensialını göstərir və ölkəmizin dünyada oynadığı rolu da artıq nümayiş etdirir. 2015-ci ildə Avropa, 2017-ci ildə İslam oyunlarının keçirilməsi ölkəmizin nadir şəraitini əks etdirir. Bildiyiniz kimi, bu il Azərbaycanda «Multikulturalizm ili»dir. Multikulturalizmi ən yaxşı formada təcəssüm etdirən bu iki oyundur – Avropa və İslam oyunları.

Budur bugünkü Azərbaycan reallıqları. Azərbaycan bu gün sivilizasiyalararası dialoqda xüsusi rol oynayır. Bu il Bakıda BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilmişdir. Ölkəmizi bu gün çox tolerant, müasir, inkişafda olan ölkə kimi tanıyırlar. Artıq dünya ictimaiyyəti bilir ki, Azərbaycanda bütün millətlərin, bütün xalqların nümayəndələri bir ailə kimi, dostluq, ləyaqət içində yaşayırlar. Bu bizim böyük sərvətimizdir. Avropa və İslam oyunlarının Bakıda keçirilməsi yenə də bu məqsədi güdür. Çünki bu gün dünya miqyasında bizim rolumuz artır. Azərbaycan kimi ölkələr bu gün dünyada daha da böyük rol oynayır. Biz öz təcrübəmizi bölüşürük. Azərbaycan 25 il ərzində böyük və şərəfli yol keçib. Biz cəmi 25 ildir ki, müstəqil dövlətik. Amma baxın, biz hansı zirvələrə çatmışıq?!

Bu gün Azərbaycan inkişaf edən ölkədir. Azərbaycanda bütün xalqların nümayəndələri bir ailə kimi yaşayır. Biz öz hesabımıza yaşayırıq. Dünyada baş verən böhranlara baxmayaraq, inkişaf yolumuzla gedirik. Həm 2008–2009-cu illərin, həm də 2015–2016-cı illərin böhranı bizim işimizə o qədər də böyük təsir etməyib. Nəyə görə? Çünki xalqla iqtidar vəhdət təşkil edir. Ona görə ki, cəmiyyətdə ölkəmizin inkişafı ilə bağlı fikir ayrılığı yoxdur. Ona görə ki, biz öz hesabımıza yaşayırıq, iqtisadi və siyasi cəhətdən müstəqilik, müstəqil siyasət aparırıq. Bu, ləyaqətli Azərbaycan xalqının maraqlarına əsaslanan siyasətdir və bütün dünyaya açığıq. Ona görə bizim dünyadakı dostlarımızın sayı artır.

Bizə olan hörmət də artır. Bizimlə əməkdaşlıq etmək istəyənlərin sayı da artır.

Biz öz yolumuzla gedirik. İdman uğurları ölkəmizin uğurlarının tərkib hissəsidir. Ancaq güclü dövlətlərdə güclü idman var. Olimpiya oyunlarının nəticələrinə baxın, hansı komandalar birinci yerlərdədir. Onların böyük əksəriyyəti inkişaf etmiş ölkələrin komandalarıdır. Yəni idmanı ümumi inkişafdan ayırmaq olmaz. Ona görə Azərbaycan idmanının inkişafı ümumi inkişafımızın təzahürüdür. Əgər bizdə iqtisadi, maliyyə müstəqilliyi olmasaydı və biz iqtisadi cəhətdən inkişaf etməsəydik, idmanın inkişafına istədiyimiz səviyyədə vəsait qoya bilməzdik. Amma bu gün bir daha demək istəyirəm ki, Azərbaycan inamla, uğurla inkişaf edir, 2016-cı ildə də qarşıda duran bütün vəzifələr icra edilir. Azərbaycan bölgədə təhlükəsizlik, sabitlik və inkişaf məkanıdır. Əminəm ki, bizim rolumuz həm bölgədə, həm dünyada getdikcə artacaq.

Əziz idmançılar, siz bir neçə gündən sonra yola düşəcəksiniz. Hər bir idman yarışı bir sınaqdır. İdman yarışında qələbə də olur, məğlubiyyət də. Heç kim məğlubiyyətdən sığortalanmayıb. Əsas odur, həmişə yadda saxlayasınız ki, bütün Azərbaycan xalqı sizin qələbələrinizi gözləyir. Sizə uğurlar arzulayır və əmindir ki, siz Vətəni ləyaqətlə təmsil edəcəksiniz, Azərbaycana böyük qələbə ilə qayıdacaqsınız. Sizə yaxşı yol arzulayıram. Sağ olun.

* * *

**A z a d  R ə h i m o v** (*Gənclər və İdman naziri*): Möhtərəm cənab Prezident!

Hörmətli qonaqlar, əziz idmançılar!

Bu gün müstəqil Azərbaycanın olimpiya hərəkatının ən əlamətdar günlərindən biridir. Uzaq Braziliyada ölkəmizi təmsil edəcək olimpiyaçılarımız gələn həftə Rio de Janeyro şəhərinə yola düşəcəklər. Hər Olimpiya oyunlarından əvvəl idmançılarımızın ən yüksək səviyyədə – dövlət başçısı tərəfindən qəbul edilməsi ənənə halı alıb.

Olimpiya komandamızın belə təntənəli şəkildə yola salınmasının təşəbbüskarı ümummilli lider Heydər Əliyev olub. Müstəqilliyimizin ilk illərində, xalqın və dövlətin çətin günlərində hakimiyyətə gələn ulu öndərimiz idmançıları unutmamış, onlara qayğının əsasını qoymuşdur. Ümummilli liderimiz həmişə idmançılarımıza böyük etimad göstərmiş və onların uğurlarını yüksək qiymətləndirmişdir.

Təsadüfi deyil ki, 1996-cı ilin avqustunda olimpiyaçılarımızı Atlantaya yola salarkən, ulu öndər Heydər Əliyev xeyir-dua verərək demişdi: «Olimpiya oyunlarında, sadəcə olaraq, iştirak etmək özü böyük bir hadisədir. İştirak edib hansısa bir yer tutmaq bundan da böyük bir hadisədir və nailiyyətdir».

Çox sevindirici haldır ki, ümummilli liderimizin bu sözlərini və tövsiyələrini daim xatırlayan idman ictimaiyyətimiz onun etimadını doğrultmaq üçün iştirak etdikləri hər Olimpiya oyunlarında daha böyük uğur qazanmağa çalışırlar. Qazanılan uğurlar isə göz qabağındadır.

Azərbaycan idmançılarının XXXI Yay Olimpiya oyunlarına ilkin hazırlığı, demək olar ki, London Yay Olimpiya oyunları başa çatdıqdan sonra, 2013-cü ildən başlanıb və hazırlıq prosesi müvafiq konsepsiya üzrə davam etdirilib. Uzun müddətdir ki, davam edən hazırlıq prosesi, cənab Prezident, Sizin 2015-ci il 12 avqust tarixli müvafiq Sərəncamınızla daha da sürətlənib.

Hazırlığın bütün mərhələlərində müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi, eləcə də qarşıya qoyulmuş məqsədlərə nail olunması təmin edilib. Belə ki, 2013–2015-ci illərdə və 2016-cı ilin 6 ayı ərzində idmançılarımız 1000-dən artıq rəsmi və qeyri-rəsmi beynəlxalq yarışlarda iştirak edərək, ümumilikdə 2723 medal əldə etmişlər ki, bunlardan da 1042-si olimpiya idman növlərinə aiddir.

Bu gün Azərbaycan dünyanın idman ölkələrindən biri kimi, nüfuzlu idman tədbirlərinə ev sahibliyi edir. Ötən il Bakıda möhtəşəm şəkildə keçirilən ilk Avropa oyunları bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. İdmanın 20 növündən 12-si üzrə keçirilən yarışlar «Rio–2016» Olimpiadasına təsnifat xarakteri daşıyırdı.

Əlbəttə, Azərbaycanın 50 Avropa ölkəsi arasında medal sayına görə 2-ci yer qazanması, ən yüksək standartlara cavab verən idman infrastrukturunu, eyni zamanda, mötəbər tədbirlərin təşkilində bacarığını nümayiş etdirməsi sevindirici haldır. Xalqın birliyi, vahid ideya ətrafında birləşmə bacarığı və idmançılarına sonsuz inamı sevindirici hal olmaqla yanaşı, eyni zamanda, həm də qürurverici idi.

İlk Avropa oyunlarından irs olaraq xalqımıza qalan maddi-texniki bazanın imkanlarından Azərbaycan idmançılarının Olimpiadaya hazırlığı prosesində səmərəli istifadə olunub. Avropa oyunları ərəfəsində yeni inşa edilən, eləcə də yenidən qurulan idman obyektləri idmançılarımızın təlim-məşq prosesi ilə yanaşı, dünya və Avropa çempionatlarının, nüfuzlu beynəlxalq yarışların Bakıda daha mükəmməl təşkili üçün geniş imkanlar yaradır.

2016-cı il iyunun 17–19-da ölkəmiz daha bir mötəbər idman yarışına ev sahibliyi edib. Bakıda ilk dəfə «Formula-1» üzrə dünya çempionatının 8-ci mərhələsi olan Avropa Qran-prisi təşkil olunub.

Qarşıda isə bizi daha bir möhtəşəm idman bayramı – 57 müsəlman dövlətinin təmsil olunacağı IV İslam Həmrəyliyi oyunları gözləyir. Bu cür müxtəlifliyin idman vasitəsilə məhz Azərbaycanda bir araya gələrək, öz təzahürünü tapması ölkəmizin multikulturalizm dəyərlərinə sadiqliyinin əyani sübutudur.

Təqvim planına əsasən, cari ilin 6 ayı ərzində ölkəmizdə 94 respublika, 24 beynəlxalq səviyyəli tədbir keçirilib, 102 beynəlxalq tədbirdə, 100 təlim-məşq toplanışında yığma komandalarımızın iştirakı təmin edilib. İdmançılarımız bu yarışlarda uğurla çıxış edərək, 313 medal əldə ediblər ki, bu medalların da 171-i olimpiya idman növlərinin payına düşür.

Sevindirici haldır ki, artıq bir sıra beynəlxalq yarışlar təkcə Bakıda deyil, ölkəmizin müxtəlif bölgələrində də keçirilir.

Bölgələrdə təşkil edilən belə beynəlxalq yarışlar son illər ölkəmizin regionlarında inşa edilmiş müasir olimpiya idman kompleksləri sayəsində mümkün olur. Artıq ölkəmizdə 41 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. Son dövrlərdə ölkədə tikilib istifadəyə verilən və geniş bir şəbəkəni əhatə edən bu idman

qurğuları idman sahəsində nəticələrimizin ildən-ilə artmasına, bədən tərbiyəsinin kütləvi inkişafına, Olimpiadaya hazırlıq işinin sürətləndirilməsinə şərait yaradıb. Elə bunun nəticəsidir ki, indi olimpiya yığma komandamızın tərkibində ölkəmizi təkcə Bakı şəhərinin deyil, həm də Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Lənkəran, Astara, Balakən, Qəbələ və digər rayon və şəhərlərimizin idmançıları da təmsil edirlər.

Hörmətli tədbir iştirakçıları, London Olimpiadasından ötən dövr ərzində Azərbaycan idmançıları Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və respublika idman federasiyaları tərəfindən mütəmadi şəkildə dünya və Avropa çempionatlarına ezam edilib, bu yarışlardan Vətənə uğurlu nəticələrlə dönüblər. Bu göstəricilər həm medalların nisbətində, həm də ötən Olimpiya oyunları ilə müqayisədə əldə olunmuş lisenziyaların fərqində öz əksini tapıb.

Müqayisə üçün deyə bilərik ki, olimpiya idman növləri üzrə qazanılmış medalların sayında da dinamik inkişaf müşahidə olunur.

Xüsusilə qeyd etmək istərdim ki, London Olimpiya oyunlarında Azərbaycan 53 lisenziya qazanaraq, 16 idman növündə təmsil olunurdusa, Rio Yay Olimpiya oyunlarında olimpiya yığma komandamız daha geniş tərkibdə – 18 idman növündə 57 lisenziya ilə təmsil olunacaq. Sevindirici haldır ki, ötən Olimpiya oyunları ilə müqayisədə 4 idman növü artıq olacaq. Azərbaycan triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində ilk dəfə təmsil olunacaq.

Rio Olimpiadasında ölkəmizi təmsil edəcək 56 idmançıdan 36-sı ilk dəfə Olimpiya oyunlarının iştirakçısı olacaq. Komandamız daha geniş beynəlmiləl tərkibə malikdir və əsasən titullu idmançılardan ibarətdir. Onların əksəriyyəti nüfuzlu beynəlxalq idman yarışlarında lisenziya qazanmaqla yanaşı, eyni zamanda, həmin yarışların qalibi olaraq, dünya və Avropa çempionları adına layiq görülüb.

Rio de Janeyroda Azərbaycanı güləş, gimnastika və boks olmaqla, 3 hakim təmsil edəcək. Bundan başqa, idmançılarımızı 34

məşqçi, 6 həkim, fizioterapevtlər, texniki işçilər və digərləri müşayiət edəcəklər.

Möhtərəm cənab Prezident, artıq XXXI Yay Olimpiya oyunlarında Azərbaycan yığma komandasının iştirakı ilə bağlı bütün hazırlıq işləri başa çatır. Gənclər və İdman Nazirliyinə hazırlıq prosesinin yüksək səviyyədə aparılması, təlim-məşq toplantıları, tibbi-bioloji xidmətin göstərilməsi, idmançıların lisenziya xarakterli beynəlxalq yarışlarda iştirakının təmin edilməsi və s. üçün dövlət büdcəsindən 8 milyon manatdan artıq vəsait ayrılıb. Müqayisə üçün deyim ki, 2012-ci il London Olimpiadasına büdcədən bu məqsədlər üçün 6 milyon manata yaxın vəsait xərclənib.

Bundan başqa, Milli Olimpiya Komitəsi, müvafiq federasiyalar və idman cəmiyyətləri tərəfindən hazırlıq prosesinin ardıcıl, planlı və mütəşəkkil aparılması üçün lazımi kömək göstərilib. Digər təşkilati məsələlər – akkreditasiya, nəqliyyat, tibbi ləvazimat, idman geyimləri və xüsusi geyimlər kimi məsələlər də həll olunub. İdman nümayəndə heyətinin Rio de Janeyro şəhərinə birbaşa və rahat şəkildə avqustun 1-də aparılması və avqustun 22-də Vətənə qayıtması üçün xüsusi çarter reysləri ayrılıb.

Son zamanlar dünya ictimaiyyətini narahat edən «Zika» virusundan idmançılarımızı qorumaq məqsədilə İdman Tibb Diaqnostika və Reabilitasiya İnstitutuna içərisində ağcaqanad əleyhinə sprey, kremlər və s. tibbi ləvazimatlar olan 100-dən çox çanta sifariş olunub. Onlar idmançılara və nümayəndə heyətinin digər üzvlərinə paylanacaq.

Azərbaycan komandasının olimpiya kəndində salamlanması və bayrağımızın qaldırılması mərasimi avqustun 3-də keçiriləcəkdir.

Möhtərəm cənab Prezident, biz olimpiyaçıları və paralimpiyaçıları Sizin xeyir-duanızla böyük ümidlərlə yola salırıq!

İnanırıq ki, onlar Sizin yüksək diqqət və qayğınızı, xalqımızın inamını doğruldacaq, son ana qədər əzmkarlıqla mübarizə apararaq, himnimizi səsləndirəcək və müqəddəs bayrağımızı yüksəklərə qaldıracaqlar.

Diqqətinizə görə təşəkkür edirəm.

**A k i f  Ə l i y e v** (*Yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandasının məşqçisi*): Möhtərəm cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Uzun müddətdir ki, belə bir ənənə – Azərbaycan yığma komandasının heyətinin Olimpiya oyunlarına yola salınması ənənəsi davam edir. Bu ənənənin əsasını qoyan ulu öndər Heydər Əliyevin verdiyi tövsiyələr, onun xeyir-duası idmançılarımızın bu yarışlarda şanlı qələbələr qazanmalarına daim kömək olub.

Möhtərəm cənab Prezident, biz bu gün böyük sevinc içindəyik. Ona görə sevinirik ki, planetin ən böyük yarışında biz də iştirak edəcəyik. Bir də ona görə fərəhlənirik ki, bu yarışda iştirak üçün xeyir-duanı Sizdən alırıq. Bu bizim üçün çox önəmlidir. Əminik ki, Sizin xeyir-duanız bizi qələbələrə doğru aparacaq.

Həmin inamın təməlini ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Sizin 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra bütün ölkə boyu həyata keçirdiyiniz siyasət, bu siyasətdə idmanın və olimpiya hərəkatının mühüm yer tutması qoyub. Məhz həmin dövrdən başlanan uğurlarımız London Olimpiya oyunlarında Azərbaycan milli komandasının 10 medal qazanması ilə nəticələnib və Olimpiadadan ötən dövr ərzində neçə-neçə qələbələrlə davam etməkdədir.

Hörmətli cənab Prezident, belə möhtəşəm fəaliyyətə görə Sizə Azərbaycanın idman ictimaiyyəti və mütəxəssisləri adından dərin təşəkkürümü bildirirəm.

Məlumdur ki, Olimpiya oyunlarında iştirak etmək hüququ verilmir. Bu hüquq gərgin iş, inadlı zəhmət sayəsində qazanılır. Burada əyləşən hər bir idmançı bu hüququ alın təri, yüksək peşəkarlıq, əzmkarlığı sayəsində əldə edib. Bu müvəffəqiyyət biz məşqçilər üçün də dəyərlidir. Deməli, bizim zəhmətimiz hədər getməyib. Bu müvəffəqiyyət həm də Azərbaycan Milli Olimpiya Komitəsinin, Gənclər və İdman Nazirliyinin respublikanın idman federasiyaları ilə birgə məqsədyönlü, səmərəli fəaliyyətinin bəhrəsidir. Olimpiya oyunlarına hazırlığın ilk günlərindən tərtib edilən proqram və bu hazırlığın düzgün istiqamətdə aparılması, təlim-məşq toplanışlarının yüksək səviyyədə təşkili, yarışlara vaxtında

ezamiyyətlər, bir sözlə, hər kiçik detala, problemə həssaslıqla yanaşılması bugünkü uğurumuzun əsasını qoyub.

Bütün bu dövr ərzində həm idmançılarımız, həm də idman sahəsində çalışan hər bir insan Sizin, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın diqqət və qayğısını hiss edib. Bu isə qarşısına böyük hədəflər qoyan insanlar üçün çox önəmlidir.

Olimpiya oyunlarına yola düşəcək idman heyəti adından göstərilən diqqətə, qayğıya görə Sizə bir daha təşəkkür edirəm.

Braziliya səması altında startlar Azərbaycan Respublikası idmançılarının müstəqil komanda şəklində Olimpiya oyunlarında ilk çıxışlarının 20-ci ilinə təsadüf edəcək. 20 il əvvəl sərbəst güləş ustası Namiq Abdullayevin gümüş medalı müstəqil Azərbaycanın ilk olimpiya mükafatı kimi, necə böyük əks-səda doğurmuşdusa, inanıram ki, Rio de Janeyroda keçiriləcək XXXI Yay Olimpiya oyunlarında da Azərbaycan idmançılarının şanlı qələbələri Vətənimizin idman tarixində elə silinməz izlər qoyacaq.

Möhtərəm cənab Prezident, Sizi əmin edirik ki, göstərdiyiniz etimadı idmançılarımız nailiyyətləri ilə doğruldacaqlar. Diqqətinizə görə təşəkkür edirəm.

**İlham Zəkiyev** (*paralimpiyaçı*): Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları, əziz idmançılar!

Biz hazırda XV Yay Paralimpiya oyunlarının astanasındayıq. Bu çox məsuliyyətli günü biz çoxdan gözləyirdik və bu günə hazırlaşırdıq.

Azərbaycanda paralimpiya hərəkatının təməlini ümummilli lider Heydər Əliyev qoyub. İdmanın bu sahəsinin inkişafı, cənab Prezident, Sizin adınızla bağlıdır. Paralimpiya oyunlarında qazandığımız qələbələr, idmançılarımızın uğurları Sizin idman siyasətinizin nəticəsidir. Sizin diqqət və qayğınızın nəticəsidir ki, biz bu qələbələri qazanırıq. Cənab Prezident, mən bizə göstərdiyiniz diqqət və qayğıya görə Azərbaycanın bütün paralimpiyaçıları adından Sizə minnətdarlığımı bildirmək istəyirəm.

2015-ci ildə tarixdə ilk dəfə keçirilən Avropa oyunlarında mənim məşəli yandırmağım və fəxri kürsünün ən yüksək pilləsində,

möhtərəm Prezident, Sizinlə birgə durmağım Azərbaycan idmanını, paralimpiya hərəkatını ən yüksək zirvədən bütün dünyaya nümayiş etdirdi.

Biz idmançılar Sizin xeyir-duanızla 4 ilin yekunu olan Paralimpiya oyunlarına yola düşəcəyik. Sizə söz veririk, inşallah, biz paralimpiyaçılar ənənəmizə sadiq qalaraq, var gücümüzlə çalışacağıq ki, orada himnimizi səsləndirək, bayrağımızı zirvələrə qaldıraq.

Diqqətinizə görə minnətdaram.

**R ə s u l Ç u n a y e v** (*Yunan-Roma güləşi üzrə Azərbaycan yığma komandasının üzvü):* Möhtərəm cənab Prezident!

Əziz idmançılar!

Olimpiya oyunlarında iştirak edəcək hər bir idmançı kimi, bu gün mənim də sevincimin həddi-hüdudu yoxdur. Bilirsiniz ki, olimpiyaçı adına layiq görülmək hər bir idmançının arzusudur. Mən də bu ada layiq görülmüş bir idmançı kimi, fəxr edirəm ki, ölkəmizi Olimpiya oyunlarında təmsil etmək şərəfinə nail olmuşam. Olimpiya oyunlarında iştirak etmək birqat, iştirak edib medal qazanmaq ikiqat sevincdir. Ona görə dərk edirəm ki, məsuliyyətimiz də çox böyükdür. Bizi qarşıda çətin sınaq gözləyir. Bu sınaqdan üzüağ çıxmaq qarşımızda duran ən mühüm vəzifədir.

Möhtərəm cənab Prezident, biz də Sizin ölkəmizdə idmana və gənclərə göstərdiyiniz davamlı diqqətin şahidləriyik. Görürük ki, ümummilli lider Heydər Əliyevin vaxtilə həyata keçirdiyi ən möhtəşəm işlər bu gün Sizin tərəfinizdən uğurla davam etdirilir. Elə bunun nəticəsidir ki, bu gün yeniyetmə və gənclər arasında idmana, bədən tərbiyəsinə böyük maraq var. Hər bir kəs hansısa idman növündə özünü sınamaq, sağlam və hərtərəfli inkişaf etmək üçün can atır. Artıq bu, respublikamızda bir ənənə halı alıb. Biz idmançılar hər zaman Sizin göstərdiyiniz isti münasibətlə, diqqət və qayğınızla əhatə olunmuşuq.

Hörmətli cənab Prezident, əldə etdiyimiz uğurlarımıza, idmançılara hər zaman göstərdiyiniz dəstəyə, diqqət və qayğıya görə Sizə Azərbaycan idmançıları, olimpiyaçıları və paralimpiyaçıları adından dərin təşəkkürümü bildirirəm.

Özümü xoşbəxt hiss edirəm ki, Azərbaycanın idman tarixində əbədi yer tutacaq Rio Olimpiadasında iştirak edəcəyəm. Bu, dövlətimiz tərəfindən mənə göstərilən böyük etimaddır. Olimpiya oyunlarında qələbə həmişə bayrağın ucalması, himnin səsləndirilməsi ilə nəticələnir. Arzum budur ki, bu Olimpiya oyunlarında da bayrağımız zirvələrə qalxsın, idmanın hər bir növündə Rio de Janeyro Olimpiadasında uğurlar qazanaq, idmançılarımızın çıxışları dünya idman tarixində maraqlı oyun kimi qalsın. Qələbələrin əldə olunması üçün bizim mühüm potensialımız var. Hamını bir anda ayağa qalxıb alqışlamağa vadar edə biləcək idmançılarımız və idman nailiyyətlərimiz var.

Bu gün haqlı olaraq xalqımız, dövlətimiz bizdən XXXI Yay Olimpiya oyunlarında uğurlar gözləyir. Ona görə də biz bu oyunlarda ən yüksək nailiyyətləri hədəf götürmüşük.

Xalqımızın etimadını, möhtərəm cənab Prezident, Sizin etimadınızı doğrultmaq, idman ictimaiyyətimizi sevindirmək bizim üçün böyük şərəf olacaqdır.

İcazə verin, bütün idmançılar adından olimpiya andını səsləndirim:

«Biz, XXXI Yay Olimpiya oyunlarında iştirak edəcək idmançılar ölkəmizin idman şərəfini ləyaqətlə qoruyacağımıza and içirik!

Bu mötəbər yarışlarda əzmlə mübarizə aparacağımıza, xalqımızın etimadını doğruldacağımıza, ölkəmizin adını uca tutacağımıza and içirik!

Azərbaycan Respublikasının himnini ən uca zirvədə səsləndirəcəyimizə, üçrəngli bayrağını ən uca zirvədə dalğalandıracağımıza and içirik!».

Diqqətinizə görə çox sağ olun.

* * *

*Daha sonra idmançılar Azərbaycanın Dövlət bayrağını öpdülər.*

*Prezident İlham Əliyev onlara xeyir-dua verərək, uğurlar dilədi.*

*Mərasim başa çatdıqdan sonra prezident İlham Əliyevə XXXI Yay Olimpiya oyunlarında atletlərimizin geyinəcəyi idman forması təqdim olundu.*

*Bildirildi ki, bütün idmançılarımız «Zika» virusu əleyhinə dərman vasitələri və digər tibbi ləvazimatlarla təmin edilib.*

*Sonda prezident İlham Əliyev idmançılarla xatirə şəkli çəkdirdi.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyul 2016-cı il*

# İTALİYA RESPUBLİKASININ TƏHSİL, UNİVERSİTETLƏR VƏ TƏDQİQAT NAZİRİ XANIM STEFANİA GİANNİNİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 iyul 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də İtaliya Respublikasının Təhsil, Universitetlər və Tədqiqat naziri xanım Stefania Gianninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İtaliyanın Təhsil, Universitetlər və Tədqiqat naziri xanım Stefania Gianninin ölkəmizə səfərinin maraqlı keçəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan ilə İtaliya arasında müxtəlif sahələrdə çox yaxşı münasibətlərin olduğunu vurğulayan prezident İlham Əliyev təhsil sahəsində də güclü tərəfdaşlıq əlaqələrinin yaradılacağına əminliyini ifadə etdi, Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında qəbul olunmuş Birgə Bəyannamənin rolunu qeyd etdi. Azərbaycanlı tələbələrin İtaliyada təhsil almalarının əhəmiyyətini vurğulayan prezident İlham Əliyev bunu ölkələrimiz arasında dostluğun yaxşı nümunəsi kimi dəyərləndirdi.*

*Stefania Giannini ölkəsinin Azərbaycanın təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu dedi. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilə I Avropa oyunlarının Romada təqdimatı zamanı görüşdüyünü məmnunluqla vurğulayan xanım Stefania Giannini görüş zamanı mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələr apardıqlarını dedi. İtaliyalı nazir Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə İtaliyada, Vatikanda əhəmiyyətli layihələr həyata keçirməsinin önəmini də vurğuladı.*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDULLA YAMİN ABDUL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Maldiv Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyul 2016-cı il*

**LİBERİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM ELLEN CONSON-SERLİFƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyul 2016-cı il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Münhendə ticarət mərkəzinə silahlı hücum nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Almaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2016-cı il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAXİM QAUKA**

Hörmətli cənab Prezident!

Münhendə ticarət mərkəzinə silahlı hücum nəticəsində insanların həlak olması və yaralanması xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Almaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2016-cı il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin paytaxtında törədilmiş amansız terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli terror aktından son dərəcə hiddətlənir, terrorizmə qarşı hamılıqla və qətiyyətlə mübarizə aparılmasını vacib və zəruri hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2016-cı il*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT**
**VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Taxt-Tac Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Mərakeş arasındakı qarşılıqlı inam və dəstəyə əsaslanan ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Mərakeş xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2016-cı il*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PEDRO PABLO KUÇİNSKİYƏ**

Hörmətli cənab Prezident!

Peru Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Peru arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Eyni zamanda, ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Peru xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyul 2016-cı il*

**İSVEÇRƏ KONFEDERASİYASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB YOHAN ŞNAYDER-AMMANA**

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İsveçrə arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da hərtərəfli və dinamik şəkildə inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 iyul 2016-cı il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

Hörmətli cənab Prezident!

Ad gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu gün Azərbaycan ilə Birləşmiş Ştatları dostluq əlaqələri üzərində qurulmuş sıx və çoxşaxəli əməkdaşlıq münasibətləri birləşdirir. Ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlıq həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə uğurla davam edir. Enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində əlaqələrimiz yüksələn xətlə inkişaf edərək, strateji tərəfdaşlıq səviyyəsinə çatmışdır. Qlobal təhdidlərə və terrorizmə qarşı mübarizə sahəsində səmərəli əməkdaşlığımız məmnunluq doğurur.

İkitərəfli münasibətlərimizin hazırkı səviyyəyə yüksəlməsində, əməkdaşlığımızın gündən-günə genişlənməsində Sizin xidmətləriniz böyükdür. İnanıram ki, Azərbaycan ilə Birləşmiş Ştatlar arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Eyni zamanda, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə ədalətli həlli istiqamətində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Birləşmiş Ştatların və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Belə əlamətdar gündə bir daha Sizi ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2016-cı il*

## İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri, Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin gündəliyinin çox geniş olduğunu, demək olar ki, bütün sahələri əhatə etdiyini və çox yaxşı nəticələr əldə olunduğunu dedi. Ölkələrimiz arasında münasibətlərin genişləndirilməsində İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri, Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Mahmud Vaezinin rolunu xüsusi qeyd edən prezident İlham Əliyev onun fəaliyyətini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsində prezidentlərin verdiyi dəyərli tövsiyələrin önəmini vurğuladı. Özünün bu yaxınlarda İran İslam Respublikasına rəsmi səfər etməsini və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Azərbaycana rəsmi səfərə gələcəyini məmnunluqla qeyd edən prezident İlham Əliyev bunu ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasının və dinamik şəkildə inkişaf etməsinin yaxşı göstəricisi kimi dəyərləndirdi.*

*Mahmud Vaezi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. Qo-*

*naq ölkələrimiz arasında ikitərəfli əlaqələrin və dost münasibətlərin genişləndirilməsində prezident İlham Əliyevin rolunu xüsusi qeyd etdi.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, Xəzər dənizində əməkdaşlıq məsələləri müzakirə edildi, energetika, neft-qaz, nəqliyyat, sərmayə qoyuluşu, maliyyə, bank, kənd təsərrüfatı, turizm və səhiyyə sahələrində əlaqələrin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

# ÇİN XALQ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ VEY CİNHUAN İLƏ GÖRÜŞ

*3 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Vey Cinhuanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Vey Cinhuan Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Vey Cinhuan etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfir Vey Cinhuan Çin Xalq Respublikasının Sədri Si Cinpinin onun Azərbaycana səfir təyin edilməsi ilə bağlı etimadnaməsini dövlətimizin başçısına təqdim etməkdən şərəf duyduğunu dedi. O, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.*

*Dövlətimizin başçısı Çin Xalq Respublikasına keçənilki dövlət səfərini və səfər zamanı Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşünü məmnunluqla xatırladığını dedi. Prezident İlham Əliyev səfər zamanı aparılan müzakirələrin, qəbul edilən qərarların və eləcə də Azərbaycan–Çin əlaqələrinin müxtəlif sahələrini əhatə edən çoxlu sayda sənədlərin imzalanmasının ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsi baxımından önəmini qeyd etdi. Bu səfər zamanı qəbul edilən qərarların həyata keçirilməsini vurğulayan dövlətimizin başçısı xüsusilə yeni İpək yolu layihəsinin uğurla reallaşdırılmasından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı artıq Azərbaycan vasitəsilə Çindən Avropa bazarlarına ilk test daşımalarının həyata keçirildiyini qeyd edərək,*

*ölkələrimiz arasında bütün başqa istiqamətlərdə də əlaqələrimizin inkişafı üçün böyük qarşılıqlı marağın olduğunu dedi.*

*Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Vey Cinhuan ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin müdrik rəhbərlikləri ilə Azərbaycanın özünəməxsus şəkildə inkişaf etdiyini vurğulayaraq, Azərbaycanın dövlətçiliyin möhkəmləndirilməsi və sosial-iqtisadi inkişaf istiqamətində böyük uğurlar əldə etdiyini və bu uğurların bütün dünyada maraqla izlənildiyini dedi. O, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun gündən-günə artdığını vurğuladı. Səfir bildirdi ki, ümummilli lider Heydər Əliyev Çin xalqının böyük dostu olub və bu gün də prezident İlham Əliyev Çin xalqının böyük dostudur. O, dövlətimizin başçısının Çinə son dəfə həyata keçirdiyi dövlət səfərini tarixi və uğurlu səfər kimi dəyərləndirdi və bu səfərin ikitərəfli münasibətlərimizin yeni bir mərhələyə yüksəlməsində xüsusi rolunu qeyd etdi. Səfir regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasında Azərbaycanın rolunu xüsusi vurğulayaraq, Çin Xalq Respublikasının ölkəmizin suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha diqqətə çatdırdı.*

*Diplomat Bakıya təxminən 1 ay bundan əvvəl gəldiyini və paytaxtımızın onda böyük təəssürat yaratdığını dedi. Səfir Avropanın digər iri şəhərləri ilə müqayisədə öz müasirliyi və gözəlliyi ilə Bakının heç də onlardan geri qalmadığını və paytaxtımızda ictimai sabitliyin və əhalinin rifah halının yüksək səviyyədə olmasını məmnunluqla bildirdi.*

*Görüşdə ölkələrimizin radikalizm, ekstremizm və terrorizmə qarşı mübarizədə səylərinin birləşdirilməsinin vacibliyi qeyd olundu.*

*Dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTAN RESPUBLİKASI DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN RƏİSİ VAXTANQ QOMELAURİ İLƏ GÖRÜŞ

*3 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Gürcüstan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Vaxtanq Qomelaurini qəbul etmişdir.*

*Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Vaxtanq Qomelauri Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən təhlükəsizlik orqanları arasında genişləndirilməsinin önəmi qeyd olundu. Azərbaycan ilə Gürcüstanın xüsusi xidmət orqanlarının qarşılıqlı fəaliyyətinin ölkələrimizin təhlükəsizliyinin möhkəmləndirilməsi işinə də öz töhfəsini verdiyi vurğulandı. Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Vaxtanq Qomelaurinin Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında informasiya mübadiləsinin aparılması və əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd olundu.*

*Dövlətimizin başçısı Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Baş nazirinə çatdırmağı xahiş etdi.*

## PAYTAXTIN KEÇMİŞ «SOVETSKİ» ADLANAN ƏRAZİSİNDƏ YENİ YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*4 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 4-də Bakının Yasamal rayonunun keçmiş «Sovetski» adlanan ərazisində yeni yol-nəqliyyat infrastrukturunun təməlini qoymuşdur.*

*Dövlətimizin başçısına keçmiş «Sovetski» adlanan ərazidə indiyədək Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən görülən işlər və «Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin həyata keçirəcəyi yenidənqurma və abadlıq tədbirləri barədə məlumat verildi.*

*Bildirildi ki, bu ərazidə aparılacaq işlərin birinci mərhələsində 26 hektarda yolların salınması və abadlıq işlərinin görülməsi nəzərdə tutulur. Buraya 23 hektar sahədə yaşıllaşdırma və abadlıq, 3 hektar sahədə isə avtomobil yollarının tikintisi işləri daxildir.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına layihənin icrası ilə bağlı məlumat verdi. Bildirildi ki, 3827 yaşayış və qeyri-yaşayış sahəsi sahibləri müvafiq qaydada kompensasiya ilə təmin ediliblər. Ümumilikdə, 219 obyekt üzrə vətəndaşlar yaşayış sahəsi ilə təmin olunublar. Yaşayış sahəsi ilə təmin edilənlər əsasən 12–16 kvadratmetr sahədə, olduqca ağır kommunal şəraitdə yaşayan ailələr olub. Keçmiş «Sovetski» adlanan ərazidə satın alınan obyektlərdən 249-nun isə söküntüsü «Azəravtoyol» ASC tərəfindən davam etdirilir. Burada ümumi uzunluğu 6 kilometrdən çox olan 5 küçədə əsaslı şəkildə yenidənqurma işləri aparılacaq. Yenidənqurma işləri Balababa Məcidov, Abdulla Şaiq, Mirzəağa Əliyev küçələrində,*

*Füzuli küçəsinin davamında və Nəriman Nərimanov küçəsində həyata keçiriləcək. Əvvəllər bu küçələrin ensiz olması, üstəlik bir çox hissələrdə piyada səkilərinin olmaması avtonəqliyyat vasitələrinin, həmçinin piyadaların gediş-gəlişində xeyli çətinliklər yaradırdı. Yenidənqurma işləri çərçivəsində küçələr həm genişləndiriləcək, həm də enli piyada səkiləri inşa ediləcək. Yenidən qurulacaq küçələrdə mühəndis kommunikasiyaları – su, məişət və yağış suları üçün kanalizasiya, işıq, qaz, rabitə xətlərinin dəyişdirilərək, müasir tələblər səviyyəsində qurulması nəzərdə tutulur.*

*Prezident İlham Əliyev keçmiş «Sovetski» adlanan ərazidə yeni yol-nəqliyyat infrastrukturunun təməlini qoydu.*

*Yenidən qurulacaq Balababa Məcidov küçəsinin uzunluğu 440 metrdir. Küçənin əvvəlki eni 7-8 metr olub. Hazırda layihə çərçivəsində küçə genişləndirilərək, 15 metrə çatdırılacaq. Layihəyə uyğun olaraq, burada 3 hərəkət zolağı olmaqla, yolun eni 12 metr təşkil edəcək. Tikinti işlərinin aparılacağı Abdulla Şaiq küçəsinin eni əvvəllər 5-6 metr olub. Yeni layihəyə uyğun olaraq, küçə 19 metrə qədər genişləndiriləcək. Mirzəağa Əliyev və Füzuli küçələrinin əvvəlki hərəkət hissəsinin eni də 4-5 metr olub. Burada da yenidənqurma işləri çərçivəsində yolun eni 19 metrə çatdırılacaq. Aparılacaq yenidənqurma işləri çərçivəsində Nəriman Nərimanov küçəsinin 2000 metrdən artıq hissəsində də tam müasir yol infrastrukturunun yaradılması nəzərdə tutulur. Küçənin hərəkət hissəsinin hazırkı eni 7 metr təşkil edir. Layihəyə əsasən yolun hərəkət hissəsinin eninin 17,5 metrədək genişləndirilməsi nəzərdə tutulur.*

*Yollarda, həmçinin yeni müasir işıqlandırma sistemi qurulacaq. Bu isə günün qaranlıq vaxtında nəqliyyatın və piyadaların hərəkətinin təhlükəsiz təşkilində mühüm rol oynayacaq. Burada müasir avtobus dayanacaqlarının qurulması da nəzərdə tutulur.*

*Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və tövsiyələrini verdi.*

*Qeyd edək ki, dünyanın ən gözəl şəhərlərindən biri olan Bakının müasirləşdirilməsi istiqamətində son illərdə mühüm layi-*

*hələr həyata keçirilib. Bu layihələrə paytaxtın rəmzinə çevrilən yeni memarlıq abidələrini, çoxmərtəbəli müasir yaşayış binalarını və digər orijinal tikililəri misal göstərmək olar. Bakıda şəhərin inkişaf sürətinə və müasir görkəminə uyğun gəlməyən binaların sökülməsi ilə bağlı mühüm layihələr icra edilib. Bu layihələrin strateji əhəmiyyəti baxımından ən mühümü isə keçmişdə «Sovetski» adlanan məhəllənin sökülməsi oldu. Bu yaşayış massivi uzun illər bundan əvvəl salınıb və istismar müddətini artıq tam başa vurub. Küçələri ensiz, binaları köhnə və mənzilləri dar olan «Sovetski» adlanan ərazi son illər sürətlə inkişaf edən paytaxt Bakının ümumi görünüşü, müasir memarlığı ilə uzlaşmırdı.*

*Bakının daha da müasirləşdirilməsi istiqamətində görülən işlərin davamı olaraq, şəhərin baş planının icrasının təmin edilməsi, habelə paytaxtda yol-nəqliyyat infrastrukturunun daha da yaxşılaşdırılması və abadlıq işlərinin davam etdirilməsi məqsədilə Yasamal rayonunun keçmiş «Sovetski» adlanan ərazisindəki yaşayış və qeyri-yaşayış sahələrinin sökülməsi prosesinə başlanıldı. Onu da xatırladaq ki, dar mənzillərdə yaşayan sakinlərin məişət problemləri getdikcə artırdı. Sakinlər burada yayda istidən, havasızlıqdan, qışda isə soyuq və nəmişlikdən əziyyət çəkirdilər. Bir sözlə, «Sovetski» adlanan məhəllənin tez bir vaxtda sökülməsi zamanın tələbinə çevrildi. Bu tələbin yerinə yetirilməsi özündə bir neçə məsələni ehtiva edirdi. Onların arasında ən əsası bu ərazidə yaşayanların mənzil məsələsinin həlli idi, yaşayış və qeyri-yaşayış sahələrinin inventarlaşdırılması, ölçülməsi, qiymətləndirilməsi, həmçinin satınalınmadan sonra əhalinin köçürülməsi məsələlərinə xüsusi diqqət və həssaslıqla yanaşıldı. Ödəniləcək vəsait müqabilində yeni mənzil alınmasında çətinlik çəkən, heç bir digər yaşayış sahəsi olmayan, uzun illər ailə üzvləri ilə birlikdə yaşayış üçün yararsız azkvadratlı mənzillərdə yaşayan sakinlərin də arzu və istəkləri nəticəsiz qalmadı. Dövlətimizin başçısının birbaşa göstərişi ilə Nazirlər Kabinetinin 2015-ci il 9 iyun tarixli Sərəncamına müvafiq olaraq, qeyd edilən ərazidə sahəsi 25 kvad-*

*ratmetr və daha az olan yaşayış sahələrinin sahibləri Nərimanov rayonunda ikiotaqlı, tam təmirli mənzillərlə təmin olundular. Mənzillərin bölüşdürülməsi sakinlərin iştirakı ilə tam şəffaf, püşkatma yolu ilə həyata keçirildi. Yeni mənzillərin sahələri sakinlərin «Sovetski» adlanan ərazidəki mövcud mənzillərinin sahələrindən 2-3 dəfə, bəzi hallarda isə 4 dəfə böyükdür. Bu, illərlə çətin şəraitdə yaşayan ailələrə prezident İlham Əliyev tərəfindən göstərilən növbəti diqqət və qayğının təzahürü oldu.*

*Prezident İlham Əliyevin təşəbbüsü ilə icra edilən bu layihə şəhərin mərkəzində on illər boyu qəzalı, yarımuçuq binalarda yaşayan əhalinin mənzil şəraitinin yaxşılaşdırılmasında mühüm rol oynadı.*

*Xatırladaq ki, «Sovetski» adlanan ərazidə evlərin köçürülməsi hələ Sovetlər İttifaqı dövründə belə, paytaxt üçün vacib sayılan layihə idi. Bu irimiqyaslı və tarixi layihə yalnız müstəqil ölkəmizin iqtisadi inkişafı dövründə dövlət başçımızın təşəbbüsü ilə həllini tapdı.*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TONİ TAN KENQ YAMA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sinqapur xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 avqust 2016-cı il*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*7 avqust 2016-cı il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin avqustun 7-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İran Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhanini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İran Prezidentinə raport verdi.*

*İranın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev və prezident Həsən Ruhani Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İran Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Həsən Ruhaniyə, İran nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyev və İran prezidenti Həsən Ruhani rəsmi foto çəkdirdilər.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*7 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin avqustun 7-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Bir daha xoş gəlmisiniz, hörmətli cənab Prezident! Sizi ürəkdən salamlayıram. Çox şadam ki, biz Sizinlə tez-tez görüşürük. Bu ilin fevral ayında mən İranda rəsmi səfərdə idim. İndi Siz bizim qonağımızsınız. Bu özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, bizim əlaqələrimiz necə sürətlə inkişaf edir. Bu gün səfər çərçivəsində bir çox məsələlər müzakirə ediləcək və əminəm ki, nəticələr də yaxşı olacaq. Bir daha xoş gəlmisiniz!

**H ə s ə n  R u h a n i**: Bir daha bu gözəl şəhərdə, xüsusilə Azərbaycan xalqı ilə görüşdüyümə görə çox şadam. Şübhəsiz ki, bizim əlaqələrimiz səmimiyyətlə və uğurla inkişaf edir. Zati-alilərinin Tehrana səfəri çox uğurlu səfər idi və çox düzgün addımlar atılmışdı. Ümid edirəm ki, münasibətlərin genişləndirilməsi üçün bu səfərdə yeni addımlar atılacaq. Yaxşı münasibətlərimiz həm ikitərəfli, həm də regional çərçivədə çox əhəmiyyətli və müsbətdir.

*Söhbət zamanı ikitərəfli və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*7 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin avqustun 7-də təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident, hörmətli qonaqlar!

Mən Sizi bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər çox uğurlu olacaq və əlaqələrimizin inkişafına yeni təkan verəcəkdir.

Mən şadam ki, biz tez-tez görüşürük. Bu ilin fevral ayında mən İranda rəsmi səfərdə idim. Bu gün Siz Azərbaycana rəsmi səfər edirsiniz. Bu özlüyündə bir göstəricidir. Onu göstərir ki, əlaqələrimiz sürətlə, uğurla inkişaf edir və ən yüksək zirvədədir.

Biz bu gün ikitərəfli görüş zamanı bir çox məsələləri – həm siyasi, həm iqtisadi, həm də digər məsələləri müzakirə etdik. Görürük ki, bizim aramızda çox böyük qarşılıqlı anlaşma var. Biz münasibətləri bu qarşılıqlı anlaşma əsasında qururuq. Çox şadam ki, son illər ərzində İran–Azərbaycan əlaqələri çox sürətlə inkişaf edir. Tarixdə, 25 illik tariximizdə bu dövr sürətli, bəlkə də ən sürətli inkişaf dövrüdür. Fevral ayından ötən dövr ərzində iqtisadiyyat, nəqliyyat, energetika sahələrində bir çox məsələlər öz həllini tapıbdır. Əminəm ki, Sizin səfərinizin nəticəsi olaraq, əlaqələrin inkişafı təmin ediləcək. Bu gün də bir neçə sənəd imzalanacaq və bu, gələcək əməkdaşlıq üçün yeni imkanlar açacaqdır.

Mən çox şadam ki, Siz Azərbaycana böyük heyətlə gəlmisiniz. Təbii ki, nümayəndə heyətlərinin üzvləri də bir-biri ilə əlaqədədirlər və əlaqələr daha da dərinləşəcək. İran–Azərbaycan əlaqələri

bundan sonra da qardaşlıq, dostluq əsasında uğurla inkişaf edəcək. Bir daha xoş gəlmisiniz!

**Həsən Ruhani**: Bismillahir-rəhmanir-rəhim!

Zati-aliləri cənab Prezident, Sizinlə bu görüşdən çox xoşhalam. Sizin Tehrana səfəriniz çox müvəffəqiyyətli bir səfər idi. Ondan sonra iki ölkə arasında əlaqələrin inkişafı istiqamətində mühüm addımlar atıldı. O səfər zamanı ölkələrimizin ikitərəfli əlaqələri ilə yanaşı, üçtərəfli əlaqələri də planlaşdırdıq. Sabah biz onun şahidi olacağıq. Həmin səfəriniz çərçivəsində yaxşı anlaşmalara nail olduq və bu anlaşmalar əsasında hazırlanmış sənədlər bu gün imzalanacaq.

Hazırda çox mühüm mövzular vardır ki, bu barədə danışılıb və onlar haqqında ikitərəfli görüşdə təfsilatı ilə söhbət apardıq. Müxtəlif sahələrə aid həmin mövzuları bu görüşdə də müzakirə edəcəyik. Mən əminəm ki, ölkələrimizin əlaqələri səmimiyyətə və etimada əsaslanır. Dost, qardaş və qonşu ölkələr kimi, bu əlaqələri elə bir mərhələyə çatdırmalıyıq ki, xalqlarımızın istəyinə uyğun olsun. Bizim xalqlarımız ən yaxşı əlaqələri istəyirlər ki, ölkələrimizin mənafelərinə, regionda sabitliyə və sülhün yaranmasına xidmət etsin. Ümid edirəm ki, bu səfərdən sonra əlaqələrimizin inkişafı sahəsində yeni-yeni addımlar atılacaq.

**İlham Əliyev:** Çox sağ olun.

* * *

*Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin, həcminin daha da artırılması, hökumətlərarası birgə Komissiyanın uğurlu fəaliyyəti, əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirilməsi, qarşılıqlı investisiya qoyuluşu və turizmin inkişaf etdirilməsi, hava nəqliyyatı, dəmir yolu, səhiyyə, əczaçılıq, bank sahələrində, o cümlədən Xəzər dənizində əməkdaşlıq, «Şimal–Cənub» layihəsinin önəmi, terrorizmlə mübarizə, regional sülhün və sabitliyin təmin edilməsi məsələləri müzakirə olundu.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*7 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə avqustun 7-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–İran sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə İranın Standartlar və Sənaye Tədqiqatları İnstitutu arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahələrində Anlaşma Memorandumu»nu İranın Milli Standartlaşdırma Təşkilatının sədri xanım Nairə Piruzbəxt və Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev imzaladılar.*

*«Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə İran İslam Respublikasının Mərkəzi Bankı arasında Anlaşma Memorandumu»nu İranın Mərkəzi Bankının sədri Vəliyullah Seyf və Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Elman Rüstəmov imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəni İrs, Əl İşləri və Turizm Təşkilatı arasında turizm əməkdaşlığı sahəsində İcra Proqramını (2016–2019)» İranın vitse-prezidenti, Mədəni İrs, Əl İşləri və Turizm Təşkilatının sədri Məsud Sultanifər və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu»nu İranın Yol və Şəhərsalma naziri Abbas Axundi və Azərbaycanın Nəqliyyat naziri Ziya Məmmədov imzaladılar.*

*«Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında elektron təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu İranın Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezi və Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında bitki mühafizəsi və bitki karantini sahəsində əməkdaşlıq haqqında Saziş»i İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zərif və Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov imzaladılar.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*7 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani avqustun 7-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Biz sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Şadam ki, səfər çox uğurlu keçir və bu gün apardığımız danışıqlar və imzalanmış sənədlər əminəm ki, İran–Azərbaycan əlaqələrinin gələcək inkişafını təmin edəcəkdir.

Əsrlərboyu xalqlarımız bir yerdə, yanbayan, mehriban dostluq, qonşuluq şəraitində yaşayırlar. Bizi əsrlərboyu birləşdirən tarix, mədəniyyət, din bizim ümumi böyük sərvətimizdir.

Biz ikitərəfli əlaqələrimizi möhkəm zəmin üzərində qururuq. Mən çox şadam ki, artıq 25 ilə yaxındır İran–Azərbaycan dövlətlərarası əlaqələri uğurla inkişaf edir. Onu da qeyd etməliyəm ki, inkişafın son dövrü xüsusilə əhəmiyyətlidir. Çünki son bir neçə il ərzində İran–Azərbaycan əlaqələrinin inkişafında çox böyük irəliləyiş var. Biz, cənab Prezident, Sizinlə son bir neçə il ərzində dəfələrlə görüşmüşük. Qarşılıqlı rəsmi səfərlərin təşkili də bu istiqamətdə atılan çox önəmli addımlardır. Mən bu ilin fevral ayında İran İslam Respublikasında rəsmi səfərdə idim. Bu gün Siz

bizim qonağımızsınız. Bu özlüyündə bir göstəricidir. Onu göstərir ki, əlaqələr çox sürətlə, dinamik şəkildə inkişaf edir və yaxşı nəticələr var. Mənim İran İslam Respublikasına rəsmi səfərim çərçivəsində 10-dan çox sənəd imzalanmışdır. İndi 6 ay keçməmiş yenə 6 sənəd imzalandı və bu sənədlər gələcək fəaliyyətimiz üçün çox böyük əhəmiyyət daşıyır. İranda fevral ayında imzalanmış sənədlərin, razılaşmaların icrası təmin edilir. Bu gün də həm təkbətək görüşdə, həm nümayəndə heyətlərinin iştirakı ilə keçirdiyimiz görüşdə ikitərəfli əlaqələrimizin, demək olar ki, bütün sahələri müzakirə edildi və müzakirələr çox konstruktiv şəkildə aparıldı. Əminəm ki, əldə edilmiş razılaşmalar bizim birliyimizi, əməkdaşlığımızı daha da gücləndirəcəkdir.

Biz beynəlxalq təşkilatlar çərçivəsində də uğurla əməkdaşlıq edirik. Üzv olduğumuz bütün beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. BMT, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlarda daim sıx əməkdaşlıq edirik. Azərbaycan İrana qarşı tətbiq edilən sanksiyaların həmişə əleyhinə olub, öz mövqeyini açıq şəkildə ifadə edib. Biz çox şadıq ki, bu sanksiyalar aradan qaldırılıb və beləliklə, əməkdaşlıq üçün yeni imkanlar yaranıbdır. İran tərəfi isə həmişə Azərbaycanın ərazi bütövlüyünə böyük hörmətlə yanaşıb, yanaşır və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Bu dəstək həm BMT, həm də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində özünü büruzə verir.

Bu il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə qəbul edilmiş Bəyannamə münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını bir daha tələb edir və biz İran dövlətinin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndiririk.

Mən bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı son vəziyyəti prezident Ruhaniyə bildirdim. Bildiyiniz kimi, uzun illər Azərbaycan torpaqları işğal altındadır. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Bu gün nəinki Dağlıq Qarabağ, onun ətrafında yerləşən 7 rayon da işğal altındadır. Azərbaycan əhalisi bu bölgələrdən zorla çıxarılıbdır. Bizim tarixi abidələrimiz, o cümlədən məscidlərimiz ermənilər tərəfindən

dağıdılıb və torpaqlarımızın təxminən 20 faizi işğal altındadır. Bu işğal davam edir. Münaqişənin həlli yolları da aydındır. Erməni silahlı qüvvələri – Azərbaycanın ərazi bütövlüyünü pozan bu qüvvələr işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Bunu BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi də tələb edir.

Onu da qeyd etməliyəm ki, bu il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı aprel ayındakı aqressiyası pislənildi və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaradıldı.

Bu ilin aprel ayında erməni silahlı qüvvələri Azərbaycana qarşı növbəti silahlı təxribat törətmişlər. Bu təxribat nəticəsində bizim hərbçilərimiz, 6 mülki şəxs həlak olmuş, 20-dən çox mülki vətəndaş xəsarət almışdır. 600-dən çox ev ziyan çəkmiş, demək olar ki, dağıdılmış, 100-dən çox ev isə tamamilə dağıdılmışdır. Azərbaycan məcbur olub öz vətəndaşlarını, öz torpaqlarını qorumaq üçün lazımi addımlar atdı və bu addımlar çox təsirli oldu. Münaqişənin həlli ilə bağlı beynəlxalq təşkilatların qərar və qətnamələri icra olunmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Mən bu gün prezident Ruhaniyə danışıqların son vəziyyəti haqqında geniş məlumat verdim.

Şadam ki, bizim iqtisadi əlaqələrimiz uğurla inkişaf edir. Bu gün geniş tərkibdəki görüşdə məlumat verildi ki, bu il ticarət dövriyyəsi 66 faiz artıb. Bu çox gözəl göstəricidir. Nəzərə alsaq ki, bu gün dünyada iqtisadi-maliyyə böhranı hələ də davam edir, bu şəraitdə bu nailiyyəti əldə etmək üçün, hesab edirəm, böyük səylər qoyulmalı idi və qoyuldu. Hökumətlərarası birgə Komissiya çox uğurla, fəal işləyir. Bu gün iqtisadi sahədə gələcək əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparıldı.

Şadam ki, səfər ərəfəsində – dünən Neftçala şəhərində «İran Khodro» şirkətinin istehsal edəcəyi Avtomobil zavodunun təməl daşı qoyuldu. Bu da əməkdaşlığımızın çox gözəl nümunəsidir. Hər il 10 mindən çox avtomobil istehsal ediləcək və bu, əməkdaşlığın yeni formasıdır. Bu vaxta qədər belə bir əməkdaşlıq olmamışdır. Bu gün digər sahələrdə də birgə fəaliyyət haqqında geniş fikir

mübadiləsi aparıldı. Xüsusilə yaxın zamanlarda Azərbaycanda İran texnologiyası ilə çalışacaq Dərman preparatları zavodunun tikintisi də nəzərdə tutulur.

Əlbəttə ki, bu gün energetika və nəqliyyat problemlərinin həlli üçün yeni imkanlar açılır. Şadam ki, İmişli–Parsabad xətti birləşdi. Bu xətt həm iki ölkə arasındakı əlaqələrə, həm də regional əməkdaşlığa çox müsbət təsir göstərəcək. Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində də çox önəmli addımlar atılıb.

Keçən il fevral ayında İrandan qayıdandan sonra mən müvafiq göstərişlər vermişəm, onlar icra edilir. Söz verdiyim kimi, bu ilin sonuna qədər Azərbaycan öz dəmir yolunu İran sərhədinə qədər uzadacaq. Bununla bərabər, bu il İran və Azərbaycan rəsmilərinin iştirakı ilə Astaraçay üzərində körpünün tikintisi başlanılıb və işlərin böyük hissəsi artıq görülüb. Şimal–Cənub nəqliyyat dəhlizinin icrasını sürətləndirmək üçün bu gün Memorandum imzalandı və Azərbaycan tərəfi bu layihənin gələcək maliyyələşməsində iştirak etmək arzusundadır. Onu da bildirməliyəm ki, bu məsələ, eyni zamanda, energetika ilə bağlı olan məsələlər sabah İran, Rusiya, Azərbaycan prezidentlərinin birinci Zirvə görüşündə də müzakirə olunacaqdır. Həmçinin qeyd etməliyəm ki, bu üçtərəfli format yeni təşəbbüsdür və çox önəmli bir addımdır. Təbii ki, bu formatın əsasında ikitərəfli əlaqələr dayanır.

Azərbaycanın İran və Rusiya ilə çox yaxşı münasibətləri var. Bilirəm ki, Rusiya–İran əlaqələri də çox yaxşı səviyyədədir. Ona görə bu üçtərəfli əməkdaşlıq formatının yaradılması təbiidir. Bunun əsasında həm tarix, həm coğrafiya, eyni zamanda, bizim müştərək layihələrimiz dayanır. Şimal–Cənub nəqliyyat dəhlizi təkcə ölkələrimiz üçün deyil, qitələr üçün böyük əhəmiyyət daşıyan layihədir və sabah bu layihənin gələcək icrası ilə bağlı çox önəmli addımlar atılacaqdır.

İkitərəfli formata gəldikdə isə, bu gün geniş spektrli məsələlər müzakirə olundu. Turizm sahəsində çox gözəl perspektivlər var. Artıq İran vətəndaşları Azərbaycana sadələşdirilmiş viza rejimi əsasında gələ bilərlər və Naxçıvan–Təbriz–Məşhəd dəmir yolu

açılır. Hava nəqliyyatı istiqamətində çox gözəl mənzərə müşahidə olunur, uçuşların sayı artır. Ekologiyaya və Xəzər dənizinə aid məsələlər müzakirə olundu. Deyə bilərəm ki, müzakirə olunan bütün məsələlərlə bağlı heç bir fikir ayrılığı yoxdur. Bizim əsas istəyimiz İran–Azərbaycan əlaqələrini inkişaf etdirmək, xalqlarımızın maraqlarını müdafiə və təmin etmək, siyasi, iqtisadi, humanitar əlaqələrimizi möhkəmləndirməkdir. Cənab prezident Həsən Ruhaninin Azərbaycana bugünkü səfəri bu istiqamətdə atılan çox önəmli addımdır.

Cənab Prezident, dəvətimi qəbul edib yenidən Azərbaycana səfər etdiyiniz üçün mən Sizə bir daha minnətdaram, Sizə və qardaş İran xalqına yeni uğurlar arzulayıram. Sağ olun.

## İran prezidenti Həsən Ruhaninin bəyanatı

Bu səfər zamanı bizə göstərilən qonaqpərvərliyə görə Azərbaycan dövlətinə və xalqına böyük minnətdarlığımı bildirirəm. Son 3 il ərzində ölkələrimiz arasında əlaqələr sürətlə inkişaf edib. İki ölkə arasında əlaqələrin genişlənməsi istiqamətində inamlı addımlar atmışıq. Prezidentlərin qarşılıqlı səfərləri, həmçinin beynəlxalq tədbirlər çərçivəsində keçirdiyimiz hər bir görüşdə irəli doğru addım atdığımızı hiss etmişik. Birgə mədəniyyətə, tarixə, dinə, məzhəbə malik olan ölkələrimizin xalqları uzun illər qardaşlıq şəraitində yaşayıblar. Bu gün hər iki dövlətin və xalqlarımızın əlaqələrinin genişlənməsinə yönəlmiş istək bütün sahələri əhatə edir.

Bu gün iki ölkə arasında əlaqələri müzakirə etdik. Hökumətlərarası müştərək Komissiyanın rüsumların azaldılması istiqamətindəki fəaliyyəti müvafiq sazişin bağlanmasına gətirib çıxarmalıdır. Bizim əsas məqsədimiz iki ölkə arasında azad ticarətin bərqərar olmasıdır. Avrasiya ölkələri arasında əlaqələrimizin genişlənməsi baxımından rüsumların azaldılması ilə bağlı apardığımız məsləhətləşmələr Azərbaycanla da aparılsa, müəyyən məsələlər barədə razılığa gələ bilər və sazişlər imzalaya bilərik.

Ölkələrimiz arasında bank sahəsində əməkdaşlıq böyük əhəmiyyətə malikdir. Belə ki, bu məsələ iqtisadi əlaqələrin, eləcə də ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından möhkəm əsas kimi qəbul edilir. Bu gün Mərkəzi bankların rəhbərlərinin iştirakilə bank sektoru ilə bağlı sənəd imzalandı. Biz istəyirik ki, ölkələrimizin bank sahəsindəki əlaqələri elə bir səviyyəyə uyğunlaşdırılsın ki, bütün sahələrdə iqtisadi və ticari əlaqələrin genişlənməsi üçün zəmin yarada bilsin.

Texnologiya və sənaye sahəsində investisiya yatırılması ilə bağlı deyə bilərəm ki, biz Azərbaycanda Avtomobil zavodunun təməlinin qoyulmasının şahidi olduq. Azərbaycan Prezidentinin dediyi kimi, bu zavodda ildə 10 min avtomobil istehsal ediləcək. Beləliklə də, Azərbaycanın və ya qonşu ölkələrin tələbatı ödəniləcək. Bu hadisə sənaye sahəsində əlaqələrimizin genişlənməsinin göstəricisidir. Habelə əczaçılıq sahəsində əməkdaşlıqla bağlı atılacaq addımlar iki ölkə arasında münasibətlərin inkişafına xidmət edəcək.

Biz həmçinin Xəzər dənizi ilə əlaqədar müzakirələr apardıq və bu dənizin Xəzəryanı ölkələr, o cümlədən Azərbaycan və İran üçün sülh, dostluq və sabitlik dənizi olduğunu bildirdik. Xəzər dənizinin hüquqi statusu ilə əlaqədar belə nəticəyə gəldik ki, həmin məsələ ilə bağlı razılıq əldə edilməsi üçün iki ölkə bu müstəvidə ciddi çalışmalıdır. Xəzər dənizində qarşılıqlı fəaliyyətin genişlənməsi, o cümlədən neft-qaz sahəsində əməkdaşlığın inkişafı ilə bağlı, ümumilikdə belə razılığa gəldik ki, bu sahələrə diqqət artırılsın. Əldə olunan razılıq ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi baxımından müsbət addım kimi dəyərləndiriləcək. Eyni zamanda, Xəzər dənizinin ətraf mühitinə diqqətin artırılması əsas mövzulardan biridir. Bu qapalı su hövzəsində dənizin çirkləndirilməsi böyük təhlükə yaradır. Əvvəllər sahilyanı ölkələr arasında bu məsələ ilə bağlı imzalanan sənədlər, bağlanan müqavilələr və Azərbaycanda bununla əlaqədar mərkəzin yaradılması və fəaliyyətə başlaması diqqət mərkəzində olan məsələlərdəndir. Biz mərkəzin katibliyinin Azərbaycanda yerləşdirilməsini dəstəkləyirik.

Ölkələrimiz arasında turizm əlaqələrinin genişləndirilməsi, bu sahəyə sərmayə qoyuluşu, qarşılıqlı uçuşların yerinə yetirilməsi gediş-gəlişin artmasına səbəb olacaq. Bununla əlaqədar vizaların verilməsi prosesinin asanlaşdırılması məqsədilə zəruri tədbirlər görülməlidir. Vətəndaşlarımız hər iki ölkəyə səfər etmək istəyir və bu səfərlər onların mənafelərinə cavab verir.

Əsas məsələlərdən biri də tranzit məsələsidir. Xüsusilə Şimal–Cənub dəhlizi həm iki ölkə, həm də region ölkələri üçün əhəmiyyət kəsb edir. Bu dəhlizin reallaşması üçün ilk addım Astara–Astara dəmir yolunun birləşdirilməsi və bu məsələ ilə əlaqədar İranda inşa ediləcək terminal olacaqdır. İkinci məsələ, Astara–Rəşt dəmir yolunun bir-birinə bağlanmasıdır ki, ölkələrimiz bu sahəyə sərmayə yatıracaq, ortaq bir iş görüləcək, sərmayə qoyuluşunun 50 faizi İran tərəfindən, 50 faizi isə Azərbaycan tərəfindən təmin ediləcək. İnşallah, hər iki tərəfin göstərdiyi səylər nəticəsində bu dəmir yolu tezliklə istifadəyə veriləcək və Azərbaycanın Fars körfəzinə çıxışı təmin olunacaq. Nəhayət, Qafqaz ölkələrinin, Rusiyanın, Şimali və Şərqi Avropanın Fars körfəzinə və Hindistana çıxışını təmin edəcək bu dəhliz böyük iqtisadi dividendlər verəcək.

Biz Dağlıq Qarabağ münaqişəsi haqqında da müzakirələr apardıq. Bu məsələ ilə əlaqədar ötən aylarda göstərilən səylər barəsində cənab Prezident bizə bəzi məlumatları verdi. İran İslam Respublikasının bu məsələyə baxışı ondan ibarətdir ki, region ölkələrində sülh və sabitlik bərqərar olsun, ölkələr arasında problemlər və ixtilaflar danışıqlar yolu ilə həll edilsin. Biz ölkələrin və eləcə də, Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyirik və sərhədlərin güc yolu ilə dəyişdirilməsinin əleyhinəyik. Ümidvarıq ki, regiondakı problemlər danışıqlar yolu və başqa ölkələrin səyləri ilə həll ediləcək və nəticədə sülh, sabitlik və təhlükəsizlik bərqərar olacaq. İran İslam Respublikası Azərbaycanın və Ermənistanın qonşusu kimi, həmişə çalışıb ki, bu zəmində səylər danışıqlara və bölgədə təhlükəsizliyə yönəlsin. Əgər İran İslam Respublikasının bu sahədə əlindən gələ biləcək nəsə olarsa, biz köməyimizi əsirgəməyəcəyik.

Biz həmçinin bölgədə terrorizm və güc tətbiqinin Qafqaz, Orta Asiya, Yaxın Şərq, ümumiyyətlə, bütün dünya üçün böyük təhlükələr yaratması mövzusunda danışıqlar apardıq. Belə qərara gəldik ki, iki ölkənin səyləri terrorizmə qarşı mübarizədə daha da artırılsın.

Biz həmçinin mədəniyyət sahəsində, islamın mehriban və rəhman olması fikrinin iki ölkə tərəfindən təbliği, islama qarşı zorakılığın qəbuledilməzliyi haqqında danışıqlar apardıq. Alimlər, mütəxəssislər islamın yayılması və təbliği, gəncləri islamın zora və terrora meyilli din olması fikrindən uzaqlaşdırmaq üçün səylərini artırmalıdırlar. Ümidvarıq ki, ölkələrimizin mədəni əlaqələri və universitetlər arasındakı münasibətlər genişlənəcək və inkişaf edəcək. Yeni texnologiyalardan geniş istifadə üçün tədbirlərin görülməsi ilə bağlı söhbət də etdik.

Ümid edirəm ki, sabah keçiriləcək İran–Rusiya–Azərbaycan üçtərəfli görüşü – üç ölkə arasında belə formatlı ilk görüş – ölkələrimiz və ümumiyyətlə, region ölkələri arasında əlaqələrin genişlənməsi baxımından faydalı olacaq. Biz həmin görüşdə tranzit məsələsi, üçtərəfli əməkdaşlıq, humanitar sahədə, terrorizmə, narkotik maddələrin dövriyyəsinə qarşı mübarizə və iqtisadi sahədə əməkdaşlığın genişlənməsinin perspektivləri barədə müzakirələr aparacaq, bu məsələlər haqqında razılığa gələcəyik.

Cənab Prezidentə və Azərbaycanın yüksəkvəzifəli şəxslərinə bu qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm.

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*8 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin avqustun 8-də görüşü olmuşdur.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar!

Sizi yenidən Azərbaycanda salamlamağa şadam. Vladimir Vladimiroviç, son 3 ildə bu Sizin Azərbaycana üçüncü səfərinizdir. Bu özlüyündə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinin göstəricisidir. Mən də tez-tez Rusiyada oluram. Bu yaxınlarda, iyun ayında Peterburqda görüşmüşdük. Tez-tez baş tutan görüşlər, əlbəttə, bizim münasibətlərimizin inkişafına yeni təkan verir. Artıq çoxdan strateji tərəfdaşlıq səviyyəsinə çatmış bu münasibətlər bizim həyatımızın, demək olar ki, bütün sahələrini əhatə edir. Biz beynəlxalq məkanlarda fəal qarşılıqlı əlaqə saxlayırıq, siyasi dialoq fəallaşır, iqtisadi əlaqələr möhkəmlənir, nəqliyyat və energetika sahələrində də yaxşı nəticələr var, humanitar əməkdaşlıq inkişaf edir. Sentyabr ayında Bakıda Rusiya və Azərbaycan prezidentlərinin himayəsi altında növbəti Beynəlxalq Humanitar Forum keçiriləcək. Bütün bunlar bizim münasibətlərimizin inkişafı üçün möhkəm zəmin yaradır.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Rusiyanın rolunu xüsusi vurğulamaq istərdim. Biz bu rolu qiymətləndiririk və tənzimləmə prosesinin irəliləməsində Sizin şəxsi iştirakınız çox böyük əhəmiyyət kəsb edir. İyun ayında Sankt-Peterburqda keçirilən görüş əsasən bu problemə həsr edilmişdi və şəxsən Sizin həmin prosesdə fəal iştirakınıza görə təşəkkür edirəm.

Bu gün həm də İran, Rusiya və Azərbaycan liderlərinin ilk üçtərəfli görüşü keçiriləcək. Çox ümidverici olan bu yeni format ikitərəfli əməkdaşlıq çərçivəsində yaxşı potensiala malikdir və bu gün qarşılıqlı regional fəaliyyətin mühüm məsələləri müzakirə ediləcək. Fikrimcə, bu həm ölkələrimizin iqtisadi inkişafına, həm də bizim regionda təhlükəsizlik sisteminin möhkəmlənməsinə şərait yaradacaq.

Sizi bir daha səmimi-qəlbdən salamlayıram, xoş gəlmisiniz!

**V l a d i m i r  P u t i n**: Hörmətli İlham Heydər oğlu, dəvətə görə çox sağ olun.

Bizim münasibətlərin xarakteri barədə Sizin dediklərinizlə tam razıyam. Həqiqətən, bu münasibətlər kağız üzərində deyil, əməli işdə strateji tərəfdaşlıq xarakterinə malikdir. Ən vacibi odur ki, bizim münasibətlərimiz xeyli şaxələndirilib, onlar bütün istiqamətlər üzrə inkişaf edir. Sizin dediyiniz kimi, humanitar istiqamətdə tərkib hissə formalaşıb. Humanitar Forum mütəmadi olaraq ən yüksək səviyyədə keçirilir.

Əslində bizim himayəmiz altında keçirilən bu forumda ən yüksək səviyyədə iştirak edirik. Sonuncu tədbirdə Rusiya parlamentinin yuxarı palatasının rəhbəri Valentina Vladimirovna Matviyenko iştirak edib.

Azərbaycanda təxminən 600 Rusiya şirkəti işləyir. Birbaşa investisiyaların həcmi 1,5 milyard dollara yaxındır, daha dəqiq desək, 1,4 milyard dollara çatır.

Amma diqqəti bəzi məqamlara cəlb etmək istərdim: bilirik ki, müxtəlif səbəblər üzündən, o cümlədən dünya iqtisadiyyatında, bizim iqtisadiyyatda böhran vəziyyəti, ənənəvi ixrac mallarımızın qiymətinin azalması, bununla əlaqədar məzənnə fərqləri ilə bağlı məlum problemlər dəyər ifadəsində ticarət dövriyyəsinin azalmasına gətirib çıxarıb.

Bu gün bu haqda danışmaq, bu məsələlərin həlli yollarını axtarmaq çox yerinə düşəcək. Nəzərə almaq lazımdır ki, bunun üçün həqiqətən, çox yaxşı baza yaradılıb və Sizinlə tam razıyam ki, bütövlükdə fiziki həcmi qoruyub saxlayırıq.

Əlbəttə, perspektiv üçün yaxşı layihələrimiz var. Özü də bu, təkcə energetika sahəsinə aid deyil. Aydındır ki, başqa sahələrdə – maşınqayırma, yüksək texnologiyalar sahələrində də belədir. Fikrimcə bu, son dərəcə vacibdir. Xəzərdə o cümlədən hərbi sahədə əməkdaşlığımız davam edir.

Üçtərəfli formatda görüşlərin təşkilinə görə çox sağ olun. Bu da Sizin təşəbbüsünüzdür və həqiqətən, bu formatda müzakirə edilməli məsələlər var. Xəzərdə və daha geniş aspektdə yeni layihələr ola bilər – nəqliyyat, energetika, üçtərəfli ticari-iqtisadi əlaqələrimizin şaxələndirilməsini nəzərdə tuturam.

Siz Qarabağ məsələsini xatırlatdınız. Bu problem bizim hamımıza ümumi, sovet keçmişimizdən miras qalıb. Bunun Azərbaycan və Ermənistan üçün nə qədər kəskin məsələ olduğunu bilirəm. Biz bir məqsədə nail olmağa çalışacağıq: Ermənistan və Azərbaycan kompromisli, lakin hər iki tərəf üçün məqbul olan həll tapmalıdır, burada qalib gələn tərəf olmamalıdır, qalib gələn – iki ölkənin xalqları olmalıdır. Hər iki dövlət hiss etməlidir ki, onlar bu mürəkkəb məsələni bu günümüzün mənafeyi və gələcək nəsillər üçün həll ediblər.

Hörmətli İlham Heydər oğlu, dəvətə görə sağ olun. Əminəm ki, bugünkü birgə işimiz müsbət, səmərəli olacaq və həm ikitərəfli münasibətlərin daha da inkişaf etməsinə, həm də regionda vəziyyətin yaxşılaşmasına şərait yaradacaqdır.

Çox sağ olun.

## AZƏRBAYCAN, İRAN VƏ RUSİYA DÖVLƏT BAŞÇILARININ ÜÇTƏRƏFLİ ZİRVƏ GÖRÜŞÜ

*Heydər Əliyev Mərkəzi*

*8 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin avqustun 8-də Heydər Əliyev Mərkəzində üçtərəfli Zirvə görüşü keçirilmişdir.*

*Zirvə görüşündən əvvəl prezidentlər birgə foto çəkdirdilər.*

*Sonra dövlət başçıları görüşdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Prezidentlər!

Hörmətli qonaqlar!

Hörmətli Zirvə görüşünün iştirakçıları!

İlk növbədə, bütün qonaqları səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Bu gün Bakıda tarixdə ilk dəfə olaraq, İran, Rusiya, Azərbaycan prezidentlərinin üçtərəfli görüşü keçirilir. Bu, tarixi hadisədir. Bu gün 3 ölkə arasında yeni əməkdaşlıq formatı yaranır. Mənim dəvətimi qəbul edərək, Zirvə görüşünün işində iştiraka görə prezident Putinə və prezident Ruhaniyə minnətdaram.

Qeyd etməliyəm ki, bu ilin aprel ayında Azərbaycanın təşəbbüsü ilə Bakıda üç ölkənin Xarici İşlər nazirləri görüşmüşlər. Əminəm ki, bugünkü Zirvə görüşü regional əməkdaşlığa yeni təkan verəcəkdir.

Əsrlərboyu yanaşı yaşayan xalqlarımızı ortaq tarix və coğrafiya birləşdirir. Azərbaycanı həm İran, həm də Rusiya ilə sıx dostluq

əlaqələri bağlayır. Bu əlaqələr son illərdə daha da inkişaf edib və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

İran, Rusiya və Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Ölkələrimiz həmişə BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir. Azərbaycan İran ilə İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində, Rusiya ilə ATƏT, MDB, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edir. Sadaladığım təşkilatlarda üç ölkə daim bir-birini dəstəkləyir.

Azərbaycan İrana və Rusiyaya tətbiq olunan beynəlxalq sanksiyaların əleyhinə olub və öz mövqeyini dəfələrlə açıq şəkildə bildirib. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət beynəlxalq hüquq normalarına, ədalətə və ölkəmizin milli maraqlarına əsaslanır. Qonşularımızla yaxın əlaqələr milli maraqlarımıza tam cavab verir.

İran və Rusiya Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Hər iki ölkə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həll olunmasını dəfələrlə bəyan edib.

Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. BMT, «Qoşulmama Hərəkatı», ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyir. Münaqişə ilə bağlı mövcud olan status-kvo qəbuledilməzdir. Münaqişə beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Münaqişənin həll olunması üçün ilk növbədə, Azərbaycan əraziləri işğaldan azad edilməlidir.

Uzun illərdir ki, Azərbaycanın ərazi bütövlüyü pozulub, torpağımızın 20 faizi işğal altındadır. Bu işğaldan 1 milyondan artıq azərbaycanlı əziyyət çəkir. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı 4 qətnamə qəbul edib. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması

tələb olunur. Əfsuslar olsun ki, bu qətnamələr 20 ildən artıqdır ki, icra edilmir.

Son vaxtlar yaşadığımız regionda risklər və təhdidlər artır. Biz beynəlxalq terrorizmə qarşı səylərimizi daha da birləşdirməliyik. Əslində bütün dünya səylərini birləşdirməlidir. Biz ancaq bu halda beynəlxalq terrorizmə qalib gələ bilərik. Azərbaycanın terrorizmə qarşı mübarizədə prinsipial mövqeyi dəyişməzdir. 2012–2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının üzvü kimi, Azərbaycan beynəlxalq sülh və təhlükəsizliklə bağlı mühüm məsələləri müzakirəyə çıxarmış, beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi təşəbbüsünü irəli sürmüşdür.

2012-ci ilin may ayında Təhlükəsizlik Şurasında Azərbaycanın sədrliyi ilə «Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər» mövzusunda keçirilmiş yüksək səviyyəli iclası xüsusi qeyd etmək istərdim. İclasın yekununda bəyanat qəbul olunmuş, terrorun bütün formaları və təzahürləri bir daha pislənmişdir.

Hörmətli həmkarlar! Bizi birləşdirən Xəzər dənizi bizim ümumi sərvətimizdir. Xəzər dənizi sülh və əməkdaşlıq dənizidir və belə də qalmalıdır. Xəzər dənizinin ekosisteminin qorunması bütün Xəzəryanı ölkələrin ümumi işidir. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir. Xəzər dənizində zəngin neft-qaz yataqları yerləşir. Xəzərin Azərbaycan sektorunda İran və Rusiya şirkətləri neft-qaz yataqlarının işlənməsində 20 ildir ki, iştirak edir, böyük sərmayə qoyur. Öz növbəsində, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – SOCAR Xəzərin İran və Rusiya sektorlarında aparılan işlərdə iştirak etməkdə maraqlıdır.

Üçtərəfli format iqtisadi əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldırmaq üçün yaxşı imkanlar yaradacaqdır. Rusiya və İran bizim əsas ticarət tərəfdaşlarımızdandır. Əminəm ki, üçtərəfli format ölkələrimizin biznes strukturları üçün də faydalı olacaq. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, qarşılıqlı ixrac imkanlarının genişləndirilməsi iqtisadi əməkdaşlıq üçün böyük əhəmiyyət kəsb edir. Maliyyə, bank, sığorta sektorunda əməkdaşlığın yaxşı perspektivləri vardır. Ölkələrimizin

geniş maliyyə imkanlarını nəzərə alaraq, biz başqa ölkələrdə müştərək investisiya layihələrində iştirak edə bilərik.

Azərbaycanda sərmayə qoyuluşu üçün münbit şərait yaradılıb. Son 20 ildə Azərbaycana 200 milyard dollar investisiya yatırılıb. Bunun yarısı xarici sərmayədir. Kənd təsərrüfatı, turizm, telekommunikasiya sahələri sərmayə qoyuluşu üçün böyük potensiala malikdir. Davos Dünya İqtisadi Forumunun qlobal rəqabətqabliyyətliliyi indeksində Azərbaycan 40-cı yerə layiq görülüb.

Elektroenergetika sektorunda əməkdaşlıq uğurla aparılır. Azərbaycan həm İran, həm də Rusiya ilə öz enerji xətlərini birləşdirib. Hər iki ölkə ilə enerji mübadiləsinin həcmi ildən-ilə artır. Rusiya ilə mövcud olan sazişə əsasən Azərbaycanın enerji sistemi Rusiyanın Vahid Enerji Sistemi ilə paralel iş rejimində fəaliyyət göstərir. İki ölkənin enerji sistemlərini «Xaçmaz–Dərbənd» və «Yalama» elektrik veriliş xətləri birləşdirir. İran ilə də hazırda «Parsabad», «Astara–Astara», «Araz» və «Culfa» elektrik veriliş xətləri ilə enerji mübadiləsi həyata keçirilir. Bir neçə gün əvvəl İmişli və Parsabad arasında elektrik xətti birləşdirildi. Masallı və Astara şəhərləri arasında isə elektrik xətti yaxın gələcəkdə tam istismara veriləcəkdir.

Artıq Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. İxrac potensialımız artır. Əminəm ki, birgə səylərlə biz etibarlı enerji dəhlizinin formalaşmasına nail ola bilərik. Bu dəhliz 3 ölkə arasında enerji mübadiləsini və yeni bazarlara çıxışı təmin edə bilər.

Şadam ki, sərhəd mühafizəsi işində etibarlı əməkdaşlıq mövcuddur. Azərbaycan tərəfinin təşəbbüsü ilə bu il İran, Rusiya, Azərbaycan sərhəd xidmətlərinin rəhbərləri Bakıda görüş keçirmişlər. Bu sahədə əməkdaşlığın dərinləşməsi, birgə təlimlər o cümlədən Xəzər dənizində, birgə tədbirlər, operativ informasiya mübadiləsi ölkələrimizin təhlükəsizliyini daha da möhkəmləndirəcək.

Nəqliyyat sektorunda əməkdaşlığın çox gözəl və ümidverici gələcəyi vardır. Azərbaycan dünyada yeganə ölkədir ki, həm İran,

həm Rusiya ilə sərhədi var. Hazırda Rusiya ilə Azərbaycan arasında dəmir yolu əlaqəsi mövcuddur. Bu il biz qərar qəbul etmişik ki, yaxın gələcəkdə Azərbaycan İran sərhədinə qədər öz dəmir yolunu uzatsın. Ümid edirəm ki, biz yaxın aylarda buna nail olacağıq. Eyni zamanda, bu yaxınlarda Azərbaycan–İran sərhədində Astaraçay üzərində dəmir yolu körpüsünün təməlqoyma mərasimi keçirilib. Bu infrastruktur layihələri Şimal–Cənub nəqliyyat dəhlizinin ayrılmaz tərkib hissəsidir.

Şimal–Cənub nəqliyyat dəhlizi strateji əhəmiyyət daşıyan transmilli layihədir. Gələcəkdə bir çox ölkələr bu dəhlizdən istifadə edəcək. Bu dəhlizin çox böyük iqtisadi səmərəsi vardır. Tranzit yüklərin daşınması üçün vaxt baxımından da bu yol çox əlverişlidir. Ümid edirəm ki, birgə səylərlə bu layihənin icrasına tezliklə nail olacağıq.

Sevindirici haldır ki, ölkələrimizdə dini və milli məsələlərdə heç bir problem yoxdur. Bu bizim ölkələrimizin qazandığı dəyər və sərvətdir.

Azərbaycan əsrlərboyu müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu məkan olub. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Tarixboyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh, qardaşlıq şəraitində yaşayıblar. Multikulturalizm Azərbaycanda həyat tərzidir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. 2016-cı il Azərbaycanda «Multikulturalizm ili» elan edilib.

Azərbaycan nadir ölkələrdəndir ki, həm İslam Əməkdaşlıq Təşkilatında, həm də Avropa Şurasında təmsil olunur. Ölkələrimiz bu təşkilatlar daxilində uğurla əməkdaşlıq edir.

Hörmətli həmkarlarım! Yaratdığımız yeni üçtərəfli əməkdaşlıq formatı böyük potensiala malikdir. Bu çox önəmli, yeni geosiyasi təşəbbüsdür. Üçtərəfli əməkdaşlıq regionda sülhün, təhlükəsizliyin, sabitliyin təmin olunmasına xidmət edəcəkdir. İqtisadi əməkdaşlıq, energetika, nəqliyyat sektorlarında üçtərəfli əməkdaşlıq xalqlarımızın rifah halının yaxşılaşmasını təmin edir. Əsasını qoyduğumuz bu format beynəlxalq aləmdə özünə layiq yerini

tutacaq. Biz bu gün mehriban qonşuluq nümunəsini göstəririk. Biz bu gün sübut edirik ki, əgər qarşılıqlı hörmət, xoş niyyət varsa, arzularımız səmimidirsə, hətta bizim qeyri-sabit, böhran və münaqişələrlə dolu olan regionumuzda ölkələrimizi risklərdən qoruya, sabitliyi möhkəmləndirə, əməkdaşlığı dərinləşdirə bilərik.

Diqqətinizə görə minnətdaram.

**İran prezidenti Həsən Ruhaninin çıxışı**

Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev!

Rusiya Federasiyasının Prezidenti hörmətli cənab Vladimir Putin!

Hörmətli qonaqlar!

İlk növbədə, Azərbaycan Respublikasına qonaqpərvərliyə və belə bir görüşü keçirməsinə görə minnətdarlığımı bildirirəm.

İran İslam Respublikasının xarici siyasətinin prinsiplərinə əsasən qonşu ölkələrlə əlaqələrin genişləndirilməsi əsas götürülür. Ona görə də İran hər hansı bir təşəbbüsə, razılaşmalara, anlaşmalara tərəfdardır. İran, Azərbaycan və Rusiya arasında olan üçtərəfli görüş fikir mübadiləsinə, ortaq mənafelərin yaranmasına imkan verir. İran İslam Respublikası bu ideyanı yüksək dəyərləndirir. Şübhəsiz ki, bu üçtərəfli görüşün keçirilməsi regionda təhlükəsizliyin möhkəmləndirilməsi, ölkələrimizin əlaqələrinin genişləndirilməsi və dərinləşdirilməsi üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Bu üç qonşu ölkə regionda geosiyasi və coğrafi baxımdan mühüm önəmə malikdir.

Ölkələrimiz siyasi, iqtisadi, mədəni, sosial, texnologiya sahələrində bir sıra təhlükələrlə üz-üzədir. Bu onların qarşılıqlı anlaşmaya nail olmasını əvvəlkindən də artıq zəruri edir. Biz İran İslam Respublikasında inanırıq ki, indiki şəraitdə müxtəlif təhdidlərlə üzləşən bir ölkənin təkbaşına fürsətlərdən yararlanma imkanı olmayacaq. Hər ölkənin xalqının rifah və firavanlığı üçün başqa ölkələrlə, xüsusilə qonşu ölkələrlə əməkdaşlıq lazımdır. İranın xarici siyasəti başqa ölkələrlə, xüsusilə qonşu ölkələrlə

əməkdaşlığa, habelə müştərək mənafeyə əsaslanır. Bu sahədə aparılan müzakirələrin, danışıqların faydalı olduğunu hiss edirik.

Müxtəlif tarixi, mədəni, dini və sosial sahələrdə ortaq dəyərlər, habelə mövcud potensiallardan zamanında yararlanmaq üçtərəfli əlaqələrin genişlənməsi üçün fürsətlər yaradır. Müxtəlif potensiallardan istifadə, enerji məsələləri, habelə geosiyasi, coğrafi mövqe üç qonşu ölkə arasında əlaqələrin genişləndirilməsi baxımından böyük bir fürsətdir. Digər tərəfdən, terrorizm, ekstremizm, ekoloji sahədə müxtəlif problemlərin yaranması, mütəşəkkil cinayətkarlıq və digər problemlərlə mübarizə hər üç ölkənin anlaşmaya nail olmasını tələb edir.

Son illərdə dünyada baş verən dəyişikliklər, əməkdaşlıq və ortaq fikrə sahib olmaq bu problemlərə üstün gəlməyin mümkünlüyünü göstərir. Görürük ki, potensialdan istifadə etmək mümkündür. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında müxtəlif sahələrdə əlaqələrdə çox müsbət dəyişikliklər baş verib. Bu iki ölkə arasında yaxşı qonşuluq münasibətləri var, əlaqələrin genişlənməsi üçün müxtəlif təşəbbüslər irəli sürülüb. Ticari-iqtisadi əməkdaşlığın genişlənməsi baxımından gömrük sahəsində əməkdaşlıq, elektrik xətlərinin, habelə dəmir yollarının birləşdirilməsi ilə bağlı anlaşmalar, Astaraçayın üzərində körpünün salınması, həmçinin Xudafərin su mənbəyindən müştərək istifadə edilməsi kimi faktları göstərmək olar.

Rusiya ilə ikitərəfli əlaqələrimiz göstərir ki, hər iki ölkənin rəhbərləri arasında xüsusilə son 2 ildə yaxşı münasibətlər var. Bu iki ölkənin əlaqələrinin genişləndirilməsi və nüvə probleminin həlli üçün eyni mövqeyə sahib olmaları, xüsusilə Suriya məsələsində əməkdaşlıq münasibətlərin inkişafına sübutdur. Bunu xüsusilə üçtərəfli əməkdaşlığa sirayət etdirmək də mümkündür. O cümlədən viza rejiminin sadələşdirilməsi, sərmayə qoyuluşu, gömrük və texnologiya sahələrində əməkdaşlıq ticari əlaqələrin genişlənməsinə bariz nümunədir. Bu həmçinin əlaqələrin inkişafı üçün böyük perspektiv açır.

İran hesab edir ki, üç ölkənin eyni mövqeyə, qarşılıqlı etimada sahib olması müxtəlif sektorlarda, xüsusilə mədəni, iqtisadi sa-

hələrdə potensialı üzə çıxarmağa imkan yaradacaq. Bu ölkələrin bir-birinə yardım etmələri regionda mövcud olan təhdidlərə qarşı mübarizə sahəsində əməkdaşlığa da töhfə verə bilər. Regionda üç ölkənin əməkdaşlığı sayəsində inkişafın mümkünlüyünə inanırıq. Bugünkü görüş bunu bir daha göstərir.

Ticari-iqtisadi əlaqələrin genişləndirilməsi, enerji, nəqliyyat, bank, sərmayə qoyuluşu, turizm, habelə dəmir yolu, gəmiçilik sahələrində əməkdaşlıq üçün potensiallardan tam istifadə olunması, maneələrin aradan qaldırılması məqsədilə lazımi işlər görülməlidir. Üçtərəfli anlaşmalar bu baxımdan mühüm rol oynaya bilər. Hökumətlərarası müştərək komissiyaların fəaliyyəti üç ölkənin əlaqələrinin genişləndirilməsinə yönəldilib. İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu Komissiyaya həmsədrliyi həyata keçirir. Təklif edirik ki, bu Komissiyanın sədrləri belə anlaşmaların imzalanması, yeni əməkdaşlıqların genişləndirilməsi və sərmayə qoyulması, üçtərəfli layihələrin həyata keçirilməsi üçün lazımi işlər görsünlər.

Həqiqətən də iqtisadi inkişaf və rifah regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verir. Belə bir şəraitdə terrorizmə və ekstremizmə qarşı mübarizə, sabitliyin və təhlükəsizliyin təmin olunması müxtəlif fikir ayrılıqlarını müzakirə və danışıqlar yolu ilə həll etməyin mümkün olduğunu göstərir. Terrorizmlə, ekstremizmlə mübarizədə əməkdaşlığımızın potensialından istifadə etmək faydalı olar. Diqqətinizə görə təşəkkür edirəm.

## Rusiya prezidenti Vladimir Putinin çıxışı

Çox sağ olun, hörmətli cənab prezident Əliyev!

Hörmətli prezident Ruhani!

Hörmətli həmkarlar!

Əvvələn, bu üçtərəfli görüşün təşkil edilməsi təşəbbüsünə görə prezident İlham Heydər oğlu Əliyevin ünvanına İran Prezidentinin indicə söylədiyi təşəkkür sözlərinə qoşulmaq istərdim.

Azərbaycan və İran Rusiya üçün mehriban qonşular və mühüm tərəfdaşlardır. Biz bir-birimizlə səmərəli əməkdaşlıq üzrə zəngin

təcrübə toplamışıq. Sözsüz ki, bu gün biz münasibətlərimizdə yeni səhifə açırıq, üçtərəfli formatda qarşılıqlı fəaliyyətə start veririk. Bizim fikrimizcə, belə formata ehtiyac olması aşkardır. Üç ölkəni birləşdirən əsas amil geniş əhatəli regional və qlobal məsələlərə yanaşmanı əlaqələndirməyə hazır olmağımız, ticari-iqtisadi sahədə çoxplanlı praktiki əməkdaşlığı bundan sonra da genişləndirmək istəyimizdir. Onu da qeyd edim ki, bütün dövlətlər, hər halda, çoxsaylı dövlətlər bu cür problemlərlə üzləşir. Bu, davam edən qlobal iqtisadi böhrana da, gərginliyə də aiddir. Bizim ölkələr üçün bu çox cəhətdən onunla bağlıdır ki, indicə dediyim gərginlik sizin və bizim sərhədlərdə xeyli dərəcədə mövcuddur. Mən həm Əfqanıstanı, həm də Yaxın Şərqi, qeyri-sabitlik zonalarını və qaynar münaqişələri, ilk növbədə, İŞİD, «Cəbhət ən-Nusra» və digər terror təşkilatları tərəfindən artmaqda olan terror təhlükəsini nəzərdə tuturam. Bütün bunlar bizim üçün real təhlükədir. Bu problemlərin həlli yollarını birgə axtarmaq istəyi ölkələrimizin daha sıx qarşılıqlı əlaqəsini tənzimləmək zərurətini şərtləndirir. Üçtərəfli əməkdaşlığın əsas istiqamətləri bizim bugünkü Zirvə toplantısının yekunlarına əsasən qəbul edəcəyimiz Bəyannamədə göstərilib.

Rusiyanın nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edən bəzi məsələləri qeyd etmək istərdim. Məsələn, beynəlxalq terror təşkilatlarının fəaliyyəti barədə informasiya mübadiləsinin fəallaşdırılmasını məqsədəuyğun hesab edirik. Bu, ölkələrimizin ərazisindən silahlıların, silahların və narkotiklərin tranzitinin qarşısının daha səmərəli alınması üçün lazımdır.

Ümid edirik ki, Xəzər problemlərinə dair üçtərəfli dialoq da Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya üzərində işin tezliklə tamamlanmasına şərait yaradacaq. Əminəm ki, Konvensiyanın imzalanması və onun müddəalarının reallaşdırılması Xəzəryanı 5 ölkənin hamısının mənafelərinə uyğundur.

Nəqliyyat infrastrukturu sahəsində əməkdaşlığın perspektivi ümidverici görünür. Mən Azərbaycan Prezidentinin artıq qeyd etdiyi Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin Qərb şaxəsinin yaradılması planlarını nəzərdə tuturam. Energetika

sahəsində ilk növbədə, Xəzər regionunda neft-qaz yataqlarının kəşfiyyatı və işlənməsi layihələrinin reallaşdırılmasını prioritet hesab edirik. Biz hasil edilən xammalın daşınması üçün boru kəməri infrastrukturundan birgə istifadə edilməsinin qarşılıqlı faydalı sxemlərini də müzakirə etməyə hazırıq.

Təbii ki, mədəniyyət, turizm, gənclərin mübadiləsi, təhsil sahəsində əməkdaşlıq məsələlərinə diqqəti artırmaq, üç ölkənin regionları arasında birbaşa əlaqələrin inkişafına şərait yaratmaq lazımdır.

Əminəm ki, qonşuların – Rusiya, Azərbaycan və İranın əməkdaşlığı gələcəkdə də praqmatik, qarşılıqlı faydalı xarakter daşıyacaq və ölkələrimizin xalqlarının köklü maraqlarına cavab verəcək, bütün Xəzər regionunun dinamik inkişafı üçün yeni imkanlar yaradacaqdır.

Hörmətli həmkarlar, sözsüz ki, biz hələ çox iş görməliyik və sizi əmin etmək istəyirəm ki, Rusiya birgə fəal işə hazırdır.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Dövlətimizin başçısı İlham Əliyev Zirvə görüşünə yekun vurdu.*

## Azərbaycan prezidenti İlham Əliyevin yekun çıxışı

Sağ olun, Vladimir Vladimiroviç!

Hörmətli həmkarlar!

Bir neçə dəqiqədən sonra Zirvə görüşünün Birgə Bəyannaməsi imzalanacaq. Artıq 2 gündür ki, Bəyannamənin üzərində çox fəal iş aparılır. 2 gündür ki, ikitərəfli formatda görüşlər keçirilir. Dünən İran İslam Respublikasının Prezidenti cənab Ruhani, bu gün isə Rusiya Federasiyasının Prezidenti cənab Putin ilə mənim görüşüm olubdur. Rusiya və İran prezidentləri də bu gün görüşmüşlər. Yəni bu görüşlərin çox böyük mənası var. Əslində yaratdığımız üçtərəfli format ikitərəfli əlaqələrin əsasında yaranır.

Şadam ki, həm Azərbaycanın Rusiya və İranla, həm də Rusiyanın İran ilə əlaqələri çox yüksək səviyyədədir. Bu əlaqələrin

inkişafı imkan verir ki, bu gün biz yeni bir əməkdaşlıq formatı haqqında nəinki danışaq, onu yaradaq da. Bu gün imzalanacaq Birgə Bəyannamə həm görülən işləri, bizim niyyətimizi, mövqemizi, eyni zamanda, gələcəyə baxışlarımızı əks etdirir.

Yaşadığımız region çox mürəkkəbdir, risklərlə, təhdidlərlə dolu bölgədir. Əfsuslar olsun ki, bu risklər azalmır, getdikcə artır. Belə olan halda, üçtərəfli əməkdaşlıq regional təhlükəsizlik üçün əsas şərtdir.

Rusiya–İran–Azərbaycan üçtərəfli əməkdaşlığı bölgədə sabitləşdirici amildir. Hesab edirəm ki, biz birgə səylərlə həm ölkələrimizi mümkün olan risklərdən qoruyacağıq, eyni zamanda, geniş mənada regionda əməkdaşlığı dərinləşdirəcəyik.

Bu gün gündəlik çox genişdir. Artıq həmkarlarım çıxışlarında bu barədə öz sözlərini dedilər. Əlbəttə, gələcəkdə biz siyasi əlaqələri daha da möhkəmləndirməliyik. Biz qonşuyuq. Biz mehriban qonşuluq şəraitində yaşayırıq və bu birliyi möhkəmləndirməliyik. Eyni zamanda, iqtisadi sahədə ixrac potensialımızın, ticarət dövriyyəsinin artırılması istiqamətində əlavə tədbirlər görüləcək. Nümayəndə heyətlərinin müvafiq nazirləri bu məsələ ilə bağlı artıq görüşüblər və müəyyən razılığa gəliblər. Xüsusilə nəqliyyat, energetika sahələrində əməkdaşlıq üçün çox gözəl imkanlar var. Bu əməkdaşlıq üç ölkənin səyi ilə yaranıbdır və bir çox ölkələr buna qoşulacaq. Yaradacağımız Şimal–Cənub nəqliyyat dəhlizi ölkələrimizin həm təhlükəsizliyini, həm də iqtisadi maraqlarını təmin edəcəkdir.

Mən giriş sözümdə qeyd etdim ki, bizim əməkdaşlığımızın təməlində səmimi münasibətlərimiz, xoş niyyətimiz durur. Biz göstəririk və sübut edirik ki, bu mümkündür. Qonşular arasında bəzən problemlər, bəzən münaqişələr olur. Xoşbəxtlikdən bizim aramızdakı əlaqələr ancaq dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında qurulubdur. Biz bir-birimizi dəstəkləyirik, bir-birimizə inanırıq, bir-birimizə güvənirik.

Biz həm bölgəyə, həm dünyaya çox gözəl əməkdaşlıq formatını nümayiş etdiririk. Əminəm ki, bu Zirvə görüşünün nəticələri çox uğurlu olacaq. Bəyannamədə əks olunan bütün məsələlər icra

ediləcək və beləliklə, xalqlarımız daha da yaxşı, təhlükəsizlik, sülh, rifah, əmin-amanlıq şəraitində yaşayacaq.

Mən öz həmkarlarıma bir daha minnətdarlığımı bildirmək istəyirəm. Burada qeyd olundu ki, bu görüşün təşəbbüskarı Azərbaycan olmuşdur. Bu ilin fevral ayında mən İran İslam Respublikasında rəsmi səfərdə olarkən, prezident Ruhani ilə bu məsələni müzakirə etdim. Ondan çox müsbət cavab aldım. Ondan sonra prezident Putin ilə əlaqə saxladım. Onun da münasibəti çox müsbət oldu. Daha sonra üç ölkənin Xarici İşlər nazirləri aprel ayında Bakıda görüşdülər və bu Zirvə görüşünün hazırlanması üçün çox fəal iş gördülər.

İmzalayacağımız Birgə Bəyannamə çox ciddi siyasi sənəddir. Bugünkü görüş tarixi görüşdür. Çünki bu həm tarixə əsaslanır – xalqlarımız əsrlərboyu bir yerdə olmuşlar – eyni zamanda, bu, tarixdə ilk dəfədir. Əminəm ki, bu görüşün davamı olacaq və bizim ölkələrimizin bundan sonrakı əməkdaşlığı dərinləşəcək.

İndi isə xahiş edirəm, imzalanma mərasiminə başlayaq.

* * *

*Sonda Azərbaycan prezidenti İlham Əliyev, İran prezidenti Həsən Ruhani və Rusiya prezidenti Vladimir Putin Zirvə görüşünün Birgə Bəyannaməsini imzaladılar.*

* * *

**İ l h a m  Ə l i y e v:** İran İslam Respublikasının Prezidenti cənab Ruhani təklif edir ki, növbəti üçtərəfli görüş İranda keçirilsin. Bu təklifə görə biz minnətdarıq və məmnuniyyətlə növbəti dəfə qardaş ölkədə yenidən görüşərik. Çox təşəkkür edirəm, cənab Prezident.

Beləliklə, bugünkü Zirvə görüşü başa çatır. Bir daha təşəkkür edirəm, hamınıza uğurlar arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN, İRAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*Heydər Əliyev Mərkəzi*

*8 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin avqustun 8-də Heydər Əliyev Mərkəzində görüşü olmuşdur.*

*Söhbət zamanı Azərbaycan, İran və Rusiya dövlət başçılarının ilk üçtərəfli görüşünün əhəmiyyəti qeyd edildi. Ölkələrimiz arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi baxımından bu görüşün önəmi vurğulandı.*

*Görüşdə əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ ÇAY SÜFRƏSİ ARXASINDA SÖHBƏT

*8 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putini evinə çay süfrəsinə dəvət etmişdir.*

*Prezidentlər çay süfrəsi arxasında səmimi söhbət etdilər.*

*Dövlət başçıları söhbət zamanı Bakıda Azərbaycan, İran və Rusiya prezidentlərinin üçtərəfli Zirvə görüşünün çox uğurla başa çatdığını məmnunluqla qeyd edib, bu tədbirin ölkələrimiz arasında və regionda əməkdaşlığın gücləndirilməsi, əlaqələrin daha da inkişaf etdirilməsi baxımından önəmli rol oynayacağına əminliklərini bildirdilər.*

*Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan prezidentlər əlaqələrimizin perspektivləri ətrafında fikir mübadiləsi apardılar.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Kvetta şəhərində xəstəxanada törədilmiş terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli terror aktından son dərəcə hiddətlənir, terrorizmə qarşı qətiyyətlə və ardıcıl mübarizə aparılmasını vacib hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 avqust 2016-cı il*

## QƏBƏLƏ RAYONUNA SƏFƏR

*10 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələ rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev abidənin ətrafında, ümumiyyətlə, son illər rayonda görülən işlər barədə prezident İlham Əliyevə məlumat verdi.*

### Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Qəbələ rayonunda 24 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələrdə 860 uşaq təhsil alır. Rayonun tələbatını nəzərə alaraq, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 100 yerlik daha bir yeni məktəbəqədər təhsil müəssisəsi inşa olunub.*

*Sahəsi 3300 kvadratmetr olan ikimərtəbəli binada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin həyat və fəaliyyətlərini, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın uşaqlara diqqət və qayğısını əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Qrup otaqlarında uşaqların təlim-tərbiyəsi, yataq otaqlarında isə balacaların rahatlığı üçün hər cür şərait var. Bağçada əyləncə, idman və oyun zonası, musiqi otağı, digər təlim və tədris*

*məkanları da yaradılıb. Bağçanın ətrafındakı yaşıllıq zolağı, əyləncə meydançası və attraksionlar da uşaqların çox xoşuna gəlir.*

## «Qafqaz Tufandağ Mountain Resort» hotelinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələdə «Qafqaz Tufandağ Mountain Resort» hotelinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı hotelin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, Qəbələnin əsas turizm infrastruktur obyektləri sırasında xüsusi özəlliyi ilə seçilən bu hotelin inşası 2014–2016-cı illərdə «Şinkar Holdinq» MMC tərəfindən həyata keçirilib. Ərazisi 4 hektar olan hotelin tikinti sahəsi 3400 kvadratmetrdir. Beşmərtəbəli binada 50 otaq, o cümlədən 23 standart, 12 ailəvi, 14 junior suite, 1 kral nömrəsi yerləşir. Bununla yanaşı, ərazidə 3 kottec də yaradılıb. Hoteldə 100 nəfərlik kafe-bar, 400 nəfərlik kafe, 500 nəfərlik steak və şərab evi, 200 nəfərlik «Duruca» yeməkxanası, 500 nəfərlik «Qəbələ» kafesi fəaliyyət göstərir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün geniş imkanlar var. Ümumi sahəsi 560 kvadratmetr olan SPA və idman mərkəzində zəruri avadanlıqlar quraşdırılıb, istirahət üçün hər cür şərait yaradılıb.*

*Hoteldə uşaqlar üçün ayrıca yeməkxana və oyun zalı yaradılıb. «Qafqaz Tufandağ Mountain Resort»da sahəsi 1692 kvadratmetr olan terras yaradılıb, xizək ləvazimatlarının kirayəsi və satışı mağazası açılıb, xizək yolu eskalatoru qurulub və təlimlər üçün otaqlar inşa edilib. Bu da qış mövsümündə hoteldə dincələn qonaqların xidmətlərdən yüksək səviyyədə istifadə etmələrinə geniş imkanlar açır. Hotel kompleksində 250 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.*

*Beləliklə, turizmin əsas komponenti olan hotel biznesinin Qəbələdə inkişaf etdirilməsi və onun müasir standartlar səviyyəsində qurulması yaxın gələcəkdə artıq bu bölgəmizin dünya-*

*nın nüfuzlu istirahət məkanlarından birinə çevrilməsinə təminat verir.*

**«Qəbələ» Park-Bulvar Kompleksinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da «Qəbələ» Park-Bulvar Kompleksinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, kompleksin inşasına 2013-cü ilin may ayında başlanılıb və bu il başa çatdırılıb. Rayonun daxili imkanları hesabına salınan kompleksin ümumi sahəsi 10 hektardır. Qəbələ şəhərinin ərazisindən keçən, meşə sularından qidalanan Qaraçay çayının hər iki sahilində salınmış parkın ərazisində 8 körpü tikilib, 9 fəvvarə, uşaqlar üçün karusel quraşdırılıb. Geniş yaşıllaşdırma işlərinin görüldüyü ərazidə müxtəlif sosial obyektlər, yay kafesi, Çay evi tikilib, 3,5 kilometr uzunluğunda piyada gəzinti zolağı salınıb. Tikinti işləri zamanı çayın ətrafı da genişləndirilib, yollarda yeraltı keçidlər, hər biri 500 kubmetr su tutumu olan 41 pilləvari su hövzəsi inşa olunub. Hazırda hövzələrə gələn suyun təmizlənməsi üçün 6 kameralı sutəmizləyici qurğu və çay kənarında üçmərtəbəli restoran inşa edilir. 350 qonaq üçün nəzərdə tutulan restoran açıq zallardan ibarət olacaq. Ərazidə avtomobil dayanacağı üçün xüsusi sahə ayrılıb.*

*Bütün bunlar göstərir ki, Qəbələnin turizm potensialının mühüm tərkib hissəsi olan sosial obyektlərin, xüsusilə də əhalinin istirahətinin yüksək səviyyədə təşkil edilməsinə yönələn məkanların yaradılması davamlı xarakter alıb.*

**İcrası davam edən turizm və idman infrastrukturu layihələri ilə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələdə icrası davam edən turizm və idman infrastrukturu layihələri ilə tanış olmuşdur.*

*Layihələrin təqdimatı zamanı dövlətimizin başçısına məlumat verildi ki, «Şinkar Holdinq» MMC tərəfindən aparılan layihələndirmə və tikinti işləri çərçivəsində 2,5 hektar ərazidə 226 nömrədən ibarət yeni «Qafqaz Akva Lənd» hotelinin inşası həyata keçirilir.*

*Tikintisi davam etdirilən infrastruktur layihələrindən biri də «Qafqaz Daymond Akvapark»dır. Bu layihə çərçivəsində müxtəlif təyinatlı hovuzlar şəbəkəsi qurulacaq. Hovuzların ümumi su tutumu 5470 kubmetr olacaq. Bundan əlavə, ərazisi 350 min kvadratmetr olan «Qəbələnd» əyləncə mərkəzi və «Akva Lənd» hotelinin yaxınlığında dağların bənzərsiz gözəlliyinə açılan mənzərəli bir ərazidə yerləşən «Qəbələ Qolf Villaları» qonaqlara xoş və maraqlı istirahət imkanı təqdim edəcək.*

*«Qəbələ Qolf Villaları» ərazisində 66 villa inşa edilib. Ərazidə üçmərtəbəli, 24 mənzilli 2 bina, SPA və əyləncə mərkəzi, uşaq bağçası da var. Layihənin əsas özəlliyi ərazidə qolf sahələrinin olmasıdır. Burada 72 hektar ərazidə qolf sahəsi salınır. Qolf məşq sahəsi, qolf klub da azarkeşlərin istifadəsinə hazırlanır.*

*Dövlətimizin başçısı görülən işlərlə bağlı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## QƏBƏLƏ REGİONAL «ASAN XİDMƏT» MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Qəbələ regional «ASAN xidmət» Mərkəzinin açılışında iştirak etmişdir.*

*Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov dövlətimizin başçısına məlumat verdilər ki, Qəbələ regional «ASAN xidmət» Mərkəzinin dördmərtəbəli binasının tikintisi yüksək standartlara uyğun həyata keçirilib. Mərkəz rayonun Elçin Kərimov küçəsi, 79 ünvanında, şəhərin infrastruktur obyektlərinə yaxın ərazidə yerləşir.*

*Prezident İlham Əliyev mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mərkəzdə müstəqil Azərbaycanın inkişafında misilsiz xidmətləri olan ümummilli lider Heydər Əliyevin büstü qoyulub.*

*Artıq «ASAN xidmət» təcrübəsinin özünəməxsus hüquqi strukturu bir çox beynəlxalq tərəfdaşlar və ekspertlər tərəfindən yüksək qiymətləndirilir və bu təcrübə Azərbaycan modeli kimi təqdim edilir. Odur ki, «ASAN xidmət»in təkcə Azərbaycanda deyil, digər ölkələrdə də tətbiqi genişlənir. Bu, müxtəlif beynəlxalq tərəfdaşlarla, o cümlədən Avropa İttifaqı ilə aparılan əməkdaşlığın əsas istiqamətlərindən birini təşkil edir. Bundan əlavə, Əfqanıstan ilə dövlət xidmətlərinin göstərilməsinin mütərəqqi mexanizminin yaradılmasına dair imzalanan Anlaşma Memorandumuna əsasən,*

*«ASAN xidmət»in fəaliyyətinin bu ölkədə geniş tətbiqinə dair razılıq əldə olunub. Artıq Əfqanıstanda eyniadlı qurum təsis edilib.*

*Prezident İlham Əliyev yeni xidmətin işə başlamasını bildirən düyməni basdı.*

*Dövlətimizin başçısı binada yaradılan şəraitlə tanış olarkən bildirildi ki, «ASAN xidmət» Mərkəzinin fəaliyyətindən Qəbələ də daxil olmaqla, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, İsmayıllı, Ağsu, Şamaxı və Qobustan rayonları ərazisində qeydiyyatda olan vətəndaşlar, ümumilikdə, 902 min 435 sakin yararlanacaq.*

*Fəaliyyətə başladığı tarixdən bu günədək «ASAN xidmət» mərkəzlərinə 11 milyonadək müraciət daxil olub. Gün ərzində isə 20 min vətəndaş müraciət edir. 2013-cü ildən «ASAN xidmət» mərkəzlərinin təsis edilmədiyi regionların əhalisinə xidmətlərin çatdırılması məqsədilə xüsusi avtobuslarla səyyar xidmətlər göstərilir. Bu günədək 700 minə yaxın vətəndaş bu xidmətdən yararlanıb. Xüsusi qayğıya ehtiyacı olan əlil vətəndaşlara xidmətlər ödənişsiz həyata keçirilib. Prezident İlham Əliyevin tapşırığına əsasən regionlarda yaşayan əhaliyə səyyar xidmətlərin keyfiyyətli və davamlı şəkildə göstərilməsinin təşkili məqsədilə səyyar xidmət avtobuslarının sayı artırılaraq 10-a çatdırılıb.*

*«ASAN xidmət» Mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının tam aradan qaldırılması, müasir texnologiyaların, «bir qapı» prinsipinin tətbiq olunmasıdır. Əsas prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış qaydalarına nəzarət və rahatlıq olan «ASAN xidmət» mərkəzləri öz fəaliyyətini yüksək standartlar çərçivəsində qurur və inkişaf etdirir.*

*Mərkəzdə prezident İlham Əliyev yeni layihələrlə də tanış oldu.*

*Əvvəlcə dövlətimizin başçısına «ASAN wifi» layihəsi barədə məlumat verildi. Bildirildi ki, müxtəlif yerlərdə quraşdırılan simsiz internet modemləri vasitəsilə insanların internetə əlçatanlığı təmin ediləcək. Bu layihə vasitəsilə dövlət əhəmiyyətli məlumatlar vətəndaşlara daha asan çatdırılacaq. Bundan əlavə, «ASAN TV»-*

*nin tətbiqi də nəzərdə tutulub. Bu, Azərbaycana idxal ediləcək bütün smart televizorlarda istifadəyə hazır xüsusi bir tətbiq olacaq. Tətbiq vasitəsilə insanlar televizorda «ASAN Radio»nu dinləyəcək, «ASAN xidmət»in fəaliyyəti, mərkəzlərə getmək üçün ictimai nəqliyyat vasitələri, həmçinin mərkəzlərdə növbəlilik statistikası və digər zəruri məlumatları əldə edəcəklər.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Azərbaycan və ingilis dillərində dərc edilən «ASAN» jurnalı üçün nadir qeydiyyat nömrəsi olan beynəlxalq standart seriya nömrəsi əldə olunub və beynəlxalq reyestrə daxil edilib.*

*Yeniliklərdən biri də «ASAN Visa» portalıdır. Bu portal vasitəsilə vizaların verilməsinin tam elektronlaşdırılması və sadələşdirilməsi həyata keçiriləcək. Əcnəbilər sadəcə, 3 addımda onlayn vizanı elektron formada 3 iş günü ərzində alacaqlar.*

*Artıq «ASAN i-LAB» innovasiya laboratoriyası da hazırdır. «i-LAB» innovativ texnologiyalar və proqram təminatı yaradılması ilə bağlı layihələri cəlb edərək, onların reallaşdırılması, hazır məhsul istehsalına dəstəyin göstərilməsi və məhsulun yerli və xarici bazarlara çıxarılmasına xidmət edən innovasiya laboratoriyasıdır.*

*«BAŞLA» layihəsi çərçivəsində isə istənilən sahəyə aid olan kiçik biznes ideyalarının cəlb edilməsi, maliyyələşdirilməsi və reallaşdırılmasına dəstək göstəriləcək.*

*Yeni layihələr arasında «Cücələrim inkubatoru» da var. Layihənin məqsədi köhnə soyuducuların yenidən istehsala cəlb olunması və onlardan ev quşları təsərrüfatlarının yaradılması üçün inkubatorlar istehsal edilməsidir.*

*Daha bir maraqlı layihə isə «i-LAB store»dur. Bu, «i-LAB» çərçivəsində istehsal edilmiş innovativ texnologiyalar və proqram təminatları haqqında məlumatların yerləşdiyi vahid portaldır. Portalda informasiya texnologiyaları məhsullarının onlayn satışı da həyata keçiriləcək.*

*Prezident İlham Əliyevə «Ready 1.0-hazır sənəd» cihazı haqqında da məlumat verildi. Vətəndaşlar bu cihazlar vasitəsilə sənədlərin hazır olması barədə SMS, elektron poçt vasitəsilə real*

*vaxt rejimində məlumatlandırılacaq, hazır sənədin verilməsi proseduru daha da səmərəli təşkil olunacaqdır.*

*Yeni layihələrdən biri də xilasetmə qolbağıdır. Suda batma zamanı istifadə edilən bu qolbaqlar GPS ilə təmin olunub, avtomatik işə düşmə xüsusiyyətinə malikdir.*

*«Sağlam yaşam platforması-çanta və portal» layihəsi isə vətəndaşlara qısa vaxtda 42 parametr üzrə müayinə olunmağa imkan verən bir sıra avadanlıqdan ibarət səyyar tibbi müayinə çantasıdır.*

*Dövlətimizin başçısına Sosial Layihələr Portalı barədə məlumat verilərkən bildirildi ki, bu portal dövlət və özəl təşkilatlar tərəfindən həyata keçirilən bütün sosial layihələrin vahid elektron mühitdə elan olunmasına xidmət edəcək. Bununla da daha çox insan bir ünvana daxil olmaqla, bütün layihələr haqqında məlumat əldə edəcək. Yardıma ehtiyacı olan və yardım etmək istəyən şirkətlər, təşkilatlar və fərdlər vahid portalda qeydiyyatdan keçəcəklər.*

*Diqqətə çatdırıldı ki, respublikamızda sayca 10-cu mərkəz olan Qəbələ «ASAN xidmət» Mərkəzində işçilərin ümumi sayı 200 nəfərdir, onların 45-i könüllüdür.*

*Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri və mərkəzin kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün Qəbələ şəhərində Qəbələ «ASAN xidmət» Mərkəzi öz işinə başlayır. Bu gözəl əlamətdar hadisə münasibətilə sizi təbrik edirəm. Çox gözəl, yaraşıqlı binadır. Memarlıq baxımından Qəbələ şəhərinə əlavə yaraşıq verəcək. Əlbəttə ki, bu binada ən yüksək standartlar tətbiq olunur.

Bu xidmət sayca 10-cu xidmətdir. Azərbaycanda bu günə qədər 9 «ASAN xidmət» Mərkəzi fəaliyyət göstərir – 5-i Bakıda, 4-ü digər şəhərlərdə – Gəncə, Sumqayıt, Bərdə və Sabirabadda. 10-cu mərkəz isə bu gün Qəbələ şəhərində açılır və artıq Qəbələdə də vətəndaşlar bu gözəl imkanlardan istifadə edəcəklər.

«ASAN xidmət» Azərbaycan məhsuludur, 3 il yarım ərzində 11 milyona yaxın müraciət olub. Bu, ictimai xidmətlər sektorunda çox ciddi bir irəliləyişdir. Əslində böyük bir inqilabdır. Çünki hamımız yaxşı xatırlayırıq ki, əvvəlki dövrlərdə bəzən hansısa sənədi, arayışı almaq üçün insanlar günlərlə, həftələrlə vaxt

itirirdilər, müəyyən çətinliklərlə üzləşirdilər. İndi isə insanlar bütün bu imkanlardan rahat, çox asan formada istifadə edirlər.

«ASAN xidmət»i bəyənmə əmsalı da çox yüksəkdir. Təhlillər aparılır, rəy sorğuları keçirilir və əhalinin 98 faizi mərkəzlərdə göstərilən xidmətlərdən razıdır. Çünki burada şəffaflıq təmin edilir, bürokratiya, rüşvətxorluq yoxdur, mədəni xidmət göstərilir. Əslində belə də olmalıdır. «ASAN xidmət» nəinki ictimai xidmətlər sahəsində, ümumiyyətlə, cəmiyyət üçün çox vacib olan bir institusional mərkəzdir.

Müraciət edən vətəndaşlar bütün lazımi sənədləri artıq yeni şəraitdə alırlar. Qeyd etdiyim kimi, vətəndaşların mütləq əksəriyyəti bu xidmətlərdən razıdır. Bununla bərabər, 10 avtobus səyyar xidmət fəaliyyət göstərir. Biz «ASAN xidmət»in funksiyalarını genişləndiririk. Hazırda 200-dən çox xidmət göstərilir. Yaxın gələcəkdə xüsusilə kommunal ödənişlərlə, vizaların verilməsi ilə bağlı yeni xidmətlər də göstəriləcək.

Bu gün biz Azərbaycanda çox böyük turist axınını müşahidə edirik. Ölkəmizin təbii imkanları, şəhərlərimizin gözəlliyi, Azərbaycanda hökm sürən sabitlik, təhlükəsizlik turistləri daha da çox cəlb edir. Bakıda və ölkəmizin digər yerlərində keçirilən mötəbər beynəlxalq tədbirlər öz rolunu oynayır, Avropa oyunları, «Formula-1» yarışı – onun auditoriyası 500 milyon insandır. Qəbələ şəhərində artıq bu il 8-ci dəfə Beynəlxalq musiqi festivalı keçirilib. Bu tədbirlər Azərbaycanı turistlər üçün daha da cəlbedici ölkəyə çevirir. «ASAN Visa» xidmətinin fəaliyyətə başlamasından sonra – bu da oktyabr ayında nəzərdə tutulur – əminəm ki, gələnlərin sayı daha da artacaq.

Bu gün mənə verilən məlumata görə, yay aylarında Qəbələnin çoxsaylı hotellərində boş yer olmur. Ölkə vətəndaşları, xarici vətəndaşlar gəlirlər, istirahət edirlər, Azərbaycan ilə tanış olurlar, Qəbələnin gözəlliyini seyr edirlər.

Turizm hər bir ölkə üçün çox mühüm əhəmiyyət daşıyan sahədir. Şadam ki, Azərbaycanda atılan addımlar, ölkəmizin dünyaya təqdimatı turizmin inkişafına da xidmət göstərir.

Bir sözlə, «ASAN xidmət» qısa müddət – 3 il yarım ərzində cəmiyyətdə çox böyük rəğbət qazanıb, ictimai xidmətlər sektorunda, bir daha demək istəyirəm ki, inqilab yaradıbdır.

Gələcəkdə biz «ASAN xidmət» mərkəzlərinin sayını artıracağıq. Bu mərkəz 10 rayona – Balakən, Zaqatala, Qax, Şəki, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Qobustan, Oğuz rayonlarına xidmət göstərəcək. Bu rayonlarda 900 mindən çox əhali yaşayır. Növbəti «ASAN xidmət» Mərkəzi bu il Masallıda açılacaq və ondan sonra Şəki şəhərində «ASAN xidmət» Mərkəzinin yaradılması nəzərdə tutulur. Beləliklə, insanlar üçün bu xidmətdən istifadə etmək daha da asan olacaq.

«ASAN xidmət» mərkəzlərində çalışanların əksəriyyəti gənclərdir, qızlardır. Bu da çox gözəl haldır. Çünki biz qadınları işlə təmin etmək üçün daha da ciddi iş görməliyik, çalışmalıyıq. Ümumiyyətlə, məşğulluğun artırılması Azərbaycanda Dövlət Proqramıdır. İşsizlik Azərbaycanda aşağı səviyyədədir, ancaq hələ ki var. Ona görə «ASAN xidmət» mərkəzlərinin fəaliyyətə başlaması yeni iş yerlərinin açılması deməkdir. Bu mərkəzdə 153 iş yeri açılır və işləyənlərin əksəriyyəti gənclərdir. Gənclər də bu gözəl şəraitdə işləyərkən, özlərini gələcəyə hazırlayırlar ki, cəmiyyətdə yaxşı və layiqli yer tuta bilsinlər. Mənə verilən məlumata görə, bu mərkəzdə 45 könüllü fəaliyyət göstərəcək, insanlara yardım edəcəkdir.

Əslində Azərbaycanda könüllülər hərəkatı «ASAN xidmət»dən başlanıb. 8000 gənc könüllü olaraq, müxtəlif «ASAN xidmət» mərkəzlərində işləyib və hazırda bütün mərkəzlərdə 700 könüllü fəaliyyət göstərir. Bax, bu könüllülər eyni zamanda, Bakıda keçirilmiş beynəlxalq tədbirlərdə də uğurla iştirak ediblər, xüsusilə keçən il Avropa oyunlarında və «Formula-1» yarışmasında könüllülər tədbirlərin keçirilməsində çox mühüm rol oynayıblar. Mən I Avropa oyunlarında çox böyük iş görmüş könüllüləri xüsusilə fərqləndirdim, onlara Prezident diplomu verilibdir. Yəni bu çox ciddi ictimai təşəbbüsdür.

Könüllülər hərəkatının genişlənməsi cəmiyyət üçün lazımdır. Könüllü olmaq, ümumiyyətlə, insanların xoş niyyətini göstərir.

İnsanlar təmənnasız olaraq, kiməsə kömək etmək, ümumi işimizə töhfə vermək üçün öz asudə vaxtlarından istifadə edib bu işləri görürlər. Yəni bu doğrudan da çox ciddi, gözəl bir niyyətin təzahürüdür. Şadam ki, Azərbaycanda könüllülər sinfi formalaşıb və onların mütləq əksəriyyəti gənclərdir. Yəni gənc nəsil bu ab-havada yetişir ki, ümumi işimizə töhfə versin, dövlətimizi möhkəmləndirsin və köməyə ehtiyacı olan insanlara yardım göstərsin. Bax, könüllülük funksiyası və niyyəti bundan ibarətdir.

Beləliklə, 3 il yarım bundan əvvəl qəbul edilmiş qərarın görün nə qədər ciddi, böyük və xoş, çoxşaxəli təsiri var, ilk növbədə, ictimai xidmətlər sahəsində. Digər tərəfdən, «ASAN xidmət» mərkəzlərində bürokratiya, xoşagəlməz hallar yoxdur. Birincisi bu, bir nümunədir, hər bir dövlət orqanı üçün nümunədir. İkincisi, bu onu göstərir ki, biz cəmiyyətimizin yaralarını aradan qaldıra, sağalda bilərik. Çünki cəmiyyətimizi korrupsiya, rüşvətxorluq qədər sarsıdan ikinci bəla yoxdur. «ASAN xidmət» bu istiqamətdə liderdir. Mən bu barədə rəsmi çıxışlarımda dəfələrlə demişəm. Demişəm ki, hər bir dövlət orqanı belə şəffaf işləməlidir və cəmiyyət də bunu görür, insanlar da bunu görürlər. Ona görə də bu xidmətin fəaliyyətini bəyənirlər.

Bu gündən sonra Qəbələ sakinləri və ətraf rayonlarda yaşayanlar bu xidmətdən istifadə edəcəklər və biz gələcəkdə «ASAN xidmət»in funksiyalarını daha da genişləndirəcəyik. Harada ki vəziyyət hələ bizi qane etmir, harada ki xoşagəlməz hallar var, biz o funksiyaları «ASAN xidmət» vasitəsilə təşkil edəcəyik.

Mən şadam ki, növbəti, 10-cu mərkəz Qəbələ şəhərində açılır. Qəbələ Azərbaycanın gözəl yerlərindən biridir. Qəbələnin çox zəngin tarixi var, tarixi şəhərdir, tarixi diyardır. Eyni zamanda, gözəl təbiəti var. Son illər ərzində Qəbələdə gedən inkişaf bu gözəlliyə, bu tarixə və bu təbii gözəlliyə uyğundur. Bax, siz – burada yaşayan insanlar özünüz görürsünüz ki, Qəbələ son illər necə gözəlləşib. Yeni binalar, turizm obyektləri, ictimai binalar tikilir. Bir neçə il bundan əvvəl mənim göstərişimlə Beynəlxalq aeroport tikilib. Bəziləri bu məsələyə şübhə ilə yanaşırdılar. Ancaq bu gün müxtəlif istiqamətlərə uçuşlar təşkil edilir. Gözəl memarlıq

abidəsi olan Heydər Əliyev Mərkəzi, Mədəniyyət Mərkəzi, bir çox hotellər, Beynəlxalq Atıcılıq Mərkəzi tikilib və bu işlər davam etdirilir. Bax, bu gün burada vəziyyətlə tanış olarkən, pəncərədən yeni Atıcılıq Mərkəzinin tikintisini müşahidə etdim.

Qəbələnin inkişafı göz qabağındadır. Burada yaşayanlar bunu görürlər. Mən də buna çox sevinirəm. Çünki Qəbələ indi Bakıdan sonra Azərbaycanda ikinci turizm mərkəzidir və burada bütün işlər zövqlə, səliqə ilə aparılır. Buraya gələn qonaqlar təbii ki, bunu görürlər. Görürlər ki, Azərbaycan necə gözəl ölkədir. Azərbaycanda təkcə paytaxt şəhəri deyil, eyni zamanda, bölgələr də gözəldir, gözəl şərait yaradılıb.

Qəbələnin gələcək inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək, əlavə vəsait ayrılacaq. Burada gündəlikdə dayanan əsas məsələ içməli su layihəsidir. Bu, icra edilir, xarici banklar vasitəsilə təşkil edilir. Ona görə müəyyən dərəcədə yubanma var. Əgər biz bunu daxili imkanlar hesabına etsəydik, çoxdan başa çatdırardıq. Ancaq yenə də ümid edirəm ki, yaxın gələcəkdə içməli su problemi kanalizasiya xətləri ilə bərabər, öz həllini tapacaq.

Qəbələ rayonunda qazlaşdırma 70 faizə yaxındır. Rayonun relyefini nəzərə alsaq, hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Şəhərdaxili yolların tikintisinə ehtiyac var. Biz bu məsələ ilə məşğul olacağıq və Qəbələ rayonunun gələcək inkişafını təmin edəcəyik.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm, Qəbələ sakinlərinə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

**Nuranə Ağabəyli** (*Qəbələ «ASAN xidmət» Mərkəzinin əməkdaşı*): Hörmətli cənab Prezident, Qəbələyə xoş gəlmisiniz! Sizi Qəbələ ictimaiyyəti adından salamlayıram.

Azərbaycanın ən gözəl məkanlarından biri olan Qəbələdə «ASAN xidmət»in açılmasına çox sevindik. Biz qəbələlilər bunu çoxdan gözləyirdik. Çünki Sizin yaratdığınız bu xidmət qısa müddət ərzində xalqımızın böyük etimadını və rəğbətini qazanıb. «ASAN xidmət»in müasir standartlara uyğun binası şəhərimizin

simasını daha da gözəlləşdirib. Sevindirici haldır ki, mərkəzimizdəki xidmətlərdən ətraf rayonların sakinləri də yararlana biləcəklər. Buna görə də sakinlər adından Sizə təşəkkür edirik.

Cənab Prezident, «ASAN xidmət» həm də gənclər mərkəzidir. Sizin də qeyd etdiyiniz kimi, burada çalışanların əksəriyyəti gənclərdir. Mən özüm 2 ay «ASAN xidmət»in səyyar avtobusunda könüllü olmuşam, təcrübə qazanmışam və indi çox sevinirəm ki, «ASAN xidmət» əməkdaşlarından biriyəm.

Cənab Prezident, Sizin rəhbərliyinizlə Azərbaycan regionun lider dövlətlərindən birinə çevrilib. Bakıda keçirilən Azərbaycan, İran və Rusiya dövlət başçılarının görüşü də bunun bariz nümunəsidir. Bildirmək istəyirəm ki, biz gənclər, eləcə də qəbələlilər Sizi dəstəkləyirik və fədakar fəaliyyətinizdə daim Sizin yanınızdayıq.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Yəqin burada işləyənlər buralı – Qəbələ şəhərindəndir və təlim kursları keçiblər.

**İ n a m K ə r i m o v:** Bəli, kurslar təşkil olunub.

**İ l h a m Ə l i y e v:** Bakıda, yoxsa burada?

**İ n a m K ə r i m o v:** Burada da təşkil olunub.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı.

## Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, binanın inşasına 2014-cü ilin oktyabrında başlanılıb. Tikinti işləri yüksək səviyyədə başa çatdırılıb.*

*İkimərtəbəli binada ümummilli lider Heydər Əliyevin büstü qoyulub, ulu öndərin və partiyanın sədri, prezident İlham Əliyevin fəaliyyətlərini əks etdirən fotoguşələr yaradılıb.*

*Müxtəlif iş, xidməti və yardımçı otaqlardan ibarət binada rayon təşkilatının Qadınlar Şurası və Gənclər Birliyi də fəaliyyət göstərir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün 60 yerlik konfrans zalı da yaradılıb. Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatının 6145 üzvü var.*

## Nohurqışlaq–Tüntül–Yengicə avtomobil yolunun əsaslı təmirdən sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Nohurqışlaq–Tüntül–Yengicə avtomobil yolunun əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, Nohurqışlaq–Tüntül–Yengicə avtomobil yolu respublika əhəmiyyətli Qaraməryəm–İsmayıllı–Şəki avtomobil yolunun 52-ci kilometrliyindən ayrılan yerli əhəmiyyətli yoldur. Dördüncü texniki dərəcəyə uyğun yenidən qurulan və iki hərəkət zolağından ibarət olan yolun uzunluğu 12,2 kilometr, eni 6 metrdir. Torpaq yatağının eni isə ərazilərdən asılı olaraq 8–10 metr arası dəyişir. Yenidənqurma işləri zamanı yolun deformasiyaya uğramış hissələri qazılaraq çıxarılıb, yenidən kipləşdirilib və yola yeni asfalt-beton örtüyü döşənib. Səth sularının avtomobil yolunun altından ötürülməsi üçün nəzərdə tutulmuş və dağılmış suötürücü borular yeniləri ilə əvəz edilib, yeni su keçidləri inşa olunub.*

*Ümumilikdə uzunluğu 113 metr olan 12 suötürücü boru tikilib və təmir olunub. Yolun Tüntül kəndi ərazisində dəmir-beton körpü inşa edilib. Avtonəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədilə zəruri olan yerlərdə avtobus dayanacaqları tikilib, yol nişanları quraşdırılıb, yol cizgi və yol göstərici xətlərinin çəkilişi işləri həyata keçirilib.*

*Bu yol Qəbələ rayonunun 3 yaşayış məntəqəsinin 7000 nəfərə yaxın əhalisinin gediş-gəlişini xeyli asanlaşdırmaqla yanaşı, Qaraməryəm–İsmayıllı–Şəki avtomobil yoluna maneəsiz çıxışı*

*təmin edir, həmçinin kənd təsərrüfatı məhsullarının rahat şəkildə rayon mərkəzlərinə çıxarılmasına imkan yaradır.*

## Dövlət Sərhəd Xidmətinin Şəki Sərhəd Dəstəsinin «Laza» sərhəd zastavasında yaradılan xidmət və məişət şəraiti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev avqustun 10-da Dövlət Sərhəd Xidmətinin Şəki Sərhəd Dəstəsinin «Laza» sərhəd zastavasında yaradılan xidmət və məişət şəraiti ilə tanış olmuşdur.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, Sərhəd Qoşunlarının Komandanı general-polkovnik Elçin Quliyev prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Bildirildi ki, sərhəd zastavası Böyük Qafqaz sıra dağlarının ən yüksək zirvəsi olan Bazardüzü istiqamətində fəaliyyət göstərir və dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşir. Zastavanın mürəkkəb relyefə və soyuq iqlim şəraitinə malik xidməti ərazisində dövlət sərhədlərimizin mühafizəsi yüksək səviyyədə təşkil edilib.*

*Sərhəd zastavasının binasında ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin sərhəd qoşunlarının inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət guşə yaradılıb.*

*Dövlət sərhədinin dağlıq ərazidə və səhra şəraitində etibarlı mühafizəsini təşkil etmək üçün lazım olan müvafiq texniki vasitələr, müasir avadanlıqlar və silahlar alınaraq, zastavada yerləşdirilib. Xidmətin yüksək səviyyədə aparılması üçün sərhədçilər Qarabağ atları ilə və xüsusi təlim keçmiş itlərlə təmin olunublar.*

*Yeni layihə üzrə tikilmiş sərhəd zastavasında xidmətin və yaşayışın yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Yataqxana, yeməkxana, istirahət guşəsi, idman zalı, təlim şəhərciyi, müasir tələblərə cavab verən xüsusi təyinatlı binalar inşa olunub. Zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçuların ailələri üçün 22 mənzilli yaşayış binası tikilib.*

*Ərazidə abadlaşdırma işləri görülüb, yüksək zirvələrdə olan bulaqlardan çəkilmiş su xətti hesabına zastava içməli su ilə təmin edilib. Bununla da Vətəninə, dövlətinə və prezidentinə sadiqliyi ilə seçilən Azərbaycan sərhədçiləri sərhədlərimizin etibarlı mühafizəsinin təmin edilməsinə daim hazır olduqlarını bir daha göstərirlər.*

## İSMAYILLI RAYONUNA SƏFƏR

*10 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Qəbələ rayonuna səfərini başa çatdıraraq İsmayıllı rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov prezident İlham Əliyevə ümummilli liderin adını daşıyan parkda aparılan abadlıq-quruculuq işləri, həmçinin son dövrdə rayonda görülən işlər və icrası nəzərdə tutulan layihələr barədə məlumat verdi.*

### Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı şəkildə yenidən qurulan Körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə İsmayıllıda əsaslı şəkildə yenidən qurulan Körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısı uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, əvvəlki illərdə 2 qrupla fəaliyyət göstərən uşaq bağçasının Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı şəkildə yenidən qurulmasına 2015-ci ilin əvvəlindən başlanılmışdır. Hazırda uşaq bağçası 5 qrupluq yeni məktəbəqədər təhsil müəssisəsinə çevrilib. Əsaslı təmir işlərindən sonra Körpələr evi-uşaq bağçasında şərait müasir səviyyəyə çatdırılıb.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin, dövlətimizin başçısı İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlara göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət guşə yaradılıb. Hazırda bağçada uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların istirahətini yüksək səviyyədə təşkil etmək üçün hər cür şərait var.*

## Olimpiya İdman Kompleksində əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da İsmayıllı rayonundakı Olimpiya İdman Kompleksində əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Kompleksdə əsaslı təmir işlərinə dövlətimizin başçısının tapşırıqlarına əsasən, 2015-ci ilin martından başlanılmışdır. Ərazisi 7,5 hektar olan kompleksin həyətində 936 yerlik süni örtüklü futbol meydançası, tennis kortu, ikimərtəbəli 4 yerlik 3 kottec, basketbol və voleybol meydançaları inşa olunub.*

*Kompleksin 510 yerlik əsas idman zalı müasir avadanlıqlarla təchiz edilib.*

*Məlumat verildi ki, burada müxtəlif yerli və beynəlxalq əhəmiyyətli yarışları yüksək səviyyədə keçirmək üçün hər cür şərait yaradılıb. Kompleksin üzgüçülük hovuzu da müasir səviyyəyə çatdırılıb. İkimərtəbəli əsas binada soyunub-geyinmə otaqları, mini-futbol meydançası, müxtəlif tədbirlərin keçirilməsi üçün zal və digər inzibati otaqlar da var.*

## Əsaslı şəkildə yenidən qurulan Qaraməryəm–İsmayıllı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da əsaslı şəkildə yenidən qurulan Qaraməryəm–İsmayıllı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, üçüncü texniki dərəcəli avtomobil yolunun hərəkət hissəsinin eni 6 metr idi. Uzunluğu 28*

*kilometr olan yolun yenidənqurmadan sonra hərəkət hissəsinin eni 7 metrə qədər genişləndirilib, dağılmış suötürücü borular bərpa edilib, köhnələri isə yenilənib.*

*Yolun ikinci kilometrliyində Mehmanlı çayı üzərində qəzalı vəziyyətə düşmüş körpünün də inşası aparılıb. Daha bir körpü Kürdmaşı çayı üzərində tikilib. Nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədilə yol nişanı və məlumatverici tablolar quraşdırılıb, 12 yeni avtobus dayanacağı inşa edilib.*

*Diqqətə çatdırıldı ki, yolun əsaslı şəkildə təmir olunması İsmayıllı və Göyçay rayonlarının 30-dan çox yaşayış məntəqəsinin 27000-dən artıq əhalisinin gediş-gəlişini xeyli asanlaşdıracaq. Bundan başqa, Bakı–Şamaxı–Yevlax, həmçinin Bakı–Ələt–Qazax–Gürcüstan ilə dövlət sərhədi avtomobil yollarına maneəsiz şəkildə çıxışı təmin edəcək və regionun turizm sektoruna müsbət təsir göstərəcək.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

**«İsmayıllı-2» Su-Elektrik Stansiyasının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da «İsmayıllı-2» Su-Elektrik Stansiyasının açılışında iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, ümumi layihə gücü 1,6 meqavat olan stansiyanın əsas komponentləri suqəbuledici, hər birinin uzunluğu 2115 metr, diametri 800 millimetr olan 3 boru, stansiyanın binası, nəzarət, mühafizə, idarəetmə və uçot sistemləri, ümumi layihə gücü 1,6 meqavatlıq 3 hidroturbin və 3 hidrogenerator, 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik verilişi xətlərindən ibarətdir.*

*Diqqətə çatdırıldı ki, «İsmayıllı-1» Su-Elektrik Stansiyasının aşağı byefindən çıxan təmizlənmiş su «İsmayıllı-2» Su-Elektrik Stansiyasına daxil olacaq. Beləliklə, İsmayıllı Su-Elektrik Stansiyası ümumi gücü 3,2 meqavat olan su-elektrik stansiyaları silsiləsini təşkil edəcək. Rayonun Sumağallı kəndi yaxınlığında inşa edilən derivasiya tipli su-elektrik stansiyası ildə 8 milyon kilovat-saat ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal etmək imkanına malikdir.*

*Prezident İlham Əliyev su-elektrik stansiyasını işə saldı.*

## İSMAYILLIDA VELOSİPED İSTEHSALI ZAVODUNUN AÇILIŞI MƏRASİMİNDƏ ZAVODUN KOLLEKTİVİ İLƏ GÖRÜŞ

*10 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da «İSMA BİKES» Velosiped istehsalı zavodunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, İsmayıllı şəhərindən 6 kilometr məsafədə yerləşən Diyallı kəndi ərazisində inşa olunmuş bu istehsal müəssisəsinin layihəsi Bolqarıstanın Sofiya Velosiped zavodu ilə əməkdaşlıq çərçivəsində icra olunub.*

*Müəssisə Bolqarıstan, Danimarka, Niderland, Çin və Türkiyə istehsalı olan avadanlıqlarla təchiz edilib. Zavodun istehsal gücü ildə 20–30 min velosipeddir. Burada 5 növdə velosipedin istehsalı nəzərdə tutulur.*

*Müəssisədə ilkin mərhələdə 60 işçi çalışacaq. Gələcəkdə zavodun fəaliyyətinin genişləndirilməsi ilə işçilərin sayının artacağı nəzərdə tutulur.*

*Zəruri infrastrukturu ilə Qafqazda yeganə olan bu zavodun məhsulları yüksək keyfiyyəti ilə seçiləcək.*

*Müəssisənin ərazisində müasir velotrek meydançası da yaradılıb. 3 hektar sahəsi olan velotrekdə idman yarışlarının keçirilməsi üçün hər cür şərait var.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Dövlətimizin başçısı zavodun istehsal etdiyi velosipedi sınaqdan keçirdi.*

**İ l h a m  Ə l i y e v:** Sizi ürəkdən salamlayıram. Bu zavodun açılışı münasibətilə sizi təbrik edirəm. Çox şadam ki, İsmayıllıda belə gözəl müəssisə açılır, istifadəyə verilir. Özüm də bu müəssisə-

nin məhsulunu sınadım. Çox yaxşı velosipeddir. Əminəm ki, Azərbaycan vətəndaşları bunu qiymətləndirəcəklər.

Bu istehsal əslində ölkəmizin inkişafını göstərir. Göstərir ki, Azərbaycanda indi müxtəlif istiqamətlər üzrə yeni istehsalat sahələri var və bu istehsalat sahələri ən yüksək səviyyədədir. Bir gün əvvələ qədər velosipedləri xaricdən idxal edirdik. Bu gün isə artıq Azərbaycanda, özü də paytaxt şəhərdə deyil, İsmayıllıda belə gözəl müəssisə açılır. Mənə verilən məlumata görə, bu zavodun istehsal gücü ildə 30 min ədəd velosiped olacaq. Burada artıq onlarla iş yeri yaradılıbdır, müasir texnologiyalar tətbiq olunur. Əlbəttə ki, bu velosipedlər həm daxili bazarda satılacaq, eyni zamanda, hesab edirəm ki, xaricə də ixrac edilə bilər. Çünki keyfiyyət buna şərait yaradır.

Azərbaycanın uğurlu inkişafı, bax, belə müəssisələrdən asılıdır. Çünki bu gün həm sənaye istehsalı, həm də kənd təsərrüfatı istehsalı daha da böyük əhəmiyyət daşıyır. Mən dəfələrlə bunu qeyd etmişəm, bir daha demək istəyirəm ki, ölkəmizin bundan sonrakı uğurlu inkişafı, bax, bu iki istiqamətdən asılı olacaq. Baxmayaraq ki, indi dünyada maliyyə-iqtisadi böhranı davam edir, şadam ki, bu ilin 7 ayında Azərbaycanda sənaye istehsalı təxminən 1 faiz artıb. Bu o qədər də böyük göstərici deyil, ancaq indiki şəraiti nəzərə alsaq, hesab edirəm ki, bu, yaxşı göstəricidir.

Qeyri-neft sənayesi isə 2 faizdən çox artıb. Belə müəssisələrin gələcəkdə ölkəmizin müxtəlif yerlərində yaradılması imkan verəcək ki, Azərbaycanda həm sənaye istehsalı artsın, həm də neftdən, qazdan asılılıq daha da azalsın. Bu istiqamətdə işlər görülür və ciddi islahatlar aparılır. İslahatlar da öz bəhrəsini verir. Deyə bilərəm ki, Azərbaycan dünyada hökm sürən böhranı nəzərə alaraq, bu vəziyyətdən ən az itkilərlə çıxır. Ölkəmizdə indi maliyyə sahəsində sabitləşmə təmin edilibdir. Bu il on minlərlə yeni iş yeri yaradılıb. Bu proses davam edir. Kənd təsərrüfatı istiqamətində çox böyük müsbət nailiyyətlər var. Beləliklə, Azərbaycanın gələcək inkişafı dayanıqlı olacaq. Bizim imkanımız var ki, gələcək inkişafımızı iki vacib istiqamət – kənd təsərrüfatı və sənaye istehsalı üzərində quraq.

Əlbəttə, digər sahələr də böyük əhəmiyyət daşıyır. Gələcəkdə bizə çox valyuta gətirə biləcək sahə nəqliyyatdır. Bizim coğrafi vəziyyətimizi və artıq gördüyümüz işləri nəzərə alsaq, bunu deməyə əsas var. Azərbaycanın iştirakı və bir çox hallarda təşəbbüsü ilə 2 transmilli layihə icra edilir. Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizlərinin yaradılması Azərbaycanın iştirakı ilə baş verir. 2 gün bundan əvvəl Bakıda İran, Rusiya, Azərbaycan prezidentlərinin ilk Zirvə görüşündə bu məsələ çox ciddi müzakirə edildi. Azərbaycan burada öz təşəbbüsünü ortaya qoyur. Bu dəhlizin yaradılması və fəaliyyəti ölkəmizə yüz milyonlarla dollar gəlir gətirəcək.

Əlbəttə, digər sahələr də böyük əhəmiyyət daşıyır – telekommunikasiya, informasiya texnologiyaları, metallurgiya sahələri, kimya sənayesi. Ancaq bütövlükdə sənaye və kənd təsərrüfatı əsas prioritet kimi qalır və qalacaq.

İsmayıllı rayonunun inkişafı da məni sevindirir. Mən prezident kimi, İsmayıllı rayonunda dəfələrlə olmuşam, ümumiyyətlə, prezidentlik dövrümdə bu mənim beşinci səfərimdir. Şadam ki, İsmayıllı sürətli inkişaf dövrünü yaşayır. Bu gün icra başçısı mənə görüləcək işlər haqqında məlumat verdi, təqdimatlar edildi. Burada həm turizm sektorunun inkişafı, həm də kənd təsərrüfatının, emal sənayesinin inkişafı sürətlə getməlidir. Nəzərə alsaq ki, İsmayıllının çox gözəl təbiəti, tarixi var, rayonda Lahıc, Basqal kimi iki qədim kənd var, əlbəttə ki, burada turizm potensialının maksimum dərəcədə cəlb edilməsi gərək hamımızın işi olsun.

Son vaxtlar Azərbaycana gələn turistlərin sayı xeyli artıb. Xüsusilə bu zonaya – şimal-qərb zonasına turistlərin axını müşahidə olunur. Siz də bunu görürsünüz. Mən demişəm, bir daha demək istəyirəm ki, Şamaxıdan Balakənə qədər bütün bu bölgə beynəlxalq turizm zonasına çevrilməlidir və bu istiqamətdə işlər gedir. İlk növbədə, infrastruktur layihələri icra edilməli idi və onların böyük hissəsi icra edildi. Qəbələdə Beynəlxalq aeroport tikildi. İndi beynəlxalq uçuşlar həyata keçirilir. Bu Beynəlxalq aeroport bütün zona əhalisi üçün böyük əhəmiyyət daşıyır. Zaqatalada aeroport tikildi. Avtomobil yolları tikilir. İndi Bakı–Şamaxı avtomobil yolu 4 zolağa genişləndirilir. Bu gün mən İsmayıllı–Qaraməryəm yolunun açılışını etmişəm. Bu da rayon üçün çox böyük

əhəmiyyət daşıyır, təxminən 30 kilometr uzunluğunda 34 yaşayış məntəqəsini birləşdirir. O yaşayış məntəqələrində İsmayıllı rayonu əhalisinin üçdəbir hissəsi qədər – 30 minə yaxın insan yaşayır.

Yol infrastrukturu, müasir mehmanxanaların tikintisi, əlbəttə ki, turizm üçün əsas şərtdir. İsmayıllıda digər infrastruktur layihələri icra edilib. İçməli su layihəsi artıq neçə ildir ki, başa çatıb. İndi şəhər sakinləri təmiz içməli su ilə təmin olunurlar.

Kanalizasiya və təmizləyici qurğuların da quraşdırılması prosesi başa çatır. Mənə verilən məlumata görə, qazlaşdırma 67 faizdir. Dağlıq relyefi nəzərə alsaq, hesab edirəm ki, bu çox gözəl göstəricidir. Digər infrastruktur layihələri də icra edilib.

Sosial obyektlərin və yeni müəssisələrin istifadəyə verilməsi, əlbəttə, iş yerlərinin yaradılmasına gətirib çıxaracaq. Bu gün Quşçuluq fabrikinin, böyük heyvandarlıq kompleksinin, bir neçə hotel və istirahət mərkəzinin təqdimatı oldu. İsmayıllının çox gözəl təbiəti, iqlimi var. Ona görə kənd təsərrüfatı, bitkiçilik, heyvandarlıq daha da sürətlə inkişaf etməlidir. Bir qarış torpaq boş olmamalıdır. Daxili tələbatı təmin etmək və ixrac potensialını artırmaq üçün məqsədyönlü şəkildə işlər aparılacaq. Bu barədə bütün göstərişlər verilib.

Bu il kənd təsərrüfatı istiqamətində çox önəmli addımlar atılıb. Bizim üçün ənənəvi, ancaq əfsuslar olsun ki, müəyyən dərəcədə tənəzzülə uğramış sahələri bərpa etmişik. İndi mənə deyirlər, bir sıra rayonlarda, o cümlədən İsmayıllı rayonunda ailələr var ki, ay yarım ərzində baramaçılıqdan minlərlə manat pul qazanıb.

Aran zonasında pambıqçılığın inkişafı geniş vüsət alıb. Biz bu il keçən ilə nisbətən pambığın istehsalını 3 dəfə artıracağıq, 30 min tondan 100 min tona qaldırılacaq. Gələn il 250–300 min ton olmalıdır. İndi hər bir region üçün xüsusi inkişaf planı hazırlanır. Əlbəttə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında əsas istiqamətlər müəyyən edilib və o Proqram bizim üçün əsasdır, bir yol xəritəsidir. Ancaq həyat yerində durmur, dəyişikliklər baş verir. Həm bölgədə, həm dünyada yeni situasiya yaranır. İndi bazarlar uğrunda mübarizə gedir. Məhsulu yetişdirmək hələ məsələnin həlli deyil. Onu daxili bazarda və yaxud da xarici bazarda satmaq lazımdır. Ona görə fermerlərə kömək göstərmək üçün indi yetişdirilən bu məhsulların tədarükü ilə məşğul

olan qurum da yaradılır. Kənd təsərrüfatında işləyənlər bilirlər ki, aqrolizinq vasitəsilə texnika verilir, gübrəyə, yanacağa, yetişdirilən məhsula görə nə qədər böyük subsidiyalar verilir. İndi biz ixracı stimullaşdırmaq üçün təşviq mexanizmini işə salırıq. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Bu çox ciddi bir proqramdır. Yenə də deyirəm, hər bir rayon üzrə rayonun potensialı maksimum dərəcədə realizə edilməlidir və ediləcək.

İsmayıllıda belə gözəl istehsalat sahələri açılır. Hesab edirəm ki, bu, sahibkarlar üçün də yaxşı bir siqnal olacaq. Çünki burada investisiyalar qorunur. Mən sahibkarları dəstəkləyirəm, onlarla görüşürəm. Son 10 il ərzində sahibkarlara 1 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verilib. Həmin pulun hesabına on minlərlə, yüz minlərlə iş yeri yaradılıb. Ancaq biz gələcəyə baxmalıyıq. Düzdür, çox iş görülüb, lakin hələ çox iş də görülməlidir.

Bu gün İsmayıllıda ikinci su-elektrik stansiyasının açılışını etdik. Bu 2 stansiyanın istehsal etdiyi enerji İsmayıllı rayonunun tələbatının 45–50 faizini ödəyir. Bu, artıq gözəl bir göstəricidir. Tələbatın yarısı alternativ, özü də ucuz enerji hesabına təmin edilir. Mənə məlumat verildi ki, yeni su-elektrik stansiyasının tikintisi də nəzərdə tutula bilər. O daha böyük həcmdədir – 10 meqavat. İndi mən demişəm ki, texniki-iqtisadi əsaslandırma hazırlansın. Əgər bu məsələ həll olunarsa, onda İsmayıllı rayonu elektrik enerjisini başqa rayonlara – Qəbələyə, Şamaxıya ötürəcək. Bu da enerji təhlükəsizliyimizi təmin edəcək.

Biz işləri planlı şəkildə görürük – ilk mərhələdə infrastruktur layihələri, yol, elektrik stansiyaları, ondan sonra sosial infrastruktur, məktəblər, içməli su, ondan sonra iş yerləri, kreditlər, kənd təsərrüfatı. Mən gələcəyə çox böyük ümidlərlə və nikbinliklə baxıram. Heç bir böhran, dünyada baş verən heç bir hadisə bizə təsir edə bilməz. Azərbaycan sabitlik diyarıdır, inkişaf məkanıdır. Məhz buna görə bu gün milyonlarla xarici turist Azərbaycana gəlir. Təkcə tarixi abidələri seyr etmək üçün gəlmir, o cümlədən ona görə gəlir ki, burada xidmət, təhlükəsizlik yüksək səviyyədədir, insanlarımız qonaqpərvərdir və əlbəttə ki, gözəl şərait var. Bu şəraiti, bax, biz yaradırıq, siz burada yaradırsınız. Mən prezident kimi,

çalışıram ki, Azərbaycanda bütün istiqamətlər üzrə işlər daha da yaxşı getsin.

Biz, əlbəttə ki, əldə edilmiş uğurlarla fəxr edə bilərik. Ancaq biz daim irəliyə baxmalıyıq. Harada qüsurlar, çatışmazlıqlar varsa, biz onları aradan götürməliyik və inkişafımızı təmin etməliyik.

Mən sizi bir daha salamlayıram. Əminəm, bu gün mənə təqdim olunan layihələr reallaşacaq və reallaşdıqca mən yenə də İsmayıllıya gələcəyəm ki, o obyektlərin açılışında sizinlə bərabər iştirak edim. Sağ olun.

**İsmət Mirzəfərli** (*zavodun əməkdaşı*): Möhtərəm cənab Prezident, belə böyük zavodu bizə bəxş etdiyinizə görə kollektivimiz adından Sizə minnətdarlığımızı bildiririk.

**İlham Əliyev:** Sağ ol. Sən burada nə işləyirsən?

**İsmət Mirzəfərli:** Mexanik.

**İlham Əliyev:** Buralısan?

**İsmət Mirzəfərli:** Bəli.

**İlham Əliyev:** Bu zavodda işləyənlərin hamısı İsmayıllı rayon sakinləridir? Onlar hansısa kurs, təlim keçiblər?

**Mirdaməd Sadıqov** *(İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı):* Onlar burada müəyyən kurslar keçiblər. İstehsalat prosesini tam öyrənmək üçün isə Sofiyaya gedəcəklər.

**İlham Əliyev:** Çox yaxşı. Şəhərdə yaşayırlar?

**Mirdaməd Sadıqov:** Şəhərdən də var, kənddən də.

**Lətifə Əliyeva** (*İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru)*: Möhtərəm cənab Prezident, 2013-cü ildə Siz İsmayıllı Tikiş fabrikinin açılışında xeyir-dua vermişdiniz. Bu gün fabrik fəaliyyətini uğurla davam etdirir. Hazırda Sizin göstərişinizlə rayonumuzda daha böyük bir fabrik – İsmayıllı Xalça fabriki inşa olunur. Burada 170-ə yaxın işçi çalışacaq. Bütün bunlar Sizin İsmayıllıya diqqətinizin, xüsusi qayğınızın nəticəsidir. Bu diqqətə və qayğıya görə Sizə İsmayıllı camaatı adından ürəkdən təşəkkür edirəm. Çox sağ olun, cənab Prezident! Tanrı Sizi bizlər üçün qorusun. Çox sağ olun.

**İlham Əliyev:** Çox sağ olun. Bu gün «Azərxalça» İstehsalat Birliyinin yeni binasının layihəsinin təqdimatı da keçirildi. Bildiyiniz

kimi, bu yaxınlarda mən «Azərxalça» müəssisəsini yaratdım. Bu, qısa müddət ərzində ölkəmizin müxtəlif yerlərində xüsusilə qadınlar üçün minlərlə yeni iş yerinin yaradılmasına gətirib çıxaracaq. Biz xalçaçılığı gərək nəinki qoruyaq, həm də inkişaf etdirək. Çünki indi Azərbaycanda məşğulluq artır, işsizlik aşağı səviyyədədir. Ancaq araşdırsaq görərik ki, qadınlar arasında işsizlik nisbətən daha çoxdur. Ona görə də qadınları işlə təmin etmək, eyni zamanda, xalçaçılığı yaşatmaq və ixrac potensialımızı artırmaq üçün belə bir qərar qəbul edildi. İndi bir çox rayonda, o cümlədən İsmayıllıda xalçaçılıq üzrə istehsalat sahələri yaradılır. Çünki İsmayıllıda xalçaçılıq sənəti çox inkişaf edib və qədim tarixə malikdir. İsmayıllının özünəməxsus xalçaçılıq üslubu var.

Bu xalçaçılıq müəssisəsi bütün lazımi avadanlıqlar, dəzgahlar, iplər, boyalarla təmin ediləcək, ilkin mərhələdə 170 iş yeri yaradılacaq. Biz tezliklə bu işlərə start verəcəyik. Xalça ixrac məhsuludur. Üstünlüyü ondan ibarətdir ki, onun istehsalına gedən vəsait yerli valyuta ilə ölçülür, amma ixrac olunarkən ölkəmizə xarici valyuta gələcək. Eyni zamanda, biz bu gözəl sənəti yaşatmalıyıq. Çünki xalça xalqımızın milli sərvətidir. Bakıda möhtəşəm Xalça Muzeyi tikilib. Təkcə ona görə yox ki, biz Bakını daha da gözəlləşdirək, ona görə ki, bu bizim milli sənətimizdir. Bükülmüş xalça formasında tikilmiş o möhtəşəm bina əslində bunu bir daha göstərir.

Kiçik, orta sahibkarlığın inkişafı üçün ölkəmizdə hər cür şərait var. Əlbəttə ki, sahibkarlar gərək daha da çox işləsinlər. Biz sahibkarları dəstəkləyirik, onlara həm maliyyə vəsaiti ayrılır, həm siyasi dəstək göstərilir. Misal üçün, kiçik ailə təsərrüfatları yaradılmalıdır. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı sahəsində əsas məhsulu ailə təsərrüfatları istehsal edir. Əlbəttə, böyük aqrokomplekslər də lazımdır. Biz indi aqroparklar yaradırıq. Belə aqroparklardan biri Xaçmaz rayonunda, Yalamada, digəri Şəmkir rayonunda yaradılır. Amma kiçik fermer təsərrüfatları, ailə fermer təsərrüfatları da yaradılmalıdır.

İndi özünüməşğulluq proqramı icra edilməyə başlayır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə bu il bu işlərə start verilir. Mənim sərəncamımla Prezidentin ehtiyat fondundan bu məqsədlər üçün 6 milyon manat vəsait ayrılıb. Yerli icra hakimiyyəti

orqanları da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təkliflər versin. Müxtəlif sahələr – heyvandarlıq, bitkiçilik, arıçılıq sahələri üzrə ailə təsərrüfatlarının yaradılması nəzərdə tutulur. İsmayıllıda arıçılıq inkişaf edib və böyük perspektivləri var.

**M i r d a m ə d  S a d ı q o v:** Bəli, cənab Prezident, İsmayıllıda ənənəvi sənət növlərindən biri də arıçılıq olub.

**İ l h a m  Ə l i y e v:** İsmayıllı balı da çox keyfiyyətlidir. Biz statistikaya nəzər salsaq görərik ki, fındıq kənd təsərrüfatı məhsulları arasında ən çox valyuta gətirən məhsuldur. Ona görə də kütləvi şəkildə fındıq bağları salınmalıdır. İsmayıllıda bu o qədər də geniş vüsət almayıb, azdır. Burada minlərlə hektar sahədə fındıq əkilməlidir, çünki iqlim də, torpaq da buna imkan verir. Həm fındıq əkənlər bundan xeyli fayda götürəcək, onlara böyük miqdarda pul gələcək, həm də ixrac edəcəklər. İsmayıllıdan Balakənə qədər olan bütün bu zonanın təbii şəraiti buna imkan verir.

**M i r d a m ə d  S a d ı q o v:** Cənab Prezident, biz bu il 101 min ton taxıl verdik. Çox böyük göstəricidir.

**İ l h a m  Ə l i y e v:** Məhsuldarlıq da yüksəkdir.

**M i r d a m ə d  S a d ı q o v:** 36 sentnerə qədər artıb.

**İ l h a m  Ə l i y e v:** Bizdə orta məhsuldarlıq keçən il 30 sentnerə qalxıb, əvvəlki illərdə 23 idi.

**M i r d a m ə d  S a d ı q o v:** Özü də bizdə dəmyə şəraitində yetişdirilir.

**İ l h a m  Ə l i y e v:** Dəmyə şəraitində yetişdirirsiniz. Amma indi əgər daha çox vəsait qoyulsa, yeni texnologiyalarla 50 sentner də götürmək olar.

**M i r d a m ə d  S a d ı q o v:** Bizim İvanovka kolxozu artıq o yoldadır və çox sağ olun ki, İvanovka kolxozuna böyük dəstək verdiniz. Onların borcları dövlət tərəfindən silindi. İndi kənddə bir nəfər də olsun işsiz adam yoxdur.

**O l q a  J a b i n a** (*İvanovka inzibati ərazi vahidi üzrə nümayəndə*): Cənab Prezident, Sizi yenidən İsmayıllıda görməyimizə çox şadıq. Çox təşəkkür edirik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Görürəm ki, siz İvanovkadansınız. Bütün ivanovkalılara mənim salamımı və xoş arzularımı çatdırın.

Mən istəyirəm ki, sizdə hər şey yaxşı olsun. Həmişə necə yaşamısınız, elə də yaşayasınız. Sizdə kolxozun bu günə qədər qalması, inkişafı onu göstərir ki, vacib deyil hansı forma olsun – kolxoz, sovxoz, ya ferma – əsas odur ki, insanlar çalışsınlar və onların işləmələri üçün şərait yaradılsın. Biz belə şəraiti yaratmağa çalışırıq.

**Olqa Jabina:** Çox sağ olun, biz Sizinlə fəxr edirik.

**Zaur Muradov** (*rayon sakini*): Möhtərəm cənab Prezident, bugünkü güclü, qüdrətli Azərbaycan dövlətinə görə Sizə minnətdarıq. İki gün bundan əvvəl keçirilən tədbirlər də bizim dövlətimizin gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirdi. Biz Sizinlə qürur duyuruq.

**İlham Əliyev:** Sağ olun. Sizə uğurlar arzulayıram. Biz yenidən görüşəcəyik.

## ABŞ KONQRESİNİN NÜMAYƏNDƏSİ STİV ŞABOT İLƏ GÖRÜŞ

*11 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Amerika Birləşmiş Ştatları Konqresinin nümayəndəsi, Kiçik Biznes üzrə Palata Komitəsinin sədri, eyni zamanda, Xarici İşlər üzrə Palata Komitəsində və Hüquqi İşlər üzrə Palata Komitəsində fəaliyyət göstərən Stiv Şabotu qəbul etmişdir.*

*Cənubi Qafqazın mühüm region olduğunu qeyd edən ABŞ Konqresinin nümayəndəsi, Kiçik Biznes üzrə Palata Komitəsinin sədri Stiv Şabot regiona səfərlərinə onun qeyd etdiyi kimi, Cənubi Qafqazın ən vacib ölkəsi olan Azərbaycandan başladıqlarını vurğuladı. Səfərinin regionun, o cümlədən Azərbaycanın daha yaxşı tanınması işinə öz töhfəsini verəcəyini bildirən Stiv Şabot əldə etdikləri məlumatları Konqresdəki həmkarlarına çatdıracağını dedi.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın artıq 25 ildir müstəqil dövlət kimi, dünya xəritəsində öz yerini tutmasına baxmayaraq, hələ də bəzi dünya siyasətçilərinin və beynəlxalq ictimaiyyət nümayəndələrinin ölkəmizin reallıqları, yürütdüyü siyasət, əldə etdiyi nailiyyətlər və gələcək planları barədə məlumatlandırılmasına ehtiyac duyulur. Stiv Şabotun Azərbaycana səfərinin ölkəmizi və insanlarımızı daha yaxından tanımaq, inkişaf proseslərini müşahidə etmək, prioritetlərlə yaxından tanış olmaq üçün yaxşı fürsət yaratdığını deyən dövlətimizin başçısı səfərin uğurlu keçəcəyinə əminliyini bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi, Azərbaycanda son illərdə gedən inkişaf prosesləri, həyata keçirilən islahatlar, həmçinin bir sıra qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HERBERT SALBER İLƏ GÖRÜŞ

*11 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberi qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinə dair geniş fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASININ MÜDAFİƏ NAZİRİ SERGEY ŞOYQUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Rusiya prezidenti Vladimir Putinin Azərbaycana son səfərinin uğurla keçdiyini vurğulayaraq, səfər zamanı Azərbaycan və Rusiya prezidentlərinin görüşündə əlaqələrimizin geniş spektrini əhatə edən sahələrlə bağlı müzakirələr aparıldığını, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlığın uğurla reallaşdığını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, iki ölkənin dövlət başçılarının görüşü zamanı Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin yüksək səviyyədə olmasının əlaqələrimizin müxtəlif sahələrini əhatə edən məsələlərin, həmçinin regional təhlükəsizlik məsələlərinin həllinə imkan verəcəyi qeyd olunmuşdu.*

*Dövlətimizin başçısı dedi ki, bu yaxınlarda Rusiyada keçirilən Beynəlxalq Ordu oyunlarında Azərbaycan komandasının ilk dəfə çıxış etməsini nəzərə alsaq, nəticəni uğurlu hesab etmək olar. Azərbaycan Prezidenti Rusiya komandasının həmin oyunlarda qələbəsi münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev Rusiya Müdafiə nazirinin Azərbaycana səfərinin hərbi və hərbi-texniki sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılması işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Rusiyanın Müdafiə naziri Sergey Şoyqu prezident Vladimir Putinin Azərbaycana səfərinin və səfər zamanı prezident İlham Əliyev ilə keçirdiyi görüşlərin ikitərəfli münasibətlərin, o cümlədən hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı, Azərbaycan Silahlı Qüvvələri nümayəndələrinin Rusiyada keçirilən Beynəlxalq Hərbi oyunlarda fəal iştirakını məmnunluqla qeyd etdi.*

**QABON RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ALİ BONQO ONDİMBAYA**

Hörmətli cənab Prezident!

Qabon Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qabon arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qabon xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2016-cı il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2016-cı il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MİXAEL KİNDSQRAB İLƏ GÖRÜŞ

*15 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Mixael Kindsqrabın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Mixael Kindsqrab Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Mixael Kindsqrab etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Azərbaycanla Almaniya arasında ikitərəfli əlaqələrin çox uğurla inkişaf etdiyini vurğuladı. Bu ilin iyununda Almaniyaya uğurlu səfərini və eləcə də Almaniyanın Xarici İşlər naziri Frank-Valter Ştaynmayerlə Varşavadakı görüşünü məmnunluqla xatırladan prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın çox fəal mərhələdə olduğunu dedi. İqtisadi sahədə böyük qarşılıqlı marağın olduğunu deyən dövlətimizin başçısı bunun Berlində keçirilən biznes-forum zamanı şahidi olduğunu qeyd etdi. Almaniyanın çoxlu şirkətlərinin ölkəmizdəki fəaliyyətinə toxunan prezident İlham Əliyev ölkəmizin alman şirkətlərinin Azərbaycanda təkcə kontraktor kimi deyil, eləcə də investor kimi çalışmalarında maraqlı olduğunu bildirdi. Azərbaycanla Almaniya arasında qarşılıqlı inam və etimada əsaslanan siyasi dialoqun davam etdirilməsinin önəmini qeyd edən dövlətimizin başçısı enerji, nəqliyyat, təhlükəsizlik və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.*

*Qəbula görə minnətdarlığını bildirən Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Mixael Kindsqrab ikitərəfli əlaqələrimizin inkişaf etdirilməsi ilə bağlı Almaniyanın Kansleri Angela Merkeldən və Xarici İşlər naziri Frank-Valter Ştaynmayerdən aydın göstərişlər aldığını bildirdi. O, Angela Merkelin və Frank-Valter Ştaynmayerin sabit və inkişaf edən tərəfdaş ölkə olan Azərbaycanla əlaqələrin genişləndirilməsinə böyük maraq göstərdiklərini qeyd etdi. Səfir son illər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artdığını xüsusi vurğuladı. Almaniyalı diplomat siyasi, iqtisadi, enerji təhlükəsizliyi, mədəni və digər sahələrdə mövcud olan əməkdaşlığımızın daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini dedi.*

*Görüşdə Azərbaycanda həyata keçirilən islahatlar ətrafında fikir mübadiləsi aparıldı, ölkələrimiz arasında enerji, təhlükəsizlik, səhiyyə, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edildi.*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün Əfqanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Əfqanıstan arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2016-cı il*

## BELÇİKA KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BERT SKUFS İLƏ GÖRÜŞ

*16 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Bert Skufsun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Bert Skufs Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Bert Skufs etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan–Belçika ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı bu əlaqələrin razılıq doğurduğunu bildirdi. Ölkələrimiz arasında ticarət, sərmayələr, təhsil və digər sahələrdə mövcud olan əlaqələrin daha da möhkəmləndirilməsi üçün yaxşı potensialın olduğunu deyən prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladı. Belçika şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunan dövlətimizin başçısı xüsusən tikinti sahəsində bu şirkətlərin uğurlu təcrübəsini qeyd etdi. Prezident İlham Əliyev səfirə diplomatik fəaliyyətində uğurlar arzuladı.*

*Azərbaycanda səfir təyin olunmasından məmnunluğunu ifadə edən Bert Skufs hələ 2012-ci ildə Azərbaycanda olduğunu, ölkəmizin və Bakının gözəlliyinin və xalqımızın səmimiliyinin onu valeh etdiyini dedi. Belçika şirkətlərinin Azərbaycanda tikinti sahəsi ilə yanaşı, digər sahələrdə fəaliyyət göstərdiklərini qeyd edən səfir Bert Skufs ölkəsinin iş adamlarının Azərbaycan şirkətləri ilə işləməyə hər zaman açıq olduqlarını bildirdi. Fəaliyyətinin əsas məqsədinin ölkələrimiz arasında yaxşı münasibətləri davam etdirmək olacağını vurğulayan səfir hər iki ölkənin maraqları daxilində iqtisadi əməkdaşlıq imkanlarını araşdırmaq istiqamətində də səylərini əsirgəməyəcəyini qeyd etdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Qaziantep vilayətində toy mərasimi zamanı törədilmiş dəhşətli partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca sarsıtdı.

Biz bu amansız terror əməlindən, ölkənizdə xaincəsinə törədilmiş digər terror aktlarından son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı hamılıqla, qətiyyətlə və ardıcıl mübarizə aparılmasını vacib və zəruri hesab edirik.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 avqust 2016-cı il*

**UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PETRO POROŞENKOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Ukrayna münasibətləri xoş ənənələrə malikdir. İnanıram ki, ölkələrimizi və xalqlarımızı birləşdirən ənənəvi dostluq əlaqələri, ikitərəfli əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu yaxınlarda Azərbaycana etdiyiniz səfərinizi məmnunluqla xatırlayıram. İnanıram ki, səfər zamanı Sizinlə görüşlərimiz, apardığımız danışıqlar ikitərəfli münasibətlərimizin inkişafı üçün yeni imkanlar açacaqdır.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Ukrayna xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 avqust 2016-cı il*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SERCİO MATTARELLAYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və irimiqyaslı dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İtaliya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2016-cı il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NİKOLAE TİMOFTİYƏ**

Hörmətli cənab Prezident!

Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Moldova arasındakı dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Moldova xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 avqust 2016-cı il*

**MALAYZİYANIN XIV ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM SULTAN BADLİŞAHA**

Əlahəzrət!

Malayziyanın milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Malayziya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2016-cı il*

**QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALMAZBEK ATAMBAYEVƏ**

Hörmətli Almazbek Şarşenoviç!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və bütün Qırğız xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımızı bir-birinə bağlayan çoxəsrlik dostluq telləri və xeyirxah ənənələr bundan sonra da Azərbaycan–Qırğızıstan ikitərəfli münasibətlərinin genişlənməsi üçün əsas olacaqdır.

Hörmətli Almazbek Şarşenoviç, Sizə möhkəm cansağlığı və uğurlar, qardaş Qırğız xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2016-cı il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Özbəkistanın milli bayramı – Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Sizin rəhbərliyinizlə qardaş Özbəkistan dövlətçiliyin və hüquqi qaydanın möhkəmlənməsində, sosial-iqtisadi inkişafda böyük uğurlar qazanıb.

Əminəm ki, xalqlarımız arasında dərin tarixi köklərə malik olan ənənəvi dostluq, qarşılıqlı dəstək münasibətləri bundan sonra da Azərbaycan–Özbəkistan əməkdaşlığının və tərəfdaşlığının dinamik inkişafı və dərinləşməsi üçün etibarlı təməl olacaq.

Hörmətli İslam Abduqəniyeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Özbəkistan xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 avqust 2016-cı il*

## 42-ci ÜMUMDÜNYA ŞAHMAT OLİMPİADASININ İŞTİRAKÇILARINA

Hörmətli Olimpiada iştirakçıları!

Sizi – dünyanın bütün guşələrindən Bakıya toplaşmış şahmatçıları səmimi-qəlbdən salamlayır, hər birinizə möhkəm cansağlığı, müvəffəqiyyət və xoş əhval-ruhiyyə arzulayıram. Əminəm ki, ölkəmizə xas qonaqpərvərlik və idmana olan dərin hüsnrəğbət yarışların yüksək səviyyədə keçirilməsi üçün gözəl imkanlar yaradacaqdır.

Ümumdünya Şahmat Olimpiadasının bu günlərə təsadüf etməsi həqiqətən də əlamətdar hadisədir. Rio de Janeyro Olimpiadasının zəngin təəssüratları ilə yaşayan Azərbaycan bu mötəbər şahmat yarışlarına böyük ruh yüksəkliyi ilə ev sahibliyi edir.

Tarixboyu Şərqlə Qərb arasında körpü rolunu oynamış ölkəmizdə qədim dövrlərdən şahmata daim böyük maraq müşahidə edilib. Azərbaycan klassiklərinin əsərlərində və orta əsr miniatürlərində şahmat oyunu ilə bağlı süjetlər dolğun şəkildə öz əksini tapmışdır. Təqdirə layiqdir ki, Avropa səyyahlarının xatirələrində Azərbaycanda bu oyunun geniş yayılması və hətta qadınların belə, şahmat oynaması haqqında ətraflı məlumatlar verilmişdir.

XX əsrdə Azərbaycanda şahmatın yayılması kütləvi xarakter almış, müxtəlif səviyyəli mötəbər turnirlər keçirilməyə başlanmışdır. İdmançılarımızın bu yarışlarda qazandığı uğurlar şahmatın bir idman növü kimi daha geniş vüsət almasına təkan vermişdir. Azərbaycanın bütün bölgələrində uşaq şahmat məktəblərinin fəaliyyətə başlaması ölkəmizdə şahmata göstərilən xüsusi diqqətin təzahürüdür. Həmin amillər dövlət müstəqilliyinin bərpasından sonra bizim şahmat məktəbimizin inkişafına xidmət edərək, bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmişdir.

Son illərdə şahmat üzrə dünya və Avropa miqyaslı yüksək statusa malik yarışların ölkəmizin paytaxtı ilə yanaşı, bölgələrində də baş

tutması Azərbaycanın dünyanın şahmat mərkəzlərindən birinə çevrilməsi yolunda atılmış mühüm addımdır. İnanıram ki, bu Şahmat Olimpiadası da ölkəmizdə bu intellektual oyunun təbliğinə öz layiqli töhfəsini verəcəkdir.

Ümidvaram ki, 42-ci Ümumdünya Şahmat Olimpiadası bu qədim oyunun tarixinə yeni uğurlu səhifələr yazacaq, ölkələr arasında sülhün və əmin-amanlığın bərqərar olmasına xidmət göstərəcəkdir.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2016-cı il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ÇAN DAY KUANQA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Vyetnam əlaqələrinin hazırkı dinamik inkişafı məmnunluq doğurur. Əminəm ki, tarixən xoş ənənələrə əsaslanan dostluq əlaqələrimizin möhkəmlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə və ölkələrimizin rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 avqust 2016-cı il*

## YAPONİYA XARİCİ İŞLƏR NAZİRLİYİNİN PARLAMENTAR VİTSE-NAZİRİ MOTOME TAKİSAVA İLƏ GÖRÜŞ

*30 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Yaponiya Xarici İşlər Nazirliyinin parlamentar vitse-naziri Motome Takisavanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Motome Takisavanın ölkəmizə səfərinin Azərbaycan ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını, ölkələrimiz arasındakı mövcud dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi. 20 ildən artıq bir müddət ərzində ölkələrimizin uğurlu əməkdaşlığının həyata keçirildiyini deyən prezident İlham Əliyev əlaqələrimizin bir çox sahələri əhatə etdiyini vurğuladı. Ölkələrimiz arasında möhkəm siyasi əlaqələrin mövcud olduğunu qeyd edən dövlətimizin başçısı Yaponiyanın çoxlu sayda şirkətlərinin ölkəmizdə müxtəlif layihələrdə iştirak etdiyini, biznes strukturları arasında əlaqələrin yaxşı perspektivləri olduğunu bildirdi. «Bizim əlaqələrimiz çoxşaxəlidir» – deyən prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliyini ifadə etdi, bu səfərin əlaqələrimizin gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından önəmini vurğuladı.*

*Söhbət zamanı ölkələrimiz arasında iqtisadi əlaqələrin yeni mərhələyə qaldırılması üçün əlverişli imkanların olduğu qeyd edildi, neft-qaz, yüksək texnologiyalar, kənd təsərrüfatı, əczaçılıq, təhsil və digər sahələrdə əməkdaşlıq haqqında ətraflı fikir mübadiləsi aparıldı, bu sahələrin yaxşı perspektivləri olduğu bildirildi.*

*Prezident İlham Əliyevin idmanı qəlbən sevən bir dövlət xadimi olması barədə məlumatlı olduqlarını deyən Motome Takisava*

*Azərbaycanın idman sahəsində əldə etdiyi uğurların maraqla izlənildiyini bildirdi, I Avropa oyunlarının Bakıda uğurla keçirildiyini vurğulayaraq Azərbaycan Respublikasının Prezidentinə 2020-ci il Tokio Olimpiadasına Yaponiya tərəfinin dəvətini çatdırdı. Qonaq Azərbaycan və Yaponiya idmançılarının Rio de Janeyro Olimpiadasında uğurlu nəticələr əldə etməsini məmnunluqla qeyd etdi.*

*Dövlətimizin başçısı 2020-ci il Yay Olimpiya oyunlarının Tokioda keçirilməsi ilə bağlı təbriklərini çatdırdı və bu tədbirin də yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi.*

## QAZ İXRAC EDƏN ÖLKƏLƏRİN FORUMUNUN BAŞ KATİBİ SEYİD MƏHƏMMƏD HÜSEYN ADELİ İLƏ GÖRÜŞ

*30 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 30-da Qaz İxrac edən Ölkələrin Forumunun baş katibi Seyid Məhəmməd Hüseyn Adelini qəbul etmişdir.*

*Seyid Məhəmməd Hüseyn Adeli bundan əvvəl prezident İlham Əliyev ilə keçirdiyi görüşü xatırladaraq, Azərbaycanın Qaz İxrac edən Ölkələrin Forumunda müşahidəçi üzv olmasını məmnunluqla qeyd etdi. Qonaq məlumat verdi ki, gələn il Boliviyada Qaz İxrac edən Ölkələrin Forumunun Sammiti keçiriləcək və Azərbaycan bu tədbirə dəvətlidir.*

*Dövlətimizin başçısı son illərdə Azərbaycanın energetika sahəsində, o cümlədən qaz yataqlarının işlənilməsində önəmli hadisələrin baş verdiyini vurğuladı. Bildirildi ki, «Şahdəniz-2» layihəsində işlər uğurla gedir və qarşıdakı illərdə Azərbaycanda qaz hasilatının əhəmiyyətli dərəcədə artacağı gözlənilir. Prezident İlham Əliyev qeyd etdi ki, yaxın gələcəkdə «Abşeron» layihəsi üzrə qaz istehsalının başlanması gözlənilir. Beləliklə, Azərbaycan gələcəkdə qaz ixracı imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.*

*Söhbət zamanı qaz və energetika bazarlarındakı tendensiyalar, Azərbaycanın Qaz İxrac edən Ölkələrin Forumu ilə əməkdaşlığı və bu imkanlardan istifadə etməklə, qaz ixracının səmərəliliyinin artırılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ ZATİ-ALİLƏRİ CƏNAB CAN NİKOLA BERTİYƏ VƏ CƏNAB MASSİMO ANDREA UQOLİNİYƏ

Zati-aliləri!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost San-Marino xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 avqust 2016-cı il*

## GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ GİORGİ KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*31 avqust 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 31-də ölkəmizdə səfərdə olan Gürcüstan Respublikasının Baş naziri Giorgi Kvirikaşvili ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v**: Xoş gəlmisiniz! Sizi görməyə şadam. Siz Azərbaycanda tez-tez olursunuz. İndi Baş nazir kimi səfər edirsiniz. Mən çox şadam. Əminəm ki, bu səfər gələcəkdə münasibətlərimizin möhkəmlənməsinə xidmət edəcək. Münasibətlərimiz tarixə, qardaşlığa, xalqlarımızın yaxın qonşuluğuna əsaslanır.

Bu gün biz bütün sahələr üzrə – siyasi sahədə, iqtisadi sahədə fəal dialoq aparırıq. Bizi uğurla inkişaf edən, ölkələrimizə və xalqlarımıza fayda gətirən həm nəqliyyat, həm də energetika sahələrində layihələr birləşdirir. Biz ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından çox məmnunuq. Əminəm ki, Sizin səfəriniz gələcək əlaqələrimizin dərinləşməsinə, möhkəmlənməsinə xidmət edəcək. Bizi tarix, coğrafiya, maraqların üst-üstə düşməsi və mənim artıq qeyd etdiyim kimi, iri transmilli energetika, nəqliyyat layihələri birləşdirir. Bu layihələrin reallaşmasından, uğurlu fəaliyyətindən ölkələrimizin və xalqlarımızın rifahı, həm də regionumuzdakı sabitlik asılıdır. Bir daha xoş gəlmisiniz!

**G i o r g i K v i r i k a ş v i l i:** Çox sağ olun, cənab Prezident. Sizi görməyimə çox şadam. Mən həqiqətən, qardaş ölkədə olmaqdan çox şadam. Xalqlarımızı çoxəsrlik dostluq bağlayır. Biz həqiqətən də strateji xarakter daşıyan münasibətlərimizin gələcək inkişafını hərtərəfli dəstəkləyirik. Sizin artıq qeyd etdiyiniz kimi, bizi xalqlarımızın rifahının yaxşılaşdırılması üçün vacib olan və xalqlarımız arasında gələcək dostluğun möhkəmləndirilməsinə xidmət edən dostluq, strateji, regional, qlobal xarakterli layihələr bağlayır. Çox sağ olun.

## 42-ci ŞAHMAT OLİMPİADASINDA YARIŞACAQ AZƏRBAYCAN İDMANÇILARI İLƏ GÖRÜŞ

*1 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Bakıda keçirilən 42-ci Ümumdünya Şahmat Olimpiadasında mübarizə aparacaq Azərbaycan yığma komandalarının üzvləri ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, bu gün ölkəmizdə çox əlamətdar bir gündür. Bakıda 42-ci Şahmat Olimpiadası açılır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Bu, ölkəmiz üçün çox əhəmiyyətli beynəlxalq tədbirdir.

Bakıda mötəbər beynəlxalq tədbirlərin keçirilməsi artıq bir ənənəyə çevrilib. Bildiyiniz kimi, Azərbaycanda Avropa, dünya çempionatları çox uğurla keçirilir. Azərbaycan artıq dünyada inkişaf etmiş ölkə kimi tanınır. Azərbaycana gələn qonaqların, demək olar ki, mütləq əksəriyyəti öz vətənlərinə ən xoş təəssüratlarla qayıdırlar. Əminəm ki, bu Olimpiadada iştirak edəcək bütün şahmatçılar şəhərimizlə, ölkəmizlə tanış olacaqlar, bu iki həftə ərzində Azərbaycanı sevəcəklər və ondan sonra ola bilər ki, turist kimi də ölkəmizə qayıdacaqlar.

Beynəlxalq idman yarışlarının keçirilməsi Azərbaycanın gücünü, Azərbaycana olan hörməti göstərir. Ötən il I Avropa oyunları çox böyük uğurla keçirildi. Deyə bilərəm ki, Yay Olimpiya oyunlarının səviyyəsində keçirildi. Bu il «Formula-1» yarışı keçirildi ki, bunun da auditoriyası 500 milyon insandır. Gələn il İslam Həmrəyliyi oyunları keçiriləcək və bu gün Şahmat Olimpiadası başlanır. Mənə verilən məlumata görə, 175 ölkənin

nümayəndəsi Olimpiadada iştirak edəcək və bu, rekord göstəricidir.

Azərbaycan da bu Olimpiadada 3 kişi, 3 qadın komandaları ilə təmsil olunacaq. Mən sizə uğurlar arzulayıram. Siz müxtəlif beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil edirsiniz, yaxşı nəticələr göstərirsiniz. Bizim kişilərdən ibarət komandamız 2 dəfə Avropa çempionu olub. Digər beynəlxalq yarışlarda yüksək yerlərə layiq görülüblər. Bizim aparıcı şahmatçılarımız həmişə yüksək reytinqlərlə bütün tanınmış şahmatçılar arasında yer tuturlar. Yəni bizim ümidimiz var ki, bu yarışda da siz doğma Vətəndə ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz.

Bizim idmançılarımızın, şahmatçılarımızın – demək istəyirdim ki, əksəriyyəti, amma belə çıxır ki, hamısı – gəncdir, çox yaraşıqlıdır, gözəldir və bu əslində müstəqil Azərbaycanın böyük uğurudur. Çünki siz müstəqil dövrdə formalaşırsınız, bəziləriniz müstəqillik dövründə dünyaya gəlmisiniz. Sizin gözəl gələcəyiniz var. Siz şahmatda artıq böyük uğurlara nail ola bilmisiniz və əminəm ki, həyatda bundan sonra da özünüz üçün layiqli yer tutacaqsınız və tutmusunuz. Bu gün göstərir ki, ancaq müstəqillik dövründə bizim xalqımız sürətlə, uğurla inkişaf edə bilər. Həm idman yarışlarında, həm bütün başqa sahələrdə müstəqillik dövrü – əgər bütün Azərbaycan tarixini nəzərdən keçirsək – ən uğurlu dövrdür. Nəyə görə? Çünki xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Biz Azərbaycanı inamla idarə edirik. Azərbaycan vətəndaşları müstəqilliyin bəhrəsini görürlər. İdmanda, o cümlədən şahmatda bizim əsas uğurlarımız məhz müstəqillik dövrünə təsadüf edir.

Bu yaxınlarda Rioda Yay Olimpiya oyunlarında bizim idmançılarımız rekord nəticə göstəriblər. Medalların sayına görə dünya miqyasında 14–15-ci yerləri bölüşürlər. Şahmatçılarımız da böyük zirvələrə çatıblar. Əminəm ki, gələcəkdə də siz həmişə bizi sevindirəcəksiniz.

Şahmatın inkişafı Azərbaycanda dövlət siyasətidir. Bütün şəhər və rayonlarımızda şahmat məktəbləri fəaliyyət göstərir. Bu ənənə hələ keçən əsrin 70-ci illərində, o vaxt Azərbaycana rəhbərlik et-

miş ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində şahmat məktəblərinin böyük əksəriyyəti ya bağlanmışdı, ya sıradan çıxmışdı, ya da ki, hərracda satılmışdı. Onların yerində dükanlar, restoranlar açılmışdı. Çox təəssüfedici haldır. Ancaq ulu öndər Heydər Əliyev Azərbaycana qayıdandan sonra şahmata diqqət yenə də lazımi səviyyəyə qalxdı. Ulu öndər o vaxt dəfələrlə bizim uşaq şahmatçılarımızla görüşmüşdü və rayonlarda şahmat məktəblərinin açılışlarında mən o məşhur şəkli həmişə görürəm – Teymur, Şəhriyar, rəhmətlik Vüqar, Qədir. O vaxt sizin neçə yaşınız var idi, Şəhriyar?

**Şəhriyar Məmmədyarov:** 10 yaşım var idi.

**İlham Əliyev:** Uşaqlar Heydər Əliyevin ətrafında durmuşdular və o çox böyük rəmzi xarakter daşıyırdı. Bu, yeni bir nəsildir. Yeni, ağıllı, zəkalı nəsildir ki, yetişir. O inanırdı ki, siz böyük zirvələrə qalxacaqsınız, belə də oldu. Mən də, yadımdadır, o illərdə – ötən əsrin 90-cı illərinin ortalarında çalışırdım ki, şahmatçılara, gənclərə kömək edim. Bu gün prezident kimi, bunu etməyə çalışıram. Şadam ki, idmançılarımız bizi, xalqımızı sevindirirlər. Çünki siz hamıdan yaxşı bilirsiniz ki, şahmat intellektual oyundur və xalqımızın intellektual səviyyəsini göstərir. Biz həm idmanın döyüş növlərində güclüyük, həm də intellektual növündə.

Mən sizi bütün uğurlar münasibətilə təbrik edirəm. Bu yarışda sizə uğurlar arzulayıram. Şadam ki, yeniyetmələrin də iştirakı təmin edilir. Əminəm ki, gələcəkdə siz bizi həmişə sevindirəcəksiniz. Bir daha sizi təbrik edirəm, sizə uğurlar arzulayıram.

## 42-ci ÜMUMDÜNYA ŞAHMAT OLİMPİADASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*Milli Gimnastika Arenası*

*1 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, həmçinin Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Kirsan İlyumjinov və təşkilatın digər nümayəndələri, şahmat üzrə dünya çempionları, dövlət və hökumət rəsmiləri sentyabrın 1-də Bakıda Milli Gimnastika Arenasında 42-ci Ümumdünya Şahmat Olimpiadasının təntənəli açılışı mərasimində iştirak etmişlər.*

*Şahmat Olimpiadası hazırda 150-dən çox ölkəni, 3000-dək idmançını və rəsmiləri əhatə edən əsas idman yarışlarından biridir. FİDE 1927-ci ildə Londonda birinci rəsmi Olimpiadanı («Olimpiada» adı yalnız 1952-ci ildə təsdiqlənib) təşkil edib. Bundan sonra olimpiadalar İkinci dünya müharibəsinə qədər bəzən hər il, bəzən isə qeyri-müntəzəm intervallarla keçirilib. Şahmat Olimpiadası tarixində 1939-cu ildən 1950-ci ilədək uzun fasilə olub. 1950-ci ildən isə olimpiadalar mütəmadi olaraq, hər iki ildən bir keçirilməyə başlanıb. 1927-ci ildən indiyədək 41 Ümumdünya Şahmat Olimpiadası təşkil olunub.*

*Bakının ev sahibliyi etdiyi 42-ci Olimpiada indiyədək Azərbaycanda keçirilən ən kütləvi yarış kimi tarixə düşəcək. Bu mötəbər yarışda iştirak etmək üçün 176 ölkə qeydiyyatdan keçib. Olimpiadada 181 kişi və 142 qadın komandası mübarizə aparacaq. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstəricidir.*

*Azərbaycan Olimpiadada 3 kişi və 3 qadın komandası ilə təmsil olunur. Kişilərdən ibarət birinci komandada Şəhriyar Məm-*

*mədyarov, Teymur Rəcəbov, Rauf Məmmədov, Eltac Səfərli və Arkadi Naydiç yer alıblar. İkinci komandanın tərkibinə Vasif Durarbəyli, Namiq Quliyev, Qədir Hüseynov, Nicat Abbasov və Ülvi Bacarani daxil ediliblər. Üçüncü komanda isə Nail Başirli, Məhəmməd Muradlı, Vüqar Əsədli, Pərviz Qasımov və Abdulla Qədimbəylidən ibarətdir.*

*Qadın şahmatçılardan ibarət birinci komandanın heyətinə Zeynəb Məmmədyarova, Günay Məmmədzadə, Aydan Höccətova, Gülnar Məmmədova və Nərmin Kazımova cəlb olunub. İkinci komandada Türkan Məmmədyarova, Nərgiz Umudova, Xəyalə Abdulla, Ülviyyə Fətəliyeva və Nərmin Xələfova yer alıblar. Üçüncü komandanın heyətində isə ölkəmizi Nərmin Məmmədova, Xanım Balacayeva, Gövhər Beydullayeva, Ayan Allahverdiyeva və Aynur Kətanova təmsil edirlər.*

*Kişilərin yarışında ən yüksək reytinq Rusiya millisinə məxsusdur. Bu komandanın əmsalı 2760-a bərabərdir. ABŞ (2740) ikinci, Çin (2735) üçüncüdür. Azərbaycanın birinci komandası isə 2705 xalla dördüncü yeri tutur.*

*Qadınların turnirində isə reytinqə görə lider Çin millisidir – 2528 xal. İkinci pilləni Rusiya (2493), üçüncü yeri isə Ukrayna (2485) tutur. Azərbaycanın birinci komandası 2320 reytinq xalına malikdir.*

*Şahmat Olimpiadasının Azərbaycanda yüksək səviyyədə təşkili ilə əlaqədar prezident İlham Əliyevin 2013-cü il fevralın 14-də imzaladığı Sərəncama əsasən yaradılan Təşkilat Komitəsi yarışlara hazırlıq işlərini uğurla həyata keçirib. Aidiyyəti qurumların birgə fəaliyyəti nəticəsində «Baku Crystal Hall» bu mötəbər yarış üçün ideal vəziyyətə gətirilib. İdmançıların və nümayəndə heyətlərinin ölkəmizə rahat gəlişi üçün dövlətimizin başçısının imzaladığı sərəncama əsasən sadələşdirilmiş viza rejimi tətbiq olunub. İdmançıların təhlükəsizliyinin təmin olunması üçün bütün tədbirlər görülüb. Təşkilati işlərə 500-dək könüllü cəlb edilib.*

*Dövlətimizin başçısı İlham Əliyevin Olimpiada iştirakçılarına məktubunda əminliklə bildirilir ki, ölkəmizə xas qonaqpərvərlik və*

*idmana olan dərin hüsnrəğbət yarışların yüksək səviyyədə keçirilməsi üçün gözəl imkanlar yaradacaq. Məktubda deyilir ki, Rio de Janeyro Olimpiadasının zəngin təəssüratları ilə yaşayan Azərbaycan bu mötəbər şahmat yarışlarına böyük ruh yüksəkliyi ilə ev sahibliyi edir. Tarixboyu Şərq ilə Qərb arasında körpü rolunu oynamış ölkəmizdə qədim dövrlərdən şahmata daim böyük maraq müşahidə edilib. XX əsrdə Azərbaycanda şahmatın yayılması kütləvi xarakter alıb, müxtəlif səviyyəli mötəbər turnirlər keçirilməyə başlanıb. İdmançılarımızın bu yarışlarda qazandığı uğurlar şahmatın bir idman növü kimi, daha geniş vüsət almasına təkan verib. Azərbaycanın bütün bölgələrində uşaq şahmat məktəblərinin fəaliyyətə başlaması ölkəmizdə şahmata göstərilən xüsusi diqqətin təzahürüdür. Həmin amillər dövlət müstəqilliyinin bərpasından sonra bizim şahmat məktəbimizin inkişafına xidmət edərək, bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirib. Son illərdə şahmat üzrə dünya və Avropa miqyaslı yüksək statusa malik yarışların ölkəmizin paytaxtı ilə yanaşı, bölgələrində də baş tutması Azərbaycanın dünyanın şahmat mərkəzlərindən birinə çevrilməsi yolunda atılan mühüm addımdır. Bu Şahmat Olimpiadası da ölkəmizdə bu intellektual oyunun təbliğinə öz layiqli töhfəsini verəcək.*

*Prezident İlham Əliyev ümidvar olduğunu bildirib ki, 42-ci Ümumdünya Şahmat Olimpiadası bu qədim oyunun tarixinə yeni uğurlu səhifələr yazacaq, ölkələr arasında sülhün və əmin-amanlığın bərqərar olmasına xidmət göstərəcək.*

**Y a q u b E y y u b o v** (*Bakı Şahmat Olimpiadasının Təşkilat Komitəsinin sədri, Baş nazirin birinci müavini)*:

Zati-aliləri möhtərəm cənab Prezident!

Çox hörmətli Mehriban xanım!

Hörmətli Kirsan Nikolayeviç!

Hörmətli qonaqlar, xanımlar və cənablar, dünyanın ən güclü və adlı-sanlı şahmatçıları!

Bu gün qədim Azərbaycanın paytaxtı Bakı şəhərinə şahmat aləminin ən böyük idman tədbirində – 42-ci Ümumdünya Şahmat Olimpiadasında iştirak etmək üçün gələn bütün qonaqlara Təşkilat

Komitəsi adından «Xoş gəlmisiniz!» – deyirəm. Ümidvaram ki, iki həftə ərzində siz şahmat taxtası arxasında mübarizə aparmaqla yanaşı, həm də imkan tapıb şəhərimizi gəzəcək, onun gözəlliyindən ilham alaraq, yeni zirvələri fəth edəcəksiniz.

Möhtərəm cənab Prezident, Ümumdünya Şahmat Olimpiadası Təşkilat Komitəsi tərəfindən görülən işlərdən danışmazdan əvvəl, icazə verin, bütün Azərbaycan xalqını və şəxsən Sizi Azərbaycan idmançılarının Rio de Janeyroda keçirilmiş XXXI Yay Olimpiya oyunlarındakı möhtəşəm çıxışları və tarixi qələbələri münasibətilə təbrik edim. Azərbaycan idmançıları idmanın 17 növündə çıxış edərək, 5 növ üzrə 18 medal qazanmış, 207 ölkə arasında medalların sayına görə 15-ci yeri tutmuş və hər bir idmançıya düşən medal sayına görə dünyanın ən effektli komandası olmuşdur. Bu uğur məhz dövlətimizin və Milli Olimpiya Komitəsinin prezidenti kimi, şəxsən Sizin idmançılarımıza göstərdiyiniz yüksək diqqət və qayğı nəticəsində əldə edilmişdir. Azərbaycan idman ölkəsi olduğunu bütün dünyaya bir daha sübut etdi və bu gün start götürəcək Ümumdünya Şahmat Olimpiadası da bu silsiləvi nailiyyətlərimizin bir davamıdır. Bu il bu möhtəşəm tədbirin yüksək səviyyədə keçirilməsi üçün 2013-cü ildə Sizin xüsusi sərəncamınız ilə Şahmat Olimpiadasının Təşkilat Komitəsi yaradılmışdır. İcazə verin, bu dövr ərzində Təşkilat Komitəsi tərəfindən görülmüş işlər haqqında qısa məlumat verim.

Yarışların keçiriləcəyi yer olaraq, əvvəllər «Eurovision» mahnı müsabiqəsinə və ilk Avropa oyunlarına ev sahibliyi etmiş «Baku Crystal Hall» təyin edilmişdir. Bütün idmançılar və məşqçilər Bakı şəhərinin ən gözəl və yüksək səviyyəli hotellərində yerləşdirilmişlər. Bakı Olimpiadasında dünyanın 175 ölkəsini təmsil edən və heyətində dünyanın ən güclü şahmatçıları olan 181 kişi və 142 qadın komandanın 1600-dən çox üzvü, bundan əlavə, yüzlərlə komanda kapitanı və məşqçilər, digər rəsmi nümayəndələr iştirak edəcəklər. Yarışları 193 hakim idarə edəcək. Olimpiada ilə yanaşı, sentyabr ayının 4-dən 13-dək Bakı şəhərində, «Fairmont» hotelində FİDE-nin 87-ci Konqresi və Baş Assambleyasının iclasları keçiriləcək. Konqresdə FİDE-nin bütün üzv dövlətlərini təmsil edən

359 nümayəndənin və FİDE komissiyalarının 24 sədrinin iştirakı gözlənilir. Ümumdünya Şahmat Olimpiadasında iştirak məqsədilə Azərbaycan Respublikasına gələn qonaqların viza prosedurlarının sadələşdirilməsi ilə bağlı Sizin imzaladığınız sərəncama əsasən, Heydər Əliyev Beynəlxalq Aeroportunda xüsusi viza məntəqələri yaradılıb ki, bu da idmançıların ölkəmizə giriş-çıxış işlərini tam rahatlaşdırır.

Hörmətli qonaqlar, Azərbaycanın bütün sahələrdə olduğu kimi, idman sahəsində də nailiyyətləri ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu dahi şəxsiyyətin idmana və bədən tərbiyəsinə göstərdiyi diqqət və qayğı Azərbaycan idmanını yüksək zirvəyə qaldırmışdır. Azərbaycan şahmatının yüksək inkişafının bünövrəsi də məhz ulu öndərimizin adı ilə bağlıdır. Xalqın intellektual inkişafında şahmatın çox mühüm əhəmiyyətini yüksək qiymətləndirən və ölkənin beynəlxalq aləmdə tanıdılması işində şahmatın oynaya biləcəyi rolu zamanında layiqincə dəyərləndirən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti və qoyduğu bünövrə bu gün öz bəhrəsini verməkdədir. Hələ Sovet İttifaqı dövründə dünya şahmat tacının Azərbaycana gətirilməsində əvəzsiz xidmətləri olmuş Heydər Əliyevin təşəbbüsü ilə və ölkədə şahmatın inkişafı istiqamətində aparılan düşünülmüş və ardıcıl siyasət sayəsində Azərbaycanda güclü şahmat məktəbi yaradılmış, ölkə şahmatı yüksək səviyyələrə qalxmış, Azərbaycan şahmatçılarının uğurlu çıxışları bir-birini sıralamağa başlamışdır. Bu prosesi bu gün respublikamızın prezidenti cənab İlham Əliyev uğurla davam etdirir.

Möhtərəm cənab Prezident, Sizin imzaladığınız «2009–2014-cü illər üçün Azərbaycan Respublikasında şahmatın inkişafı Dövlət Proqramı» dünya ölkələri praktikasında şahmat idman növünün inkişafına yönəldilmiş ilk və yeganə Proqramdır. Bu, Azərbaycanda şahmata dövlət səviyyəsində göstərilən qayğının ən bariz nümunəsidir. Bunun qarşısında şahmatçılarımız da öz nailiyyətləri ilə xalqımızı sevindirirlər. Kişilərdən ibarət yığma komandanın 2009-cu və 2013-cü illərdə Avropa çempionu adını,

2007-ci və 2011-ci illərdə Avropa çempionatlarının müvafiq olaraq bürünc və gümüş medallarını qazanmaları, qadın yığmamızın isə 2009-cu ildə Avropa çempionatında dördüncü yerə çıxması, kişilərdən ibarət «SOCAR Azərbaycan» klubunun 2 dəfə Avropa çempionu adını və ilk dəfə keçirilmiş şəhərlərarası dünya çempionatında Bakının komandasının gümüş medal qazanması buna əyani sübutdur. İnanırıq ki, şahmatçılarımız bundan sonra da xalqımızı sevindirməyə davam edəcəklər.

Mən Şahmat Olimpiadasının Təşkilat Komitəsi və bütün idmançılar adından, möhtərəm cənab Prezident, Sizə, hörmətli Mehriban xanıma idmançılar üçün yaratdığınız şəraitə, onlara göstərdiyiniz yüksək diqqət və qayğıya görə bir daha dərin təşəkkürümü bildirirəm. Təşkilat Komitəsi adından bildirmək istəyirəm ki, Ümumdünya Şahmat Olimpiadasının yüksək səviyyədə keçirilməsi üçün FİDE-nin bütün tələbləri tam yerinə yetirilib. Biz bu möhtəşəm yarışın keçirilməsinə tam hazırıq. Biz çalışacağıq ki, Bakı Olimpiadası dünya şahmat tarixində ən yaddaqalan tədbirlərdən biri olsun və bütün şahmat həvəskarlarının hafizəsində daim xoş təəssüratla xatırlanan bir şahmat bayramı kimi həkk olunsun.

Bütün yarış iştirakçılarını və qonaqlarımızı bir daha salamlayır və şahmatçılara rəqabətlə dolu mübarizə meydanında müvəffəqiyyətlər arzulayıram. Qoy güclü qalib gəlsin! Diqqətinizə görə təşəkkür edirəm.

**Kirsan İlyumjinov** *(FİDE-nin prezidenti):* Hörmətli Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Əziz dostlar!

Mən böyük məmnuniyyətlə Bakıda keçirilən 42-ci Ümumdünya Şahmat Olimpiadasının çox hörmətli qonaqları, oyunçuları və kapitanlarını, federasiyaların prezidentlərini və nümayəndə heyətlərinin üzvlərini, media nümayəndələrini ürəkdən salamlayıram.

4 il bundan əvvəl Bakı şəhəri FİDE tərəfindən şahmat dünyasında ən vacib və ən çox gözlənilən şahmat hadisələrindən biri olan bu böyük tədbirin keçirilməsi üçün ən uyğun şəhər kimi

seçilmişdir. Tədbir öz geniş ənənələri ilə çoxlu sayda ölkələri və mədəniyyətləri əhatə edir. Bakı nəinki bütün lazımi infrastruktura, yüksək qonaqpərvərliyə, eyni zamanda, Azərbaycanın mənzərəli və görməli yerlərinə malik bir şəhərdir.

Olimpiadanın keçiriləcəyi məkan eyni dərəcədə çox böyük əhəmiyyət kəsb edir. Bu məkan artıq «Eurovision» mahnı müsabiqəsi və I Avropa oyunları kimi, əhəmiyyətli tədbirlərə ev sahibliyi edib. Şübhəsiz ki, bu gözəl məkan – «Baku Crystal Hall» oyunçular üçün çox böyük ruh yüksəkliyinə şərait yaradaraq, illərdən bəri iştirak edənlərin yaddaşlarına ən möhtəşəm yarış məkanı kimi həkk olunacaq.

14 gün ərzində Bakı dünyada ən əsas şahmat mərkəzi kimi fəaliyyət göstərəcək. Milyonlarla şahmatsevərin diqqəti heyranedici Bakıya yönələcək. Olimpiada ilə yanaşı, FİDE-nin 87-ci Konqresi də Bakıda keçiriləcək. Bu idman növündə nəzərəçarpan dərin irs və verilən töhfələr hələ 1924-cü ildən bəri – FİDE-nin əsasının qoyulduğu andan mövcuddur.

İndi isə bu tədbirdə iştirak edən və əməyi olan hər bir kəsə dərin təşəkkürümü bildirmək istərdim. İcazənizlə, Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə, Azərbaycan hökumətinə, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə, Azərbaycan Şahmat Federasiyasına, Bakı Şahmat Olimpiadasının Təşkilat Komitəsinə göstərilən dəstəyə görə, eyni zamanda, bütün könüllülərə, media nümayəndələrinə və sponsorlara səmimi-qəlbdən öz dərin minnətdarlığımı bildirmək istərdim.

42-ci Ümumdünya Şahmat Olimpiadası start götürməmişdən öncə artıq kişi və qadın komandalarının iştirakçı sayına görə yeni rekorda imza atmışdır. Eyni zamanda, 42-ci Şahmat Olimpiadası və FİDE-nin 87-ci Konqresində iştirakçı qismində təmsil olunan federasiyaların sayına görə də bu Olimpiadanın əsl şahmat bayramı olacağına tam inanıram.

Gens una sumus! Biz bir ailəyik!

Əlbəttə, dünyanın 188 ölkəsindən olan milyonlarla şahmat həvəskarı üçün bu təntənəli gündə Azərbaycanın görkəmli dövlət

xadimi Heydər Əlirza oğlu Əliyevi xatırlamamaq olmaz. O, təkcə Azərbaycanda və keçmiş Sovet İttifaqında deyil, dünyanın bir çox ölkələrində şahmatın inkişafına və populyarlaşmasına çox böyük töhfə verib. Heydər Əliyev uşaqlar arasında şahmatı dəstəkləyirdi. Dünyaya görkəmli şahmatçılar, o cümlədən 13-cü dünya çempionu bəxş etmiş Bakı Şahmat məktəbinin banisi məhz Heydər Əliyev olub. Biz indi də Heydər Əlirza oğlu Əliyevin ənənələrini davam etdiririk. Sağ olun.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 42-ci Ümumdünya Şahmat Olimpiadasını açıq elan etdi.*

*Açılış mərasiminin təşkilatçısı – Bakı Şahmat Olimpiadası Əməliyyat Komitəsinin rəsmi tərəfdaşı olan «Amapola Exclusive Events» şirkəti layihə üzrə tərəfdaşlarla birlikdə tamaşaçılara parlaq videomeppinq proyeksiyaları, milli və müasir rəqslər, 176 nağaraçının müşayiət etdiyi bayraqlar paradından ibarət möhtəşəm və heyrətamiz tamaşa təqdim etdi.*

*Videomeppinq proyeksiyasında şahmatın yaranması rəngarəng səhnələrlə canlandırılır, şahmat fiqurları ölkəmizin rəmzlərinə və Azərbaycanın görməli yerlərinə çevrilirdi.*

*Tamaşaçılar improvizə olunmuş şahmat dünyasına «səyahət edərək», Azərbaycan musiqisinin korifeyləri, böyük bəstəkarlar Qara Qarayevin və Fikrət Əmirovun musiqilərinin sədaları altında canlı ağ və qara fiqurların oyunda qızğın rəqabət və əbədi mübarizə ilə teatrlaşdırılmış rəqs şousunu izlədilər.*

*Azərbaycanın qədim xalçaçılıq sənəti prosesində yaradılmış «Dünya kimi əbədi oyun» meppinqi Milli Gimnastika Arenasının meydançasını nəhəng rəsm əsərinə çevirdi. Onların canlanmış ornamentləri keçmişimizin və bu günümüzün tarixi və gözəl ənənələrini təcəssüm etdirirdi.*

*Şahmat Olimpiadasında iştirakçı ölkələrin bayraqları «Biz bir dünyayıq» devizi altında arenaya gətirildi. Bu vaxt səhnə kompleksi Olimpiadanın iştirakçı ölkələrinin sərhəd cizgilərinin əks olunduğu*

*nəhəng xəritəyə çevrildi. Yer Kürəsinin sürətli fırlanması ilə paralel olaraq, coşqun musiqi ritmləri və Azərbaycanın ənənəvi musiqi aləti – nağara zərbələrinin sədaları altında 176 nağaraçının iştirakı ilə bayraqların paradı oldu.*

*Bütün olimpiadalarda ən həyəcanlı anlardan biri də püşkatmadır. Olimpiadanın baş hakimi, Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov, onunla birlikdə qadınlar arasında şahmat üzrə dünya çempionu çinli qrossmeyster Hou Yifan, keçmiş dünya çempionu rusiyalı qrossmeyster Vladimir Kramnik içərisində qara və ya ağ fiqurun olduğu imitasiya olunmuş şahmat fiqurunun içərisindən iştirakçıların siyahısında sıra nömrələri cüt olan yığma komandalar sırasında oyunun hansı fiqurla başlanacağını müəyyən etdilər.*

*Mərasim Azərbaycan estradasının 5 populyar nümayəndəsinin improvizə edilmiş caz, rok və muğam sintezinin ifası ilə başa çatdı.*

*Həmişəcavan Bakıda əbədi oyun başlanır. Şaquli ekranda şahmat saatı təsvir edilib. Piyada ilk gedişi (E2-E4) edir və göstərir ki, qalan gedişləri qrossmeysterlər etməlidir. Saatın düyməsi basılır və bununla da Olimpiada açıq elan edilir.*

*Ümumdünya Şahmat Olimpiadasının işıqlandırılması üçün 250-dən çox yerli və xarici media nümayəndəsi qeydiyyatdan keçib. Olimpiadanın keçirildiyi günlərdə Bakı həm də FİDE-nin növbəti konqresinə ev sahibliyi edəcək. Həmin konqresdə 183 ölkə təmsil olunacaq.*

*Mötəbər yarışın idarə olunmasına Azərbaycandan 30 hakim cəlb edilib.*

*İlk tura sentyabrın 2-də saat 15:00-da start veriləcək. 11 turdan ibarət yarışlar sentyabrın 13-də yekunlaşacaqdır.*

# BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ KİRSAN İLYUMJİNOV İLƏ GÖRÜŞ

*1 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri sentyabrın 1-də Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Kirsan İlyumjinov ilə görüşmüşlər.*

*Görüşdə Bakıda 42-ci Ümumdünya Şahmat Olimpiadasının yüksək səviyyədə təşkil olunduğu bildirildi. Bakı Şahmat Olimpiadasında rekord sayda iştirakçı ölkənin təmsil olunmasının önəmi vurğulandı. FİDE ilə Azərbaycanın müvafiq qurumları arasında uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edildi. Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığa mühüm töhfə verdiyi qeyd olundu. Ölkəmizin birinci xanımı, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyevanın bu sahədə fəaliyyəti xüsusi vurğulandı. Azərbaycanda idmanın bütün növlərinin, o cümlədən şahmatın sürətlə inkişaf etdiyi diqqətə çatdırıldı, şahmatçılarımızın müxtəlif beynəlxalq yarışlarda qazandıqları nailiyyətlər məmnunluqla qeyd olundu.*

## «ŞAHDƏNİZ-2» LAYİHƏSİ ÜZRƏ DAYAQ BLOKUNUN DƏNİZƏ YOLA SALINMASI MƏRASİMİ

*1 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Heydər Əliyev adına Bakı Dərin özüllər zavodunda «Şahdəniz-2» layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak etmidir.*

*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və bp-nin «Şahdəniz-2» üzrə vitse-prezidenti Yuan Dramond «Şahdəniz» layihəsi ilə bağlı görülən işlər barədə dövlətimizin başçısına məlumat verdilər. Bildirildi ki, indiyədək layihənin icrası dənizdə və quruda yerləşən bütün istehsalat-quraşdırma sahələrində uğurla davam edib. Hazırda mühəndis-layihələndirmə, təchizat-tədarük və tikinti də daxil olmaqla, işlərin 77 faizi tamamlanıb. Layihə çərçivəsində ilk qazın nəqlinə və sonradan hasilatın artırılmasına hazırlıq məqsədilə «Heydər Əliyev» və «İstiqlal» qazma qurğularından istifadə etməklə, artıq 10 istismar quyusu qazılıb. «Şahdəniz Mərhələ-2» çərçivəsində əsas diqqət ildə əlavə 16 milyard kubmetr qaz və gündə 120 min barrelədək kondensat əldə etmək üçün hazırda istismar edilən lay intervallarında qalan ehtiyatlara yönəlib. Layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə nəql ediləcək. Qalan həcm, yəni ildə 10 milyard kubmetr Avropa alıcılarına çatdırılacaq. «Şahdəniz Mərhələ-2»yə bir-birinə körpü ilə birləşdirilən 2 yeni hasilat platformasının, 2 yarımdalma qazma qurğusundan qazılan 26 sualtı quyunun, suyun 550 metrədək dərinliyində quraşdırılan 500 kilometr uzunluğunda sualtı boru kəmərlərinin inşası və Səngəçal terminalının genişləndirilməsi işləri daxildir.*

*Sonra prezident İlham Əliyev «Şahdəniz-2» layihəsinin hasilat və dikborular platformasının dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basdı.*

*Bu dayaq blokunun çəkisi 13150 ton, hündürlüyü isə 105 metrdir. Blok 12 hasilat, 3 ixrac dikborusundan və 1 idxal dikborusundan ibarətdir. Dayaq bloku suyun 94 metr dərinliyində quraşdırılacaq. Blok «BOS Shelf», «Star Gulf» və «Saipem» konsorsiumları tərəfindən inşa edilib. Tikinti işləri 2 il davam edib. Bu dayaq bloku Xəzərdə ən çox dikboru sayına malikdir. Blokun konstruksiyasının daşınması, suya endirilməsi, yerləşdirilməsi və payalarla quraşdırılması işləri diqqətlə planlaşdırılıb. Bu işlərin təxminən 40 gün ərzində yekunlaşdırılması nəzərdə tutulur. Dayaq blokunun tikintisi cədvələ uyğun tamamlanıb və 2016-cı il iyulun 29-da dənizə yola salınmaq üçün uğurla Heydər Əliyev adına Bakı Dərin özüllər zavodunun yanalma körpüsündə Xəzər Dəniz Gəmiçiliyinin STB-1 daşıma barjına yüklənib. Blok zavod ərazisində yerli infrastrukturdan və obyektlərdən istifadə edilməklə, bütövlüklə ölkə daxilində inşa edilib. Tikinti işlərinə subpodratçılar və ixtisaslaşmış təchizatçılar da daxil olmaqla, 5000-dən çox işçi cəlb edilib. Tikintiyə cəlb olunmuş işçi qüvvəsinin təxminən 90 faizi Azərbaycan vətəndaşları olub.*

*Onu da deyək ki, ilk dəfə olaraq «Şahdəniz-2» platformalarının tikintisinin 100 faizi ölkə daxilində həyata keçirilir. Tikinti işləri beynəlxalq standartlara uyğun şəkildə tam modernləşdirilmiş dünya səviyyəli istehsalat obyektləri olan Heydər Əliyev adına Bakı Dərin özüllər zavodunda və «Amec-Tekfen-Azfen» tikinti-quraşdırma sahəsində həyata keçirilib. Xəzərdə ən böyük dayaq bloklarından biri olan «Şahdəniz-2» dayaq blokları yerli şirkət olan «BOS Shelf»in üzv olduğu konsorsium tərəfindən Bakı Dərin özüllər zavodunda inşa edilir. «BOS Shelf» bp-nin mərkəzləşmiş maddi-texniki və təchizat bazasını idarəetmə xidmətləri ilə təmin edən ilk yerli şirkətdir. Azərbaycanda ən yüksək dünya standartlarına uyğun qurulmuş özüllər də şirkət tərəfindən inşa olunur. Bundan başqa, şirkət yerli işçi qüvvəsindən istifadə etməklə, Azərbaycanda ilk dəfə sualtı strukturların istehsalını*

*həyata keçirir və fəaliyyətində dünyada ən yeni texnologiyalardan istifadə edir.*

*«Şahdəniz-2» və «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi» layihələrinin əsas töhfələrindən biri tikinti fazası ərzində minlərlə iş yerinin açılmasıdır. Bu vaxtadək Azərbaycanda bütün əsas müqavilələr üzrə tikinti işlərinə 24 min nəfərdən artıq insan cəlb edilib və onların 80 faizdən çoxu Azərbaycan vətəndaşları olub.*

*Sonra prezident İlham Əliyev SOCAR və bu layihənin əməliyyatçısı olan bp rəhbərliyi, «Şahdəniz» layihəsinin tərəfdaş şirkətlərinin, layihəni həyata keçirən konsorsiumun nümayəndələri və dayağı inşa edən işçi heyəti ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz «Şahdəniz-2» platformasının dayaq blokunu dənizə yola salırıq. Bu əlamətdar hadisə münasibətilə sizi, bütün Azərbaycan xalqını təbrik edirəm. Bu, tarixi hadisədir. «Şahdəniz» layihəsi üzrə saziş 20 il bundan əvvəl imzalanıb və bu illər ərzində uğurla icra edilir, bütün vəzifələr yerinə yetirilir. «Şahdəniz-2» layihəsinin ölkəmiz üçün əhəmiyyəti çox böyükdür.

Bu gün yola saldığımız dayaq bloku onu göstərir ki, Azərbaycan böyük işləri görməyə qadir bir ölkədir. Sevindirici haldır ki, bu dayaq bloku və platformanın üst tikililəri 100 faiz Azərbaycanda inşa edilir. Bu nəhəng qurğuların inşasında işləyənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Bu da «Əsrin müqaviləsi»nin nəticəsidir. Çünki 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi»nin şərtlərindən biri də o idi ki, yerli mütəxəssislər, fəhlələr tədricən üstünlük təşkil etsin və artıq işləyənlərin 80 faizdən çoxu Azərbaycan vətəndaşlarıdır. Bu, yeni iş yerlərinin yaradılması deməkdir. «Şahdəniz» layihəsinin icrasında 20 000-dən çox Azərbaycan vətəndaşı işləyir, yaxşı maaş alır, təcrübə toplayır. Bu vətəndaşlar gələcəkdə digər layihələrdə işləyəcəklər. «Şahdəniz-2» layihəsi təkcə Azərbaycan üçün deyil, bütün region, Avropa üçün böyük əhəmiyyət daşıyan bir layihədir. 20 il bundan əvvəl saziş imzalanıb və bu gün biz bu sazişin gözəl nəticələrini görürük. Artıq neçə ildir ki, Azərbaycan qazı region ölkələrinə

ixrac edilir. Azərbaycan öz enerji təhlükəsizliyini tam təmin edibdir və digər ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında öz rolunu oynayır. Bu rol getdikcə artacaq.

«Şahdəniz» və «Cənub Qaz Dəhlizi» layihələri dünyanın ən böyük enerji layihələrindəndir. «Cənub Qaz Dəhlizi»nin inşası da uğurla gedir. Bütün bu işlər əlaqəli şəkildə aparılır. Əminəm ki, cədvəl üzrə gedən işlər 2018–2020-ci illərdə tamamlanacaq və beləliklə, Azərbaycan qazı daha da böyük həcmdə qonşu ölkələrə, Avropa ölkələrinə nəql ediləcəkdir.

«Cənub Qaz Dəhlizi» artıq 7 ölkəni birləşdirir. Azərbaycan bu istiqamətdə öz liderlik fəaliyyətini davam etdirir. Bakıda «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının iki dəfə iclası keçirilib. Biz yeni bir beynəlxalq əməkdaşlıq formatını yaratdıq. Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya bu layihənin iştirakçılarıdır. Bununla bərabər, 3 Balkan ölkəsi – Monteneqro, Bosniya və Herseqovina, Xorvatiya bu layihəyə növbəti mərhələdə qoşulacaqdır. Beləliklə, Azərbaycan qazının gələcəkdə müxtəlif ölkələrə ixracı üçün yeni imkanlar yaranır. Bunu tərəfdaşlarla birlikdə biz yaradırıq, Azərbaycan xalqı yaradır.

Mən bu layihələrin icrası ilə bağlı görülən işlərdə SOCAR-ın və *bp*-nin rolunu xüsusilə qiymətləndirmək istəyirəm. SOCAR–*bp* əməkdaşlığı artıq böyük tarixə malikdir. 20 ildən çoxdur ki, bu əməkdaşlıq davam edir və bu, uğurlu əməkdaşlıqdır. Görülən və görüləcək işlər ən azı növbəti 20 il ərzində də SOCAR-ın və *bp*-nin yaxın tərəfdaşlar kimi fəaliyyətini təmin edəcək. Azərbaycanda görüləcək işlər həm xarici tərəfdaşlar, xarici kompaniyalar, SOCAR və Azərbaycan xalqı üçün daha da böyük mənfəət gətirəcəkdir.

Əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə «Əsrin müqaviləsi» imzalanmasaydı, bu gün təsəvvür etmək mümkün deyil ki, Azərbaycan hansı vəziyyətdə ola bilərdi. Ölkəmizdə görülən quruculuq-abadlıq işlərinin, dayanıqlı iqtisadiyyatımızın, böyük valyuta ehtiyatlarımızın əsas mənbəyi «Əsrin müqaviləsi»dir. Yaxşı bilirsiniz ki, Azərbaycan o ağır, çətin dövrdə müəyyən təzyiqlərlə də üzləşmişdi. Heydər Əliyevin qətiyyəti, cə-

sarəti, uzaqgörənliyi, xalqa olan bağlılığı «Əsrin müqaviləsi»nin imzalanmasını təmin etmişdir. Mən də fəxr edirəm ki, o vaxt – 1994-cü ildə müqavilənin imzalanmasına qədər aparılan danışıqlarda iştirak etmişəm. Ondan sonra Dövlət Neft Şirkətində çalışarkən bilavasitə bu məsələlərlə məşğul olmuşam. Bu gün də prezident kimi, bütün işləri nəzarətdə saxlayıram və Azərbaycanın enerji siyasətinin gələcək inkişafı üçün lazımi addımları atıram.

Bu gün Azərbaycan dünya xəritəsində etibarlı tərəfdaş, hörmətə layiq olan ölkə kimi tanınır. Biz bütün öhdəlikləri yerinə yetiririk, xarici sərmayədarlar üçün yaxşı şərait yaratmışıq. Onların sərmayələri qanun çərçivəsində qorunur. Əgər bu olmasaydı, heç kim Azərbaycana milyardlarla, on milyardlarla dollar sərmayə qoymazdı. Sərmayə qoyuluşu üçün Azərbaycan çox cəlbedici ölkədir. Şadam ki, indi nəinki neft-qaz sektoruna, digər sektorlara da yerli, xarici sərmayələr qoyulur. Bütün bu işlərin təməli 1994-cü il sentyabrın 20-də qoyulmuşdur. 1996-cı ildə «Şahdəniz» layihəsi üzrə Sazişin imzalanması növbəti uğurlu addım idi. Baxmayaraq ki, o vaxt dünyada və xüsusilə Avropada enerji təhlükəsizliyi haqqında heç kim danışmırdı, qaz layihələri o qədər də böyük əhəmiyyət daşımırdı. Hesab olunurdu ki, qaz layihələri o qədər də böyük gəlir gətirən layihələr deyil, müəyyən tərəddüdlər var idi. Ancaq biz əmin idik ki, Azərbaycan qaz sektorunda da öz sözünü deyəcək.

Bu gün artıq Azərbaycan böyük qaz dövlətlərinin sıralarına daxil olur. Hasilat, nəqliyyat artacaq, Azərbaycan gələcəkdə tranzit funksiyalarını da oynaya bilər. Necə ki, biz indi neftin, neft məhsullarının daşınması üçün bu rolu oynayırıq. Beləliklə, ölkəmizin qüdrəti, əhəmiyyəti artacaq, Azərbaycan xalqı daha da yaxşı yaşayacaq. Görülən bütün bu işlərin məqsədi budur – Azərbaycan vətəndaşı daha da yaxşı yaşasın, ölkəmizin iqtisadi müstəqilliyi daha da möhkəmlənsin və dünyada rolumuz, əhəmiyyətimiz artsın. Biz bütün bunları görürük. Ona görə bugünkü mərasim çox rəmzi xarakter daşıyır. Bu, görülən işlərin bariz nümunəsidir. Azərbaycan vətəndaşları bu böyük, nəhəng işləri xarici tərəfdaşları, xarici sərmayədarlar ilə birlikdə görürlər. Hər bir

vətənpərvər Azərbaycan vətəndaşı bununla fəxr edir. Fürsətdən istifadə edərək, bu işlərdə iştirak etmiş bütün insanlara – Azərbaycan fəhlələrinə, mütəxəssislərinə, xarici tərəfdaşlara, *bp* şirkətinə və digər partnyorlara minnətdarlığımı bildirmək istəyirəm. Bu bizim ümumi işimizdir və hər bir tərəf – xarici şirkətlər, Azərbaycan dövləti, Azərbaycan şirkətləri, Azərbaycan vətəndaşları öz mənfəətini götürür.

Mən sizi bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Platformanın üst tikililəri gələn il istismara veriləcək. İnşallah, gələn il növbəti mərasimdə sizinlə görüşəcəyik. Bir daha təbrik edirəm.

Bu işlər başa çatandan sonra bizim işçilərimiz gərək növbəti layihələrdə iştirak etsinlər. Ona görə siz gərək daim iş görəsiniz. Çünki onlar neçə illərdir işləyiblər, təcrübə toplayıblar. Ona görə bu işlər davam etdirilməlidir. Yəqin ki, bunu nəzərə alırsınız. Bu işlər gələcəkdə cədvəl üzrə təmin edilməlidir.

**R ö v n ə q A b d u l l a y e v** *(SOCAR-ın prezidenti)***:** Dayanıqlı layihələr həyata keçirəcəyik.

**İ l h a m Ə l i y e v:** Biz bu işi davam etdirməliyik. Birincisi, ona görə ki, iqtisadiyyatımız inkişaf etsin. İkincisi isə, bizim işçilər iş yeri ilə təmin olunsunlar.

**Y u a n D r a m o n d** (*bp-nin «Şahdəniz-2» üzrə vitse-prezidenti*)**:** Biz tərəfdaşlığımızı davam etdiririk və birlikdə sıx əməkdaşlıq edirik. İşçilərin ümumi sayının 80 faizini azərbaycanlılar təşkil edir.

**İ l h a m Ə l i y e v** *(işçilərə müraciətlə)*: Siz necə, işinizdən razısınızmı?

**İ ş ç i l ə r:** Bəli, razıyıq, çox sağ olun.

**R ö v n ə q A b d u l l a y e v:** Cənab Prezident, bütün işçilərə ən müasir tələblərə uyğun hər cür şərait yaradılıb.

**İ m r a n Ş ı x ə l i y e v** (*«BOS Shelf»in əməkdaşı*): Cənab Prezident, «BOS Shelf» şirkəti olaraq, biz Sizin qarşınızda tam məsuliyyətlə bildiririk ki, bundan sonra da neft şirkətinin, xarici şirkətlərin, dünya ölkələrinin hər birinin bütün sifarişlərini yerinə yetirmək iqtidarındayıq. Bir sözlə, Azərbaycan xalqının əmin-

amanlığı, iqtisadiyyatın inkişafı üçün bütün qüvvəmizi sərf etmişik və bundan sonra da sərf etməyə hazırıq. Bizim kollektiv həmişə Sizin siyasətinizi dəstəkləyib və bundan sonra da dəstəkləyəcək. Biz Sizinləyik.

**İlham Əliyev:** Çox sağ olun. Yadımdadır, 1994-cü ildə «Əsrin müqaviləsi»nin danışıqları aparılarkən, biz müqavilənin icrası ilə bağlı belə bir təklif irəli sürdük ki, tədricən Azərbaycan vətəndaşlarının payı artsın. Təxminən 20 faizdən sonra 80–85 faizə qədər biz bunu təmin etməyə çalışırdıq. Danışıqları Xoşbəxt müəllimlə bərabər aparırdıq. Bu gün bu reallıqdır. Bunu 20 il bundan əvvəl təsəvvür etmək mümkün deyildi.

**Xoşbəxt Yusifzadə** (*SOCAR-ın birinci vitse-prezidenti*): Bəli, cənab Prezident, bu o vaxt heç insanın ağlına da gəlməzdi.

**Rövnəq Abdullayev:** Cənab Prezident, ən vacibi odur ki, artıq mühəndisliyin 100 faizi burada yerləşir.

**İlham Əliyev:** O vaxt «Əsrin müqaviləsi» imzalanmasaydı indi nə olacaqdı? İş olmayacaqdı, təcrübə olmayacaqdı.

**Xoşbəxt Yusifzadə:** Danışıqlar çox çətin gedirdi, cənab Prezident, bəzən inciyənlər, küsənlər olurdu.

**Saliha Dündar** *(«Türkiyə Petrolları» şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri)*: Cənab Prezident, biz də «Türkiyə Petrolları» olaraq, Azərbaycan üçün əlimizdən gələni etməyə hazırıq.

**İlham Əliyev:** Sağ olun. «Türkiyə Petrolları» «Şahdəniz» layihəsində ikinci səhmdardır.

**Xoşbəxt Yusifzadə**: Cənab Prezident, «Şahdəniz» layihəsinin özü də çox mübahisəyə səbəb oldu.

**İlham Əliyev:** Bəli, o ayrı hekayədir. «Şahdəniz» imzalananda bəziləri buna etiraz edirdilər. O vaxt prezident Heydər Əliyev müşavirə keçirdi. Bizi də dəvət etdi – Xoşbəxt müəllimi, məni, digər vitse-prezidentləri. Hər birimizdən soruşdu ki, siz də deyin, doğrudanmı biz bunu imzalamamalıyıq? O vaxt Azərbaycan rəhbərliyində bir nəfər var idi ki, buna etiraz edirdi. O çoxdan Azərbaycandan qaçıb gedib. Ancaq o etirazın da səbəbi indi bəlli oldu. Onun məqsədi Azərbaycana xeyir gətirmək yox, ziyan

vurmaq idi. O vaxt «Şahdəniz» layihəsinin əleyhinə çox böyük kampaniya açmışdı. Milli Məclisdə öyrədilmiş bəzi deputatlar, hökumətdə bəziləri layihənin əleyhinə çıxmağa başlamışdılar. Ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, «Şahdəniz» layihəsini mütləq imzalamalıyıq. Ancaq məsələni müzakirə etmək üçün bizim hamımızı dəvət etdi. Dövlət Neft Şirkətinin bütün rəhbərlərini, hökumətin, Milli Məclisin rəhbərlərini dəvət etdi ki, buyurun deyin, nədir sizin iradınız. «Şahdəniz» layihəsinin əleyhinə ortaya heç bir arqument qoyulmadı. Biz hamımız durub öz sözümüzü dedik. Dedik ki, bu layihə mütləq imzalanmalıdır. Çünki bu, Azərbaycan üçün həyati əhəmiyyət daşıyır. Həyat bunu sübut edir. Onda təcrid vəziyyətdə qalmış o fərd – belə desəm daha düzgün olar – çox məyus oldu və iclası tərk etdi. Ondan təxminən 2-3 ay sonra Azərbaycanı da həmişəlik tərk etdi.

Yəni «Şahdəniz» layihəsinin ərsəyə gəlməsi o qədər də asan olmamışdır. Nəyə görə bunu edirdi? Başa düşmürdü ki, bu, Azərbaycana xeyir gətirəcək? Başa düşürdü. İstəmirdi ki, Azərbaycan inkişaf etsin. İstəyirdi vəziyyət pisləşsin ki, sonradan özü üçün ondan da böyük vəzifə əldə etsin. Ancaq budur «Şahdəniz» layihəsi! Minlərlə, on minlərlə Azərbaycan vətəndaşı işləyir, pul qazanır, əsərlər yaradır. Azərbaycan dünya miqyasında daha da əhəmiyyətli ölkəyə çevrilir, nə qədər valyuta gəlib və gələcək. İndi «Şahdəniz-2»nin işə salınması nəticəsində əlavə 16 milyard kubmetr qaz ixrac ediləcək. «Şahdəniz» layihəsi olmasaydı, heç kim «Abşeron» layihəsinə, «Ümid» yatağına sərmayə qoymazdı. Kim 3500 kilometrlik bu boru xəttini, qaz kəmərini çəkərdi?! Kim 45 milyard dollar pul qoyardı?! Əgər 1996-cı ildə Azərbaycanın düşmənlərinin, ölkəmizə, dövlətçiliyimizə xəyanət etmiş insanların mövqeyi üstünlük təşkil etmiş olsaydı, bunların heç biri olmayacaqdı.

Sağ olun.

## ÖZBƏKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİ SENATININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB NİQMATULLA YULDAŞEVƏ

Hörmətli Niqmatulla Tulkonoviç!

Özbəkistan Respublikasının Prezidenti, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim İslam Abdulqəniyeviç Kərimovun vəfatı barədə xəbər məni dərindən kədərləndirdi.

İslam Abdulqəniyeviç Kərimov tarixə müstəqil Özbəkistanın ilk prezidenti kimi daxil olub. Ölkənin təşəkkülü, inkişafı, dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, sosial-iqtisadi və siyasi sahələrdə nailiyyətləri və uğurları, qardaş Özbəkistanın beynəlxalq birliyə inteqrasiyası onun adı ilə bağlıdır.

Uzaqgörən, prinsipial və ardıcıl siyasət, təşkilatçılıq istedadı, ən mürəkkəb məsələlərin həllinə əsl dövlətçilik mövqeyindən yanaşması İslam Kərimova xalq məhəbbəti, dərin hörmət və nəinki Özbəkistanda, həm də onun hüdudlarından kənarda böyük nüfuz qazandırmışdır.

Azərbaycanda İslam Kərimovu xalqlarımız arasında çoxəsrlik mehriban dostluq ənənələrinin gücləndirilməsində və qarşılıqlı dəstəklənməsində, müstəqillik dövründə Azərbaycan–Özbəkistan dövlətlərarası münasibətlərinin formalaşdırılmasında və hərtərəfli inkişafında əsl dost kimi tanıyır və dərindən hörmət edirlər.

Bu kədərli anda ağır və əvəzsiz itki ilə bağlı Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, İslam Abdulqəniyeviç Kərimovun doğmalarına və yaxınlarına, bütün qardaş Özbəkistan xalqına dərin hüznlə başsağlığı verirəm.

İslam Abdulqəniyeviç Kərimovun parlaq xatirəsi qəlbimizdə həmişəlik qalacaq.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 sentyabr 2016-cı il*

# 42-ci ÜMUMDÜNYA ŞAHMAT OLİMPİADASINA START VERMİŞ BİRİNCİ TURUN AÇILIŞINDA İŞTİRAK

*«Baku Crystal Hall»*

*2 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də «Baku Crystal Hall»da 42-ci Ümumdünya Şahmat Olimpiadasının birinci turuna start verilməsində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Beynəlxalq Şahmat Federasiyasının (FİDE) prezidenti Kirsan İlyumjinov ilə görüşdü.*

*Bakının ev sahibliyi etdiyi 42-ci Şahmat Olimpiadası indiyədək Azərbaycanda keçirilən ən kütləvi yarışdır. Bakı Olimpiadasında 175 ölkəni təmsil edən 181 kişi və 142 qadın komandanın 1600-dən çox üzvü, bundan əlavə, yüzlərlə komanda kapitanları və məşqçilər, digər rəsmi nümayəndələr iştirak edirlər. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstəricidir. Yarışları 193 hakim idarə edir. Yarışın idarə olunmasına Azərbaycandan 30 hakim cəlb edilib.*

*Prezident İlham Əliyev Azərbaycanın kişilərdən ibarət birinci komandasının üzvü Şəhriyar Məmmədyarov ilə Zimbabve şahmatçısı Rodvel Makoto arasındakı partiyada ilk gedişi (D2-D4) etdi.*

*Azərbaycan Olimpiadada 3 kişi və 3 qadın komandası ilə təmsil olunur. Kişilərdən ibarət «Azərbaycan-1» komandası Zimbabve, «Azərbaycan-2» Mozambik, «Azərbaycan-3» isə Papua-Yeni Qvineya millilər ilə qarşılaşacaq. Qadınların mübarizəsində isə «Azərbaycan-1» komandası Nikaraqua, «Azərbaycan-2» Yaponiya, «Azərbaycan-3» isə Lesoto yığması ilə üz-üzə gələcək.*

*Sonra dövlətimizin başçısı yarışların keçirildiyi zala baxdı, şahmatçıların oyunlarını izlədi.*

*Prezident İlham Əliyev qadın şahmatçıların yarışında Rusiya idmançısı Aleksandra Kostenyuk ilə şotlandiyalı Araksamita Grant arasındakı partiyada da ilk gedişi (E2-E4) etdi.*

*Azərbaycan Prezidenti əlil şahmatçıların yarışına baxdı.*

*Prezident İlham Əliyev daha sonra arenada yaradılan şəraitlə tanış oldu.*

*Dünyanın əsas idman yarışlarından biri olan Şahmat Olimpiadasını ölkəmizdə yüksək səviyyədə keçirmək üçün bütün zəruri addımlar atılıb. «Baku Crystal Hall» bu mötəbər yarış üçün tam hazır vəziyyətə gətirilib. İdmançıların və nümayəndə heyətlərinin burada özlərini tam rahat hiss etmələri üçün mühüm işlər görülüb. Təşkilati işlərə 500-dək könüllü cəlb edilib.*

*Dövlətimizin başçısı Olimpiadanın sərgi salonuna baxdı. Məlumat verildi ki, Olimpiada çərçivəsində şahmat sərgisi təşkil olunub. Olimpiadanın tamaşaçılarına «Baku Crystal Hall»da təşkil olunan sərgidə iştirak etmək üçün imkan verilir. Bu sərgidə şahmatla bağlı nadir eksponatlar, həmçinin müxtəlif tarixi yarışlardan plakatlar nümayiş olunur.*

*Prezident İlham Əliyev şərhçilər otağına baş çəkdi.*

**Yevgeni Miroşniçenko** *(şərhçi):* Bu möhtəşəm tədbirə görə təşəkkür edirəm.

**İlham Əliyev:** Mən çox şadam ki, hər kəs razı qalıb. Dünən möhtəşəm açılış mərasimi oldu. Bu gün yarış başlayır. Bütün dünya Bakıdadır. Olimpiadada rekord sayda ölkə iştirak edir. Şadam ki, bütün təşkilati məsələlər həll olunub. Ümidvaram ki, bu iki həftə ərzində bizim bütün yeni qonaqlarımız ölkəmizi görməyə də imkan tapacaqlar və turist kimi yenidən Azərbaycana qayıdacaqlar. Sizə uğurlar arzulayıram.

*Burada yaradılan virtual oyun zonası da böyük maraqla qarşılanır. Şəhərimizin sakinləri və qonaqlar zonada virtual olaraq, istənilən şahmatçı ilə oynaya bilər.*

*Ümumdünya Şahmat Olimpiadası dünyanın diqqət mərkəzində olan tədbirdir. Yarışları işıqlandırmaq üçün 250-dən çox yerli və xarici media nümayəndəsinin qeydiyyatdan keçməsi bunu bir daha sübut edir.*

*11 turdan ibarət yarışlar sentyabrın 13-də yekunlaşacaq. Olimpiada ilə yanaşı, sentyabrın 4-dən 13-dək Bakıda FİDE-nin 87-ci Konqresi və Baş Assambleyasının iclasları keçiriləcək.*

*Onu da deyək ki, növbəti – 43-cü Ümumdünya Şahmat Olimpiadası Gürcüstanın Batumi şəhərində olacaq. Prezident İlham Əliyev 43-cü Ümumdünya Şahmat Olimpiadasının stendinə baxdı.*

*Sonra dövlətimizin başçısı yarışı işıqlandıran mətbuat nümayəndələrinə müsahibə verdi.*

**S u a l:** Cənab Prezident, bu tədbirin Azərbaycanın tanıdılmasında əhəmiyyəti barədə nə deyə bilərsiniz?

**İ l h a m Ə l i y e v:** Əlbəttə, çox əhəmiyyətlidir, bizim üçün böyük şərəfdir. Ümumdünya Şahmat Olimpiadasının Azərbaycanda keçirilməsi, əlbəttə ki, bizi çox sevindirir. Şadam ki, bütün təşkilati məsələlər yüksək səviyyədə öz həllini tapıbdır. Dünən möhtəşəm açılış mərasimində bərabər iştirak edirdik, bu gün burada artıq yarışlar başlayıb.

Azərbaycan bir daha özünü dünyaya müasir, inkişaf edən ölkə kimi təqdim edir. Əminəm ki, bütün qonaqlar öz vətənlərinə ən xoş təəssüratlarla qayıdacaqlar və Azərbaycan haqqında dünya şahmat ictimaiyyətinin daha da dolğun təəssüratı olacaqdır. Ona görə bunun çox böyük əhəmiyyəti var. Azərbaycanda artıq mötəbər beynəlxalq yarışlar ənənəvi olaraq keçirilir – Avropa oyunları, Şahmat Olimpiadası, «Formula-1» yarışı, gələn il İslam Həmrəyliyi oyunları. Yəni Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilir. Sağ olun.

## XXXI YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARLA GÖRÜŞ

*2 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev sentyabrın 2-də Braziliyanın Rio de Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya oyunlarında iştirak etmiş idmançılarla və onların məşqçiləri ilə görüşmüşdür.*

*Görüşə toplaşanlar Azərbaycan Prezidentini, xanımı Mehriban Əliyevanı və ailə üzvlərini hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı görüşdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz idmançılar, əziz dostlar!

Rio Yay Olimpiya oyunlarında Azərbaycan komandası möhtəşəm və tarixi qələbə qazanıb. Bu qələbə münasibətilə idmançılarımızı və bütün Azərbaycan xalqını bir daha təbrik edirəm.

Bu doğrudan da tarixi qələbədir. Azərbaycan idmançıları Rio Olimpiya oyunlarında 18 medal qazanıblar. Bu, rekord göstəricidir. Onlardan 1-i qızıl, 7-si gümüş, 10-u isə bürünc medaldır. Bu onu göstərir ki, Azərbaycan doğrudan da idman ölkəsidir. Mən bunu dəfələrlə bildirmişəm. Bir daha demək istəyirəm, həyat və idmançılarımızın nəticələri bunu bir daha təsdiqləyir. Medalların sayına görə Azərbaycan komandası 14–15-ci yerləri bölüşür. Avropa ölkələri arasında 7-ci, keçmiş Sovet İttifaqı respublikaları arasında 2-ci, müsəlman ölkələri arasında isə 1-ci yerdədir. Bu möhtəşəm qələbə bütün Azərbaycan xalqını sevindirir. Azərbaycan xalqı öz idmançıları ilə fəxr edir və mən sizi bu gözəl qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm.

Azərbaycan idman dövlətidir. Biz məqsədyönlü şəkildə idman siyasətimizi apararaq, bu gözəl nəticələrə nail ola bilmişik. İlk dəfə

Azərbaycan müstəqil dövlət kimi, 1996-cı ildə Yay Olimpiya oyunlarında iştirak etmişdi. O vaxt bizim cəmi 1 medalımız var idi. Ondan sonra hər Olimpiadada biz nəticələrimizi artırırdıq – 2000-ci ildə 3, 2004-cü ildə 5, 2008-ci ildə 7 və 2012-ci ildə 10 medal qazanmışdıq. Biz hesab edirdik ki, bu, böyük nəticədir və doğrudan da belədir. Çünki Yay Olimpiya oyunlarında dünyanın ən qabaqcıl idmançıları iştirak edirlər və orada medal qazanmaq o qədər də asan deyil. Ancaq bu dəfə 18 medal əldə etməyimiz, əlbəttə, onu göstərir ki, son 4 ildə də Azərbaycan idmanı sürətlə inkişaf edib.

Biz güclü idman dövlətləri sırasındayıq. Biz bütün dünyaya göstəririk ki, Azərbaycanda idman inkişaf edir, gözəl gənc nəsil yetişir və idman hər bir ölkənin ümumi inkişafının təzahürüdür. Əgər qabaqcıl idman ölkələrinə nəzər salsaq görərik ki, onların mütləq əksəriyyəti inkişaf etmiş ölkələrdir. Çünki inkişaf etmiş ölkələrdə idmana daha da böyük dəstək göstərilir, bunun üçün daha da böyük maliyyə imkanları var, idmançılar üçün şərait daha da yaxşıdır və əlbəttə ki, nəticələr də özünü göstərir. Uğurlu iqtisadi inkişafımız və düşünülmüş siyasətimiz Azərbaycanı da dünya idman elitasının sıralarına daxil edib. Bu məni çox sevindirir. Çünki bilirsiniz ki, idman mənim həyatımda mühüm rol oynayır. Mən 19 ildir ki, Milli Olimpiya Komitəsinin prezidentiyəm və bu missiyanı icra edirəm. Yadımdadır, 1997-ci ildə Azərbaycanın idman ictimaiyyəti mənə bu etimadı göstərəndə ölkədə idman o qədər də yaxşı vəziyyətdə deyildi. İdmançılarımız ölkəmizi tərk edirdi, bəzi idmançılarımız düz yolda deyildilər. Bu da həqiqətdir. İdmana qayğı göstərmək üçün bizim o qədər də maliyyə imkanlarımız yox idi. Bundan əlavə, idmana rəhbərlik edən qurumlar arasında da birlik yox idi.

Mənim yadımdadır, o vaxt Milli Olimpiya Komitəsi ilə İdman Nazirliyi arasında, demək olar ki, intriqalar gedirdi, qarşıdurma yaranmışdı. Əlbəttə ki, bu, idmanın inkişafına çox mənfi təsir göstərmişdir. Mənim əsas vəzifəm – o vaxt mən bunu açıq şəkildə ifadə etdim – ondan ibarət idi ki, idmana rəhbərlik edən qurumlar arasında birlik yaransın, biz vahid komanda kimi fəaliyyət

göstərək, idmançılara şərait yaradaq və ondan sonra idmançılardan nəticə gözləyək. Çünki əgər şərait yoxdursa, nəticə gözləmək mümkün deyil və biz bu siyasəti ardıcıl şəkildə apararaq, bugünkü gözəl nəticələrə gəlib çatmışıq.

Bizim idmançılarımız müxtəlif beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında həmişə böyük nəticələr qazanırlar. Gənc idmançılarımız bizi sevindirir, gənc nəsil yetişir. Bu da çox vacib məsələdir. Çünki əgər gənc nəsil idmana meyilli olmasa, idmanla məşğul olmasa, onda, əlbəttə ki, böyük uğurlardan söhbət gedə bilməz. Gənc nəsli idmana cəlb etmək üçün ilk növbədə, şərait olmalıdır. Biz bunu yaradırıq. 40-dan çox şəhərimizdə müasir olimpiya kompleksləri açılıb. Digər stimul, əlbəttə ki, tanınmış idmançılarımızın qələbələridir. Uşaqlar, yeniyetmələr, idmanla məşğul olanlar, yaxud da ki, olmaq istəyənlər indi bizim çempionlarımıza baxırlar, onların uğurlarına sevinirlər və onlar kimi olmaq istəyirlər. Bütün bu amillər idmanın inkişafına xidmət göstərir. Ona görə biz öz siyasətimizi apararkən, bütün bu amilləri nəzərə alırdıq. İdmançılara şərait yaradılmalı, idmançının ləyaqətli adı cəmiyyətdə bərpa edilməli idi, onu da biz etdik. İdmançılarımızın təlim-məşq toplanışlarının təşkili məsələlərində lazımi addımlar atıldı. İdman mütəxəssisləri cəlb edildi, məşqçi heyət gücləndirildi və əlbəttə ki, nəticə də göz qabağındadır. Əgər bütün bu tədbirlər olmasaydı, nəticə gözləmək, əlbəttə ki, mümkün olmazdı.

Bu gün isə Azərbaycan özünü dünyada idman ölkəsi kimi göstərir. Rio Olimpiya oyunları onu göstərdi ki, əvvəlki dövrlərdə qazandığımız uğurlar təsadüfi deyildir. Keçən il Bakıda tarixdə ilk dəfə olaraq, I Avropa oyunları keçirildi. Azərbaycan atletləri komanda hesabında ikinci yeri tutdular. Bəziləri buna təəccüblə yanaşırdılar. Bəzi idman mütəxəssisləri üçün bu bir sürpriz idi. Hesab edirdilər ki, doğma divarlar arasında bizim idmançılara yəqin hansısa xüsusi bir şərait yaradılmışdı. Halbuki bu belə deyil. Hətta Bakıda keçirilmiş Avropa oyunlarında da hakimlərin ədalətsizliyi bəzi hallarda idmançılarımıza mane olurdu. Necə ki, bu dəfə Rioda bizim qızıl medallarımızın sayı daha çox olmalı idi.

Bunu siz də yaxşı bilirsiniz, Azərbaycan ictimaiyyəti də, idmanla maraqlananlar da bilirlər. Rio Olimpiya oyunlarının nəticələri onu göstərir ki, Avropa oyunlarındakı nailiyyət təsadüfi deyildir.

Biz doğrudan da idman ölkəsiyik. Biz bütün reytinqlərə görə qabaqcıl yerlərdəyik. Yay Olimpiya oyunlarından sonra bir neçə parametr üzrə təhlil aparılmışdır – ölkələrin əhali sayına görə medalların sayı və ölkələrin ümumi daxili məhsulunun həcminə görə medalların sayı. Hər iki reytinqdə biz birinci onluqdayıq. İştirak edən idmançıların medallarının sayına görə isə biz birinci yerdəyik. Biz Olimpiadada 56 idmançı ilə təmsil olunmuşuq, 18 medal qazanmışıq. Yəni bu meyar üzrə biz dünyada birinciyik. Bir daha sizi bu gözəl hadisə, gözəl nəticələr münasibətilə təbrik edirəm.

Əlbəttə, oyunların nəticələri təhlil ediləcək ki, gələcəkdə biz daha da yaxşı nəticə gözləyə bilək. Düzdür, hər Yay Olimpiya oyunlarından sonra idmançılarla görüşlər zamanı mən qeyd edirəm ki, bu çox böyük nəticədir, bundan böyük nəticə əldə etmək çətin olacaq. Xatırlayıram, 4 il bundan əvvəl idmançılarımız Londondan qayıdandan sonra da demişdim ki, 10 medal qazanmışıq, gələn dəfə ondan çox medal qazanmaq çətin olacaq. Amma indi 18 medal qazanmışıq və əlbəttə ki, bu bizim işimizi Tokioda bir az çətinləşdirəcək. Amma buna baxmayaraq, əminəm ki, Tokioda da Azərbaycan idmançıları ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

Əlbəttə, hər bir ölkə, hər bir ölkənin əhalisi, xalqı istəyir ki, onun idmançıları daha çox medal qazansın. Biz də bunu istəyirik. Ancaq bununla bərabər, biz istəyirik ki, Azərbaycanda idman kütləvi xarakter alsın. Artıq bu istiqamətdə çox önəmli addımlar atılıbdır. İdmanın kütləviliyi insanların sağlamlığı, sağlam həyat tərzi deməkdir. Bizim idmançılarımız – mən görkəmli idmançılarımızı, çempionlarımızı nəzərdə tuturam – özlərini məişətdə də, döyüş meydanlarında da ləyaqətlə aparırlar. Rio Olimpiya oyunlarında bəzi hallarda hakimlərin ədalətsizliyi və deyə bilərəm ki, saxtakarlığı ilə üzləşərək, onlar emosiyalara yol vermədilər, özlərini ləyaqətlə apardılar. Onlar üçün bu, ən ağır mənəvi zərbə idi. Çünki onların qələbəsi bütün dünyanın gözü

qarşısında kobudcasına, həyasızcasına, biabırcasına əllərindən alınıb. Amma görün bizim idmançılarımız özlərini necə ləyaqətlə aparırlar. Bu onu göstərir ki, bizim idmançılarımızın çox güclü mənəvi dayaqları var. Onlar gənc nəsil üçün də nümunədirlər və onların davranışı – mən onların fəaliyyətini də, həyatını da izləyirəm – cəmiyyətdəki hərəkətləri bizi çox sevindirir. Onlar bizim gənc idmançılar üçün nümunədir, örnəkdir. Əminəm ki, gənc idmançılar burada oturan idmançılardan nümunə götürərək, çalışacaqlar ki, onlar kimi olsunlar. Ona görə idmanın cəmiyyətdə çox böyük rolu var. Bu təkcə fiziki idman yarışı deyil. Bu mənəviyyatdır. Bu, sağlam həyat tərzidir. Bu ləyaqətdir. Öz gücünə əmin olan insan heç vaxt ondan gücsüzə qarşı zor tətbiq etməz. Bəli, özünü müdafiə etmək üçün lazımi cavab verə bilər və verməlidir. İdmanda da, həyatda da eynidir. Ancaq özü bunun təşəbbüskarı olmamalıdır və şadam ki, bizim idmançılarımız, bax, belə idmançılardır.

Siz Azərbaycan xalqını sevindirmisiniz. Rioda müstəqil Azərbaycan bayrağı 18 dəfə dalğalanıb. Xüsusilə nəzərə alsaq ki, bir aydan sonra biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik, bu, müstəqilliyimizin 25 illiyinə Azərbaycan idmançıları tərəfindən gözəl hədiyyədir. Bütün Azərbaycan xalqı sizinlə fəxr edir. Mən sizinlə fəxr edirəm. Sizə minnətdaram, sizə uğurlar arzulayıram, sizi öpürəm, bağrıma basıram! Eşq olsun Azərbaycan idmançılarına!

* * *

*Sonra mükafatlandırma mərasimi oldu.*

*Prezident İlham Əliyevin Azərbaycan milli olimpiya komandasının üzvlərinin təltif edilməsi ilə bağlı sərəncamları elan edildi.*

*Dövlətimizin başçısı Azərbaycan idmanının inkişafındakı xidmətlərinə və XXXI Yay Olimpiya oyunlarında göstərdikləri yüksək nailiyyətlərə görə təltif edilmiş idmançılara və onların məşqçilərinə «Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu»nu, «Tərəqqi» medallarını, «Şöhrət», «Vətənə xidmətə görə» ordenlərini təqdim etdi, onlara bir daha uğurlar arzuladı.*

* * *

**F i r d o v s i  U m u d o v** (*sərbəst güləş üzrə Azərbaycan yığma komandasının böyük məşqçisi*): Möhtərəm cənab Prezident!

Əziz dostlar, idmançılar, hər birinizi salamlayıram. Mən də öz adımdan, komandamız adından bu gözəl qələbəmiz münasibətilə xalqımızı təbrik edirəm.

Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan, bu gün möhtərəm cənab prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi idman siyasəti ölkəmizi Olimpiya oyunlarının ən yüksək zirvəsinə qaldırıb. Olimpiya oyunları idmanın ən yüksək zirvəsində olan yarışlardan biridir. Möhtərəm cənab Prezident, Siz Olimpiya oyunlarına yolasalma mərasimində idmançılarımıza öz tövsiyələrinizi vermişdiniz. Hər zaman olduğu kimi, Sizin tövsiyələriniz bizim yaddaşımıza yazılıb. Yolasalma mərasimində idmançılarımıza müvəffəqiyyətlə, ləyaqətlə çıxış edib, ölkəmizə uğurlu nəticələrlə, yüksək əyarlı medallarla qayıtmağı arzu etmişdiniz. Bu gün biz idmançılar, məşqçilər Sizin qarşınızdayıq. Möhtəşəm qələbə ilə hüzurunuzda durmuşuq. Fəxr, qürur hissi keçiririk ki, bu gün Sizin etimadınızı doğrultmuşuq.

Bu qələbələr münasibətilə Sizi, bütün Azərbaycan xalqını təbrik edirik. Bu Sizin qələbənizdir. Bu, bütün xalqımızın qələbəsidir. Sözsüz ki, bu qələbələrə gedən yol asan olmamışdır. Dövlətimizin bizə göstərdiyi diqqət və qayğı sayəsində, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyanın rəhbərliyi altında biz yarışlara hazırlaşdıq və bu möhtəşəm qələbəni qazandıq.

Mən bir güləş mütəxəssisi, məşqçisi kimi, pəhləvanlarımızın, güləşçilərimizin Olimpiya oyunlarında çıxışlarını da qeyd etmək istəyirəm. Güləşçilərimiz 9 medal qazandılar. Sərbəst güləşçilərimiz 6 çəki dərəcəsində mübarizə aparırdılar, 5 medal qazanaraq, komanda hesabında birinci yerə layiq görüldülər. Bu da idman tariximizə yeni bir səhifə yazdı. Bu, ölkəmizdə güləşçilərimizin potensialının nə qədər böyük olmasından xəbər verir.

Cənab Prezident, biz bundan sonra da çalışacağıq ki, Sizin bizə göstərdiyiniz etimadı doğruldaq. Gələcək yarışlarda, IV İslam Həmrəyliyi oyunlarında, Tokioda keçiriləcək Olimpiya oyunlarında imkan verməyəcəyik ki, hakim ədalətsizliyi olsun. İnşallah, elə hazırlaşacağıq ki, qazandığımız o 9 medalı – gümüş, bürünc medalları qızıla çevirək və bir daha bütün dünyaya sübut edək ki, Azərbaycan dövləti güclü dövlətdir, Azərbaycanın İlham Əliyev kimi güclü və qüdrətli prezidenti var.

Yaşasın möhtərəm cənab prezidentimiz İlham Əliyev! Yaşasın Azərbaycan!

**Elçin Zeynalov** (*XXXI Yay Olimpiya oyunlarının gümüş medalçısı Toğrul Əsgərovun şəxsi məşqçisi*): Hörmətli Prezidentimiz!

Hörmətli Mehriban xanım!

Mən ulu öndərimizin bir sözünü idmançıların nəzərinə çatdırmaq istəyirəm. 1996-cı ildə mən Azərbaycanın ən güclü məşqçisi seçiləndə Əl Oyunları Sarayında möhtərəm ulu öndərimiz demişdi: «Vətənin idman şərəfini qorumaq səngərdə Vətənin torpağını qorumaq kimi şərəfli bir işdir».

Bütün Azərbaycan xalqı kimi, mən də Prezidentimizlə fəxr edirəm. Yaşasın Azərbaycan prezidenti İlham Əliyev!

**Elnur Amanov** (*taekvondo üzrə kişilərdən ibarət Azərbaycan yığma komandasının böyük məşqçisi*): Möhtərəm cənab Prezident, mən bu görüşdə iştirak etdiyim üçün çox sevinirəm. İdmançılarımız XXXI Yay Olimpiya oyunlarında uğurla çıxış edib, Azərbaycan bayrağını yüksəklərə qaldırıb, Vətənə qələbə ilə qayıdıblar. Sizi əmin etmək istərdim ki, idmançılarımızın zəfər səsləri dünyanın bütün ölkələrindən gələcək.

Azərbaycan gənclərinin fiziki cəhətdən sağlam olması Sizin bizlərə göstərdiyiniz diqqət və qayğının sayəsində mümkün olub. Bir sözlə, möhtərəm Prezident, Sizin hakimiyyətdə olduğunuz illərdə Azərbaycan dünyanın ən qüdrətli idman ölkəsinə çevrilib.

Mən bu gün sevincli günlərimdən birini yaşayıram. XXXI Yay Olimpiya oyunlarında idmançılarımız yüksək nəticə göstərərək, 1 qızıl, 7 gümüş və 10 bürünc medal əldə ediblər. Mənim üçün ikiqat sevincdir. Çünki tələbəm Radik İsayev Olimpiya oyunlarının qızıl

medalını qazanaraq, Sizin etimadınızı doğruldub. Bir məşqçi kimi, deyə bilərəm ki, bu, təkcə idman ictimaiyyətinin deyil, bütün xalqımızın sevincinə səbəb olub.

Bütün bu nailiyyətlərin qazanılmasına səbəb Sizin rəhbərliyinizlə idmanın maddi-texniki bazasının əsaslı şəkildə yenidən qurulması, biz məşqçilərə və idmançılara, bütün idman ictimaiyyətinə göstərdiyiniz diqqət və qayğı, bir sözlə, bizim bütün sosial-məişət problemlərimizin çevik şəkildə həlli, möhtərəm cənab Prezident, bizə göstərdiyiniz, sözün əsl mənasında, atalıq qayğısıdır. Bütün yarış iştirakçıları adından Sizi təbrik edirəm. Diqqətinizə görə sağ olun.

**İlham Əliyev:** Cəbrayıl Həsənovun döyüşünə hamımız baxmışıq. Hamımız da bilirik ki, o, finalda yarışmalı idi. Ən azı onun gümüş medalı olmalı idi.

**Elmar Qasımov** (*Olimpiya oyunlarının gümüş mükafatçısı, cüdoçu*): Möhtərəm cənab Prezident, bu gün Sizin qarşınızda çıxış etdiyimə görə böyük qürur hissi keçirirəm. Bizimlə görüşünüz biz idmançılara Sizin ən dəyərli hədiyyənizdir.

Hörmətli cənab Prezident, biz XXXI Yay Olimpiya oyunlarında yüksək nailiyyətlər qazanaraq, Vətənimizi beynəlxalq arenalarda idman ölkəsi kimi bir daha tanıtdıq. Olimpiya oyunlarında çox böyük dövlətləri geridə qoyaraq, 18 medal qazandıq. Oyunlarda bizim uğurlu çıxışımız Azərbaycanda idmanın çox böyük sürətlə inkişaf etməsinin daha bir göstəricisidir.

Hörmətli cənab Prezident, bu gün qazandığımız uğurlarla biz Sizin etimadınızı doğrultmaqdan qürur duyuruq. Mən hər birimizin adından Sizə bir daha böyük təşəkkürümü bildirirəm. Daim Azərbaycan idmanının adını ucaltmaq üçün əlimdən gələni etməyə söz verirəm. Diqqətinizə görə sağ olun.

**İlham Əliyev:** Hamımız yaxşı xatırlayırıq ki, Elmar bir neçə il bundan əvvəl İrəvanda cüdo üzrə gənclərin Avropa çempionatında Azərbaycan bayrağını yüksəklərə qaldırmışdı. Onun şərəfinə İrəvanda Azərbaycanın Dövlət himni səsləndirilmişdi. İndi də olimpiya mükafatçısıdır. Əminəm ki, gələcəkdə olimpiya çempionu da olacaq.

*Dövlətimizin başçısı 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordenini Rio Olimpiadasının gümüş medalçısı, boksçu Lorenzo Sotomayora təqdim etdi.*

– Lorenzo Sotomayor olimpiya çempionudur. Onun qələbəsi hakimlər tərəfindən oğurlanıb. Ancaq əminəm ki, o, Tokioda ədaləti bərpa edəcək.

**Lorenzo Sotomayor:** Çox sağ olun. İnşallah.

**Mariya Stadnik** (*Rio Olimpiadasının gümüş medalçısı, güləşçi*): Hörmətli cənab Prezident, bu gün bizim üçün çox mühüm tarixi andır. Olimpiyaçılarımız Rio Olimpiya oyunlarında 17 idman növündə təmsil olunurdular. Əvvəlki uğurlarımıza baxmayaraq, biz daha qətiyyətli çıxış edə və yeni nailiyyətlər qazana bildik. Olimpiya oyunlarının fəxri mükafatını almış hər bir idmançını səmimi-qəlbdən təbrik edirəm. Bu uğur hər bir idmançı üçün böyük sevincdir.

Hörmətli cənab Prezident, bütün idmançılar, bütün məşqçilər daim Sizin qayğınız və diqqətinizlə əhatə olunub. İdman sahəsində çalışan hər bir adam bunun nə qədər vacib olduğunu bilir. Olimpiya oyunlarında yüksək nailiyyətlər düzgün işin, dövlətimiz tərəfindən qayğının nəticəsidir. Mən bütün idmançılar adından Sizə minnətdarlıq etmək istəyirəm. Çox sağ olun.

**İlham Əliyev:** Sağ olun. Hamımız Mariyanı çox sevirik. Mən və bütün ailəm yarışları izləyir və sənə azarkeşlik edirdik. Sənin üçün səndən çox həyəcan keçirirdik. Cəmi 3 saniyə çatmadı, amma eybi yox. Məncə, bu da böyük nailiyyətdir, başlıcası isə irəliyə baxmaq lazımdır. Tokiodakı çıxışı gözləyəcəyik.

* * *

*Dövlətimizin başçısı olimpiyaçılarla və onların məşqçiləri ilə xatirə şəkilləri çəkdirdi.*

*Sonra prezident İlham Əliyev Qroznıda Rusiya Federasiyası Çeçenistan Respublikasının ilk prezidenti Əhməd Kadırovun xatirəsinə həsr olunmuş peşəkar kikboksinq turnirində qalib gələrək, dünya çempionu titulu qazanan «WBC Muaythai» versiyası üzrə dünya çempionu Zabit Səmədov ilə görüşdü, onu qazandığı qələbə münasibətilə təbrik etdi.*

*Mərasim tanınmış incəsənət ustalarının konsert proqramı ilə davam etdi.*

## ÜMUMDÜNYA YƏHUDİ KONQRESİNİN PREZİDENTİ RONALD LAUDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Ümumdünya Yəhudi Konqresinin prezidenti Ronald Lauderin başçılıq etdiyi və Ümumdünya Yəhudi Konqresinin baş icraçı direktoru və icraçı vitse-prezidenti Robert Sinqer, Ümumdünya Yəhudi Konqresinin vitse-prezidenti Qod Nisanov, Avro-Asiya Yəhudi Konqresinin prezidenti Julius Maynl, Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kanner, vitse-prezidenti German Zaxaryayev və Ümumdünya Yəhudi Konqresinin baş icraçı direktorunun diplomatiya üzrə müavini Maram Sternin üzv olduqları nümayəndə heyətini qəbul etmişdir.*

*Ümumdünya Yəhudi Konqresinin nümayəndə heyətinin Azərbaycana səfər proqramının geniş olduğunu, çoxsaylı görüşlərin keçiriləcəyini vurğulayan prezident İlham Əliyev qonaqların ölkəmizi daha da yaxından tanımaları üçün səfərin yaxşı imkan yaradacağına ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev ölkəmizdə müxtəlif xalqların və dinlərin nümayəndələri, o cümlədən yəhudilər arasında əsrlərboyu dostluq və qarşılıqlı dəstəyə əsaslanan tarixi əlaqələrin mövcudluğunu məmnunluqla qeyd etdi.*

*Dövlətimizin başçısı tarixən azərbaycanlılarla yəhudilər arasında dostluq münasibətlərinin olduğunu, yəhudilərin ölkəmizin ictimai həyatında fəal rol oynadıqlarını və bütün dövrlərdə əmin-amanlıq şəraitində yaşadıqlarını dedi. Prezident İlham Əliyev Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələrinin sülh, dostluq şəraitində yaşamasını dövlət siyasətinin təzahürü kimi dəyərləndirdi. 2016-cı ilin Azərbaycanda «Multikulturalizm ili» elan edildiyini deyən dövlətimizin başçısı bunu ölkəmizin bu sa-*

*həyə verdiyi önəm kimi qiymətləndirdi və Azərbaycanda bu sahədə həyata keçirilən işlərin dünyanın digər yerlərində də tətbiq olunmasının zəruriliyini bildirdi.*

*Ümumdünya Yəhudi Konqresinin prezidenti Ronald Lauder Azərbaycan və yəhudi xalqları arasında olan tarixi əlaqələrə və yəhudilər üçün ölkəmizdə yaradılan şəraitə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Azərbaycanda yaşayan yəhudi icmasına olan münasibəti yüksək qiymətləndirərək, bunun bir nümunə olduğunu dedi.*

*Ronald Lauder Bakının gözlədiyindən də artıq gözəl şəhər olduğunu məmnunluqla qeyd etdi və paytaxtımızın gözəlliyinin onlarda dərin təəssürat yaratdığını bildirdi. Ümumdünya Yəhudi Konqresinin prezidenti Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlar münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Qonaq qeyd etdi ki, dünyada mövcud olan maliyyə və iqtisadi böhran şəraitində Azərbaycanın nail olduğu iqtisadi inkişaf onlarda böyük heyranlıq hissi doğurur.*

## MASALLI RAYONUNA SƏFƏR

*3 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallı rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Masallı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov abidənin ətrafında, ümumiyyətlə, son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə prezident İlham Əliyevə məlumat verdi.*

### Bayraq Meydanının və Azərbaycanın Dövlət Rəmzləri Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallıda Bayraq Meydanının və Azərbaycanın Dövlət Rəmzləri Muzeyinin açılışı mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Bayraq Meydanının və Dövlət Rəmzləri Muzeyinin inşasına 2014-cü ildə başlanılıb və tikinti işləri yüksək səviyyədə başa çatdırılıb. Bayraq Meydanının ümumi sahəsi 1,3 hektardır. Meydanda hündürlüyü 62 metr olan bayraq dirəyi ucaldılıb, tikintialtı sahəsi 78 kvadratmetr olan fəvvarə inşa olunub. Ərazidə geniş abadlıq işləri görülüb, 4310 kvadratmetr yaşıllıq zolağı salınıb, müasir suvarma və işıqlandırma sistemləri yaradılıb.*

*Dövlətimizin başçısı Azərbaycanın Dövlət Rəmzləri Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi və ekspozisiya ilə tanış oldu.*

*Bildirildi ki, ekspozisiya zalından və köməkçi otaqlardan ibarət Dövlət Rəmzləri Muzeyində tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, bayraqlar və dövlət rəmzləri qorunur. Bütün bunlar*

*həm Masallı sakinlərində, həm də rayona gələn qonaqlarda şanlı tariximiz haqqında təsəvvür yaratmağa geniş imkanlar açır.*

## Masallı rayon Tarix-Diyarşünaslıq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallı rayon Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir.*

*Muzeyin üçmərtəbəli yeni binasının inşası üçün prezident İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə 2 milyon manat vəsait ayrılıb.*

*Azərbaycan Prezidenti rəmzi açılışı bildirən lenti kəsdi və muzeylə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Masallı rayon Tarix-Diyarşünaslıq Muzeyi 1950-ci ildə yaradılıb və şəhər mərkəzindən 16 kilometr məsafədə yerləşən keçmiş məktəb binasında fəaliyyət göstərirdi. Ölkəmizdə muzey işinin yüksək səviyyədə təşkil olunması, bu sahədə daha modern layihələrin tətbiq edilməsi, ən əsası da əhali, xüsusilə də gənclər arasında tariximizə marağın artırılması ilə bağlı həyata keçirilən tədbirlərin geniş vüsət alması Masallı rayon Tarix-Diyarşünaslıq Muzeyinin də fəaliyyətinin yenidən təşkili, muzeyin təyinatına uyğun yeni binada yerləşdirilməsi zərurətini yaratmışdı. 2014-cü ildə tikintisinə başlanılan muzey binasında inşaat işləri bu ilin iyulunda başa çatdırılıb.*

*Ümumi sahəsi 1861 kvadratmetr olan muzeydə 5 ekspozisiya zalı yaradılıb. Ekspozisiyalarda Masallının tarixi, bu ərazidə tapılan qədim əşyalar, ümumiyyətlə, rayonun həyatı ilə bağlı məlumatlar toplanılıb. Muzeydə 7 mindən çox eksponat mövcuddur və onlardan 2 mini ekspozisiya zallarında nümayiş etdirilir. Burada müstəqillik tariximizə xüsusi yer verilib. Müstəqilliyimizin banisi olan xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezident İlham Əliyevin həyat və fəaliyyətlərini əks etdirən fotolardan ibarət guşələr qurulub. Muzeyin mansard hissəsində rəsm otağı,*

*sərgi zalı, fond otağı, müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan akt zalı da yaradılıb.*

**Masallı şəhərinin içməli su təchizatı layihəsinin həyata keçirilməsi mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallı şəhərinin içməli su təchizatı layihəsinin (şəhər su və kanalizasiya sisteminin) həyata keçirilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə layihə üzrə görülmüş işlərin texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərlə tanış oldu.*

*Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə prezident İlham Əliyevə «Masallı rayonunda su təchizatı, çirkab su sistemləri, içməli və çirkab sutəmizləyici qurğunun tikintisi» layihəsi barədə məlumat verdi. Bildirildi ki, Dünya Bankının krediti ilə həyata keçirilən «Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə»yə respublikanın 8, o cümlədən də Masallı rayonunda şəhər əhalisinin içməli su ilə təmin olunması məqsədi ilə içməli su şəbəkəsinin və təmizləyici qurğunun, çirkab sularının şəhər ərazisindən kənarlaşdırılması üçün kanalizasiya şəbəkəsinin və çirkabtəmizləyici qurğunun tikintisi nəzərdə tutulub. Dövlətimizin başçısının 2013-cü il 15 mart tarixli Sərəncamına əsasən Masallı şəhərinin ərazisinə birləşdirilən Ərkivan və Kosagül qəsəbələrinin 16 min nəfər əhalisinin içməli su ilə təmin olunması məqsədilə içməli su və kanalizasiya şəbəkəsinin tikintisi də layihəyə əlavə edilib. Layihədə Masallı şəhərinin, Ərkivan və Kosagül qəsəbələrinin 2030-cu ilə proqnozlaşdırılan 50 min nəfərə yaxın, eləcə də Cəlilabad şəhərinin əhalisinin də içməli suya olan tələbatının ödənilməsi məqsədi ilə su mənbəyi Viləşçay su anbarı qəbul edilib və onun yaxınlığında su anbarından götürülən suların təmizlənməsi məqsədilə gündəlik gücü 22 min kubmetr olan qurğunun tikintisi nəzərdə tutulub.*

*«Masallı rayonunda su təchizatı və çirkab su şəbəkəsinin, içməli və çirkab sutəmizləyici qurğuların tikintisi»nin aparılması məqsədilə Dünya Bankının tələblərinə uyğun beynəlxalq tenderlə ti-*

*kinti podratçısının seçimi aparılmış və tenderin qalibi Türkiyənin «Eser» şirkəti ilə bağlanılmış müqaviləyə əsasən 2012-ci ildə tikinti işlərinə başlanılıb. Tikinti işlərinin aparılmasına əsasən yerli işçi qüvvəsi cəlb olunub. Layihəyə uyğun olaraq, Masallı şəhərinin, Ərkivan və Kosagül qəsəbələrinin, eləcə də Cəlilabad şəhərinin əhalisinin də içməli suya olan tələbatının ödənilməsi məqsədi ilə Viləşçay su anbarından götürüləcək saniyədə 258 litr suyun təmizlənməsi üçün su anbarının yaxınlığında gücü gündə 22 min kubmetr olan və müasir təmizləmə texnologiyasına əsaslanan qurğu kompleksi inşa edilib. Masallı–Yardımlı yolunun 7-ci kilometrliyindən sutəmizləyici qurğuya qədər uzunluğu 2838 poqonmetr, eni 6 metr olan asfalt örtüklü yol çəkilib.*

*Təmizləyici qurğudan çıxan suyun Masallı şəhərinə, Ərkivan və Kosagül qəsəbələrinə verilməsi üçün qurğunun yanında inşa olunmuş tutumu 5 min kubmetr olan su anbarından suyun öz axını ilə nəqli üçün diametri 630 millimetr və uzunluğu 7190 poqonmetr olan magistral boru kəməri çəkilib. Magistral boru kəmərindən Masallı şəhərinin, Ərkivan və Kosagül qəsəbələrinin əhalisinə içməli su verilməsi üçün müxtəlif diametrli borulardan ibarət şəbəkə inşa edilib, 9022 yaşayış evi su sayğacı ilə təmin olunaraq, bu şəbəkəyə qoşulub. Layihə ərazisində 812 yanğın hidrantı quraşdırılıb. Ərkivan qəsəbəsinin ərazisində məhsuldarlığı saniyədə 50 litr, suvurma hündürlüyü 30 metr olan nasos stansiyası inşa edilib.*

*İstifadə olunmuş suların şəhər ərazisindən kənarlaşdırılması məqsədilə kanalizasiya kollektoru, müxtəlif diametrli təzyiqli çirkab su xətti çəkilib. Kanalizasiya şəbəkələri üzərində 5578 kanalizasiya baxış quyusu inşa edilib, 8400 ev bu şəbəkəyə qoşulub.*

*Diqqətə çatdırıldı ki, nəzərdə tutulan 6 çirkab su nasos stansiyasının dördündə inşaat işləri başa çatdırılıb, ikisinin isə tikintisi davam etdirilir. Layihə üzrə nəzərdə tutulan və gündəlik gücü 7462 kubmetr olan çirkab sutəmizləyici qurğuda inşaat işləri tamamlanıb. İlin sonuna qədər Masallı şəhərinin, Ərkivan və Kosagül qəsəbələrinin çirkab su şəbəkəsi və təmizləyici qurğusunun tikintisində işlər tam başa çatdırılacaq.*

*Onu da deyək ki, yeni layihədən öncə Masallı şəhərində, ümumiyyətlə, mərkəzləşmiş içməli su və kanalizasiya sistemləri mövcud olmayıb. Əhali içməli suya olan tələbatını fərdi həyatyanı sahələrdə standartlara cavab verməyən qaydada qazılmış quyulardan və ya nəqliyyat vasitəsindən istifadə edərək, kənardan daşımaqla ödəyib.*

*Sonra prezident İlham Əliyev layihənin işə salınmasını bildirən düyməni basdı.*

**640 yerlik Uşaq-incəsənət məktəbinin açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallıda 640 yerlik Uşaq-incəsənət məktəbinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Masallı rayon Uşaq-incəsənət məktəbi 1979-cu ildə inşa edilib. 1994-cü ildən məktəbdənkənar tədris üçün uyğunlaşdırılmış binada fəaliyyət göstərən məktəbin zamanın tələbinə uyğun daha müasir və geniş binada yerləşdirilməsi yüksək səviyyədə həyata keçirilib. Ümumi sahəsi 2743 kvadratmetr olan bina ikimərtəbəlidir. Burada 33 sinif otağı var. Sinif otaqlarının hamısı müasir avadanlıqlarla, təlim-tədris ləvazimatları ilə təchiz olunub. 150 yerlik akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılıb. Kitabxana, rəsm otağı və heykəltəraşlıq emalatxanasında dərslərin keçirilməsi üçün bütün imkanlar nəzərə alınıb. Masallı rayon Uşaq-incəsənət məktəbində hazırda 305 şagird təhsil alır və 70 müəllim çalışır. Məktəbin ərazisində yaşıllıq zolağı salınıb, geniş abadlıq işləri görülüb.*

*Prezident İlham Əliyev məktəbin xor kollektivinin ifasını dinlədi.*

# MASALLIDA «ASAN HƏYAT» KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallıda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin «ASAN həyat» kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, şəhərin Heydər Əliyev prospektində yerləşən, möhtəşəmliyi ilə seçilən Masallı regional «ASAN həyat» şəhərciyinin tikintisi yüksək səviyyədə həyata keçirilib. Bu kompleks dördmərtəbəli inzibati binadan və 6 ictimai iaşə obyektləri üçün nəzərdə tutulan binalardan ibarətdir. Kompleksin 4480 kvadratmetr ərazisində «ASAN xidmət» Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə 10 dövlət orqanı – Ədliyyə, Daxili İşlər, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Milli Arxiv İdarəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 32 növ xidmət göstərilir. Eyni zamanda, mərkəzdə 112 növ funksional yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım, tərcümə xidmətləri təşkil edilib. Bu mərkəz Masallı rayonu da daxil olmaqla, Cəlilabad, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarının əhalisinə, ümumilikdə 839 450-dən çox vətəndaşa xidmət göstərəcək. Burada 170 nəfər işlə təmin olunub, 80 nəfər könüllü işə cəlb edilib.*

*Prezident İlham Əliyevə «ASAN həyat» konsepsiyası barədə məlumat verildi. Bildirildi ki, bu konsepsiya Masallı «ASAN xidmət» Mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərinin istifadəyə*

*verilməsini də nəzərdə tutur. Belə ki, vətəndaşlar operativ və gülərüz xidmətlə yanaşı, bu konseptin istirahət və əyləncə imkanlarından da istifadə edə biləcəklər. «ASAN həyat» kompleksi vətəndaş rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif həlləri əhatə edir.*

*Kompleksin ərazisində 2 kinoklub, Heydər Əliyev İncəsənət məktəbi, kafe, bank, «ABAD mərkəzi», «ASAN Brend» dükanı və «ASAN İntellektual» inkişaf mərkəzi də fəaliyyət göstərəcək.*

*Heydər Əliyev İncəsənət məktəbində müxtəlif sərgi, tədbir, təqdimat və təlimlərin keçirilməsi nəzərdə tutulub. Məqsəd müasir Azərbaycan incəsənəti və onun geniş ictimaiyyət arasında təbliği üçün şərait yaratmaqdır.*

*«ASAN İntellektual» inkişaf mərkəzi cənub bölgəsində bütün növ intellektual oyunların inkişafına kömək etmək, həmçinin gənclərin asudə vaxtlarını səmərəli keçirmələrində, intellektual inkişaf, savad və dünyagörüşlərini artırmaqda onlara kömək etmək məqsədi daşıyır. Mərkəz gənclərin gələcəkdə karyera qurmaları üçün lazım olan bilik və bacarıqları aşılayacaq.*

*«ASAN Brend» dükanında xüsusi dizaynda «ASAN xidmət» brendli geyimlər, aksessuarlar, suvenirlər və digər məhsulların satışının təşkili həyata keçiriləcək.*

*Dövlətimizin başçısına «İntellektual Monitorinq Sistemi» barədə də məlumat verildi. Bildirildi ki, bu sistem vətəndaş müraciətləri barədə məlumatların mərkəzləşdirilmiş formada toplanması və analizinə xidmət edir. Bura «ASAN xidmət» mərkəzlərinin fəaliyyətinin təşkilində istifadə edilən «Elektron növbə», «ASAN ödəniş», «ASAN müraciət», Çağrı Mərkəzi və digər sistemlər üzərindən daxil olan müraciətlər aiddir. Sistemin «Hesabatlılıq» modulu vasitəsilə müxtəlif statistik məlumatlara real vaxt rejimində çıxış təmin edilir ki, bu da qərarların qəbul olunmasında operativliyə və dəqiqliyə xidmət göstərir. «İntellektual Monitorinq Sistemi»nin vətəndaşlar üçün açıq olan «Statistik məlumatlar» portalı vasitəsilə müxtəlif təhlillərin və akademik araşdırmaların aparılması daha da asanlaşacaq. Belə ki, portalda regionlar üzrə*

*əhatə dairəsi, müraciət edənlərin say, cins və yaşa görə tərkibi və digər məlumatlar vətəndaşlara real vaxt rejimində təqdim edilir.*

*«Made in Azerbaijan» portalında ölkədə istehsal olunan bütün məhsullar, satış və investisiya imkanları haqqında məlumatlar cəmlənib. Portal müxtəlif dillərdə olmaqla, ölkənin ixrac potensialı haqqında istənilən informasiyanı özündə əks etdirəcək.*

*Vətəndaşların «Kredit Reytinq Sistemi» əhalinin iş yeri, gəliri, öhdəlik və borcları əsasında onların məsuliyyət və ödəmə qabiliyyətini ölçən alətdir. Bu sistemin əsasən bank, bank olmayan kredit təşkilatları, daxili kredit və ya ipoteka verən təşkilatlar tərəfindən istifadəsi nəzərdə tutulub.*

*«We Care» – «Sağlamlığa nəzarət monitorinq sistemi» mobil cihazlar vasitəsilə fərdlərə öz sağlamlıqlarına mütəmadi nəzarət etmək imkanı verir. Huşunu itirən şəxsin yerini GPS vasitəsilə təyin etmək, saat vasitəsilə ürək döyüntülərini və qan təzyiqini ölçmək mümkün olacaq. Toplanılan məlumatlar aidiyyəti üzrə Fövqəladə Hallar Nazirliyinə, fərdlərin yaxınlarına, Təcili Tibbi Yardıma və digər arzuolunan yerlərə və şəxslərə göndəriləcək. Bu məlumatlar GSM və Azərbaycanın orbitdəki peyki vasitəsilə toplanılır.*

*Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, yeni layihə olan «ABAD» —Ailə Biznesinə ASAN Dəstək layihəsi ailə bizneslərinin formalaşdırılması, bu təsərrüfatlar vasitəsilə məhsulların istehsalı, xidmətlərin göstərilməsi və brendləşdirilməsi, istehsalçıya və tələbata uyğun keyfiyyətli məhsulların istehsal və istehlakının təşviq edilməsi, innovativ üsullar tətbiq olunmaqla, müxtəlif təsərrüfat sahələri üzrə fəaliyyətin istiqamətləndirilməsini həyata keçirən mərkəzdir. «ABAD» Mərkəzinin əsas məqsədi regionların sosial-iqtisadi inkişafına dəstək vermək, ailə bizneslərində müasir texnologiyaların tətbiqini təmin etmək, ailə brendlərinin formalaşmasına dəstək olmaqdır. Bu layihənin icrası ilə Azərbaycanda təşəkkül tapmış və dünya səviyyəsində rəqabət apara biləcək ailə bizneslərinin əsası qoyulacaq. Təsadüfi deyil ki, bu prosesdə ilkin olaraq, müxtəlif istehsal sahələrinə uyğun seçilmiş ailələrə avadanlıqlardan istifadə və istehsal gigiyenası,*

*sənədlərin hazırlanması, qablaşdırma və dizayn, məhsulların bazara çatdırılması üzrə təlimlər keçirilir. Bu ailələr müasir istehsal avadanlıqlara malik konteynerlərlə təmin olunur.*

*Onu da qeyd edək ki, Masallı regional «ASAN xidmət» Mərkəzinin yerləşdiyi ərazidə park salınıb. Burada fəvvarə quraşdırılıb, əhalinin rahatlığı və istirahəti üçün hər cür şərait yaradılıb. Bundan əlavə, 80 avtomobil üçün avtodayanacaq və digər rayonlardan gələcək vətəndaşlar üçün avtobus dayanacağı, kompleksin kənarından keçən çaydakı kiçik adada helikopter meydançası qurulub. Masallı «ASAN həyat» kompleksində «Azər Türk Bank» ASC əhaliyə bank xidmətləri göstərəcək.*

*«ASAN həyat» kompleksi ilə tanışlıqdan sonra prezident İlham Əliyev mərkəzin əməkdaşları və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sabahınız xeyir olsun!

Bu gün Masallıda çox əlamətdar bir gündür. Masallıda «ASAN həyat» Mərkəzi fəaliyyətə başlayır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Çox gözəl hadisədir. «ASAN xidmət» Azərbaycanda 4 ilə yaxındır ki, fəaliyyət göstərir və bu qısa müddət ərzində insanların rəğbətini qazana bilib.

«ASAN xidmət» Azərbaycan məhsuludur, Azərbaycan ixtirasıdır. Biz fəxr edirik ki, dünya miqyasında analoqu olmayan intellektual məhsul artıq Azərbaycanın müəllifliyi ilə dünyaya təqdim olunur. Artıq bəzi ölkələr bizim təcrübəmizi öyrənməyə çalışır, müxtəlif formatda əməkdaşlıq aparılır. Bu onu göstərir ki, doğrudan da bizim təşəbbüsümüz çox böyük və geniş nəticə hasil edib və bunun çox gözəl ictimai rezonansı var. İnsanlar da bu xidməti çox bəyənirlər. Bəyənmə əmsalı 98 faizdir. Bu illər ərzində 3 milyon 500 min insan mərkəzlərə müraciət edib. Müraciətlərin ümumi sayı isə 11 milyon 300 mindir. Artıq 11-ci mərkəz fəaliyyətə başlayır.

Bu gün burada göstərilən təqdimatlarda növbəti mərkəzlərin inşası nəzərdə tutulur, gələn il biz digər bölgələrdə 4 mərkəzin tikintisinə start verəcəyik. Beləliklə, bizim məqsədimiz təmin edilir. Məqsədimiz də ondan ibarətdir ki, bütün bölgələrdə, hər bir yerdə insanlar ictimai xidmətlər sahəsində müasir xidmətlə təmin olunsunlar.

«ASAN xidmət» yenilikdir, şəffaflıqdır, mədəniyyətdir. Əslində cəmiyyətdə «ASAN xidmət»in mövcudluğu yeni bir davranış qaydalarını ortaya qoyur. Çünki hamımız yaxşı bilirik ki, əvvəlki illərdə hansısa bir arayışı, sənədi almaq üçün insanlar bəlkə də həftələrlə əziyyət çəkirdilər. İndi isə rahat, mədəni, şəffaf şəkildə, heç bir qanunsuz tələb irəli sürülmədən vətəndaşlar gəlirlər, burada onlara gözəl xidmət göstərilir və onlar bu xidmətdən məmnun qalırlar.

Bildiyiniz kimi, 10 səyyar avtobus fəaliyyət göstərir. Biz çalışırıq ki, ölkə əhalisinin bütün təbəqələrinə xidmət göstərək. Bu mərkəz 6 rayona xidmət göstərəcək – Masallı, Lənkəran, Cəlilabad, Lerik, Astara, Yardımlı rayonlarına. Bu rayonlarda 800 mindən çox insan yaşayır. «ASAN xidmət»in fəaliyyəti çox yüksək qiymətə layiqdir. Bunu Azərbaycan vətəndaşları görürlər, bilirlər. Mən fəxr edirəm ki, biz müstəqil dövlət olaraq, dünyaya intellektual məhsul da təqdim edə bilmişik.

Bu mərkəz isə əvvəlki mərkəzlərdən fərqlənir. Çünki «ASAN xidmət» öz funksiyalarını genişləndirir. Ümumiyyətlə, bu mərkəzlərdə 200-dən çox xidmət növü göstərilir. Ancaq Masallı «ASAN həyat» Mərkəzində eyni zamanda, kənd təsərrüfatı, bank sektoru, sənaye sektoru, regionların inkişafı istiqamətləri də cəmləşib. Burada mənə təqdim edilən innovativ təşəbbüslər əminəm ki, kənd təsərrüfatı, ailə təsərrüfatı sahələrinə də çox böyük təkan verəcək. Çünki indi bizim əsas məqsədimiz ondan ibarətdir ki, hər bir vətəndaş layiqli işlə təmin olunsun, yaxşı gəlir əldə etsin, sahibkarlıq inkişaf etsin. Bunu etmək üçün biz bir çox layihələri icra edirik. O cümlədən, son vaxtlar özünüməşğulluq sahəsində də önəmli addımlar atılıb ki, iş tapa bilməyən insanlar dövlət dəstəyi ilə işə cəlb olunsunlar, sahibkar olsunlar. Burada

mənə göstərilən kiçik emal müəssisələri, əgər belə demək mümkündürsə, müxtəlif kənd təsərrüfatı məhsullarının emalı, qablaşdırılması istiqamətində bir yenilikdir. İlk dəfə bu, Azərbaycanda tətbiq ediləcək. Mənə göstərilən 4 konteynerdən birində pendir, birində ət məhsulları, birində tərəvəz, digərində isə meyvə çeşidləri emal olunacaq. Yəni bu, əlavə imkan yaradacaq ki, bizim vətəndaşlarımız yaxşı yaşasınlar. Bizim əsas məqsədimiz bundan ibarətdir. Burada intellektual oyunların, əyləncə tədbirlərinin keçirilməsi üçün imkanlar var. Gözəl bir ada, gözəl bir park yaradılıbdır. Mən əminəm ki, Masallı sakinləri və digər rayonlardan gələn qonaqlar bu gözəl imkanlardan istifadə edəcəklər.

«ASAN xidmət» mərkəzlərinin, xüsusilə Masallıdakı mərkəzin yaradılması ölkəmizin həm gücünü, həm siyasətini göstərir. Ancaq güclü dövlət belə işləri görməyə qadirdir. Ancaq öz xalqına diqqət göstərən hökumət bu işləri görür. «ASAN xidmət» mərkəzlərinin yaradılması üçün dövlət büdcəsindən böyük vəsait ayrılıb. Artıq 11 mərkəz yaradılıbdır. Bu mərkəzlər memarlıq əsərləridir. Biz bunu nə üçün edirik? Ona görə ki, insanlar rahat yaşasınlar, heç kim onların haqqını əllərindən almasın, heç kim onlara qarşı əsassız tələblər irəli sürməsin və onlar rahat yaşasınlar, daha da çox fəxr etsinlər ki, Azərbaycan vətəndaşlarıdır.

Bu mənim Masallıya doqquzuncu səfərimdir. Mən, demək olar ki, hər il Masallıda oluram. Masallının inkişafı üçün önəmli addımlar atılır. Rayonda infrastruktur, sosial infrastruktur, sənaye, kənd təsərrüfatı layihələri icra edilir. Bu gün Masallıda içməli su layihəsinin açılışını qeyd edəcəyik. Yadımdadır, 4 il bundan əvvəl layihənin təməlqoyma mərasimində iştirak etmişəm və şadam ki, artıq bu layihə hazırdır. Bu, Masallı şəhərinin və bəzi kəndlərin sakinlərini təmiz içməli su ilə təmin edəcək. Bu doğrudan da böyük tarixi layihədir. Çünki siz bunu yaxşı bilirsiniz, su Masallı üçün həmişə çox ciddi problem olub. Eyni zamanda, Masallıda qazlaşdırma layihələri uğurla gedir. Yadımdadır, mənim ilk səfərlərimdə vətəndaşlar daha çox bu məsələni qaldırırdılar, şikayət edirdilər ki, qazımız yoxdur, xahiş edirik, bizə qaz xətti

çəkin. İndi isə qazlaşdırma Masallıda təxminən 80 faizə çatıbdır və görüləcək əlavə tədbirlər nəticəsində biz bunu 90 faizə qaldıracağıq. Yəni bu problem də aradan götürülür.

Bakı–Astara–İran sərhədi magistral yolunun tikintisi gedir. Onun Lənkəran–Masallı hissəsi, demək olar ki, hazırdır. Bununla bərabər, Masallı rayonunda bir neçə kənd layihəsi icra edilib və onlarla kəndi birləşdirən yollar tikilib, istifadəyə verilib və bu proses davam etdiriləcək. Bütün kəndlərə gedən yollar abad olmalıdır. Bu istiqamətdə işlər aparılır. Bu zonada Olimpiya Mərkəzi yerləşir. Yadımdadır, 2007-ci ildə bu mərkəzin açılışını qeyd etmişik. Masallıdakı mərkəz ilk tikilən olimpiya mərkəzlərindən biridir.

Mən həmişə çalışırdım ki, Masallı rayonunun inkişafına böyük diqqət göstərilsin. İndi sosial infrastruktur layihələri icra edilir. Mərkəzi Rayon Xəstəxanasının əsaslı təmiri başa çatmaq üzrədir. Bu, 240 çarpayılıq xəstəxanadır.

Kənd təsərrüfatı istiqamətində addımlar atılır. Mənə məlumat verilib ki, Masallıda çayçılıq bərpa ediləcək və bu il 1000 hektara yaxın sahədə çay plantasiyaları salınacaq. Bu da insanların gəlirlərini artıracaq. Tütünçülük Masallıda inkişaf edəcək. Yəni kənd təsərrüfatına göstərdiyimiz diqqət, texnika ilə təminat, gübrə, subsidiyalar, əlbəttə ki, insanların xeyrinədir.

Həmçinin Masallıda Azərbaycanda sayca ikinci olan sənaye zonası yaradılır. Mən bu zonaların yaradılması ilə bağlı artıq bir müddət əvvəl göstəriş vermişəm. Birinci zona Neftçalada yaradılır. Demək olar ki, hazırdır. İkinci sənaye zonası Masallıda. Bu nə deməkdir? Bu, yeni iş yerlərinin yaradılması deməkdir. Masallıda əhali artır. Burada 220 min əhali yaşayır. Əlbəttə ki, bizim iqtisadi inkişafımız əhalinin artımına uyğun olmalıdır. Bizim regionumuzda bəzi ölkələr var ki, orada əhali azalır. Əlbəttə, bunun müxtəlif səbəbləri var. Ancaq Azərbaycanda xoşbəxtlikdən əhali artır və bunun səbəbi bizim uğurlu iqtisadi inkişafımızdır.

Əhalinin demoqrafik dinamikasına nəzər salsaq görərik ki, ölkəmiz üçün ağır olan illərdə demoqrafik tənəzzül müşahidə olunurdu, yəni artım azalırdı. Ancaq son illərdə əhali sürətlə artır

və bu bizə diktə edir ki, daha da fəal işləyək və iş yerlərinin açılması daimi proses olsun. Təkcə bu mərkəzdə 250 yeni iş yeri açılır. «ASAN xidmət» işçilərinin mütləq əksəriyyəti gənc oğlanlar və qızlardır. Buna da çox sevinirəm. Çünki gənclər, xüsusilə qadınlar işlə daha çox təmin edilməlidir. Onların hamısı yerli sakinlərdir. Mən çox şadam ki, biz Masallıda bu işləri görmüşük və qısa müddət ərzində bu mərkəzin yaradılmasına nail ola bilmişik.

Sizə uğurlar arzulayıram, vətəndaşlara yaxşı xidmət göstərin. Əlbəttə ki, könüllülərimiz də bu işlərdə sizə yardımçı olacaqlar. Bir daha sizi təbrik edirəm.

* * *

**Aynur Məmmədova** (*«ASAN xidmət»in əməkdaşı*): Möhtərəm cənab Prezident, Masallıya xoş gəlmisiniz!

Sizin müəllifi olduğunuz «ASAN xidmət»in vətəndaşlarımızın istifadəsinə verilməsi bu regionda yaşayan bütün əhalini sevindirir. Biz artıq vətəndaşlara «ASAN xidmət» sayəsində yüksək keyfiyyətli xidmət göstərəcəyik. Azərbaycan brendi olan «ASAN xidmət» qısa müddət ərzində nəinki ölkəmizdə, respublikamızdan kənarda da rəğbət qazanmaqdadır.

Cənab Prezident, «ASAN xidmət»in Masallıda açılacağını eşidib iş üçün müraciət etdim. Müraciətimə çox qısa zamanda cavab verdilər. Müsahibələrdən keçdim, təlimlərdə oldum və nəhayət, mən də «ASAN» ailəsinin üzvünə çevrildim. Bizlərə bu şansı verdiyiniz üçün «ASAN» ailəsi adından Sizə təşəkkürümü bildirirəm.

Cənab Prezident, ümumiyyətlə, gördüyünüz bütün işlər göz qabağındadır. Olimpiya oyunlarında əldə olunan uğurlar bunun bariz nümunəsidir. Biz masallılılar Sizə təşəkkür edirik.

**İlham Əliyev:** Çox sağ ol.

**İlahə İbrahimbəyli** (*mərkəzin əməkdaşı*): Möhtərəm cənab Prezident, Masallıya xoş gəlmisiniz!

Cənab Prezident, Sizin diqqət və qayğınızı əhalinin hər bir təbəqəsinin üzvü – uşaqlar, gənclər, yaşlılar və xüsusən də biz,

fiziki hərəkətləri məhdud olan insanlar – daim hiss edir. Yaşadığım bədbəxt hadisədən sonra özümə qapanaraq küskün, cəmiyyətdən məhrum bir insan kimi, həyata ümidsiz baxırdım. Heç təsəvvürümə də gətirə bilməzdim ki, dövlət orqanında işə qəbul olunaram. Sizin diqqət və qayğınız nəticəsində daha ümidli, dünyaya yenidən göz açmış insan kimi, həyatıma davam edirəm.

Cənab Prezident, Sizinlə bərabər, Mehriban xanımın diqqət və qayğısını görmüşəm. Mehriban xanım müraciətlərimə dərhal cavab vermiş və məni xarici ölkəyə müalicəyə göndərmişdir.

Mənim qardaşım da aprel döyüşlərində iştirak etmiş, Fəxri fərmanlarla təltif olunmuşdur. Sevinc hissi ilə qeyd etmək istəyirəm ki, qardaşım da mənimlə birgə Masallı «ASAN xidmət» Mərkəzində çalışacaq.

Cənab Prezident, mənə və ailəmə göstərdiyiniz diqqətə və qayğıya görə Sizə sonsuz təşəkkürümü bildirirəm. Şəxsən mənim kimi fiziki hərəkətləri məhdud olan insanlara qayğı və diqqət göstərdiyinizə görə çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**M i r q i y a s T ə h m ə z o v** (*rayon ağsaqqalı*): Cənab Prezident, Sizə «Xoş gəlmisiniz!» – deyirəm. Sizin qədəmləriniz mübarəkdir ki, keçən dəfə də gələndə özünüzlə xeyir-bərəkət, yağış gətirdiniz. Bu dəfə də gələndə – bu xeyir-bərəkəti biz çoxdan arzulayırdıq – Allah bunu bizə qismət elədi. Bizim Masallıya su kəməri çəkdirdiyinizə görə mən öz adımdan və rayonun 220 min əhalisinin adından, dindarlar adından Sizə təşəkkür edirəm. Viləş çayı üzərində su anbarının təməlini ulu öndərimiz Heydər Əliyev qoyub. Bu anbardan bizə su kəməri çəkdirdiyinizə görə bütün Masallı əhalisi adından Sizə «Çox sağ olun» – deyirəm. Allah Sizə, ailənizə hər zaman uğur qismət eləsin. Sizin həyata keçirdiyiniz siyasət hər yerdə qabaqcıl olsun! Çox sağ olun.

## BİLƏSUVAR RAYONUNA SƏFƏR

*3 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Masallıya səfərini başa çatdıraraq, Biləsuvar rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Biləsuvar şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyev prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında və rayonda görülən işlər barədə məlumat verdi.*

*Bu istirahət ocağı da Azərbaycanda aparılan yenidənqurma tədbirlərinin miqyası və keyfiyyətinin göstəricisidir. Parkda milli memarlıq üslubu ilə beynəlxalq təcrübə böyük peşəkarlıqla uzlaşdırılıb. Buradakı rəngarənglik və yenidənqurma tədbirlərinin mükəmməlliyi parkın cəlbediciliyini daha da artırır. Orijinal fəvvarələr və müasir işıqlandırma sistemi bu istirahət ocağını daha da gözəlləşdirir.*

### Əsgərabad–Muğan–Çaylı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də uzunluğu 6 kilometr olan Əsgərabad–Muğan–Çaylı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, Azərbaycan Prezidentinin 2013-cü il 7 sentyabr, 2015-ci il 27 avqust və 2016-cı il 16 iyun tarixli sərəncamları ilə 10 min nəfər əhalinin yaşadığı 4 yaşayış məntəqəsini birləşdirən Əsgərabad–Muğan–Çaylı avtomobil yolunun tikintisi*

*üçün Prezidentin ehtiyat fondundan ilkin olaraq 2 milyon manat, dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündən 3 milyon manat, «Avtomobil Yolları» məqsədli büdcə fondundan 2,1 milyon manat olmaqla, Biləsuvar Rayon İcra Hakimiyyətinə 7,1 milyon manat vəsait ayrılıb. Avtomobil yolunun inşasına 2013-cü ildə başlanılıb və 2016-cı ilin avqust ayında tikinti işləri başa çatdırılıb.*

*Sonra dövlətimizin başçısına yolun əsas texniki göstəriciləri barədə məlumat verildi. Qeyd olundu ki, Əsgərabad–Muğan–Çaylı avtomobil yolu ikinci texniki dərəcəlidir. Bu yolun ümumi uzunluğu 6 kilometr, hərəkət hissəsinin eni 9 metrdir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi. Dövlətimizin başçısına məlumat verildi ki, bu yolun iki hərəkət zolağı var. Hərəkət zolaqlarının eni 3,75 metrdir. Yolun çiyin hissəsinin eni də 3,75 metrdir. Əsgərabad–Muğan–Çaylı yolunun torpaq yatağının eni isə 15 metrdir. Diqqətə çatdırıldı ki, yolun inşası zamanı 38 min ton asfalt-beton qarışığından, 54 min kubmetr çınqıl və qırmadaşdan istifadə edilib. Yolun keçdiyi Bolqarçay çayı üzərində 81 metr uzunluğunda üçaşırımlı körpü, biri dairəvi olmaqla, 3 yol kəsişməsi və 9 yerdə yol birləşmələri inşa edilib. Avtonəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi məqsədilə 186 yol təhlükəsizlik dirəyi və 94 müxtəlif yol nişanları quraşdırılıb. Ümumilikdə 410 metr uzunluğunda suötürücü boru tikilib.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Əsgərabad–Muğan–Çaylı avtomobil yolunun tikintisi Ələt–Astara–İran sərhədi magistral avtomobil yolunu, Biləsuvar–İran sərhədi və Bəhramtəpə–Biləsuvar avtomobil yollarını birləşdirərək, Biləsuvar rayon mərkəzinə daxil olmadan, dolama yol kimi, yük və sərnişin daşımasını təmin etməyə imkan verəcək. Bununla yanaşı, 10 min nəfər əhalinin məskunlaşdığı Əsgərabad, Muğan və Çaylı yaşayış məntəqələrinə Biləsuvar şəhərinin daxili yollarından istifadə etmədən nəqliyyat xidmətini təşkil etmək mümkün olacaq.*

*Dövlətimizin başçısı kənd yollarının inşası ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## BİLƏSUVAR MƏRKƏZİ RAYON XƏSTƏXANASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Biləsuvarda 132 çarpayılıq Mərkəzi Rayon Xəstəxanasının açılışı mərasimində iştirak etmişdir.*

*Səhiyyə naziri Oqtay Şirəliyev prezident İlham Əliyevə burada aparılan əsaslı təmir və yenidənqurma işləri barədə məlumat verdi. Qeyd olundu ki, Biləsuvar Mərkəzi Rayon Xəstəxanasının əvvəlki binası 1974–1976-cı illərdə inşa edilib və yararsız vəziyyətə düşmüşdü.*

*Xəstəxana binasının əsaslı təmirinə 2013-cü ildə başlanılıb və yenidənqurma işləri 2016-cı ilin iyul ayında başa çatdırılıb. Bu tibb ocağının ərazisi 4 hektardan çoxdur və əsaslı təmir işləri aparılan binaların ümumi sahəsi 9477 kvadratmetr təşkil edir.*

*Dövlətimizin başçısına xəstəxananın ərazisində inşa edilən əsas və müxtəlif təyinatlı digər binalar barədə də məlumat verildi. Bildirildi ki, xəstəxanada 8 şöbə fəaliyyət göstərir. Bunlar cərrahiyyə, doğum, travmatologiya, infeksion xəstəliklər, dializ, kompüter-tomoqraf olmaqla, şüa-diaqnostika, intensiv terapiya və poliklinika şöbələridir. Bu tibb ocağının bütün korpusları ən müasir standartlara cavab verir. Burada əhaliyə ən yüksək səviyyədə tibbi xidmət göstərilməsi üçün hər cür şərait yaradılıb.*

**İ l h a m Ə l i y e v:** Biləsuvar Mərkəzi Rayon Xəstəxanasının əsaslı təmirdən sonra açılışı münasibətilə sizi təbrik edirəm. Çox gözəl xəstəxanadır. Bu xəstəxana, bildiyiniz kimi, keçən əsrin 70-ci illərində tikilib. Təmirə ehtiyacı var idi. Vaxtaşırı cari təmir aparılırdı. Ancaq sonra qərara gəldik ki, əsaslı təmir olunsun. İndi

xəstəxana ilə tanış olarkən görürəm ki, hər şey ən yüksək səviyyədədir. Həm avadanlıq, həm təchizat, eyni zamanda, xəstəxananın şəraiti çox yaxşıdır. Bütün palatalar çox səliqəli, abaddır. Bu xəstəxana nümunəvi xəstəxanalardan biri olacaq. Əslində son vaxtlar Azərbaycanda tikilən, yaxud da ki, təmir olunan bütün tibb ocaqları bu səviyyədədir. Bu, Azərbaycan standartıdır. Çünki Azərbaycan vətəndaşları ən gözəl tibbi xidmətlə təmin olunmalıdırlar.

Bu xəstəxana burada çalışan həkimlər üçün iş yeridir. Onların iş yeri indi çox gözəl vəziyyətdədir. Xəstəxananın əvvəlki vəziyyəti sizə bəllidir, bu barədə danışmaq istəmirəm. Əsas odur ki, indi Biləsuvarda da Mərkəzi Rayon Xəstəxanası bütün standartlara cavab verir.

Bu zonada, həmçinin ölkəmizin bütün bölgələrində yeni xəstəxanalar ya tikilib, ya da ki, əsaslı təmir olunub. Son 13 il ərzində 600-dən çox tibb ocağı yenidən qurulub, tikilib. Bu, səhiyyə sistemimizin inkişafı üçün çox böyük uğurdur, böyük nailiyyətdir və nəticədir. Bakı şəhərində isə ən böyük xəstəxanalar tikilib, təmir edilib.

Bu gün səhiyyə sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi işi, demək olar ki, başa çatır. Bir neçə rayonda işlər davam etdirilir, o cümlədən bu yaxınlarda Masallıda xəstəxana istifadəyə veriləcək. İndi əsas məsələ ondan ibarətdir ki, insanlara keyfiyyətli xidmət, qayğı göstərilsin. Bu istiqamətdə də işlər gedir. Əminəm, yeni müasir avadanlıqla işləyə bilən həkimlər də təcrübə toplayıblar, kurslar keçiblər ki, xəstələrə yaxşı xidmət göstərsinlər.

Sağlamlıq hər bir insan üçün, dövlət üçün çox önəmlidir. İnsan sağlamlığını şərtləndirən bir neçə amil var. Onların arasında, əlbəttə ki, tibbi xidmət birinci yerdədir. Bununla bərabər, sağlam həyat tərzi, gözəl ekoloji vəziyyət, fiziki fəallıq, təmiz ərzaq məhsulları da, əlbəttə ki, öz rolunu oynayır. Ancaq tibbi müayinə və müalicə xüsusi yer tutur. Artıq bir neçə ildir Azərbaycanın bütün bölgələrində diaqnostika işləri aparılır, tibbi müayinə proqramı icra edilir. Hər il milyonlarla insan pulsuz müayinədən keçir, onların xəstəlikləri aşkarlanır və sonra müalicə təyin edilir.

Mən son 13 il ərzində açdığım bütün xəstəxanaların tədbirlərində bu məsələyə toxunuram. Bir daha demək istəyirəm ki, hər bir vətəndaş ildə bir dəfə diaqnostikadan keçməlidir, xüsusilə indiki şəraitdə ki, bütün imkanlar var. Qan analizləri, ultrasəs, rentgen. İndi həkimlərin tövsiyəsi ilə hər bir vətəndaş özünə yaxşı baxmalıdır. Bu ilk növbədə, vətəndaşın özünə lazımdır. Digər tərəfdən, Azərbaycan xalqı daha da sağlam olmalıdır. Xüsusilə bizim veteranlarımız, uşaqlarımız, gənc nəsil sağlam olmalıdır. Bütün insanlar sağlam olmalıdır. Bax, bu xəstəxanaların tikintisi bu məqsədi güdür.

Qeyd etdiyim kimi, son illər ərzində 600-dən çox tibb müəssisəsi istismara verilib. Bu məqsədlərə çox böyük dövlət vəsaiti xərclənib. Biz bunu edirik. Çünki sosial sahə, həmişə olduğu kimi, prioritet təşkil edir. Bu gün də belədir, sabah da belə olacaq. Çünki biz insanlar üçün çalışırıq. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Əlbəttə, iqtisadi inkişaf olmasa, bu işləri görmək mümkün deyil. Bir çox ölkələr, hökumətlər var ki, onlar da belə gözəl işlər görmək istərdilər. Sadəcə olaraq, imkanları yoxdur. Vaxt var idi biz də istəyirdik edək, amma imkanımız yox idi. Biz bu imkanı yaratdıq. Bu gün iqtisadi cəhətdən qüdrətli Azərbaycan bu sahəyə böyük vəsait ayırır. Nəinki bu sahəyə, bütün sahələrə – infrastruktur layihələrinə, sosial infrastruktur layihələrinə, məktəb binalarının, idman komplekslərinin tikintisinə və sairə.

Biz bunu Biləsuvar rayonunun timsalında görə bilərik. 3 il bundan əvvəl Biləsuvarda mənim iştirakımla içməli su layihəsinin açılışını qeyd etdik. İndi şəhər əhalisi 24 saat fasiləsiz təmiz içməli su ilə təmin edilir. Biləsuvar rayonunun qazlaşdırılması prosesi başa çatıb. Bütün məntəqələr qaz təchizatına qoşulubdur. İndi Biləsuvar rayonunun 25 kəndinin hamısında qaz var. Biz hələ ölkə üzrə 100 faiz səviyyəsinə çatmamışıq. Ona yaxınlaşırıq. Biləsuvarda biz bunu artıq görürük. 3 böyük kənd yolu layihəsi icra edilib. Kəndlərin əksəriyyətinə gedən yollar abadlaşıb. Bakı–Astara–İran sərhədi magistral yolu çəkilir, Olimpiya Kompleksi tikilib,  digər layihələr icra olunur.

Əlbəttə ki, kənd təsərrüfatı ilə bağlı böyük işlər görülür, burada zavodlar fəaliyyət göstərir. Bu da çox önəmlidir. Son vaxtlar pambıqçılığa böyük dəstək verilir və bu, əhali tərəfindən yaxşı qarşılanır. Keçən əsrin 70–80-ci illərində ulu öndər Heydər Əliyevin fəal işi nəticəsində Azərbaycanda pambıqçılıq çox geniş vüsət almışdı. İnsanlar çox böyük maddi imkanlar əldə etmişlər. Əfsuslar olsun ki, sonralar bu sahə yavaş-yavaş tənəzzülə uğradı. İndi biz bunu bərpa edirik. Mənə verilən məlumata görə, bu il Biləsuvar rayonunda 6000 hektarda pambıq əkilibdir. Keçən il 2000 hektar idi. Sovet vaxtında 14 min hektar əkilirdi. Gələn il isə 10 min hektar əkiləcək. Biz bunu qısa müddət ərzində görülən tədbirlər nəticəsində əldə edirik və bu, məşğulluq deməkdir. Əgər hər hektarda orta hesabla 2 nəfər işləsə, bu, artıq gələn il 20000 insanın işlə təmin olunması deməkdir.

Kənd təsərrüfatının digər sahələri də inkişaf etməlidir. Emal sənayesi – burada artıq bir neçə emal müəssisəsi var. Bu işlər daha da sürətlə getməlidir. İndi sahibkarlığın inkişafı üçün əlavə şərait yaradılır, islahatlar aparılır. Sahibkarlar da buna çox müsbət reaksiya verirlər. İnvestisiya artır, təşviq mexanizmi icra edilir, ixrac potensialımız artır.

Biz bütün bunları etməliyik ki, neftdən asılılığımızı tamamilə aradan götürək. Bu layihələri icra etdikcə, əlbəttə ki, bizim daha da çox maliyyə imkanımız olacaq. Biz bu maliyyə imkanlarımızı da sosial layihələrə yönəldəcəyik – xəstəxanaların, məktəblərin, yolların tikintisi, köçkünlərin problemlərinin həlli. Biləsuvar rayonunda minlərlə məcburi köçkün yerləşir. Onların problemləri də həll olunur və həll olunacaq. Beləliklə, ölkəmiz uğurla inkişaf edəcək. Regionlar inkişaf etdikcə, ölkə də güclənəcək və biz həmişə ancaq daxili resurslara arxalanmalıyıq.

Biz, ümumiyyətlə, heç bir yerdən yardım almırıq və buna ehtiyac da duymuruq. Ona görə də daxili resursları artırmalıyıq. Azərbaycan dövlətinin siyasəti bundan ibarətdir. Bizim çox böyük potensialımız var. Sadəcə olaraq, biz bu potensialdan 100 faiz istifadə etməliyik. Sənaye, kənd təsərrüfatı, investisiya qoyuluşu, sahibkarlıq, şəffaflıq inkişaf etməlidir.

Biz bu gün Masallıda «ASAN xidmət» Mərkəzinin açılışını qeyd etdik. Bu mərkəz bu zonaya da xidmət göstərəcək. Gələcəkdə digər rayonlarda da açılacaq. Yəni hərtərəfli inkişaf budur.

Əminəm ki, Biləsuvar rayonu bundan sonra da uğurla inkişaf edəcək. Rayonda çox gözəl quruculuq, abadlıq işləri görülür. Rayonun siması yaxşılaşır, gözəlləşir. Rayonda mənim köhnə dostlarım da var. Mən onları da salamlayıram. Yadımdadır, 2000-ci ildə mən Lənkərana gedirdim, bu yoldaşı yolda gördüm. Məni bayraqla salamlayırdı. O vaxt bizim olimpiyaçılarımız yaxşı nəticə qazanmışdılar. Maşını saxlatdım, elə o vaxtdan tanış olduq, o vaxtdan da dostluq edirik.

**S a k i n:** Mən Sizinlə fəxr edirəm. Siz Azərbaycanı dirçəltdiniz. Allaha and olsun, Sizin bütün işlərinizlə fəxr edirəm. Təzə su da çəkdirmisiniz, içdim, bir az da cavanlaşdım. Ömrünüz su qədər uzun olsun.

**İ l h a m Ə l i y e v:** Çox sağ ol. Sizi bir daha təbrik edirəm.

**V ə s i l ə H ə s ə n o v a** *(həkim):* Möhtərəm Prezident, bu gün bütün biləsuvarlılar böyük sevinc içindədir. Sizin tapşırığınıza əsasən Mərkəzi Xəstəxanamız əsaslı təmirdən sonra istifadəyə verilib. Belə gözəl, yüksək səviyyəli, müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə ocağı biz biləsuvarlılar üçün böyük töhfədir. Belə bir hədiyyəni bizə bəxş etdiyiniz üçün Sizə əhalimiz və səhiyyə işçilərimiz adından böyük minnətdarlığımızı bildiririk. Çox sağ olun. Var olun, möhtərəm cənab Prezident!

**İ l h a m Ə l i y e v:** Sağ olun.

## SALYAN RAYONUNA SƏFƏR

*3 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Biləsuvar rayonuna səfərini başa çatdıraraq, Salyan rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ulu öndərin şəhərin mərkəzində Heydər Əliyev parkında ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov prezident İlham Əliyevə ulu öndərin adını daşıyan parkda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, parkın daim yenilənməsi və burada gözəl şəraitin yaradılması bu məkanı sakinlərin və şəhərin qonaqlarının ən sevimli istirahət mərkəzinə çevirib.*

### Ələt–Astara–İran dövlət sərhədi avtomobil yolunun Salyan ərazisindən keçən 23,4 kilometrlik hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Ələt–Astara–İran dövlət sərhədi avtomobil yolunun bu rayonun ərazisindən keçən 23,4 kilometrlik (31-ci kilometrdən 54,4-cü kilometrədək) hissəsinin açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, magistralın Ələt–Masallı hissəsinə daxil olan Yenikənd–Salyan layihəsi üzrə tender keçirilib və 2014-cü ilin mayında tenderin qalibi «EVRASCON-AzVirt» birgə müəssisəsi ilə podrat müqaviləsi imzalanıb. Birinci texniki dərəcəli yolun eni 26,5 metrdir. 4 hərəkət hissəsinin və çiyinlərin hər birinin eni 3,75 metrdir. Avtomobillərin hərəkətinin tənzimlənməsi məqsədilə kifayət sayda yol təhlükəsizlik*

*dirəyi və müxtəlif yol nişanları quraşdırılıb, yol cizgi və yol göstərici xətləri çəkilib. Magistral boyunca 2 yeni körpü və 1 tunel inşa olunub.*

*Sonra prezident İlham Əliyevə Kür çayı üzərində salınmış yeni körpü haqqında məlumat verildi. Bildirildi ki, körpünün uzunluğu 363 metr, yanalma yolları ilə birlikdə 1,4 kilometr, eni isə 30 metrə yaxındır. Körpüdə hər birinin eni 3,75 metr olan 4 hərəkət zolağı var. Piyadaların körpüdən rahat və təhlükəsiz şəkildə istifadəsi üçün 1,3 metr enində səkilər qurulub. Yeni körpü suyun səviyyəsindən 15 metr hündürlükdə inşa edilib.*

*Prezident İlham Əliyev yolun və körpünün rəmzi açılışını bildirən lenti kəsdi.*

## Kür çayı üzərində uzunluğu 201 metr, eni 14,5 metr olan yeni körpünün açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Salyanın Babazanan yaşayış massivini şəhərin mərkəzi ilə birləşdirən, Kür çayı üzərində uzunluğu 201 metr, eni 14,5 metr olan yeni körpünün açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısına körpünün texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, 6000 nəfərdən artıq əhalinin yaşadığı Babazanan yaşayış sahəsindən rayon mərkəzinə olan məsafəni dəfələrlə qısaldacaq Kür çayı üzərində körpünün tikintisinə Salyan rayonunda yol infrastrukturunun yaxşılaşdırılması üçün Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 6 sentyabr tarixli Sərəncamına uyğun olaraq, dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan vəsait ayrılmış və tikinti işlərinə 2013-cü ilin oktyabr ayında başlanılmışdır. 6 aşırımdan ibarət və uzunluğu 201 metr olan körpünün ümumi eni 14,5 metrdir. Yeni körpünün hərəkət hissəsinin eni 11,5 metr, piyada səkilərinin eni hər iki tərəfdə 1,5 metrdir. Müasir tikinti materiallarından istifadə olunmaqla inşa edilmiş körpünün Kür çayının səviyyəsindən hündürlüyü təqribən 13 metrdir.*

*Layihəyə uyğun olaraq, Salyan rayonu tərəfdən 123 metr, Babazanan yaşayış sahəsi tərəfdən isə 221 metr olan yanaşma yolları tikilib.*

*Azərbaycan Prezidenti körpünün rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi.*

## Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Yeni Azərbaycan Partiyası Salyan rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ölkənin hər yerində olduğu kimi, Salyanda da bu partiyanın sıraları getdikcə genişlənir. İndi Yeni Azərbaycan Partiyasının Salyan rayon təşkilatının 7418 nəfər üzvü var.*

*Partiya üzvlərinin fəaliyyətinin daha səmərəli təşkili üçün 2014-cü ilin martında təşkilatın yeni inzibati binasının tikintisinə başlanılıb və bu ilin avqust ayında başa çatdırılıb. Binanın tikintialtı sahəsi 308 kvadratmetr, ümumi sahəsi isə 616 kvadratmetrdir.*

*Birinci mərtəbədə ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada ulu öndərin və prezident İlham Əliyevin həyat və fəaliyyətlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Bu mərtəbədəki 105 yerlik iclas zalında təşkilatın tədbirlərinin, həmçinin rayon səviyyəli yığıncaqların keçirilməsi üçün hər cür şərait yaradılıb. Binanın ikinci mərtəbəsi isə müxtəlif təyinatlı otaqlardan ibarətdir.*

*Yeni bina müasir avadanlıq, ədəbiyyat və təbliğat-təşviqat vasitələri ilə təchiz olunub.*

*Prezident İlham Əliyev təşkilatın üzvlərinə uğurlar arzuladı.*

## Tarix-Diyarşünaslıq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Salyanda Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi və muzeydə yaradılmış şəraitlə tanış oldu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, bina 1981-ci ildə inşa edilib və 2016-cı ilin may–avqust aylarında əsaslı təmir olunaraq, yenidən qurulub. Binanın tikintialtı sahəsi 620 kvadratmetr, ümumi sahəsi isə 1240 kvadratmetrdir. İki mərtəbədən ibarət binanın birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin həyat və fəaliyyətlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Bu mərtəbədə, həmçinin fond otağı və digər yardımçı otaqlar yerləşir. İkinci mərtəbə əsasən ekspozisiya zallarından ibarətdir.*

*Diqqətə çatdırıldı ki, muzeydə 12 mindən çox eksponat mövcuddur və onlardan 800-ü ekspozisiya zallarında nümayiş etdirilir.*

*Dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirdi.*

# SALYAN ŞƏHƏRİNƏ ŞİRVAN–MUĞAN MAGİSTRAL KƏMƏRİNDƏN ÇƏKİLMİŞ YENİ İÇMƏLİ SU XƏTTİNİN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Salyan şəhərinə Şirvan–Muğan magistral kəmərindən çəkilmiş yeni içməli su xəttinin açılışı mərasimində iştirak etmişdir.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, yeni layihənin icrası nəticəsində 35 mindən artıq əhalisi olan Salyan şəhərinin 12500 sakini mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunacaq.*

*Diqqətə çatdırıldı ki, «Azərsu» ASC-nin mütəxəssisləri Salyan şəhərinin fasiləsiz və dayanıqlı su ilə təmin olunması üçün yeni layihə hazırlayıblar. Həmin layihənin birinci mərhələsində 9 kilometr magistral və 28 kilometr paylayıcı su xətlərinin, həmçinin ümumi tutumu 15 min kubmetr olan 2 su anbarının tikintisi, 7000 sayğacın quraşdırılması nəzərdə tutulur. Bu işlərin görülməsi nəticəsində şəhərdə mərkəzləşdirilmiş qaydada su alan əhalinin sayının 2 dəfə artırılaraq, 25 min nəfərə çatdırılması mümkün olacaq.*

*Salyanın içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi üzrə şəhərdə 130 kilometr içməli su, 123 kilometr kanalizasiya şəbəkəsinin tikintisi planlaşdırılır. Eyni zamanda, 9 kilometr uzunluğunda kanalizasiya kollektorunun və məhsuldarlığı sutkada 20 min kubmetr olan tullantı sularını təmizləyəcək qurğunun inşası nəzərdə tutulub. Ümumilikdə, perspektiv inkişaf nəzərə alınmaqla, layihədən 35 mindən artıq insan faydalanacaq.*

*Burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən dövlətimizin başçısı çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Mən sizi ürəkdən salamlayıram. İndicə mənə bu layihə haqqında məlumat verildi. 2012-ci ildə Hacıqabul rayonunda böyük su layihəsinin təməli qoyulmuşdur. Bu böyük layihənin tərkib hissəsi olan Salyan şəhərinin su təminatı problemi bu gün öz həllini tapır. Hesab edirəm ki, bu, tarixi layihədir. Çünki bu zonada həmişə su problemi olub, insanlar sudan korluq çəkiblər. İndi biz məsələni həll edirik və vətəndaşlara təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun su verilir. Bu, layihənin birinci mərhələsidir. Bundan sonra digər layihələr də icra ediləcək. Kanalizasiya xətləri də çəkilməlidir ki, Salyan rayonunda bu problem birdəfəlik həll olunsun.

Bir neçə rayon artıq bu şəbəkəyə qoşulubdur. Bu gün Masallı rayonunda, 3 il əvvəl Biləsuvarda, ondan sonra Şirvan şəhərində içməli su layihələrinin açılışında iştirak etmişəm. Neftçala rayonunun su layihələri ilə bağlı probleminin həlli hələ ki, gündəlikdədir, onlar da həll olunacaq. Yəni məqsəd ondan ibarətdir ki, Azərbaycanın bütün şəhərlərində təmiz içməli su layihələri icra edilsin və vətəndaşlar artıq bu problemdən uzaq olsunlar.

İçməli su problemi, bildiyiniz kimi, bizdə bütün dövrlərdə çox kəskin problem olaraq qalırdı. Bizim su mənbələrimiz, əfsuslar olsun ki, məhduddur. Bizi qidalandıran əsas çaylar ölkəmizin hüdudlarından kənarda formalaşır. Ona görə biz sudan çox səmərəli şəkildə istifadə etməliyik və edirik. Eyni zamanda, daxili mənbələr də işə salınır. Oğuz–Qəbələ–Bakı su kəmərinin çəkilişi məhz bu məqsədi güdürdü ki, biz suyu daxili mənbədən gətirək və Bakı sakinlərinə çatdıra bilək.

Kür suyunun təmizlənməsi istiqamətində çox böyük addımlar atılıb. Bu gün artıq Salyan sakinləri təmiz içməli su ilə təmin olunurlar. Bu, bir daha demək istəyirəm ki, tarixi layihədir. Çünki tarixdə ilk dəfədir ki, biz bu layihəni icra edirik və vətəndaşlar

bunun xeyrini görəcəklər. Təmiz içməli su insanın orqanizmi üçün əsas şərtdir. Biz istəyirik ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, sağlam gənc nəsil yetişsin. İnsanlarımızın sağlamlığı üçün böyük addımlar atılır, o cümlədən səhiyyə sahəsində. Bu gün mən Biləsuvar Mərkəzi Rayon Xəstəxanasının açılışında iştirak etmişəm. Salyan Mərkəzi Rayon Xəstəxanası artıq neçə ildir fəaliyyət göstərir. Bütövlükdə, bu zonada bir dənə də şəhər yoxdur ki, orada müasir tibb ocağı olmasın.

Qeyd etdiyim kimi, içməli su insanların sağlamlığına bilavasitə təsir edən amildir. Bunun müsbət də, mənfi də təsiri ola bilər. Əfsuslar ki, bu vaxta qədər Salyana keyfiyyətli suyun verilməsi mümkün olmamışdır. Mənə verilən məlumata görə, bəzi hallarda birbaşa Kürdən təmizlənməmiş su götürülürdü. İndi bu problem artıq gündəlikdə deyil. Bütün digər problemlər də öz həllini tapır və tapmalıdır. Azərbaycan inamla inkişaf edir. Bütün regionlar inkişaf edir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramları uğurla icra edilir, o cümlədən Salyan rayonunda.

İnfrastruktur layihələri icra edilir. Salyan–Bakı avtomobil yolu artıq neçə ildir ki, fəaliyyət göstərir. İndi Bakını İran sərhədi ilə birləşdirən yolun çəkilişi davam etdirilir. Kənd yolları layihələri Salyanda icra edilib. Bir neçə layihə artıq istifadəyə verilib, yollar açılıb. Qazlaşdırma uğurla gedir. Salyanda qazlaşdırma təxminən 80 faiz təşkil edir. Bu da böyük nailiyyətdir. Ancaq növbəti mərhələdə biz bunu 90 faizə çatdırmalıyıq. Gələcəkdə Salyan rayonunun bütün yaşayış məntəqələri təbii qazla təmin edilməlidir.

İnfrastruktur layihələri insanlara xidmət göstərir, eyni zamanda, hər bir rayonun inkişafını sürətləndirir. İnfrastruktur olmadan inkişafdan söhbət gedə bilməz. Elektrik enerjisi, yol, qaz, suvarma imkanları olmasa, heç bir rayon, heç bir kənd inkişaf edə bilməz. Ona görə biz infrastruktur layihələrinin icrasına xüsusi diqqət göstəririk, bu məqsədlər üçün artıq çox böyük dövlət vəsaiti xərclənib və bu proses davam etdirilir. Biz infrastruktur layihələrinə bundan sonra da investisiya qoyacağıq. Yaxın vaxtlarda gələn ilin dövlət büdcəsi müzakirəyə çıxarılacaqdır. Mən artıq göstəriş vermişəm ki, dövlət büdcəmiz, əlbəttə, sosialyönümlü

olmalıdır, bütün sosial proqramlar orada tam şəkildə əks etdiriləcək. Eyni zamanda, sərmayə üçün də kifayət qədər vəsait nəzərdə tutulmalıdır ki, biz bu işləri davam etdirək.

Sosial infrastruktur, məktəb, xəstəxana binalarının, idman qurğularının tikintisi, yolların, elektrik, qaz, içməli su xətlərinin çəkilişi – bütün əsas şərtlər təmin edilir. Bununla paralel olaraq, hər bir rayon çalışmalıdır ki, ümumi işimizə daha da çox töhfə versin.

Rayonlarımızın potensialı böyükdür, o cümlədən Salyan rayonunun. Sadəcə olaraq, gərək işlər düzgün qurulsun. Belə olan halda, rayonlarımız öz daxili imkanları hesabına yaşaya bilər. Bizim bu gün əksər rayonlarımız subsidiya, dövlət büdcəsindən dotasiya ilə yaşayır. Buna nə qədər ehtiyac varsa, belə də olacaq. Ancaq çalışmalıyıq ki, hər bir rayonun öz imkanları, potensialı maksimum dərəcədə realizə edilsin.

Salyan rayonunun sosial-iqtisadi inkişafı üçün çox gözəl imkanlar var. Hesab edirəm ki, indi Salyan rayonunun inkişafı üçün yeni dövr, yeni mərhələ başlanır. Bu yaxınlarda yeni icra başçısı təyin edilibdir. Mən, adətən, dövlət məmurlarını tərifləmirəm, amma deyə bilərəm ki, əvvəlki işdə – Yardımlı rayonunda yaxşı işləyib. Orada da əhali razılıq edirdi və işlər yaxşı gedirdi. Nəzərə alsaq ki, Salyan rayonunda daha da böyük inkişafa ehtiyac var idi, mən onu buraya təyin etdim. Təyin edərkən bütün göstərişləri verdim, dedim ki, xalqla bir yerdə olmalısan, xalqa qayğı göstərməlisən. Rayonun bütün məsələləri həll olunmalıdır. Hansı məsələlər burada həll oluna bilərsə, həll olunsun. Burada həll olunmayan məsələlər mərkəzi icra orqanları tərəfindən həll olunmalıdır. Yəni Salyan rayonunun inkişafı üçün bütün lazımi tədbirlər görülür.

Əminəm ki, gələcəkdə burada sənayenin inkişafı sürətlə gedəcək. Mən göstəriş vermişəm hər bir rayonda sənaye zonaları yaradılsın ki, həm iş yerləri açılsın, həm də yerli istehsal artsın. Emal müəssisələri yaradılmalıdır, xüsusilə kənd təsərrüfatına daha da böyük diqqət göstərilməlidir və daha çox rayonun iqliminə, torpağına, şəraitinə uyğun bitkilər yetişdirilməlidir. İndi bütün

təhlillər aparılır, təkliflər hazırlanır. Əminəm ki, yaxın gələcəkdə biz gözəl nəticələri görəcəyik.

Pambıqçılıq Salyanda bu il inkişaf edir. Misal üçün, keçən il 400 hektarda pambıq əkilmişdisə, bu il 2000 hektarda əkilibdir, yəni 5 dəfə çox. Proqram üzrə gələn il 7000 hektar sahədə pambıq əkiləcək. Ondan sonra daha da çox. Bu, əlbəttə ki, insanlara əlavə maddi imkan yaradacaq, həm məşğulluğu artıracaq, həm də ümumi işimizə bir töhfədir. İndi bizim neft gəlirlərimiz azalıb. Bu reallıqdır. Neftin qiyməti 3-4 dəfə aşağı düşəndə, bizim valyuta gəlirlərimiz də 3-4 dəfə aşağı düşür.

Düzdür, bu gün Azərbaycan bu böhrana davam gətirə bilir. Deyə bilərəm ki, neft hasil edən ölkələrin vəziyyətinə baxsaq görərik ki, Azərbaycan ən yaxşı vəziyyətdədir. Ancaq bununla bərabər, bizə valyuta gətirən ixrac məhsulları lazımdır. Kənd təsərrüfatı məhsulları arasında bu bölgə üçün ən məqbul sahələrdən biri də pambıqçılıqdır.

Keçən əsrin 70-ci illərində pambıqçılıqda işləyən insanlar yaxşı dolanıblar, yaxşı pul qazanıblar, evlər tikiblər. Pambıqçılıq indiki mərhələdə də insanlar üçün yeni imkanlar yaradacaq.

İnsanların məşğulluğu məsələləri daim diqqət mərkəzində olmalıdır. Biz son 13 il ərzində 1 milyon 300 min yeni iş yeri yaratmışıq. Ancaq bu, daimi proses olmalıdır. Çünki əhali artır, tələbat artır, istehlak artır. Ona görə yeni fabriklər, zavodlar, emal müəssisələri yaradılmalıdır. Hər bir rayon və rayon rəhbərliyi çalışmalıdır ki, öz rayonuna investisiyalar cəlb etsin. İnfrastruktur və sosial infrastruktur layihələrinə dövlət xətti ilə investisiyalar qoyulur və qoyulacaq. Eyni zamanda, kənd təsərrüfatının inkişafı üçün gübrəyə, yanacağa subsidiyalar verilir. Torpaq vergisi istisna olmaqla, kəndlilər bütün vergilərdən azaddır. Onlara aqrolizinq yolu ilə texnika verilir. İndi ölkəmizə bir neçə 100 milyon dollar dəyərində yeni texnika gətirilir ki, kəndlilərə verilsin, onlar torpağı əkib-becərsinlər. Dövlət bu istiqamətdə də öz dəstəyini əsirgəmir.

Yerli icra orqanları isə çalışmalıdırlar ki, öz rayonlarına yerli və xarici özəl sərmayə gətirsinlər. Xaricə getmək, orada investorları inandırmaq lazımdır ki, sərmayə qoysunlar. Azərbaycanda kifayət

qədər böyük firmalar, şirkətlər var. Onları maraqlandırmaq lazımdır. İndi yerli icra orqanlarının işi bundan ibarətdir. Çünki bir daha demək istəyirəm ki, əsas infrastruktur layihələrinin icrası dövlətin məsuliyyətidir. Bu layihəyə dövlət böyük vəsait ayırıb. Biz son illər ərzində su layihələrinə milyardlarla manat vəsait ayırırıq. Bu layihələr gəlir gətirmir, sırf sosial məna daşıyır. Bir çox ölkələr var ki, pul xərcləməmək üçün bu layihələri icra etmirlər. Buna vəsait xərcləmək istəmirlər, qənaət edirlər. Biz isə sosial layihələri icra edirik. Çünki bu, insanlara lazımdır. Biz bu işləri insanlar üçün yaradırıq, qururuq, ölkəmizi inkişaf etdiririk.

Yerli icra orqanları da gərək çalışsınlar ki, onların rəhbərlik etdikləri rayonlarda işlər daha sürətlə getsin. Rayonlar arasında çox sağlam rəqabət olmalıdır. Rayon rəhbərliyinə qiymət bu nəticəyə görə veriləcək. Əlbəttə ki, rayonun fəalları, ziyalılar, bütün ictimaiyyət bu işlərdə həmişə olduğu kimi, fəal olmalı və ümumi işimizə töhfə verməlidirlər.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Bu, əlamətdar, tarixi bir gündür. Bu günü biz bir yerdə qeyd edirik.

* * *

**S ə l i m a ğ a  S ə l i m l i** *(rayon sakini):* Möhtərəm cənab Prezidentimiz! Bu gün içməli su layihəsinin istifadəyə verilməsi bizdə böyük fəxr, qürur hissi yaradır. Uzun illər boyu Salyan şəhərinin əhalisi içməli su sarıdan çox əziyyət çəkib, lilli sudan istifadə edib ki, o da gündə 2 saat verilib. Əhali məcbur olub həmin lilli suyu xüsusi daşlarda süzərək, istifadə etsin. Mənim dediklərimi burada olanlar təsdiq edə bilər. Amma bu gün bütün şəhər sakinlərinə fasiləsiz içməli suyun verilməsi yeni, sağlam həyat bəxş etdi.

Biz salyanlılara bu yeni sağlam həyatı bəxş etdiyinizə görə bütün Salyan əhalisi adından Sizə dərin minnətdarlığımı bildirir, ömrünüzün su qədər uzun olmasını arzulayıram. Allah Sizə yar olsun. Allah Sizi qorusun. Çox sağ olun, doğma, əziz Prezidentimiz!

**İ l h a m  Ə l i y e v**: Sağ olun.

**R a y o n  s a k i n i**: Ulu öndərimizin ənənələrini davam etdirdiyinizə görə hamımız Sizə minnətdarlığımızı bildiririk.

**İ l h a m  Ə l i y e v**: Çox sağ olun.

* * *

*Prezident İlham Əliyev şəhərə suyun verilməsini bildirən düyməni basdı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## Kürsəngi kəndində pambıq sahələrinə baxış

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Salyanın Kürsəngi kəndindəki pambıq sahələrinə baxmışdır.*

*Dövlətimizin başçısı ölkəmizdə pambıqçılığın zəngin ənənələrinin bərpa edilməsi və bu sahənin əvvəlki şöhrətinin qaytarılması üçün müvafiq tapşırıqlar verib. 2017-ci ildə respublikamızda pambıq istehsalı 300 min tona, hər hektardan məhsuldarlıq isə 30 sentnerə çatdırılmalıdır. Salyan rayonunda da aqrar bölmənin ənənəvi sahələrindən biri olan pambıqçılığın inkişaf etdirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 2016-cı ildə rayonun 16 kəndində 2168 hektar sahədə pambıq əkini aparılıb. Gələn il Salyanda 7000 hektarda pambıq əkilməsi planlaşdırılır.*

**İ l h a m  Ə l i y e v:** Keçən əsrin 70-ci illərində Azərbaycanda ildə 1 milyon ton pambıq yığılırdı və işçilər də razı idi, iş də gedirdi. Pambıqçılar yaxşı pul qazanırdılar. Ondan sonra yavaş-yavaş azalma başlandı. Keçən il cəmi 30 min ton pambıq yığılıb. İndi 24 rayonda yeni proqram icra edilir, o cümlədən Salyan rayonunda pambıq sahələri genişləndirilir. 2015-ci ildə Salyanda 400 hektar pambıq sahəsi var idisə, bu gün artıq 2200 hektarda pambıq əkilib. Gələn il bu, 7000 hektara qalxacaq. Bütün bu sahələr yeni sahələrdir. Şoranlaşmış torpaq idi. Görülən operativ tədbirlər nəticəsində indi bu 120 hektarda pambıq əkilib. Yaxın günlərdə yığım başlanacaq.

İndi dövlət xətti ilə yeni texnikanın da alınması təmin edilir. Biz bu məqsədlər üçün yüz milyonlarla dollar vəsait xərcləyirik ki, bu iş daha geniş vüsət alsın, ölkəmizin inkişafı təmin edilsin və yeni iş yerləri yaradılsın. Çünki pambıq tarlalarında çoxsaylı iş yerləri yaradılır. Hər hektarda orta hesabla 2 nəfər işləyir. Gələn il 7000 hektarda ən azı 14 min insan işləyəcək, pul qazanacaq və öz maddi vəziyyətini yaxşılaşdıracaq, dövlətimizə də, ümumi işimizə də töhfə verəcək.

Bu tarlalarda işləyənlərin şəraiti də yaxşı olmalıdır. Burada tarla düşərgəsi də var. Təbii ki, pambıqçılar üçün hər cür şərait yaradılmalıdır, su, yemək təşkil olunmalıdır. Ötən əsrin 70-ci illərində ulu öndərin rayonlara səfərlərində mən də onun yanında idim. Tarla düşərgələrində keçirdiyi çoxsaylı görüşlərini xatırlayıram.

**P a m b ı q ç ı  q a d ı n:** Mən də xatırlayıram. Bu görüşlərin canlı şahidiyəm.

**İ l h a m  Ə l i y e v:** Siz o vaxt işləmisiniz?

**P a m b ı q ç ı  q a d ı n:** Bəli, 1972-ci il idi, mən beşinci sinifdə oxuyurdum. Rəhmətlik ulu öndərimiz bizim kəndə təşrif buyuranda mən də kolxozçularla bərabər sahədə olmuşam. Onunla əl verib görüşmüşəm. Bunu Allah-Taala mənə nəsib edib. Onda ulu öndərimiz mənim başıma sığal çəkib dedi ki, qızım, de görüm böyüyəndə nəçi olacaqsan? Dedim, pambıqçı. «Balama afərin» deyib, əlini çiynimə qoydu. Allah ulu öndərimizə qəni-qəni rəhmət etsin. Möhtərəm Prezidentimiz, Siz onun layiqli davamçısısınız, Allah Sizə cansağlığı versin. Siz onun yolunu davam etdirərək, pambıqçılığa geniş yer verirsiniz. Bizim Salyan əhalisi iş yeri ilə təmin olunub. Hamı işləyir, qazanır, evinə çörəkpulu aparır. Hamının rifahı yaxşılaşıb, hamı gözəl yaşayır. Sizə minnətdarıq, çox sağ olun. Allah Sizə cansağlığı, uzun ömür versin. Allah övladlarınızı qorusun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Pambığın alış qiymətini də artırdıq ki, indi bu tarlalarda işləyənlər daha çox pul qazansınlar. Şərait də yaxşı olmalıdır. Forma da verilib. Gərək sizin bütün iş şəraitiniz yaxşı olsun. Burada 1 briqada işləyir?

**S e v i n d i k  H ə t ə m o v** (*Salyan Rayon İcra Hakimiyyətinin başçısı*)**:** Bir neçə briqada işləyir. Hətta, cənab Prezident, bir neçəsinə deyilib ki, iş qurtarandan sonra sizi sanatoriyalara göndərəcəyik.

**İ l h a m  Ə l i y e v:** Bəli, siz gərək yaxşı işləyənləri fərqləndirəsiniz. Əlavə olaraq, yaxşı mükafat verilsin. Gəlin sizinlə görüşüm. Atamla görüşmüsünüz, mən də sizinlə görüşüm.

**P a m b ı q ç ı l a r:** Allah Sizə cansağlığı, uzun ömür versin. Çünki biz bir ailəyik. Siz bütün Azərbaycanımızın başçısısınız. Sülh və əmin-amanlıq içərisində yaşayırıq.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Sizin hamınıza cansağlığı arzulayıram.

*Daha sonra prezident İlham Əliyev pambıq tarlasına baxdı və pambıqçılarla bir daha söhbət etdi:*

– Formanız da var. Hər şeylə təmin olunmusunuz. Amma o illərdə pambıq daha tez yetişirdi, sentyabrın əvvəlində yığım başlanırdı.

**T ə s ə r r ü f a t  r ə h b ə r i:** Sizin tapşırığınızdan sonra biz bu torpaqları dövriyyəyə verdik. Bu torpaqlar tamam şoranlaşmışdı, pis vəziyyətdə idi.

*Prezident İlham Əliyev tarladan pambıq dərərək dedi:*

– Bu, tarlanın ilk məhsuludur.

**P a m b ı q ç ı  q a d ı n l a r:** Əliniz yüngül, bərəkətli olsun, inşallah.

**İ l h a m  Ə l i y e v:** Keyfiyyəti necədir?

**Təsərrüfat rəhbəri:** Çox yaxşıdır. Liflərin uzunluğu 32,5 millimetrdir. Qabaqlar bizdə digər sortlar var idi – «Ağdaş», «30-38», «S-47». Emal üçün ən sərfəli «ağ qızıl»dır. Bunlar mahlıcdır. Möhtərəm Prezident, mahlıc çıxımı əvvəllər təxminən 26-27 faiz olurdu. Hazırda 40-41 faiz mahlıc çıxımı var. Özü də bunlar üçüncü tipdir, yəni yumşaqdır.

**İ l h a m  Ə l i y ev:** Yəni ixrac üçündür?

**T ə s ə r r ü f a t  r ə h b ə r i:** Bəli, ixrac üçündür. Bunlar əvvəlkilərdən fərqli olaraq, çox keyfiyyətli pambıqdır.

**İ l h a m Ə l i y e v:** Bəs, hektardan nə qədər məhsuldarlıq gözlənilir?

**T ə s ə r r ü f a t r ə h b ə r i:** 25 sentnerdən yuxarı məhsuldarlıq gözlənilir. Əgər biz əkini vaxtında aparsaydıq, hətta 30–35 sentner pambıq götürə bilərdik. Amma biz gecikmişdik. Sizin tapşırığınızdan sonra biz qısa müddətdə gecə-gündüz çalışaraq, 18 kilometrdən çox məsafədən suyu buraya gətirmişik, 15 qurğu tikmişik. Düker, akveduk, şlüzlər, körpülər və baş hissədə 3 nasos qurmuşuq. 5 kilometr məsafədən 10 kilovoltluq hava elektrik xətti çəkmişik. Yarımstansiya qurmuşuq və suyu onun vasitəsilə ötürürük. Gələn il burada pilot suvarma sistemləri quraşdıracağıq. Bu, məhsuldarlığı 40–45 sentnerə çatdıracaq.

**İ l h a m Ə l i y e v:** Bu sistemlər sifariş olunub, tezliklə gətiriləcək. Məhsuldarlıq daha çox artacaq.

**T ə s ə r r ü f a t r ə h b ə r i:** Sağ olun. Allah Sizdən razı olsun.

**İ l h a m Ə l i y e v:** Sovet vaxtı bu torpaqlar da əkilmişdi?

**T ə s ə r r ü f a t r ə h b ə r i:** Xeyr, burada heç vaxt əkin olmayıb. Bura şoran torpaq idi, bərbad vəziyyətə düşmüşdü. Biz qısa müddətdə xeyli iş gördük.

**İ l h a m Ə l i y e v:** Burada şoran torpaq çoxdur? Neçə hektardır?

**P a m b ı q ç ı:** Çoxdur, bizim 18 min hektar şoran torpaqlarımız var.

**İ l h a m Ə l i y e v:** Əgər o torpaqlarda da iş görülərsə, onları da dövriyyəyə vermək olar? Yolun qarşı tərəfində də eyni vəziyyətdir.

**T ə s ə r r ü f a t r ə h b ə r i:** İnşallah, o torpaqları da dövriyyəyə verəcəyik.

**İ l h a m Ə l i y e v:** Buna «ağ qızıl» deyirlər.

**P a m b ı q ç ı:** Bəli, möhtərəm Prezident, mən bir söz demək istəyirəm. Biz xalqın, cəmiyyətin içərisində olan adamlarıq. Sizin dönməzliyinizi, fədakarlığınızı, xalqımız, Vətənimiz üçün gördüyünüz işləri hamı qiymətləndirir və Sizə duaçıdır. Biz də dua edirik.

**İlham Əliyev:** Sağ olun. Mən çox şadam ki, qısa müddətdə – bir neçə ay ərzində biz bu işləri görə bildik. Yerli icra orqanları yaxşı işlədilər. Prezident Administrasiyası əsas yükü öz üzərinə götürdü və biz bu işləri görə bildik. Baxın, necə də gözəl görünür. Gələn il 7000 hektar olacaq, ondan sonra işlər daha da sürətlə gedəcək. Mən gərək bu pambığı birinci məhsul kimi saxlayım.

**Təsərrüfat rəhbəri:** Şəxsən Sizin tapşırığınızla becərilmiş torpağın məhsuludur.

**İlham Əliyev:** Şəxsən özüm dərmişəm.

**Pambıqçılar:** Allah Sizə cansağlığı versin. Sizə uzun ömür arzulayırıq. Siz Azərbaycanı əmin-amanlıq şəraitində yaşadırsınız.

**İlham Əliyev:** Çox sağ olun. Sizə uğurlar arzulayıram.

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGE İVANOVA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan və Makedoniya arasındakı dostluq və əməkdaşlıq münasibətləri, daim genişlənən əlaqələrimiz bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Makedoniya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 sentyabr 2016-cı il*

## XƏTAİ RAYONUNDA 245 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ TƏDRİS KORPUSUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*5 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Bakının Xətai rayonundakı 245 saylı tam orta məktəbin yeni inşa edilmiş tədris korpusunda yaradılan şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 245 saylı tam orta məktəbin əsası 1968-ci ildə qoyulub. Uzun illər təmir olunmayan məktəbdə prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən 2014-cü ildə əsaslı təmir və yenidənqurma işləri görülüb. 1800 şagird yerlik məktəbdə tədris ikinövbəli sistemdə Azərbaycan və rus dillərində aparılır. Hazırda burada 80 sinifdə 2111 şagird təhsil alır. Şagird sıxlığı, təbii ki, təlim-tədrisin vəziyyətinə təsirsiz ötüşmürdü. Bu və digər obyektiv amillər nəzərə alınaraq, 2014-cü ildə məktəb üçün yeni korpusun inşasına başlanıldı.*

*Dövlət proqramına əsasən, 2 il ərzində görülən tədbirlər nəticəsində 2630 kvadratmetr sahəsi olan yeni korpusun inşası yüksək səviyyədə başa çatdırıldı.*

*Yeni korpus 20 sinif otaqlı olmaqla, 576 şagird üçün nəzərdə tutulub. Bütün sinif otaqları zəruri tədris ləvazimatları, əyani vəsaitlərlə təchiz olunub. Bununla da məktəb yeni tədris ilində şagirdləri daha keyfiyyətli təlim-tədrislə təmin etməyə hazır vəziyyətə gətirilib.*

*Prezident İlham Əliyev məktəbin akt və idman zalına da baxdı.*

*Bildirildi ki, məktəbdə 189 işçi çalışır, şagirdlərin təlim-tərbiyəsi ilə 166 müəllim məşğul olur. Öz uğurlarını getdikcə artıran*

*məktəbi 2015–2016-cı tədris ilində 127 şagird bitirib. Onlardan 76 nəfəri bu il yüksək nəticə göstərərək, müxtəlif ali məktəblərə qəbul olunub. Bununla da ölkədə insan kapitalının inkişaf etdirilməsi ilə bağlı dövlətimizin başçısının həyata keçirdiyi konsepsiya bu məktəbin timsalında da öz uğurlu bəhrəsini verməyə başlayıb.*

## XƏTAİ RAYONUNDA 265 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*5 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Xətai rayonundakı 265 saylı tam orta məktəbin binasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Məlumat verildi ki, bu təhsil ocağı dövlətimizin başçısının sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq, əsaslı surətdə təmir edilib. Məktəbin həyətində bu təhsil ocağının məzunu şəhid Miryusif Yusifovun xatirə lövhəsi qoyulub.*

*Bu məktəb 1983-cü ildən fəaliyyət göstərir. Burada indiyədək heç vaxt belə əsaslı təmir işləri aparılmayıb.*

*Təhsil ocağının foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsilə göstərdikləri qayğını əks etdirən fotostend qurulub. Burada, həmçinin dövlətimizin başçısının Xətai rayonundakı təhsil ocaqlarında olduğu zaman çəkilən fotoları da var.*

*Məktəbin bütün otaqları, o cümlədən fizika, kimya, biologiya, informatika otaqları zəruri avadanlıqlarla təchiz edilib. Burada şagirdlərə ən yüksək səviyyədə təhsil vermək üçün hərtərəfli şərait var. 1076 şagird yerlik məktəbdə tədris ikinövbəlidir. Məktəbdə tədris Azərbaycan və rus dillərində aparılır. Hazırda məktəbdə 48 sinifdə 1060 şagird təhsil alır. Təhsil ocağında 135 nəfər çalışır ki, bunlardan 109-u müəllimdir. Məktəbin yüksək səviyyədə qurulan yeməkxanası yeni tədris ilindən şagirdlərin ixtiyarında olacaq. Təhsil ocağının akt zalı da müasir səviyyədə yenidən qurulub.*

*Şagirdlər məktəbin zəngin kitabxanasından bəhrələnəcəklər. Kitabxananın 5 minə yaxın bədii ədəbiyyat və 20 minədək dərslik fondu var.*

*Təhsil ocağının idman zalında voleybol, həndbol, futbol, gimnastika, tennis və idmanın digər növləri ilə məşğul olmaq üçün hər cür şərait yaradılıb.*

*2015–2016-cı tədris ilində məktəbi 54 şagird bitirib ki, onlardan 24 nəfəri tələbə adını qazanıb.*

*Məktəbdə yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

## İSVEÇRƏ YƏHUDİ İCMALARI FEDERASİYASININ PREZİDENTİ HERBERT VİNTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də İsveçrə Yəhudi İcmaları Federasiyasının prezidenti Herbert Vinterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İsveçrə Yəhudi İcmaları Federasiyası nümayəndə heyətinin Azərbaycana səfər proqramının geniş olduğunu, çoxsaylı görüş və tədbirlərin keçiriləcəyini vurğulayan prezident İlham Əliyev qonaqların ölkəmizi daha da yaxından tanımaları üçün səfərin yaxşı imkan yaradacağına əminliyini bildirdi.*

*Əsrlərboyu müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və dostluq şəraitində yaşamalarını Azərbaycanın ən böyük sərvətlərindən biri kimi dəyərləndirən dövlətimizin başçısı ölkəmizdəki yəhudi icmasının da cəmiyyətimizin fəal hissəsi olduğunu dedi. Prezident İlham Əliyev ölkəmizdə multikulturalizm, sülh və dini tolerantlıq dəyərlərinin təbliğ olunduğunu vurğulayaraq bu ilin Azərbaycanda «Multikulturalizm ili» elan edildiyini dedi. Dövlətimizin başçısı dünyanın bir sıra bölgələrində multikulturalizmin boğulduğu bir vaxtda onu diqqət mərkəzinə gətirməyin vacibliyini də vurğuladı. Dünya ölkələrinin əksəriyyətinin çoxmillətli olduğunu deyən prezident İlham Əliyev hər bir ölkənin daxilində əmin-amanlığın mövcudluğunun əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı bu baxımdan Azərbaycanın yaxşı nümunə kimi göstərilə bilən ölkələrdən biri olduğunu dedi. Yəhudi icmasının Azərbaycanda böyük tarixə malik olduğunu, öz kimliklərini və ənənələrini qoruyub saxladıqlarını deyən prezident*

*İlham Əliyev bu icmanın ölkəmizin inkişafına töhfə verdiyini məmnunluqla qeyd etdi.*

*İsveçrə Yəhudi İcmaları Federasiyasının prezidenti Herbert Vinter Azərbaycanda prezident İlham Əliyevlə keçirdikləri görüşün ölkəmizə səfərlərinin ən yaddaqalan hissəsi olacağına əminliyini ifadə etdi. Qonaq bildirdi ki, səfər zamanı əsas məqsəd müxtəlif mədəniyyətlərarası, etnik və dini qruplararası dinc yanaşı yaşama məsələləri ilə yaxından tanış olmaqdır. Herbert Vinter Azərbaycanın multikulturalizm məsələlərinə böyük önəm verən çox az sayda ölkələrdən biri olduğunu dedi. O, Azərbaycanda müxtəlif dini icmaların üzvləri ilə keçirəcəkləri görüşlərin önəmini qeyd etdi. Herbert Vinter İsveçrədən – Beynəlxalq Qırmızı Xaç Komitəsinin əsasının qoyulduğu ölkədən gəldiklərini vurğulayaraq, sülh və əmin-amanlıq prinsiplərinin böyük maraq doğurduğunu dedi.*

*İsveçrə Yəhudi İcmaları Federasiyasının prezidenti Herbert Vinter qeyd etdi ki, Azərbaycan həqiqətən, gözəl ölkədir, iqtisadi baxımdan böyük uğurlar qazanıb, ümumiyyətlə, bütün sahələrdə nailiyyətlər əldə etmiş ölkədir. Qonaq İsveçrənin Azərbaycan ilə ikitərəfli münasibətlərinə toxunaraq, bu əlaqələrin inkişafından çox məmnun olduqlarını bildirdi.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ

*5 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Özbəkistan Respublikasının ölkəmizdəki səfirliyində olmuşdur.*

*Dövlətimizin başçısı Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun vəfatı ilə əlaqədar başsağlığı verdi, Matəm kitabına ürək sözlərini yazdı.*

*Prezident İlham Əliyev Özbəkistanın Azərbaycandakı səfiri Şerzod Fayziyevlə söhbət etdi və İslam Kərimovun vəfatından kədərləndiyini bildirdi.*

## KOREYA ƏMƏK PARTİYASININ SƏDRİ, KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASININ DÖVLƏT İŞLƏRİ ÜZRƏ KOMİSSİYASININ SƏDRİ, KOREYA XALQ ORDUSUNUN ALİ BAŞ KOMANDANI ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN INA

Zati-aliləri!

Ölkənizin milli bayramı – Koreya Xalq Demokratik Respublikasının Yaranması Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2016-cı il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və Sizin şəxsinizdə dost Tacikistan xalqını ürəkdən təbrik edirəm.

Azərbaycanı və Tacikistanı sıx dostluq, əməkdaşlıq və qarşılıqlı fəaliyyət telləri bağlayır. Əminəm ki, çoxəsrlik mehribanlıq ənənələrinə əsaslanan ikitərəfli münasibətlərimiz bundan sonra da möhkəmlənəcək və dinamik inkişaf edəcək.

Hörmətli Emoməli Şərifoviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar, dost Tacikistan xalqına sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 sentyabr 2016-cı il*

## NİZAMİ RAYONUNDA 229 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*6 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakının Nizami rayonundakı 229 saylı tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısı məktəbin sinif otaqlarına, fənn kabinetlərinə, akt və idman zallarına baxdı.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi.*

*Bildirildi ki, bu məktəb binası 1964-cü ildə inşa olunub. O vaxtdan burada heç vaxt belə əsaslı təmir aparılmayıb. Məktəbin binasında əsaslı təmir işləri dövlət başçımızın sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na əsasən həyata keçirilib.*

*Təhsil ocağının həyətində bu məktəbin məzunu Milli Qəhrəman Yuri Kovalyovun barelyefi qoyulub. Məktəbin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsilə göstərdikləri qayğını əks etdirən fotolardan ibarət stend yaradılıb. Bu təhsil ocağının üçmərtəbəli binasında yaradılan şərait şagirdlərin biliklərin əsaslarına daha dolğun yiyələnmələrinə, müəllimlərin tədris prosesini müasir proqramlar əsasında aparmalarına imkan verəcək. Tədrisin Azərbaycan və rus dillərində aparıldığı məktəbdə 964 şagird yeri var. Burada şagirdlərin təlim-tərbiyəsi ilə 101 müəllim məşğul olur. Məktəbin 43 sinif otağı var. Buradakı fənn kabinetləri, laboratoriyalar və digər otaqlar zəruri dərs ləvazimatları ilə təchiz olunub. Məktəbdə şagirdlərin*

*qidalanmaları üçün bufet yaradılıb. Təhsil ocağının akt və idman zalları da müasir standartlar səviyyəsində qurulub.*

*Məktəbin şagirdləri və məzunları arasında Prezident təqaüdçüləri, müxtəlif bilik və idman olimpiadalarının, həmçinin yarışların qalibləri var. Təhsil ocağını bu il 70 məzun bitirib ki, onlardan 54-ü ali məktəbə qəbul olunub, o cümlədən 19 nəfəri 500-dən yuxarı bal toplayıb.*

## NİZAMİ RAYONUNDA 109 SAYLI TAM ORTA MƏKTƏBİN BİNASINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*6 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakının Nizami rayonundakı 109 saylı tam orta məktəbin binasında yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Diqqətə çatdırıldı ki, 109 saylı tam orta məktəbin binası 1966-cı ildə tikilib. Ötən dövrdə burada müəyyən cari təmir işləri görülsə də, binada əsaslı yenidənqurmaya ehtiyac yaranmışdı. Bunu nəzərə alaraq, təhsil ocağının binasında dövlət başçımızın sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq əsaslı təmir işləri görülüb.*

*Məktəbin həyətində bu təhsil ocağının Qarabağ uğrunda döyüşlərdə şəhid olan məzunu Rəhilə Orucovanın büstü qoyulub. Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsil işçiləri ilə görüşləri, həmçinin müxtəlif məktəblərin açılışı zamanı çəkilən fotolarından ibarət stend yaradılıb.*

*Məlumat verildi ki, 760 şagird yerlik məktəbdə 42 sinif otağı və 5 fənn kabineti var. Sinif otaqlarının, o cümlədən fənn kabinetlərinin hamısı müasir tədris avadanlıqları ilə təchiz olunub. Burada uşaqların təlim-tərbiyəsi ilə 85 təhsil işçisi məşğul olur. Bu il məktəbi bitirənlərin 76 faizi ali məktəblərə qəbul olunub.*

*Paytaxtda və bölgələrdə yeni məktəb binalarının inşası, mövcudlarının əsaslı şəkildə yenidən qurulması Azərbaycanda təhsil islahatlarının ardıcıl xarakter aldığını nümayiş etdirir.*

*Paytaxtdakı 109 saylı məktəbdə yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ PROFESSOR ADİLƏ NAMAZOVAYA**

Hörmətli Ədilə xanım!

Sizi – Azərbaycan tibb elminin və təhsilinin görkəmli nümayəndəsini 90 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, səadət və işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

60 ildən artıq bir dövr ərzində Siz elm, təbabət və təhsili üzvi şəkildə birləşdirərək, həm alim və müəllim kimi, həm də uşaqların sağlamlığını qoruyan bir həkim kimi, böyük uğurlar əldə etmisiniz. Siz öz nəcib fəaliyyətinizlə uzun illər ərzində Azərbaycanda uşaq təbabətinin inkişafında əvəzsiz rol oynamısınız. Apardığınız çoxşaxəli tədqiqatlarla Siz ölkəmizdə və beynəlxalq aləmdə böyük hörmət qazanmısınız.

Azərbaycan Tibb Universitetinin tibb və səhiyyə sahəsində nüfuzlu mərkəz kimi formalaşmasında, sözsüz ki, Sizin kimi alimlərin böyük əməyi vardır. Neçə nəsil pediatr həkimlərin yetişdirilməsində bilavasitə iştirak edərək, Siz daim yüksəkixtisaslı kadrların hazırlanması prosesinə layiqli töhfələr vermisiniz. Azərbaycanda uşaqların sağlamlığının keşiyində duran minlərlə insan böyük qürur hissi ilə vaxtilə tələbəniz olduğunu xatırlayır. Sizin vətəndaş mövqeniz və aktiv ictimai fəaliyyətiniz də təqdirəlayiqdir.

Bu gün Siz ömrünüzün müdriklik çağında yenə də zəngin təcrübənizi və yüksək elmi potensialınızı səhiyyəmizin inkişafı naminə səfərbər edirsiniz. Ümidvaram ki, bundan sonra da insanların sağlamlığının qorunması üçün öz qüvvə və bacarığınızı əsirgəməyəcəksiniz.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2016-cı il*

## NƏSİMİ RAYONUNDA 247 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*7 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Bakının Nəsimi rayonundakı şəhid Abdulla Rəhimov adına 247 saylı tam orta məktəbin əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri ilə bağlı dövlətimizin başçısına məlumat verdi. Yeni dərs ilində şagirdlərə tədris, təlim və tərbiyə işlərinin yüksək səviyyədə həyata keçirilməsi üçün məktəbdə hər cür şərait yaradılıb.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsilə və təhsil işçilərinə diqqət və qayğılarını, həmçinin təhsilin inkişaf etdirilməsi ilə bağlı görülən tədbirləri əks etdirən fotolardan ibarət stend qurulub.*

*Qeyd edək ki, Nəsimi rayonundakı 247 saylı tam orta məktəbin binasında əsaslı təmir və yenidənqurma işləri Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda nəzərdə tutulmuş tədbirlər proqramına uyğun olaraq həyata keçirilib. 1969-cu ildə inşa edilən məktəbin binasında indiyədək bu cür əsaslı təmir və yenidənqurma işləri aparılmayıb. Məktəbdə təmir işləri ən yüksək standartlar səviyyəsində icra olunub. Ümumi ərazisi 15600 kvadratmetr olan 700 şagird yerlik məktəbdə tədris birnövbəli olmaqla, Azərbaycan və rus dillərində aparılır. Məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 67 müəllim məşğul olur.*

*Diqqətə çatdırıldı ki, yeni dərs ili münasibətilə birinci sinif şagirdlərinə məktəbli çantası və digər dərs ləvazimatları da hədiy-*

*yə ediləcək. Məktəbdə bədii ədəbiyyat və eləcə də müxtəlif dərs vəsaitləri hesabına zəngin kitabxana yaradılıb. Bütün sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, idman və akt zalları, yeməkxana yüksək standartlar səviyyəsində təmir edilib.*

*Dövlətimizin başçısı ayrı-ayrı sinif otaqlarını gəzdi, fənn kabinetləri və idman zalında yaradılan şəraitlə tanış oldu.*

*Prezident İlham Əliyev yeni dərs ilində kollektivə uğurlar arzuladı.*

## «DP WORLD» ŞİRKƏTLƏR QRUPUNUN SƏDRİ SULTAN ƏHMƏD BİN SULAİM İLƏ GÖRÜŞ

*7 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də «DP World» şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaimi qəbul etmişdir.*

*Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin-Rəşid əl-Məktumun salamlarını və Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlar münasibətilə təbriklərini dövlətimizin başçısına çatdıran Sultan Əhməd bin Sulaim dedi ki, ölkəsi Azərbaycan iqtisadiyyatına daim töhfə verməyə hazırdır. Bakının gözəlliyinin onu valeh etdiyini, şəhərə müxtəlif ölkələrdən çoxlu sayda turistlərin gəldiyini bildirən Sultan Əhməd bin Sulaim paytaxtın inkişafına sərmayə qoyulmasının uzaqgörən addım olduğunu vurğuladı, bu münasibətlə prezident İlham Əliyevi təbrik etdi. Qonaq neft ölkələrinin böhrandan əziyyət çəkdiyi indiki dövrdə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə nail olunmasının önəmini vurğuladı. Sultan Əhməd bin Sulaim bu gün Bakıda Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, Azad Ticarət Zonası tipli iqtisadi zona ilə bağlı imzalanacaq müqavilənin də Azərbaycan iqtisadiyyatı üçün uğurlu olacağına əminliyini ifadə etdi.*

*Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin-Rəşid əl-Məktumla bu ölkəyə rəsmi səfəri zamanı keçirdikləri görüşü məmnunluqla xatırladan prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin çox uğurla inkişaf etdiyini söylədi. «DP World» şirkətlər qrupu ilə imzalanacaq bugünkü müqavilənin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyini deyən dövlətimizin başçısı başlanacaq yeni layihənin əlavə iş yerlərinin*

*açılması və ümumi daxili məhsulun artması sahələrində yeni imkanlar yaradacağına ümidvar olduğunu bildirdi. Son dövrlər Azərbaycana müxtəlif ölkələrdən, o cümlədən Körfəz ölkələrindən çoxlu sayda turistlərin gəldiyini deyən prezident İlham Əliyev Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi yolunu tutduğunu, respublikamızda sənaye, turizm, nəqliyyat, kənd təsərrüfatı da daxil olmaqla, bütün sektorlarda sürətli inkişafa nail olunduğunu, bütün bunların da öz növbəsində, neftin qiymətinin kəskin aşağı düşdüyü dövrdə qarşıya çıxan problemlərin aradan qaldırılmasına yaxşı imkanlar yaratdığını vurğuladı.*

*Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin-Rəşid əl-Məktumun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Şeyx Məhəmməd bin-Rəşid əl-Məktuma çatdırmağı xahiş etdi.*

## XAÇMAZ RAYONUNA SƏFƏR

*8 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaz rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Xaçmaz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev prezident İlham Əliyevə abidənin ətrafında yaradılan şərait, həmçinin rayonda həyata keçirilən layihələr və qarşıda duran vəzifələr barədə məlumat verdi.*

### Heydər Əliyev Mərkəzinin yeni binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmazda Heydər Əliyev Mərkəzinin yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada dünyanın nüfuzlu siyasətçilərindən olan Heydər Əliyevin gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, Azərbaycan iqtisadiyyatının ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolara və sənədlərə geniş yer*

*verilib. Mərkəzdə əbədiyaşar liderin həyat və fəaliyyətinə dair tarixi sənədlər də nümayiş etdirilir.*

*Məlumat verildi ki, binanın inşasına 2015-ci ilin fevralında başlanılıb və 2016-cı ilin mart ayında tikinti işləri başa çatdırılıb.*

*Mərkəzdə kompüterlər və digər müasir avadanlıqlarla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərəcək. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün böyük konfrans zalı var. Ümumi tikinti sahəsi 1100 kvadratmetr olan Mərkəzin binası 2 mərtəbədən və müxtəlif təyinatlı bölmələrin fəaliyyət göstərdiyi otaqlardan ibarətdir. Birinci mərtəbədə Heydər Əliyev muzeyi, sərgi zalı, xalçaçılıq dərnəyi, 300 nəfərlik kino-konsert zalı var. İkinci mərtəbədə isə rəsm studiyası, fotostudiya, elektron kitabxana, kompüter, rəqs və intellektual oyun dərnəkləri yaradılıb.*

*Prezident İlham Əliyev Mərkəzin binasını gəzərək, yaradılan şəraitlə tanış oldu və müvafiq tapşırıqlarını verdi.*

## Bayraq Meydanında və Bayraq Muzeyində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmazda Bayraq Meydanında və Bayraq Muzeyində yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Bayraq Meydanının və Bayraq Muzeyinin binasının inşasına 2014-cü ildə başlanılıb və tikinti işləri 2015-ci ildə başa çatdırılıb. Bayraq Meydanında və muzey binasında inşaat işləri rayonun daxili imkanları hesabına həyata keçirilib.*

*Ümumi ərazisi 1 hektar olan Bayraq Meydanında hündürlüyü 85 metr olan bayraq dirəyi ucaldılıb, tikintialtı sahəsi 240 kvadratmetr olan fəvvarə tikilib, 5360 kvadratmetr sahədə yaşıllıq salınıb, dekorativ ağac və gül kolları əkilib, müasir suvarma və işıqlandırma sistemləri yaradılıb.*

*Ərazidə tikintialtı sahəsi 320 kvadratmetr olan 1 ekspozisiya zalı, 2 köməkçi açıq eyvan və diametri 11 metr olan günbəzdən ibarət Bayraq Muzeyi inşa edilib.*

*Muzeydə tariximizin ayrı-ayrı dövrlərinə aid eksponatlar, bayraqlar, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə, müxtəlif dövlət rəmzləri qorunur. Burada müstəqillik dövrümüzün tarixi hadisələrinə geniş yer verilib. Bütün bunlar həm Xaçmaz gənclərində, həm də rayona gələn qonaqlarda şanlı tariximiz haqqında təsəvvür yaratmağa geniş imkanlar açır.*

## Nikah evinin binası ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaz şəhərinin mərkəzində yerləşən Nikah evinin binası ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, bu bina 2005-ci ildə sosial təyinatlı obyekt kimi inşa edilib. Bina əsaslı təmir və yenidənqurma işlərindən sonra Nikah evi kimi fəaliyyət göstərir. Ümumi sahəsi 448 kvadratmetr olan binada regionun ən böyük təntənəli mərasim zalının olması nikah bağlayanlar üçün müxtəlif tədbirlərin təşkili ilə bağlı geniş imkanlar açır. Nikaha daxil olmaq istəyən şəxslərin qanunvericiliklə müəyyən edilmiş qaydada tibbi müayinəsi və onlara tibbi arayışın verilməsi digər tibb müəssisələrinə müraciət edilmədən, bilavasitə burada həyata keçiriləcək. Həmçinin burada nikahı qeydiyyata alınanlar üçün otaq ayrılıb, təntənəli mərasimlərin təşkilinə və əməkdaşlara lazımi şərait yaradılıbdır.*

## Xudat–Yalama–Zuxuloba avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaz rayonunda Xudat–Yalama–Zuxuloba avtomobil yolunun açılışını etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə yolun tikinti layihəsini əks etdirən stendə baxdı.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov Azərbaycan Prezidentinə yolun texniki göstəriciləri barədə*

*məlumat verdi. Bildirildi ki, Xudat–Yalama–Zuxuloba avtomobil yolu uzun müddət təmir olunmadığına görə, xüsusən də ağır çəkili yük avtomobillərinin intensiv hərəkəti nəticəsində magistralın bir çox yerlərində qabarmalar və çökmələr yaranmışdı. Yolun əsaslı təmirinə bu ilin may ayında başlanılıb və avqustda başa çatdırılıb.*

*Bildirildi ki, yolun uzunluğu 24 kilometrdir. Ümumilikdə 12 metr enində yeni yol yatağı tikilib. Tikintidən əvvəl eni 6 metr olan yolun hərəkət hissəsi 7 metrə qədər genişləndirilib. Hər biri 3,5 metr enində olmaqla, 2 hərəkət zolaqlı yolun hər iki istiqaməti üzrə 2,5 metr enində yeni çiyinlər tikilib. Hər bir layihənin reallaşdırılması zamanı yollarda piyadaların da təhlükəsiz hərəkəti diqqətdə saxlanılan əsas məsələlərdən biridir. Xudat–Yalama–Zuxuloba avtomobil yolunda da ümumi uzunluğu 4000 poqonmetrə yaxın 2 metr enində yeni piyada səkiləri tikilib. Yenidənqurma işləri çərçivəsində avtomobil yolunun alt hissəsindən suların ötürülməsi üçün nəzərdə tutulan mövcud boruların və keçidlərin hamısı bərpa olunub. Tikinti işləri zamanı yolboyu 165 min kvadratmetr sahəyə yeni asfalt-beton örtüyü döşənib. Yolboyu 920 təhlükəsizlik dirəyi və 154 müxtəlif yol nişanı və göstərici lövhələr quraşdırılıb.*

*Xudat–Yalama–Zuxuloba avtomobil yolu rayonun 28 min əhalisinin yaşadığı 18 yaşayış məntəqəsini birləşdirir.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Sonra prezident İlham Əliyev yeni yolda avtomobili idarə etdi.*

## XUDAT ŞƏHƏRİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*8 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xudat–Yalama–Zuxuloba avtomobil yolunun açılışından sonra Xudat şəhərinin bir qrup sakini ilə görüşmüşdür.*

*Sakinlər dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

**S a k i n l ə r:** Xoş gəlmisiniz, cənab Prezident! Həmişə Siz gələsiniz. Qədəmləriniz mübarək olsun!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Necəsiniz?

**S a k i n l ə r:** Çox sağ olun, şükür Allaha. Səfəriniz xeyirli-bərəkətli olsun!

**İ l h a m Ə l i y e v:** Yeni yol çəkilib. Çox rahatdır.

**S a k i n l ə r:** Çox sağ olun. Sizi burada görməyimizə çox şadıq.

**İ l h a m Ə l i y e v:** Xaçmaz inkişaf edir, burada ilk aqropark yaradılıb. Birinci mərhələdə orada təxminən 150 iş yeri açılıb.

**S a k i n l ə r:** Çox sağ olun. Allah Sizi qorusun! Ölkəmizdə əmin-amanlıq olsun!

* * *

*Sakinlər ölkəmizin inkişafı ilə bağlı görülən işlərdən razılıqlarını bildirdilər. Onlar qeyd etdilər ki, son illər bölgələrdəki yaşayış məntəqələri daha da abadlaşır, yeni yollar çəkilir, silsilə sosial layihələr reallaşdırılır və regionlarda yeni iş yerləri yaradılır.*

*Prezident İlham Əliyev Xaçmaz rayonunun hərtərəfli inkişafının daim diqqət mərkəzində olduğunu, burada müxtəlif layihələrin həyata keçirildiyini, çoxlu sayda yeni iş yerlərinin yaradıldığını vurğuladı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

# YALAMA QƏSƏBƏSİNDƏ HEYDƏR ƏLİYEV PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*8 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Yalama qəsəbəsində Heydər Əliyev adına parkda yaradılan şəraitlə tanış olmuşdur.*

*Məlumat verildi ki, parkın ümumi sahəsi 1 hektardır. Parkın ərazisində Heydər Əliyev Mərkəzinin Yalama qəsəbə filialı da fəaliyyət göstərir. Ümumi sahəsi 120 kvadratmetr olan Mərkəzin binasının qarşısında ümummilli liderin büstü ucaldılıb. Prezident İlham Əliyev büstün önünə gül dəstəsi qoydu.*

*Sonra dövlətimizin başçısı burada ləzgi icmasının nümayəndələri ilə söhbət etdi.*

**S a k i n l ə r:** Xoş gəlib, səfa gətirmisiniz, cənab Prezident! Qədəmləriniz mübarək olsun!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Necəsiniz, işləriniz necədir?

**S a k i n:** Bizim şimal bölgəmizə, respublikamızın şimal qapısı olan Yalama qəsəbəsinə xoş gəlmisiniz! Allah Sizin köməyiniz olsun! Sizin siyasətinizin nəticəsi və bəhrəsidir ki, suyumuz beton kanallarla, qazımız təzə polietilen borularla gəlir, işığımız kabelləşib, fasiləsiz təmin olunmuşuq. Allah Sizə yar olsun!

Bu gün gəldiyiniz bu gözəl, yaraşıqlı yol Sizin siyasətinizin uğurudur. Bütün standartlara uyğun bu yola görə camaatımızın adından Sizə minnətdarlığımızı bildiririk, «Çox sağ olun» – deyirik. Gələcək işlərinizdə də Sizə uğurlu fəaliyyətlər arzu edirik. Allah köməyiniz olsun! Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən də çox şadam ki, bu bölgədə – Xaçmaz rayonunda, ümumiyyətlə, şimal bölgəsində işlər yaxşı gedir, abadlıq-quruculuq işləri aparılır. Bütün infrastruktur layihələri həll olunub. Sizin də qeyd etdiyiniz kimi, yeni yol salınıb. Bu gün bu yolun rəsmi açılışını qeyd etdik. Qazlaşdırma davam edir. Bir çox yaşayış məntəqələri artıq qazlaşdırılıb.

Xaçmaz rayonunda qazlaşdırma 71 faizdir. Əlavə tədbirlər görüləcək ki, qazlaşdırılmayan kəndlərə də qaz çəkək. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Dayanıqlı enerji təminatı var. İş yerlərinin yaradılması ilə bağlı əlavə tədbirlər görülür. Bu gün Yalama Aqroparkının açılışı olacaq. Orada da yüzlərlə iş yeri yaradılır. Bu bölgənin turizm potensialının inkişafı üçün lazımi addımlar atılır və atılacaq. İnfrastruktur layihələrinin icrası burada əsas məsələdir.

Çox şadam ki, burada insanlar rahat yaşayırlar, öz işləri ilə məşğuldurlar, kənd təsərrüfatı, turizm inkişaf edir. Yeni iş yerləri yaradılır, abadlıq işləri aparılır. Yalama qəsəbəsi, dediyiniz kimi, bizim şimal qapımızdır. Sərhədə ən yaxın olan qəsəbədir. Çox şadam ki, Azərbaycanın mərkəzindən uzaq məsafədə yerləşən bölgələrdə də işlər yaxşı gedir, dövlətimiz güclənir, insanlar daha da yaxşı yaşayırlar.

**S a k i n l ə r:** Sizin sayənizdə, cənab Prezident. Çox sağ olun. Bunların hamısı Sizin zəhmətinizin bəhrəsidir. Allah Sizi qorusun!

**S a k i n:** Möhtərəm cənab Prezident, Yalama qəsəbəsinə xoş gəlmisiniz! Bu gün Yalama camaatı üçün böyük bayramdır. Sizin siyasətinizi bütün yalamalılar dəstəkləyirlər. Bizim dayandığımız bu bir hektar torpaq sahəsi 2008-ci ilə qədər həqiqətən, bataqlıq ərazi idi. Xalqın müraciəti ilə biz burada ulu öndərin adına layiq gözəl Heydər Əliyev parkı yaratdıq, Heydər Əliyev Muzeyi tikildi. Heydər Əliyev parkı ilə bərabər, ulu öndərin adını daşıyan küçə də abadlaşdı. Çox sağ olun, Sizə minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Bir halda ki, əsas infrastruktur layihələri artıq başa çatır, növbəti mərhələdə daha çox yerli istehsal, kənd təsərrüfatı, turizm inkişaf etməlidir. Turizmin inkişafı üçün əlavə imkanlar var. Siz bilirsiniz ki, bu il ölkəmizə daha çox xarici qonaq gəlmişdir. Əlbəttə ki, bura turizm üçün çox gözəl zonadır. Burada həm dəniz, həm meşələr var, yaxın bölgələrdə xizək kurortu da yaradılıb. Yəni bu zona Azərbaycanın turizm mərkəzlərindən biridir, bəlkə də birincisidir. Gələcəkdə insanları işlə təmin etmək üçün, əlbəttə, həm dövlət, həm özəl

sektor tərəfindən əlavə investisiyalar qoyulmalıdır ki, işlər daha da sürətlə getsin və inkişaf dayanıqlı olsun.

**S a k i n:** Möhtərəm cənab Prezident, bir daha xoş gəlmisiniz! Mən Yalama məktəbində müəllimə işləyirəm. Bizim məktəbimizdə təmir işləri gedir. Yeni dərs ilində biz əsaslı təmir olunmuş məktəbdə çalışacağıq. Yalama çox abadlaşıb, inkişaf edib. İnanırıq ki, bu inkişaf davamlı olacaq. Cənab Prezident, çox sağ olun. Biz Sizə çox təşəkkür edirik, Sizə minnətdarıq.

**İ l h a m Ə l i y e v:** Yalamada bir məktəb var?

**S a k i n:** Bəli, tam orta məktəbdir, 800 şagird oxuyur.

**İ l h a m Ə l i y e v:** Burada yaşayan əhalinin sayı 5020 nəfərdir. Bu çox yaxşıdır. İndi yol təmir olunub, gediş-gəliş rahat olacaq.

**S a k i n l ə r:** Biz Xudatdan buraya bir saata gələ bilmirdik. İndi 15 dəqiqəyə gəlirik. Çox gözəl yollar salınıb. Çox sağ olun. Bütün camaatımız adından Sizə minnətdarıq. Bizə yaratdığınız bu şəraitə görə Sizə təşəkkür edirik. Allah köməyiniz olsun!

**İ l h a m Ə l i y e v:** Yol əsasdır. Çünki yol abad olanda həm gediş-gəliş asanlaşır, eyni zamanda, bütün digər məsələlər öz həllini tapır. Misal üçün, biz 3-4 il bundan əvvəl Xaçmazda Mərkəzi Rayon Xəstəxanasını təmirdən sonra istifadəyə verdik. İndi insanlar rayon mərkəzinə çox qısa müddətdə çata bilərlər.

**S a k i n l ə r:** Çox sağ olun. Bu yol qarşıdan gələn Qurban bayramı münasibətilə Sizin bizə hədiyyəniz oldu. Ailənizlə birlikdə Sizi təbrik edirik. Çox sağ olun. Allah köməyiniz olsun! Sizə uğurlar arzulayırıq.

**İ l h a m Ə l i y e v:** Mən də qarşıdan gələn bayram münasibətilə sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

## YALAMA AQROPARKININ AÇILIŞI MƏRASİMİNDƏ XAÇMAZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*8 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də «Yalama» Südlük-Maldarlıq üzrə Damazlıq Dövlət Kənd Təsərrüfatı İstehsalı Müəssisəsinin bazasında yaradılmış Yalama Aqroparkının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq, ölkəmizdə aqroparkların yaradılmasına başlanılıb. Aqroparklar aqrar sahədə sahibkarlığın inkişafını daha geniş şəkildə təşviq edərək, sosial-iqtisadi inkişafın sürətləndirilməsində, rəqabətqabliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, ixrac potensialının və məşğulluğun artırılmasında xüsusi əhəmiyyət kəsb edir. Aqroparkların yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı–emalçı–istehlakçı münasibətlərinin formalaşmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynayacaq. Aqroparklarda kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistikası və satışı bütünlükdə bu sistemi özündə birləşdirməklə, kənd təsərrüfatı məhsullarının torpaqdan istehlakçının süfrəsinədək bütün mərhələləri özündə əks etdirir ki, bu da həmin məhsulların istehsalına çəkilən xərclərin, eləcə də maya dəyərinin aşağı düşməsinə və keyfiyyətin yüksəlməsinə imkan verir. Belə aqroparklardan biri də Xaçmaz rayonunun Yalama qəsəbəsində yaradılıb.*

*İqtisadiyyat naziri Şahin Mustafayev və Kənd Təsərrüfatı naziri Heydər Əsədov aqroparkda görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdilər. Bildirildi ki, 523 hektar ərazidə salınan aqroparkın yaradılmasına birinci mərhələdə 20 milyon manat investisiya qoyulub. Layihənin ilkin mərhələsinə uyğun olaraq, 1000 başı sağmal olmaqla, 3000 başlıq cins iribuynuzlu heyvandarlıq kompleksi, müasir suvarma sistemi ilə 385 hektar sahədə iri taxılçılıq təsərrüfatı, istehsal gücü saatda 5 ton olan Yem zavodu yaradılıb. Zavodun davamlı və fasiləsiz xammala olan tələbatının ödənilməsi məqsədilə tutumu 4,5 min ton olan anbar və saatda 30 ton taxılqurudan qurğu quraşdırılıb.*

*Prezident İlham Əliyevə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Quba–Xaçmaz iqtisadi rayonunda sahibkarlara ödənilən güzəştli kreditlər barədə də məlumat verildi. İqtisadiyyat naziri Şahin Mustafayev bildirdi ki, indiyədək fond vasitəsilə Quba–Xaçmaz iqtisadi rayonu üzrə 2260-dək sahibkara 163,5 milyon manat, o cümlədən yeni texnologiyalara əsaslanan 13 logistik mərkəz və 2 taxıl anbarı, 1 quşçuluq, 2 istixana, 7 intensiv bağçılıq və 4 üzümçülük təsərrüfatı, 3 meyvə-tərəvəz emalı, 2 çörək və 2 tara zavodu, eləcə də 7 digər istehsal və emal müəssisəsi olmaqla, ümumilikdə 43 müəssisənin yaradılmasına 107 milyon manat, həmçinin 1980-dək sahibkara 19 milyon manatdan çox kiçikhəcmli güzəştli kreditlər verilib. İqtisadi rayon üzrə verilmiş güzəştli kredit hesabına 11 mindən çox yeni iş yeri yaradılıb. Xaçmaz rayonu üzrə isə 790 sahibkara 50,6 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 3300-dən çox yeni iş yeri açılıb.*

*Prezident İlham Əliyev Yalama Aqroparkında yaradılan şəraitlə tanış oldu.*

*Bildirildi ki, təsərrüfata «Aqrolizinq» ASC vasitəsilə «Simmental» cinsindən olan 1103 baş cins heyvan gətirilib və bu günədək 601 baş bala alınıb. Hazırda təsərrüfatda yüksək yağlılıqlı və keyfiyyətli süd istehsal olunur. Müasir texnologiyalardan istifadə, cins heyvanların yemlənməsi və bəslənməsi, kənd təsərrüfatı texnikalarından istifadə qaydalarının daha dərindən*

*mənimsənilməsi və dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsi məqsədilə burada çalışan mütəxəssislərin bir qrupu Avropa ölkələrində xüsusi kurs keçib.*

*Dövlətimizin başçısı aqroparkın ərazisindəki Yem zavodunu işə saldı.*

*Yem istehsalı sahəsi tanınmış xarici şirkətlərin texnologiyası və avadanlıqları əsasında qurulub.*

*İstehsal prosesini izləyən prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, zavodda hazırlanan qüvvəli yem aqroparkın tələbatını ödəməklə yanaşı, regionda fəaliyyət göstərən fermer təsərrüfatlarına da satılacaq. Heyvandarlıq kompleksinin yem bazasının formalaşdırılması üçün növbəli əkin sistemi tətbiq olunmaqla, 128,5 hektar yonca, 228,5 hektar arpa və 100 hektar dənlik qarğıdalı əkilib. Arpa zəmilərində biçin başa çatdırılıb və yüksək məhsuldarlıq əldə edilib. Rentabelliyin təmin edilməsi məqsədilə arpa sahələrinin 155 hektarında ikinci əkin olaraq, silosluq qarğıdalı səpilib.*

*Bildirildi ki, dövlət investisiyaları hesabına təsərrüfatın fasiləsiz su təminatı, eləcə də ətraf kəndlərin suvarma suyuna olan ehtiyaclarının ödənilməsində mühüm rol oynayan 3,2 kilometr uzunluğunda beton suvarma kanalı, tutumu 50 min kubmetr olan su hovuzu tikilib, 4 subartezian quyusu qazılıb, əraziyə yol, qaz və elektrik xətləri çəkilib. Aqroparkda aqroservis mərkəzi yaradılıb, xaricdə və Gəncə Avtomobil zavodunda istehsal olunan 15 adda 24 müasir texnika və aqreqatlar alınıb.*

*Aqroparkda çalışanlar üçün hər cür şərait yaradılıb, 40 çarpayılıq yataqxana, yeməkxana və ofis binası inşa edilib, ərazi abadlaşdırılıb və geniş yaşıllaşdırma işləri görülüb. Bununla yanaşı, aqroparkda müasir texnologiyanın tətbiq edildiyi, dəyəri 12 milyon manat, gündəlik emal gücü 100 ton olan Süd zavodu, 60 hektar ərazidə intensiv bağçılıq (dəyəri 3 milyon manat) və Xaçmazın Muxtadır qəsəbəsində dövlət ehtiyat fondu torpaqlarından uzunmüddətli icarəyə götürüləcək 957 hektar sahədə müasir suvarma sisteminə malik olan iri taxılçılıq təsərrüfatları (dəyəri 5 milyon manat) yaradılacaq. Süd emalı zavodunda kərə*

*yağı, quru süd və pendir istehsal olunacaq. Aqroparkda ikinci mərhələ üzrə həyata keçiriləcək layihələrə ümumilikdə 20 milyon manat investisiya qoyulması nəzərdə tutulur. İkinci mərhələdə İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun maliyyə dəstəyindən də istifadə ediləcək.*

*Süd zavodunda təsərrüfatda istehsal olunmuş südün emalı ilə yanaşı, ətraf kəndlərin fermerlərindən də süd tədarük olunacaq, emal edildikdən sonra hazır məhsullar daxili bazara çıxarılmaqla bərabər, xarici ölkələrə də ixrac ediləcək. Aqroparkda 150 nəfər çalışır və layihələrin icrası nəticəsində 300-dən artıq yeni iş yeri yaradılacaq.*

*Aqroparkla tanışlıqdan sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Sizi ürəkdən salamlayıram. Yenidən Xaçmaz rayonunda olmağımdan çox məmnunam. Bu mənim Xaçmaz rayonuna 7-ci səfərimdir. Biz əvvəlki səfərlər çərçivəsində bir çox iqtisadi, sosial obyektlərin açılışında görüşmüşük. Bu gün də Xaçmaz rayonunda gözəl aqropark istifadəyə verilir. Bu da rayonun, ümumiyyətlə, ölkəmizin inkişafına öz töhfəsini verəcək. Çünki bu aqropark bizim siyasətimizi əks etdirir. Burada bir çox istiqamətlər üzrə yaxşı işlər görülüb – bitkiçilik, heyvandarlıq təsərrüfatları, yem bazası, Logistika Mərkəzi. Gələcəkdə satış da təşkil ediləcək, Süd emalı zavodu yaradılacaq. Bir sözlə, biz son illər ərzində Azərbaycanda iqtisadi və sosial sahələrdə həyata keçirilən işləri bu aqroparkın timsalında əyani şəkildə görürük. Çünki burada həm də iş yerlərinin yaradılması təmin edilib. Mənə verilən məlumata görə, 150 iş yeri açılıb, növbəti mərhələdə 300-ə yaxın iş yeri yaradılacaq. Burada işləyənlər yaxşı maaş alırlar. Bu bizim ümumi inkişafımıza çox böyük töhfədir. Bu, son illər ərzində Azərbaycanda yaradılan birinci aqroparkdır. Düzdür, Azərbaycanda iri fermer təsərrüfatları artıq yaradılıb. Taxılçılıq və

digər sahələr üzrə böyük təsərrüfatlar yaradılıb, süd emalı zavodları tikilib. Ancaq bu aqroparkın xüsusi mənası var. Vaxtilə burada damazlıq təsərrüfatı olub. Bu gün mən həmin təsərrüfatın əvvəlki vəziyyətini əks etdirən şəkillərə baxdım, o tamamilə dağılmış halda idi. İndi 500 hektardan çox sahədə müasir aqrokompleks yaradılıb. Burada ən müasir texnologiyalar, elmi yanaşma tətbiq olunur, böyük su anbarı tikilib. 1000 başdan çox iribuynuzlu mal-qara gətirilib və gələcəkdə onların sayı 3000-ə çatacaq. Yəni bu, ölkə üzrə ən böyük heyvandarlıq–bitkiçilik komplekslərindən biri olacaq.

Bununla bərabər, hesab edirəm ki, biz indiki nailiyyətlərlə kifayətlənməməliyik. Biz bu aqroparkın fəaliyyətini genişləndirməliyik. Mənə verilən məlumata görə, bu kompleksə 20 milyon manat investisiya qoyulub. Həm özəl sektor tərəfindən, eyni zamanda, dövlət də kömək göstərib. Bu da Azərbaycanda son illərdə aparılan siyasətin nəticəsidir. Dövlət və özəl sektor tərəfdaşlıq formatında əməkdaşlıq edir. Gələcəkdə bu aqroparkın həm ərazisi, həm də fəaliyyəti genişləndirilməlidir. Ərazisi 3 dəfə bundan böyük olmalıdır. Biz təqribən 1000 hektar əlavə torpağı dövriyyəyə cəlb etməliyik. Burada Süd emalı zavodu tikilməli, xüsusilə kərə yağı və pendir istehsalı təşkil edilməlidir. Çünki baxmayaraq çox işlər görülür, əfsuslar olsun ki, hələlik, biz özümüzü süd məhsulları ilə tam təmin etmirik. Ancaq etməliyik. Düzdür, indi Azərbaycan şirkətləri xaricə də süd məhsullarını ixrac etməyə başlayıb. Ancaq biz istəyirik ki, ilk növbədə, özümüzü 100 faiz təmin edək, ondan sonra ixrac potensialı daha da artacaq. Ona görə də burada çox böyük Süd emalı zavodu tikilməlidir və prinsipcə biz özümüzü əsas ərzaq məhsulları ilə təmin etməliyik. Biz buna yaxınlaşırıq. Belə aqrokomplekslərin yaradılması bu məqsədə çatmaq üçün yeni imkanlar yaradır.

Bir daha demək istəyirəm ki, bu aqrokompleksdə bizim siyasətimiz əksini tapır. Çünki bizim indi iqtisadi inkişafla bağlı prioritetlərimiz bəllidir. Qeyri-neft sektoru inkişaf edir və bu gün ölkəmizin iqtisadiyyatının təxminən 70 faizini təşkil edir. Bu da çox böyük nailiyyətdir. Bu o deməkdir ki, biz neft amilindən

asılılığımızı azaldırıq və getdikcə ümumi daxili məhsulumuzda qeyri-neft sektorunun çəkisi artacaq. Bu, müsbət dinamikadır. Bununla bərabər, biz ixracda da eyni mənzərəni görməliyik. Hələ ki, ixrac məhsullarının arasında qeyri-neft sektorunun məhsulları azlıq təşkil edir. Ona görə burada həm qeyri-neft sektorunun inkişafı təmin ediləcək, həm də biz daxili tələbatı tam ödəyəcəyik. Beləliklə, ərzaq təhlükəsizliyi təmin olunacaq və biz gələcəkdə ərzaq məhsulları ilə bağlı idxaldan asılılığımızı tam aradan qaldırmalıyıq.

Bu aqroparkın yaradılması sahibkarlığın inkişafı deməkdir. Bu da dövlət siyasətidir. Dövlət də sahibkarlara öz dəstəyini verir, güzəştli şərtlərlə kreditlər təşkil edilib. Bu aqroparkın yaradılması ilə bağlı böyük infrastruktur layihələri həyata keçirilib, yollar, kommunikasiyalar çəkilib. Əlbəttə ki, kənd təsərrüfatının inkişafı da burada özünü göstərir. Bax, bir aqroparkda bizim iqtisadi inkişafla, xüsusilə sahibkarlıqla, kənd təsərrüfatının inkişafı ilə bağlı olan bütün istiqamətlər cəmləşib. Bu onu göstərir ki, Azərbaycan düzgün yoldadır. Baxmayaraq ki, indi dünyada iqtisadi-maliyyə böhranı davam edir, Azərbaycana həm dövlət, həm özəl sektor, yerli şirkətlər, xarici firmalar tərəfindən investisiyalar qoyulur. Bu, ölkəmizin gücünü və siyasətimizin niyyətini göstərir. Bütün bu işləri biz ona görə edirik ki, ölkəmiz daha da güclənsin və Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar, işlə təmin olunsunlar, yaxşı maaş alsınlar və ölkəmizə xeyir gətirsinlər.

Ona görə bu aqroparkın çox böyük mənası var. Bir daha demək istəyirəm ki, bu, ölkə üzrə birinci belə aqroparkdır. Növbəti açılış yəqin ki, Şəmkir rayonunda olacaq. Orada da böyük aqropark tikilir. Mən bu gün göstəriş vermişəm ki, bizim müvafiq qurumlar – Prezident Administrasiyası, İqtisadiyyat, Kənd Təsərrüfatı nazirlikləri birgə işləsinlər. Çünki belə aqroparkların sayı ən azı 10-a çatmalıdır. Belə olan halda, biz heyvandarlıqla, südçülüklə bağlı bütün problemləri tamamilə həll edərik.

Bu aqroparka gətirilən cins mal-qara bizim mövcud mal-qara ilə müqayisədə bir neçə dəfə çox süd verir, çəkisi də bir neçə dəfə

artıqdır. Biz son illər xaricdən minlərlə baş cins mal-qara almışıq. Bu da çox düzgün siyasət idi. Bu gün isə biz artıq digər yollara keçirik. Süni mayalanma texnologiyası tətbiq ediləcək, burada artıq tətbiq olunub. Beləliklə, 3-4 ilə bizim mal-qaramızın cinsi tam dəyişdiriləcək. Bu da, əlbəttə ki, məhsuldarlığın artırılmasına gətirib çıxaracaq.

Birinci belə layihə Xaçmaz rayonunda icra edilib. Xaçmaz rayonunun çox böyük turizm, kənd təsərrüfatı potensialı var. Son illərdə Xaçmazda çox böyük quruculuq, abadlıq işləri görülüb. Xaçmaz şəhərinin siması dəyişdirilib, indi gözəl, müasir şəhərdir. Xaçmazda böyük infrastruktur layihələri icra edilib. İlk modul elektrik stansiyalarından birincisi Xaçmazda inşa edilib. Gücü 90 meqavat olan bu stansiya imkan verdi ki, biz bütün bu işləri görə bilək. Elektrik enerjisi olmayan yerdə heç bir müəssisə yaradıla bilməz. Yolların tikintisi uğurla gedir. Bu gün mən Xudat–Yalama–Zuxuloba yolunun açılışını qeyd etdim. Yolun uzunluğu 24 kilometrdir, 18 yaşayış məntəqəsini birləşdirir. Bundan əvvəl də kənd yollarının tikintisinə vəsait ayrılmışdır. Əvvəlki səfərlərimdə Olimpiya Mərkəzinin, Mərkəzi Rayon Xəstəxanasının açılışı olmuşdur. Digər obyektlər, məktəblər tikilir. Bir sözlə, Xaçmaz rayonu sürətlə inkişaf edir və rayonun çox böyük potensialı var.

Kənd təsərrüfatının inkişafı, ixrac potensialına malik məhsulların yetişdirilməsi, xüsusilə fındıqçılıqla bağlı əlavə tədbirlər görüləcək. İndi biz bu sahəyə daha böyük diqqət yetirməliyik. Çünki həm kəndlilər, həm dövlət üçün ən çox gəlir gətirən məhz fındıqçılıqdır. Mənə verilən məlumata görə, indi təqribən 5 min hektar fındıq bağları var. Biz onların ərazisini genişləndirməliyik. İndi təkliflər hazırlanır. Dövlət də öz dəstəyini verəcək, kömək göstərəcək ki, bu sahə daha da sürətlə inkişaf etsin, insanlar daha çox pul qazansınlar və ölkəmizə valyuta gətirsinlər. Çünki bu, ixrac məhsuludur.

Əlbəttə, Xaçmaz rayonunun turizm potensialı daha da geniş olmalıdır. Düzdür, son vaxtlar Xaçmaz rayonunda, xüsusilə Yalama–Nabran zonasında çoxlu istirahət zonaları yaradılıb və turistlərin sayı kifayət qədərdir. Ancaq hesab edirəm ki, bu daha da

geniş vüsət ala bilər, daha da keyfiyyətli xidmət göstərilə bilər. Əlbəttə, burada ekoloji məsələlər də öz həllini tapmalıdır. Müvafiq göstərişlər verilib. Yolların çəkilişi ilə bağlı artıq işlər görülür. Bax, bu Xudat–Yalama–Zuxuloba yolu eyni zamanda, turizm obyektlərinə gedən yoldur. Sahil yolu da var, mən oraya da baxacağam. Lazım olarsa orada da təmir-bərpa işləri aparılacaq. Çünki turizm bu zona üçün kənd təsərrüfatı ilə bərabər, ən çox gəlir gətirən sahədir. Biz bu sahələri inkişaf etdirməliyik.

Şimal-qərb zonasının çox böyük kənd təsərrüfatı və turizm potensialı var. Dövlətin dəstəyi ilə yaradılan ən böyük aqropark məhz bu zonadadır. Dövlətin bilavasitə sərmayəsi ilə yaradılan ən böyük turizm obyekti də yaxın qonşu rayonda – Qusarda «Şahdağ» qış-yay turizm mərkəzidir. Budur dövlətin apardığı siyasət və bu zonaya, burada yaşayan insanlara göstərilən diqqət.

Mən şadam ki, bütün planlarımız həyatda öz əksini tapır. Azərbaycan hərtərəfli inkişaf edir. Ölkəmizin bütün bölgələri inkişaf edir. Çox böyük infrastruktur və sosial layihələr icra edilir – iqtisadi layihələr, kənd təsərrüfatı layihələri. Biz, bax, belə inkişaf etməliyik. Budur bizim yolumuz və bu yol artıq özünü təsdiqləyib. Çünki nəinki regionda, dünya miqyasında bu gün ölkəmizin təcrübəsi öyrənilir. Təkcə iqtisadi sahədə deyil, bütün sahələrdə, o cümlədən dinlərarası, millətlərarası münasibətlərin sağlam zəmində qurulması məsələləri də həmişə diqqət mərkəzindədir. Azərbaycan dünya miqyasında milli, dini, etnik dözümlülük, tolerantlıq və qardaşlıq məkanı kimi tanınır. Bu, artıq reallıqdır, xüsusilə indiki şəraitdə ki, dünyanın müxtəlif yerlərində dini, milli zəmində qarşıdurmalar, müharibələr aparılır. Azərbaycanda bu sahədə də nümunəvi mənzərə yaşanır. Nəyə görə? Çünki həm dövlət siyasəti düzgün aparılır, həm ictimaiyyət, bütün xalqımız vahid ideya uğrunda birləşib – müstəqillik, dövlətçilik, bərabərlik, sülh, qardaşlıq ideyaları. Bu da bizi qabağa aparan əsas amillərdir. Bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. Bəzi Avropa ölkələrində işlər tam başqa istiqamətdə gedir. Hesab edirlər ki, multikulturalizmin gələcəyi yoxdur. Hesab edirlər ki, müxtəlif millətlərin nümayəndələri bir yerdə yaşaya bilmirlər. Çox

böyük səhv edirlər. Bu həm çox böyük səhvdir, həm də cinayətdir. Azərbaycana qonaq gəlsinlər, görsünlər ki, müxtəlif millətlərin nümayəndələri burada necə dostluq, mehribanlıq, qardaşlıq şəraitində yaşayırlar. Biz bu sahədə də nümunə, yol göstəririk. Bu bizi gücləndirir, dövlətimizi, xalqımızı qabağa aparır. Bu, sağlam zəmindir. Bununla bərabər, sosial, iqtisadi, investisiya layihələri həyata keçirilir. Mən hələ enerji siyasətimizi demirəm. Bu sahədə də biz liderlik göstəririk. Ona görə bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bax, bugünkü bu mənzərə onu göstərir. Vaxtilə dağılmış, tamamilə tənəzzülə uğramış bir ərazidə görün necə gözəl əsər yaradılıb, insanlar işləyəcək, pul qazanacaq, dövlətimiz çiçəklənəcək.

Mən sizi bir daha ürəkdən təbrik edirəm və sizə uğurlar arzulayıram.

* * *

**Cəlal Harunov** *(fermer təsərrüfatının başçısı):* Cənab Prezident, mən «Birlik» fermer təsərrüfatını təmsil edirəm. Yergüc kəndində 6 təsərrüfatdan biridir. Əsasən meyvəçiliklə, həmçinin maldarlıqla da məşğul oluruq.

**İlham Əliyev:** Böyük əraziniz var?

**Cəlal Harunov:** Xeyr, ərazimiz böyük deyil. Çünki ailə fermer təsərrüfatıdır. Ona görə bir az kiçik ərazidir. Ancaq faktiki olaraq, öz gücümüzlə lazımi səviyyədə işləyə bilirik.

Bu gün bütün kənd təsərrüfatına göstərilən qayğı hər kəsin gözü qarşısındadır. Buna görə biz Sizə minnətdarıq. Bu qayğıdan, bu təşəbbüsdən istifadə edərək, biz də çalışırıq ki, öz işimizi günün tələbləri səviyyəsində quraq və ekoloji cəhətdən təmiz məhsul istehsal edək. Ona görə Sizə minnətdarıq. Çox sağ olun. Allah Sizi qorusun!

**İlham Əliyev:** Çox sağ olun. Gərək siz həm daxili bazarı məhsulla təmin etmək, həm də xaricə ixrac etmək üçün fəaliyyətinizi genişləndirəsiniz.

**Cəlal Harunov:** Cənab Prezident, daxili bazara məhsul çıxarırıq.

**İlham Əliyev:** Hansı məhsulları?

**Cəlal Harunov:** Əsasən alma və gilas. Gilasla xarici bazara çıxmaq olur, ancaq alma ilə çətinlik çəkirik.

**İlham Əliyev:** Amma Xaçmaz rayonunda gözəl şaftalı da yetişir. Dadı, görünüşü ilə başqa yerlərin şaftalılarından seçilir.

**Cəlal Harunov:** Bəli, yetişir. Zəhmət çəkən üçün həmişə çörək var, həmişə qazanmaq olar. Kənd təsərrüfatı zəhmətsiz olmur.

**İlham Əliyev:** Əlbəttə, düz deyirsiniz, gərək insanlar zəhmət çəksin və pul qazansınlar. Şərait də yaradılır, dövlət bu şəraiti yaradır, subsidiya da verilir. Biz kənd təsərrüfatına nə qədər və hansı sahələr üzrə subsidiya veririk?

**Heydər Əsədov** *(Kənd Təsərrüfatı naziri):* 186 milyon manat. Bütün sahələr üzrə – buğda, çəltik, meyvəçilik, tərəvəzçilik. Sadəcə, buğda ilə çəltiyə əlavə verilir.

**İlham Əliyev:** Deməli, il ərzində 186 milyon manat subsidiya verilir.

**Cəlal Harunov:** Cənab Prezident, subsidiyadan lazımi səviyyədə istifadə edirik.

**Heydər Əsədov:** Hər birinin adına kart açılıb. Vəsait hər birinin özünün hesabına köçürülür və elektron formatda bütün kənd görür ki, kim nə qədər subsidiya alır.

**İlham Əliyev:** Bəli, subsidiyaların verilməsi də şəffaflaşdırılır. Bunu vətəndaşlar da, ictimaiyyət də bilir. Əsas odur ki, nəticə olsun. Subsidiya kömək üçün, məhsuldarlığı artırmaq üçün verilir.

**Cəlal Harunov:** Biz də çalışacağıq ki, bu qayğıya öz işimizlə cavab verək.

**İlham Əliyev:** Çox yaxşı. İndi fındıqçılıqla bağlı yeni bir layihə işlənilir. Burada yeni sahələr nəzərdə tutulub. Bu barədə Prezident Administrasiyası da, icra başçısı da məlumat verib ki, 5000 hektar əlavə fındıq bağları salınacaq.

**Cəlal Harunov:** Cənab Prezident, biz çalışarıq ki, alma bağlarını fındıq bağlarına çevirək.

**İ l h a m  Ə l i y e v:** Siz belə çevik siyasət aparın. Hansı məhsula daha çox tələbat var, o sahəyə üstünlük verin. İndi almanı satmaq asan məsələ deyil, çünki hər yerdə var. Amma fındıqçılıqda biz dünya miqyasında dördüncü istehsalçıyıq. Fındıq istehsalını artırmaq lazımdır. Bu məhsulla nəinki regiona, yaxud da MDB məkanına, bütün Avropaya çıxmaq olar. Avropada şokolad istehsalında Azərbaycan fındığından geniş istifadə edilir. Ona görə kənd təsərrüfatı sahələrinə yeni formada yanaşmaq lazımdır. Hər bir rayon, bölgə üçün xüsusi inkişaf proqramı hazırlanır və gələcəkdə subsidiyalar məhz rayonlaşma əsasında aparılmalıdır. Misal üçün, taxılçılıqla bağlı. Mən bu yaxınlarda Masallıda olmuşam. Soruşuram ki, sizdə taxılçılıqda məhsuldarlıq nə qədərdir? Deyirlər ki, 20 sentnerdir. Ölkə üzrə 30 sentnerdir. Elə təsərrüfatlar var ki, 50 sentnerdir. Amma orada 20-dir. Bəlkə indi biz orada başqa sahəyə subsidiya verək ki, daha çox pul qazansınlar. Məsələn, tərəvəzçilik, çayçılıq. Ona görə subsidiya verilməsi rayonlaşma əsasında aparılmalıdır. O cümlədən şimal zonasının bütün potensialı gərək işə salınsın. Mən demişəm, bir daha demək istəyirəm ki, boş torpaq sahəsi olmamalıdır. Çünki ixrac bazarlarımız var, məhsulumuz keyfiyyətlidir, təbiidir. Buna Avropada orqanik məhsul deyirlər. Yəni heç bir qatqısı, heç bir təhlükəli maddəsi olmayan təbii məhsulumuz var. Bu bizim böyük sərvətimizdir.

İndi burada da gözəl əkin sahələri salınır, yeni suvarma sistemləri qurulur. Burada işləyənlər yəqin ki, özlərini yaxşı hiss edirlər. Siz burada necə işləyirsiniz? Siz Yalama kəndinin sakinlərisiniz?

**A q r o p a r k ı n  i ş ç i s i:** Çox sağ olun, cənab Prezident. Yaxşı işləyirik. Burada yaxın rayonlardan da işləməyə gələnlər var.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı. Gələcəkdə burada 300-dən çox iş yeri yaradılacaq.

**M ə h s i m  M ə h s i m o v** *(Xaçmaz sakini):* Cənab Prezident, mən də bir Xaçmaz sakini kimi, Sizə minnətdarlığımı bildirmək istəyirəm. Xaçmaz rayonunda təkcə aqrar sahədə deyil, bütün sahələrdə görülən işlərin sayı-hesabı yoxdur. Bütün bunlar Sizin

yaratdığınız şərait sayəsində mümkün olub. Güclü, qüdrətli Azərbaycan üçün Sizə təşəkkür etmək istəyirəm. Allah Sizi bizə çox görməsin.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, çox sağ olun.

**R e y h a n A s l a n o v a** *(Yalama sakini):* Cənab Prezidentimiz, mənim də sözüm var. Bizə bəxş etdiyiniz bu gözəl aqroparka görə Sizə təşəkkür edirik. Son illərdə Yalamada bütün avtomobil yolları, demək olar ki, əsaslı təmir edilib. Gözəl muzeylərimiz, məktəblərimiz var. Bütün bunlara görə biz Sizə minnətdarıq, cənab Prezident. Elektrik sistemi təzələnib, bizim heç bir problemimiz yoxdur. Kənd təsərrüfatında uğurlar əldə edirik. Fındıqçılığı inkişaf etdirəcəyik. Bizim ağsaqqallarımız dəfələrlə bir yerə yığışıb söhbət edəndə, cənab Prezident, Sizin siyasətinizi təhlil edirlər, bəyənirlər, dəstəkləyirlər və bir səslə, bir fikirlə deyirlər ki, bu belə də olmalıdır. Ona görə ki, cənab Prezident, Yalama çoxmillətli ərazidir. Bizim insanlarımız – Azərbaycanda yaşayan milli azlıqların nümayəndələri Sizin babanız, Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, mən deyərdim hətta keçmiş SSRİ məkanında görkəmli ictimai-siyasi xadim – hamının fikri belədir – böyük Əziz Əliyevin xatirəsini həmişə ehtiramla yad edirlər. Nəyə görə? O insanın etdiyi yaxşılıqları buradakı insanların özləri də, övladları da heç vaxt unutmurlar. Mahaçqalada bu görkəmli şəxsiyyətə böyük bir abidə ucaldılıb. İkinci dünya müharibəsi illərində görkəmli şəxsiyyət Əziz Əliyev Dağıstan xalqını səfalətdən, əzab-əziyyətdən qurtardı. Müharibədə Qələbənin əldə edilməsində böyük xidməti oldu. Sonralar Sizin atanız, ulu öndərimiz, dahi rəhbərimiz Heydər Əliyev Azərbaycanı xilas etdi. Siz o böyük şəxsiyyətlərin layiqli övladı olaraq, cənab Prezident, Azərbaycanı inamla qoruyursunuz, inkişaf etdirirsiniz. Bax, biz buna görə Sizə minnətdarıq, bu əmin-amanlığa görə minnətdarıq. İnsanlar Sizdən çox razıdırlar. Bütün sərhədyanı kəndlərimiz inkişaf edir, belə inkişaf heç bir ölkədə yoxdur. Biz Sizin daxili və xarici siyasətinizi həmişə dəstəkləmişik, yenə də dəstəkləyəcəyik. Allah Sizi qorusun!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Doğrudan da Əziz Əliyev çox görkəmli bir şəxsiyyət idi və ən ağır vaxtlarda o, Dağıstana rəhbərlik edərək, Dağıstan xalqını böyük bəladan qurtara bilmişdi. Mən şadam ki, Dağıstanda onun xatirəsi yaşayır. Bildiyiniz kimi, Əziz Əliyev o vaxt sovet hökuməti tərəfindən Dağıstana ezam edilmiş və müharibə illərində Dağıstana rəhbərlik etmişdi. Siz də yaxşı bilirdiniz ki, Dağıstan xalqlarını da digər Şimali Qafqaz xalqları kimi, sürgün etmək istəyirdilər. Artıq demək olar ki, qərar da qəbul edilmişdi. Məhz Əziz Əliyevin və digər yoldaşların fəaliyyəti, siyasəti nəticəsində buna imkan verilmədi. Dağıstanlılar – həm onu tanıyanlar, həm onların davamçıları Əziz Əliyevin xatirəsinə çox böyük hörmətlə yanaşırlar. Bu mənim üçün də çox qiymətlidir. Mən çox şadam ki, bu yaxınlarda Mahaçqalada Əziz Əliyevin abidəsi ucaldılıb. Bu abidə mənim dostum Ramazan Abdulatipovun təşəbbüsü ilə ucaldılıb. Bu abidə Əziz Əliyevin xatirəsinə olan hörmətin əlamətidir.

Biz həmişə bir yerdə olmuşuq, yaşamışıq, bir-birimizə kömək göstərmişik, arxa-dayaq olmuşuq. Bu gün də belədir. Yəqin bilirsiniz ki, bu yaxınlarda Ramazan Hacımuradoviçin 70 illik yubileyi qeyd edilirdi və Azərbaycan dövləti onu yüksək ordenlə – «Dostluq» ordeni ilə təltif etdi. Mən gözləyirəm, o, növbəti dəfə Azərbaycana gələndə o ordeni şəxsən özüm ona təqdim edəcəyəm. Çünki doğrudan da bu çox böyük tarixdir və biz bu tarixi bu gün davam etdiririk, zənginləşdiririk. Bu gün yeni imkanlar açılır.

Bir daha demək istəyirəm ki, Azərbaycanda görülən işlər həm ölkəmiz, həm də region üçün çox vacibdir. Çünki bu gün Azərbaycan bu bölgədə, Xəzər–Qafqaz bölgəsində sabitləşdirici ölkədir. Regionda bizim siyasətimizdən çox şey asılıdır. Bizim daxili siyasətimiz də, xarici siyasətimiz də bir məqsədi güdür ki, bölgədə sülh olsun, qarşıdurma olmasın, insanlar rahat yaşasınlar, ölkələr bir-biri ilə dostluq etsinlər. Bizim siyasətimiz budur. Məhz buna görə bu gün Azərbaycan bu alovlanan bölgədə bir sabitlik adasıdır. Biz bunu qoruyuruq. Hər bir vətəndaş bunu qoruyur və qorumalıdır. Bu, təkcə dövlət siyasəti kimi deyil, eyni zamanda,

ümumxalq təşəbbüsü, ümumxalq niyyəti kimi özünü göstərir. Əminəm ki, biz gələcəkdə də bu yolla uğurla gedəcəyik. Xaçmaz rayonu, bütün digər rayonlar daha da sürətlə inkişaf edəcək. Xaçmaz rayonunda hələ çox açılışlar olmalıdır. Sizinlə növbəti açılışlarda da görüşəcəyik. Bir daha təbrik edirəm.

* * *

*Daha sonra Kənd Təsərrüfatı naziri Heydər Əsədov dövlətimizin başçısının diqqətinə çatdırdı ki, Xaçmaz rayonu üzrə 2015-ci ildə 4650 hektardan çox fındıq bağından 4000 tona yaxın məhsul götürülüb. 2016-cı ilin məhsul yığımının əvvəlindən isə həmin bağlardan 3000 tondan çox fındıq məhsulu emal müəssisələrinə və qəbul məntəqələrinə təhvil verilib. Hazırda fındıq məhsulunun yığımı və təhvili işləri davam etdirilir. O da qeyd olundu ki, prezident İlham Əliyevin ölkəmizdə fındıq ağaclarının əkininin artırılması ilə bağlı verdiyi tapşırığa uyğun olaraq 2016–2017-ci illərdə Xaçmaz rayonunda əlavə olaraq 5016 hektarda fındıq bağının salınması nəzərdə tutulub. Fındıq bağı salınacaq torpaqların 2070 hektarı dövlət, 2946 hektarı bələdiyyə mülkiyyətindədir. Həmin ərazilərin 1596 hektarı asudə dövlət ehtiyat fondunun torpaqları, 2946 hektarı örüş və boş torpaqlar, 474 hektarı isə meşə fonduna aid boş torpaqlardır.*

## QUSAR RAYONUNA SƏFƏR

*8 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Xaçmaza səfərini başa çatdıraraq Qusara gəlmişdir.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, bu məkan rayon sakinlərinin və Qusara gələn qonaqların ən sevimli istirahət yerlərindən biridir.*

### Qusar–İmamqulukənd–Quxuroba avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də əsaslı şəkildə yenidən qurulan Qusar–İmamqulukənd–Quxuroba avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Azərbaycanda yol-nəqliyyat infrastrukturunun tamamilə yeniləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklər prosesi uğurla davam etməkdədir. Ölkəmizin ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar müasir standartlar səviyyəsində tamamilə yenidən qurulduqdan sonra əsas diqqət regionları, həmçinin kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıların və körpülərin inşasına və yenidən qurulmasına yönəlib. Yolların müasir səviyyədə inşası regionların inkişafına müsbət təsirini göstərir, rayonların simasını əsaslı şəkildə dəyişdirir. Ən əsası isə belə layihələrin uğurla icrası nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir. Hər bir regionda olduğu kimi, Qusar rayonunda da belə tədbirlər davamlı xarakter*

*alıb. Mühüm əhəmiyyətə malik olan Qusar–İmamqulukənd–Quxuroba avtomobil yolunun bir hissəsi dağılmış asfalt-beton örtüklü, bir hissəsi isə torpaq-çınqıl örtüklü olub. Əvvəllər eni 5-6 metr olan yolla xüsusən payız-qış aylarında hərəkət xeyli çətinləşirdi. Yolun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında prezident İlham Əliyevin sərəncamına uyğun olaraq «Azər-avtoyol» ASC tərəfindən müvafiq işlər tam yekunlaşıb.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov yolun tikintisi layihəsi barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, yenidənqurma işləri çərçivəsində uzunluğu 24,7 kilometr olan yol yatağının eni 12 metrə çatdırılıb. Yol yarım metr enində bərkidici zolaqlar da daxil olmaqla, 8 metr enində hərəkət hissəsindən və 2 metr enində çiyinlərdən ibarətdir. Ümumilikdə 200 min kvadratmetr sahəyə 2 qat asfalt-beton örtüyü döşənib. Yenidənqurma zamanı yağış sularının axıdılması üçün 57 suötürücü boru tikilib, mövcud borular və su keçidləri bərpa olunub. İmamqulukənd və Köhnə Xudat kəndləri ərazisində 1 kilometr uzunluğunda beton küvetlər və 500 metr uzunluğunda beton arxlar tikilib, həmin kəndlərin giriş hissəsində sürüşmələrin qarşısını almaq məqsədilə 200 metrdən çox istinad divarları inşa edilib. Piyadaların rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yolun yaşayış məntəqələrindən keçən hissələrində 5000 poqonmetr uzunluğunda, 1,5 metr enində yeni səkilər tikilib. Bundan başqa, İmamqulukənd kanalı üzərində 9,6 metr uzunluğunda və 4 metr enində yeni körpü, Gündüzqala kənd körpüsündə isə 184 metr uzunluğunda sutənzimləyici qurğular quraşdırılıb. Bütün işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə aparılıb. Avtonəqliyyat vasitələrinin normal hərəkətini təşkil etmək məqsədilə zəruri yerlərdə 980 yol təhlükəsizlik dirəyi, 197 müxtəlif yol nişanları və 24 göstərici lövhə quraşdırılıb, piyada zolaqları və 61 750 metr üfüqi nişanlama xətləri çəkilib.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bu yolun tikintisi ilə 11 yaşayış məntəqəsinin 12 min nəfərlik əhalisinin rayon mərkəzinə və Bakı–Quba–Rusiya Federasiyası ilə*

*dövlət sərhədi avtomobil yoluna rahat və maneəsiz şəkildə gediş-gəlişi təmin olunub. Beləliklə, bu yolun istifadəyə verilməsi ilə nəinki Qusarın, eləcə də regionun iqtisadi potensialı daha da artır.*

## Hil kəndində professor Kərim Kərimov adına tam orta məktəbin yeni binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Qusar rayonunun Hil kəndində professor Kərim Kərimov adına tam orta məktəbin yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin binasının əvvəlki və indiki vəziyyətini əks etdirən stendlərə baxdı.*

*Prezident İlham Əliyev məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Təhsil naziri Mikayıl Cabbarov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, Hil kənd tam orta məktəbinin təməli 1928-ci ildə qoyulub və ilk vaxtlar Kəndli Gənclər məktəbi kimi fəaliyyət göstərib. Bu təhsil ocağının məzunu, fizika-riyaziyyat elmləri doktoru professor Kərim Kərimovun adını daşıyan məktəb üçün 1973-cü ildə 14 sinif otağından ibarət ikimərtəbəli bina tikilib. Lakin şagirdlərin sayı çox olduğundan iki növbədə fəaliyyət göstərən məktəbin darısqal binası uzun illər təmir olunmadığına görə qəzalı vəziyyətə düşmüşdü.*

*İndi Hil kəndində ən müasir tələblərə cavab verən yeni bina tikilib.*

*Məktəbin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Qusar rayonuna səfərləri, həmçinin təhsil sahəsinə göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət stend yaradılıb. Yeni üçmərtəbəli məktəb binasının inşasına 2015-ci ilin fevral ayında başlanılıb və 2016-cı ilin iyulunda tikinti-quraşdırma işləri tam başa çatdırılıb. Bu təhsil ocağı 720 şagird yerlikdir. Burada ümumilikdə 30 sinif otağı var. Otaqların hamısı zəruri dərs ləvazimatları ilə təmin edilib. Məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə 61 müəllim məşğul olur. Bu təhsil ocağı öz məzunları*

*ilə fəxr edir. Hazırda məktəbin yetirmələrindən 4 nəfər elmlər doktoru, 6 nəfər elmlər namizədi var. Məktəbin 2 fizika, 2 kimya, 2 biologiya laboratoriyası var. Laboratoriyaların hamısı müasir avadanlıqlarla təchiz edilib. Məktəbin 2 əmək təlimi otağı, zəngin kitabxanası, 350 yerlik akt zalı, idman zalı, 92 yerlik yeməkxanası da var. Məktəbdə videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri quraşdırılıb, internet və telefon xətləri çəkilib. Binanın istiliklə təmin olunması üçün təbii qazla işləyən qazanxana, 250 kilovoltluq transformator yarımstansiyası tikilib, artezian quyusu qazılıb. Həmçinin 100 kubmetrlik içməli və 100 kubmetrlik yanğın əleyhinə ehtiyat su anbarları, açıq idman meydançası yaradılıb, həyətyanı sahə abadlaşdırılıb.*

*Məktəblə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.*

# QUSARIN İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN YENİDƏN QURULMASI LAYİHƏSİNİN BAŞA ÇATMASI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*8 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak etmişdir.*

*Respublikanın hər yerində əhalinin sosial məsələlərinin həlli istiqamətində mühüm layihələr icra olunur. Görülən işlər arasında su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması əsas yer tutur. Bu baxımdan Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi də mühüm əhəmiyyətə malikdir. Qusar rayonunda içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına Qusar–Quba kanalizasiya kollektorunun tikintisi də tamamlanıb. «Şahdağ» qış-yay turizm kompleksinin və Qusar şəhərinin tullantı sularının Quba–Xaçmaz kollektoruna ötürülməsi məqsədilə 27,2 kilometr uzunluğunda kanalizasiya kollektoru qısa müddətdə tikilərək istismara verilib. Kollektorun 7,6 kilometrlik hissəsi 1000, 19,6 kilometrlik hissəsi isə 800 millimetrlik borulardan inşa olunub. Bu layihələrin icrası Qusar sakinlərinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsini yaxşılaşdırmaqla yanaşı, ətraf mühitin ekoloji tarazlığının qorunmasına imkan verib.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verdi. Qeyd olundu ki, layihə çərçivəsində Qusar Sukanal İdarəsi üçün 472 kvadratmetr sahəsi*

*olan yeni inzibati bina tikilib. Binada xidməti otaqlar, iclas zalı, anbar, informasiya texnologiyaları otağı, digər xidməti və yardımçı otaqlar yaradılıb.*

*Bildirildi ki, bu layihə Azərbaycan hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi» çərçivəsində həyata keçirilib. Layihə 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla, Qusar şəhərində 19 600 nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Eyni zamanda, layihə çərçivəsində Qusar rayonunun 7 və Quba rayonunun 3 kəndinə içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə, layihədən bu kəndlərin 12 min sakini faydalanacaq.*

*Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrasına 2012-ci ildə başlanılıb. Layihənin birinci mərhələsində Qusar şəhərini və 10 kəndi keyfiyyətli içməli su ilə təmin etmək üçün Qusarçayın məcrasında məhsuldarlığı saniyədə 102 litr və ya sutkada 8800 kubmetr olan drenaj tipli suqəbuledici qurğu tikilib, su mənbəyindən şəhərə qədər 17,4 kilometr uzunluğunda magistral kəmər çəkilib. Şəhərin dayanıqlı su təchizatını təmin etmək məqsədilə ümumi tutumu 3000 kubmetr olan 3 su anbarı tikilib və bu anbarlar arasında 2,8 kilometr uzunluğunda su xətləri çəkilib, yeni xlorator binası inşa olunub. Layihənin ikinci mərhələsində isə Qusar şəhərində içməli su və kanalizasiya şəbəkələrinin yenidən qurulması işləri həyata keçirilib. Bu işlər çərçivəsində 106 kilometr içməli su şəbəkəsi yaradılıb, abonentlərə ev birləşmələri verilib, yanğın hidrantları quraşdırılıb. İçməli su şəbəkəsi ilə paralel olaraq, şəhərin kanalizasiya sistemləri də müasir standartlar səviyyəsində yenidən qurulub, 105 kilometr uzunluğunda şəhərdaxili şəbəkə qurulub. Şəhərdə yaranacaq tullantı suları Xaçmaz rayonu ərazisində inşa ediləcək və məhsuldarlığı sutkada 70 min kubmetr layihələndirilən tullantı sutəmizləyici qurğuda təmizlənib zərərsizləşdiriləcək. Bu qurğuda, həmçinin Quba və Xaçmaz şəhərlərinin də tullantı suları emal olunacaq.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi» çərçivəsində ölkəmizin 5 şəhərində – Qusar, Xaçmaz, Xızı, Qobustan və Naftalanda içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması nəzərdə tutulub. Artıq Naftalan şəhərində su və kanalizasiya şəbəkələrinin tikintisi tam başa çatıb, hazırda tullantı sutəmizləyici qurğunun inşasına hazırlıq işləri görülür. Qobustan, Xaçmaz və Xızı şəhərlərində isə içməli su və kanalizasiya sistemlərinin inşası təsdiqlənmiş qrafikə uyğun davam etdirilir.*

*Sonra prezident İlham Əliyev layihənin işə salınmasını bildirən düyməni basdı.*

*Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Azərbaycan Prezidenti görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün Qusar rayonunda çox əlamətdar bir gündür. Qusar şəhərinin su problemi artıq öz həllini tapıb. Bu gün biz bu layihənin başa çatmasını qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu doğrudan da çox əlamətdar hadisədir. Çünki əvvəlki illərdə Qusarda su problemi çox kəskin problem kimi qalmışdı. Bizim, demək olar ki, bütün rayonlarımızda oxşar problemlər var idi və onlar tədricən öz həllini tapır.

Bu gün biz artıq bu layihəni başa çatdırdıq. Artıq Qusar şəhərinə keyfiyyətli, təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun su verilir. Bununla bərabər, Qusar rayonunun 7 və Quba rayonunun 3 kəndinə də bu mənbədən su veriləcək. Bu problem Qusarda artıq tarixdə qaldı. Digər problemlər və qarşıda duran bütün vəzifələr də icra edilir.

Qusar rayonunun sosial-iqtisadi inkişafı sürətlə gedir. Mən bu məsələləri daim diqqət mərkəzində saxlayıram. Bugünkü səfər mənim Qusara sayca 12-ci səfərimdir. Demək olar ki, son 13 il

ərzində hər il Qusara gəlirəm, vəziyyətlə tanış oluram və buradakı problemlərin həlli üçün göstərişlər verilir.

Bu gün Qusar–İmamqulukənd–Quxuroba yolunun açılışını qeyd etdik. Bu, Qusar rayonunda icra edilən sayca dördüncü böyük kənd yolu layihəsidir. Bu layihələr artıq kəndlərin əksəriyyətini əhatə edir. Mənə verilən məlumata görə, Qusarda uzunluğu 98 kilometr olan kənd yolu layihələri icra edilib. Bu da, əlbəttə, həm insanların rahatlığına, həm də rayonun inkişafına xidmət göstərir. Çünki yol olmasa, inkişafdan söhbət belə, gedə bilməz.

Gələcəkdə yəqin ki, kənd yolları ilə bağlı yeni layihələr icra ediləcək. Bununla bərabər, qazlaşdırma prosesi gedir. Ev təsərrüfatlarının 68 faizi qazlaşdırılıb. Elektrik enerjisi məsələləri həll olunur. Burada 2 elektrik stansiyası fəaliyyət göstərir. «Şahdağ» stansiyası Qusar və Quba rayonlarının sərhədində yerləşir. «Xaçmaz» elektrik stansiyası bütün bu zonanın enerji təminatını təşkil edir.

İndi də içməli su layihəsi həllini tapıb. Beləliklə, əsas infrastruktur layihələrinə gəldikdə, onların, demək olar ki, hamısı öz həllini tapıb: elektrik enerjisi, qazlaşdırma, içməli su, kənd yolları, sosial layihələr icra edilib. Bu gün Hil kəndində böyük məktəbin açılışını qeyd etdik. Bu, yüksək standartlara cavab verən bir məktəbdir. Əvvəlki səfərlərimin birində biz Mərkəzi Rayon Xəstəxanasının açılışını qeyd etmişdik. Çünki burada, ümumiyyətlə, rayon xəstəxanası mövcud deyildi və o, tam yeni bir layihə idi.

Gələcək planlarımız da, əlbəttə, ona yönəlib ki, Qusar rayonunun və ümumiyyətlə, şimal zonasının inkişafı təmin edilsin, dayanıqlı olsun. Burada kənd təsərrüfatı layihələri icra edilir və gələcəkdə daha çox layihələr icra olunmalıdır. Müvafiq göstərişlər verilib. Həm daxili tələbatı ödəmək, həm də xaricə məhsullarımızı satmaq üçün bu layihələr çox böyük əhəmiyyət daşıyır.

Əlbəttə ki, Qusar rayonunun böyük turizm potensialı var. Bu barədə mən hələ ilk səfərlərimdə öz fikirlərimi bildirmişdim. Qeyd etmişdim ki, biz Qusarı həm də beynəlxalq turizm mərkəzinə çevirməliyik – nəinki ölkə miqyasında, həm də beynəlxalq miqyas-

da. Biz artıq buna nail oluruq. «Şahdağ» Turizm Kompleksi bu gün dünya miqyasında öz gözəlliyi, rahatlığı, yaradılmış şəraiti ilə fərqlənir.

Yadımdadır, ilk dəfə o yerlərdə olanda, orada heç nə yox idi – heç bir infrastruktur, yol, işıq, qaz, su – çılpaq dağlar idi. İndi isə dünya səviyyəli beynəlxalq kurort yaradılıb, 5 hotel fəaliyyət göstərir, minlərlə rayon sakini işlə təmin edilib və hər il buraya on minlərlə turist gəlir, həm ölkə daxilindən, həm də xaricdən. İnsanlara şərait yaratmışıq. Azərbaycanda, ümumiyyətlə, heç vaxt dağ xizəyi kurortu olmamışdı. Biz bunu yaratmışıq və bu gün vəzifə ondan ibarətdir ki, bu kurort zonası yay mövsümündə də tam gücü ilə işləsin. Mənə verilən məlumata görə, bu ilin yayında Qusara gələn turistlərin sayı artıb və əslində bu mərkəz ilboyu fəaliyyət göstərməlidir. Çünki Azərbaycana gələnlərin sayı getdikcə artır. Ölkə vətəndaşları daha çox Azərbaycanda dincəlməyə üstünlük verirlər. Çünki indi bizdə gözəl imkanlar – gözəl hotellər, istirahət zonaları, yollar var. Biz bu gün Qusar–İmamqulukənd–Quxuroba yolunun açılışını etdik. Bu sadəcə olaraq, kəndləri birləşdirən layihə deyil. Bu, ümumiyyətlə, magistral yola çıxış deməkdir. Bakıya gedən yolun məsafəsi qısalır, Xaçmazla çox gözəl əlaqə yaranır. Biz bu məsələlərə belə yanaşırıq. İlk növbədə, inkişaf üçün lazım olan infrastruktur layihələrini icra edirik. Şimal zonasında bu layihələrə milyardlarla manat vəsait ayrılıb. Bu layihələrin böyük əksəriyyəti sosial xarakter daşıyır. İçməli su layihəsi sırf sosial məna daşıyan bir layihədir. Bizdə su tarifləri çox aşağı səviyyədədir və oradan gələn gəlirlə qoyulmuş vəsaiti qaytarmaq mümkün deyil. Bəlkə də 50 il lazım olacaqdır.

Qazlaşdırma da həmçinin. Bizdə qazın daxildəki qiyməti dünya qiyməti ilə müqayisədə təqribən 8–10 dəfə aşağıdır. Qonşu ölkələrlə, Cənubi Qafqazda yerləşən digər ölkələrlə müqayisədə 5 dəfə aşağıdır. Yəni qazlaşdırma layihələri də sosial xarakter daşıyır.

Kənd yollarının tikintisinə yatırılan vəsait də qayıdan vəsait deyil. O, müəssisəyə yatırılan vəsait deyil. Bunu nəyə görə edirik? İnsanlar üçün, inkişaf üçün. Əsas vəzifələr bunlardır – regional

inkişaf, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması. Son illərdə Qusar rayonunda görülən işlər onu bir daha göstərir ki, biz düzgün yoldayıq. Çünki siz, Qusar rayonunun sakinləri bunu hamıdan yaxşı bilirsiniz, əvvəlki vəziyyəti də xatırlayırsınız, bugünkü vəziyyət də göz qabağındadır. Qusar inkişaf edən, gözəl, abad rayona çevrilib. Yeni iş yerləri açılır, yeni imkanlar yaranır. Həm sosial layihələrə, həm də infrastruktur layihələrinə dövlət xətti ilə investisiya qoyuluşu davam etdiriləcək. Biz indi özəl sektordan daha böyük fəallıq gözləyirik. Çünki özəl sektorda çalışan həm yerli, həm də başqa ölkələrdən gələn iş adamları gərək daha da fəal işləsinlər. Onlar yaradılan bu şəraitdən maksimum dərəcədə səmərəli istifadə etməlidirlər. Çünki bizdəki şərait deyə bilərəm ki, az ölkələrdə müşahidə olunur. Bizdə olan sabitlik inkişaf üçün, biznes üçün əsas şərtdir. İnfrastruktur layihələri, biznesə dövlət dəstəyi! Bu gün mən Yalamada birinci aqroparkın açılışını etmişəm. Oranın sahəsi 500 hektardan çoxdur. Orada artıq 100 baş iribuynuzlu mal-qara saxlanılır. Onların sayı 3000-ə çatacaq. Müasir suvarma texnologiyaları yaradılıb. Orada birinci mərhələdə 150, ikinci mərhələdə 300 nəfər işləyəcək. Dövlət də, özəl sektor da kredit ayırıb.

Qusar rayonunda da ona oxşar aqrokompleks yaradılmalıdır. Çünki burada iqlim şəraiti eynidir. Biz özümüzü ərzaq məhsulları ilə təmin edəcəyik, ixrac da edəcəyik. İndi qarşımızda bu iki əsas vəzifə dayanır. Yerli icra orqanları da çalışmalıdırlar ki, investorları cəlb etsinlər. Çünki həm Azərbaycanda kifayət qədər böyük firmalar var ki, vəsait qoymağa hazırdırlar, həm də xaricdən gətirməliyik. Biz bu istiqamətdə daha da fəal olmalıyıq. Ona görə ki, gələcək bu inkişafdan asılıdır. Sahibkarlıq, kənd təsərrüfatı, sənaye potensialı, turizm imkanları həm valyuta gətirən, həm də məşğulluq üçün çox önəmli sahələrdir.

Bugünkü tədbir isə xüsusi önəm daşıyır. Çünki Qusar şəhərinə təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Mən gəlmişəm ki, bu hadisəni birlikdə qeyd edək. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm.

* * *

**Z ö h r a b  M i r z ə m ə m m ə d o v** *(Qusar sakini):* Çox hörmətli Prezidentimiz, Sizi doğma Azərbaycanımızın ən gözəl guşələrindən birində – Qusar rayonunda bütün qusarlılar adından səmimi-qəlbdən salamlayır, Sizə «Xoş gəlmisiniz!» – deyirəm.

Çox hörmətli Prezidentimiz, böyük minnətdarlıq hissi ilə qeyd etmək istəyirəm ki, Siz bu gün qusarlılar üçün, şəhərimiz üçün son dərəcə vacib olan xeyirxahlıq missiyasını həyata keçirdiniz. Siz bu gün Qusar şəhər sakinləri üçün inşa edilmiş daimi su qovşağının açılışını etdiniz. Həm də Siz bu gün Qusar şəhər sakinlərinə daimi sudan istifadə etmək xoşbəxtliyini bəxş etdiniz. Siz həmçinin bu gün Qusar şəhər sakinlərinə bayram şənliyi bəxş etdiniz. Odur ki, onların hamısı Sizə hədsiz dərəcədə minnətdardırlar, çox hörmətli Prezidentimiz.

Su hər bir insanın həyatında ən mühüm amillərdən biridir. Su həyat, sağlamlıq, təmizlik, rahatlıq deməkdir. Cənab Prezident, Siz bu gün bütün bu nemətləri qusarlılara əvəzsiz olaraq bəxş etdiniz. Bütün bunlar Sizin xalqımıza olan böyük sevginizin, sayğınızın, diqqət və qayğınızın bariz ifadəsidir. Bütün Qusar rayon ictimaiyyəti adından mən Sizə, çox hörmətli Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığımızı və təşəkkürümüzü bildirirəm. Cənab Prezident, mən Sizə həyatın ən gözəl neməti olan möhkəm cansağlığı arzu edirəm. Bir daha «Çox sağ olun» – deyirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, mən də sizə cansağlığı arzu edirəm. Sizi təbrik edirəm, çox sağ olun.

**S t e l l a  Ə m i r b ə y o v a** *(Qusar sakini):* Cənab Prezident, mənim də Sizə sözüm var. Siz bizim üçün nələr etməmisiniz?! İşığımız, qazımız, rahat yollarımız, müasir məktəblərimiz var. Bu gün də bizə su verdiniz, su ilə bərabər, həyat verdiniz. Bütün bunlara görə Sizə camaatımızın adından dərin minnətdarlığımızı, təşəkkürümüzü bildirirəm. Sizə cansağlığı, uzun ömür arzu edirəm. Çox sağ olun, cənab Prezident!

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm, sağ olun. Doğrudan da çox gözəl, əlamətdar bir gündür və bu günü bərabər qeyd edirik.

Bir neçə ildir ki, «Azərsu» çalışıb, bu işləri görüb. Şadam ki, nəhayət, evlər də şəbəkəyə qoşulur. Bu proses yəqin ki, bir ay davam edəcək. Bir aydan sonra bütün evlərə su veriləcək. Amma mənə deyirlər ki, artıq bəzi evlərə su verilir. Necə sudur?

**S a k i n:** Yaxşıdır, təmizdir, çox sağ olun, minnətdarlığımızı bildiririk.

**S a k i n:** Cənab Prezident, biz xoşbəxtik. Çünki xalqımızın çox parlaq və işıqlı gələcəyi var. Biz Sizinlə fəxr edirik.

**İ l h a m Ə l i y e v:** Qusar rayonunun inkişafı göz qabağındadır. Biz ardıcıl siyasət apararaq, bütün məsələləri həll etmişik. Bir daha demək istəyirəm, bundan sonra əsas vəzifə investisiya qoyuluşu, kənd təsərrüfatının, turizmin inkişafı, sənaye zonalarının yaradılmasıdır ki, insanlar işlə təmin olunsunlar, yaxşı maaş alsınlar.

**S a k i n:** Çox hörmətli Prezidentimiz, xalqımızın ən böyük xoşbəxtliyi ondadır ki, dahi Heydər Əliyevdən sonra respublikamızın idarəetmə sükanı məhz Sizin etibarlı əllərinizdədir. Odur ki, doğma Azərbaycanımız gündən-günə inkişaf edəcək.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

# QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə uğurlar arzulayıram.

Xeyirxahlığın, insanpərvərliyin, bərabərliyin rəmzi olan mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə, qardaşlıq və humanizmə dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah və din yolunda, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını, mənəvi dəyərlərə bağlılıqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşayırlar.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçası kimi, tarixboyu islam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Eyni zamanda, məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayışın, əmin-amanlığın və multikultural mühitin yaranmasında islam dininin də müstəsna rolu olmuşdur.

Azərbaycan xalqı həmişə milli-mənəvi dəyərlərə və ənənələrə sədaqət və qayğı ilə yanaşmış, dini mərasimləri, o cümlədən Qurban bayramını böyük ruh yüksəkliyi ilə qeyd etmişdir. Bu günlər ölkəmizin hər yerində xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün Allaha dualar səslənir, Vətən uğrunda həyatından keçən şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, bu Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 sentyabr 2016-cı il*

# AVROPA PARLAMENTİNİN VİTSE-PREZİDENTİ RİÇARD ÇARNETSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da Avropa Parlamentinin vitse-prezidenti Riçard Çarnetskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Riçard Çarnetskinin Azərbaycanın dostu olduğunu qeyd edərək, onun ölkəmizə bir neçə dəfə səfər etməsinin əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Avropa Parlamenti nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycanda gedən proseslərlə daha yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Azərbaycanda həyata keçirilən islahatların və görülən işlərin Azərbaycan dövlətinin suveren hüququ olduğunu deyən Avropa Parlamentinin vitse-prezidenti Riçard Çarnetski qeyd etdi ki, biz sizin daxili və beynəlxalq siyasətinizi bəyənirik.*

*Görüşdə beynəlxalq aləmdə ikili standartların mövcud olduğu, bir sıra məsələlərə qərəzli münasibət göstərildiyi qeyd edildi.*

*Söhbət zamanı Azərbaycanda idarəetmənin təkmilləşdirilməsi məqsədilə hüquq və qanunvericilik sahəsində görülən işlərlə bağlı fikir mübadiləsi aparıldı.*

# İNDONEZİYA XALQ MƏŞVƏRƏT MƏCLİSİNİN SƏDR MÜAVİNİ OESMAN SAPTA ODANQIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 9-da İndoneziya Respublikası Xalq Məşvərət Məclisinin Sədr müavini Oesman Sapta Odanqın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İndoneziya arasında ikitərəfli əlaqələrin çox sürətlə inkişaf etdiyini vurğuladı. Ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə həmişə dəstək vermələrinin önəmini qeyd edən prezident İlham Əliyev iqtisadi, enerji, turizm və digər sahələrdə də əlaqələrimizin inkişaf etdirilməsinin zəruriliyini bildirdi. Azərbaycan ilə İndoneziya arasında ticarət dövriyyəsinin istənilən səviyyədə olmadığını təəssüflə qeyd edən dövlətimizin başçısı birgə səylər nəticəsində bu sahədə də irəliləyişlərə nail olmağın mümkünlüyünü dedi. İndoneziyanın turizm sahəsində böyük təcrübəyə malik olduğunu vurğulayan prezident İlham Əliyev bu istiqamətdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirdi. Azərbaycan Prezidenti turizm sahəsində əlaqələrin genişləndirilməsi üçün ölkələrimiz arasında viza rejiminin sadələşdirilməsi istiqamətində zəruri addımların atılmasının məqsədəuyğun olduğunu dedi. Dövlətimizin başçısı daha çox indoneziyalıların Azərbaycanla tanış olmalarında ölkəmizin maraqlı olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev İndoneziya Respublikasının Xalq Məşvərət Məclisinin Sədr müavini Oesman Sapta Odanqın böyük nümayəndə heyəti ilə Azərbaycana səfərinin ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsi baxımından əhəmiyyətli olacağına əminliyini ifadə etdi.*

*Xalq Məşvərət Məclisinin Sədr müavini Oesman Sapta Odanq İndoneziya Respublikasının Prezidenti Coko Vidodonun salamlarını dövlətimizin başçısına çatdırdı. Oesman Sapta Odanq 10 partiyanı təmsil edən böyük bir nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyini vurğuladı. O, Azərbaycan Prezidentinin İndoneziyaya səfərinin ölkəsində böyük səbirsizliklə gözlənildiyini dedi və İndoneziya Prezidentinin rəsmi dəvətini prezident İlham Əliyevə çatdırdı.*

*Dövlətimizin başçısı İndoneziya Respublikasının Prezidenti Coko Vidodonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İndoneziya Prezidentinə çatdırmağı xahiş etdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## XƏTAİ RAYONUNDA 58 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Xətai rayonundakı 58 saylı tam orta məktəbin binasında əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, məktəbdə yeni dərs ilində şagirdlərin tədris, təlim və tərbiyə işlərinin yüksək səviyyədə həyata keçirilməsi üçün hər cür şərait yaradılıb.*

*Tədris ocağında ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin təhsilin inkişaf etdirilməsi ilə bağlı gördükləri işləri əks etdirən fotostend qurulub. Bu il məktəb üçün 20 əlavə sinif otağı, 1 informatika və 3 fənn laboratoriyası inşa olunub.*

*Diqqətə çatdırıldı ki, 58 saylı tam orta məktəbin binası 1926-cı ildə inşa edilib. 420 yerlik məktəbdə faktiki 900 şagird təhsil alırdı. Təbii ki, bu, sıxlığa səbəb olmaqla yanaşı, təhsilin keyfiyyətinə də təsirsiz ötüşmürdü. Məktəb üçün tikilən yeni sinif otaqları isə vəziyyəti kökündən dəyişəcək. Yeni tədris ilindən şagirdlər daha geniş və müasir təhsil tələblərinə cavab verən sinif otaqlarında dərs keçəcəklər. Kompüter avadanlıqları ilə təchiz olunmuş siniflər, müxtəlif tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan akt zalı da hazır vəziyyətə gətirilib.*

*Beləliklə, dövlətimizin başçısının məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı müəyyənləşdirdiyi strategiya nəticəsində ölkəmizdə güclü təhsil infrastrukturu formalaşıb.*

*Prezident İlham Əliyev yeni dərs ilində kollektivə uğurlar arzuladı.*

## BAKIDA 261 SAYLI MƏKTƏB-LİSEYDƏ ƏSASLI TƏMİRDƏN SONRA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*13 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Xətai rayonundakı 261 saylı məktəb-liseydə aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri ilə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, 1979-cu ildən fəaliyyətdə olan məktəbdə bu il ilk dəfə təmir işləri aparılıb. Əsaslı təmir və yenidənqurma işləri prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı və qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın tədbirlər planında təhsil sahəsində nəzərdə tutulmuş tədbirlərin icrası çərçivəsində həyata keçirilib.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, yeni dərs ili münasibətilə birinci sinif şagirdlərinə məktəbli çantası və digər dərs ləvazimatları hədiyyə ediləcək. Ümumi sahəsi 6600 kvadratmetrdən çox olan 1176 şagirdin təhsil aldığı məktəbin bütün sinif otaqları yüksək səviyyədə yenidən qurulub və zəruri avadanlıqlarla təchiz olunub. Fənn laboratoriyalarının hamısı əyani dərs vəsaitləri ilə təmin edilib. Məktəbdə müasir idman avadanlıqları ilə təchiz olunan qapalı idman zalından əlavə, həyətdə yeni idman meydançası da yaradılıb. Sahəsi 2720 kvadratmetrdən çox olan meydançada şagirdlərin bədən tərbiyəsi dərslərini keçmələri üçün bütün imkanlar var. Yenidənqurma işləri çərçivəsində məktəbin ətrafında, təxminən 21500 kvadratmetr ərazidə abadlıq işləri görülüb.*

*Məktəbdə yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev yeni dərs ilində kollektivə uğurlar arzuladı.*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NYETOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Meksika arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 sentyabr 2016-cı il*

## NİZAMİ RAYONUNDA 32 SAYLI TAM ORTA MƏKTƏB ÜÇÜN TİKİLMİŞ YENİ TƏDRİS KORPUSUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*14 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakının Nizami rayonundakı 32 saylı tam orta məktəb üçün tikilmiş yeni tədris korpusunda yaradılan şəraitlə tanış olmuşdur.*

*Məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri ilə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, 1963-cü ildən fəaliyyətdə olan məktəbdə bir neçə il bundan əvvəl əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib, məktəbin maddi-texniki bazası möhkəmləndirilib. Lakin sonradan şagird sıxlığına görə məktəbin genişləndirilməsi zərurəti yarandığından ərazidə yeni korpusun tikintisinə başlanıldı. Yeni korpusda 800 şagird yerlik 40 sinif otağı yaradılıb. Bütün sinif otaqları əyani vəsaitlər, tədris ləvazimatları ilə tam təchiz olunub. Yaradılan şərait isə ümumilikdə, 1150 şagirdin təhsil aldığı məktəbin imkanlarını daha da genişləndirib.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Bilik Günündə məktəbə qədəm qoyan birinci sinif şagirdlərinə məktəbli çantası və digər dərs ləvazimatları hədiyyə ediləcək.*

*Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət və qayğı, bu sahəni dövlət siyasətinin mühüm prioritetləri sırasına daxil etməsi təsadüfi deyil. Çünki ulu öndər Heydər Əliyevin də dediyi kimi, təhsil millətin gələcəyidir. Prezident İlham Əliyev də bu siyasəti uğurla davam etdirir. Bu siyasət həm də son illərdə tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib.*

# NİZAMİ RAYONUNDA 12 SAYLI TAM ORTA MƏKTƏB ÜÇÜN TİKİLMİŞ YENİ TƏDRİS KORPUSUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*14 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakının Nizami rayonundakı 12 saylı tam orta məktəb üçün tikilmiş yeni tədris korpusunda yaradılan şəraitlə tanış olmuşdur.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov prezident İlham Əliyevə məlumat verdi ki, əsası 1974-cü ildə qoyulan bu məktəb bir neçə il bundan əvvəl əsaslı təmir olunub. Lakin ərazidə əhali sıxlığının artması məktəbə gələn şagirdlərin sayının çoxalmasına təsir göstərdiyindən 12 saylı məktəb üçün də yeni korpusun tikintisinə qərar verildi. Bununla da 960 şagird yerlik məktəbin ərazisində 432 şagird üçün nəzərdə tutulan və 18 sinif otağından ibarət yeni bina inşa olunub. Nəticədə məktəb birnövbəli sistemə keçib. İndi geniş və işıqlı sinif otaqları məktəbdə tədris prosesinin yüksək səviyyədə aparılmasına imkan verir.*

*Beləliklə, ötən illərdə ölkəmizdə heç bir dövrdə olmayan qədər məktəb binası tikilib, bir çox təhsil ocağı üçün yeni tədris korpusları inşa olunub. Bu proses ən ucqar yaşayış məntəqələrini də əhatə edib. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu proqrama hərtərəfli dəstək göstərib. Bununla da Azərbaycanda yüzlərlə məktəbin tikilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, bir sözlə, ölkədə nəhəng təhsil infrastrukturunun formalaşdırılması yeni təhsil modelinin tətbiqindən irəli gələn uğurlar sayəsində mümkün olub. Bu modelin nailiyyətlərini isə mükəmməl təhsil konsepsiyası təşkil edir.*

## 9 SAYLI BAKI PEŞƏ LİSEYİNİN BAZASINDA YARADILMIŞ IT STEP AKADEMİYASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*14 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Binəqədi rayonunda əsaslı təmir edilmiş 9 saylı Bakı Peşə liseyinin bazasında yaradılmış IT STEP akademiyasında görülən işlərlə tanış olmuşdur.*

*Təhsil naziri Mikayıl Cabbarov dövlətimizin başçısına məlumat verdi ki, 9 saylı Bakı Peşə liseyinin tədris korpusu bu il əsaslı təmir olunub. Ümumi sahəsi 2750 kvadratmetrdən çox olan korpusda yeni dərs ilindən IT STEP akademiyası fəaliyyət göstərəcək.*

*IT STEP akademiyası 1998-ci ildə yaradılıb və hazırda dünyanın 17 ölkəsində 44 filialı var. Akademiyada 3 ixtisas sahəsi – kompüter qrafikası və dizayn, proqram təminatı, şəbəkə texnologiyası üzrə mütəxəssislər hazırlanır. Tədris prosesi 1900 akademik saatdan ibarətdir və 2 il yarım çəkir. IT STEP-i bitirən müdavimlərə diplomla yanaşı, «Cisco Microsoft» və «Autodesk» şirkətlərinin sertifikatları da verilir.*

*Bakıda fəaliyyətə başlayan akademiyada 8 yaşından 55 yaşınadək 2100 şəxs təhsil ala bilər. Hazırda IT STEP-də təhsil almaq üçün 210 nəfər sənəd verib, ilin sonunadək bu rəqəmin 500 nəfərə çatacağı gözlənilir. Akademiyada 17 kompüter sinfi, robot texnikası, bədii studiya, qrafik dizayn və fotostudiyadan ibarət 4 ixtisaslaşdırılmış laboratoriya fəaliyyət göstərəcək.*

*Qeyd edək ki, yeni təhsil sistemində peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bunu prezident İlham Əliyevin bu ilin aprelində Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması ilə bağlı imzaladığı fərman da təsdiqləyir. Peşə təhsilinin inkişafı istiqamətində atılan addımlar isə ölkədə bu sahənin potensialının tam üzə çıxarılmasına imkan verəcək. Çünki ölkə iqtisadiyyatının*

*inkişafı, yeni iş yerlərinin açılması peşə təhsili sahəsində hazırlanan kadrlara ehtiyacı getdikcə artırır. Peşə təhsilində tədris prosesinin yaxşı qurulması, bu istiqamətdə özəl sektorla təhsil sahəsi arasında mövcud mexanizmlərin tətbiqinin gücləndirilməsi indi qarşıda duran əsas vəzifələrdən biridir. Onu da deyək ki, hazırda Azərbaycanda 115 dövlət ilk peşə-ixtisas təhsili müəssisəsi mövcuddur. Burada təxminən 24 minə yaxın şagird təhsil alır, 6 minə yaxın pedaqoji və köməkçi heyət çalışır.*

## NİDERLAND KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ONNO KERVERS İLƏ GÖRÜŞ

*14 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Niderland Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Onno Kerversin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Onno Kervers Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Onno Kervers etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə Niderland arasında əlaqələrin yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz bu əlaqələri daha da genişləndirmək niyyətindədir. Niderland Krallığının Baş naziri Mark Rütte ilə beynəlxalq tədbirlər zamanı görüşünü xatırladan prezident İlham Əliyev bu ölkənin nazirlərinin və digər rəsmi şəxslərinin böyük nümayəndə heyətləri ilə Azərbaycana səfərlərinin əməkdaşlığımızın genişləndirilməsi baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Niderlandın bir sıra şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini, mühüm layihələr həyata keçirdiklərini qeyd etdi. Niderland Krallığının Avropa İttifaqının vacib üzvü kimi, Avropa məsələlərində mühüm rol oynadığını deyən prezident İlham Əliyev həm ikitərəfli, həm də Azərbaycan–Avropa İttifaqı əlaqələrinin inkişafı üçün çox müsbət perspektivlərin mövcud olduğunu bildirdi, bu əlaqələrin gələcəkdə uğurla inkişaf edəcəyinə əminliyini vurğuladı. Dövlətimizin başçısı səfir Onno Kerversin bu əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə, iki ölkə arasında əməkdaşlığın uğurlu inkişafının gələcəkdə də davam edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Niderlandın Kralı əlahəzrət Villem-Aleksandrın ölkəmizə və Azərbaycan xalqına ən xoş arzularını çatdıran səfir Onno Kervers ölkələrimiz arasında nisbətən qısa müddət ərzində qurulan əlaqələrin dinamik inkişaf etdiyini dedi. Daha sonra səfir Bakının gözəlliyinin onda dərin təəssürat yaratdığını bildirdi. Niderland şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə fəal işlər gördüyünü deyən Onno Kervers enerji, informasiya-kommunikasiya texnologiyaları, o cümlədən kənd təsərrüfatı sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Niderlandın Kralı əlahəzrət Villem-Aleksandrın xoş arzularına görə minnətdarlığını bildirdi, onun da ən xoş arzularını Niderland Kralına çatdırmağı xahiş etdi.*

## SABUNÇU RAYONUNDA 311 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də – Bilik Günündə Bakının Sabunçu rayonundakı 311 saylı tam orta məktəbin yeni binasının açılışı mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, 311 saylı məktəb 2007-ci ildən fəaliyyət göstərir. Sonradan ərazidə əhalinin çoxalması ilə əlaqədar məktəbə gələn şagirdlərin sayında böyük artım olub. Bu da təbii ki, təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib və məktəb üçün yeni binanın tikintisi artıq zərurətə çevrilib. Bütün amillər nəzərə alınaraq, Sabunçu dairəsində 311 saylı məktəb üçün üçmərtəbəli yeni binanın tikintisinə qərar verilib. İnşaat işləri yüksək səviyyədə, bütün standartlar nəzərə alınmaqla həyata keçirilib. Məktəbin foyesində ulu öndər Heydər Əliyevin təhsilə göstərdiyi qayğını, prezident İlham Əliyevin tapşırıq və sərəncamlarına əsasən Sabunçu rayonunda təhsil müəssisələrində şəraitin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində görülən işləri əks etdirən fotolardan ibarət stendlər yaradılıb. Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı və qəsəbələrin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda təhsil sahəsində nəzərdə tutulmuş tədbirlərin icrası çərçivəsində inşa olunan 311 saylı məktəbin yeni binasında da şagirdlərin təlim-tərbiyəsi və tədris prosesinin yüksək səviyyədə aparılması üçün hər*

*cür şərait yaradılıb. Ümumi sahəsi 6700 kvadratmetrdən çox olan məktəbdə 47 sinif otağı var.*

*Dövlətimizin başçısı ilk dəfə məktəbə qədəm qoyan birinci sinif şagirdləri ilə görüşdü, onları Bilik Günü münasibətilə təbrik etdi və onlarla şəkil çəkdirdi.*

*Daha sonra prezident İlham Əliyev sinif otaqlarında yaradılan şəraitlə maraqlandı.*

*Bildirildi ki, 960 şagird yerlik məktəbdə informatika otağından əlavə, hərbi hazırlıq, fizika, kimya, biologiya üzrə fənn laboratoriyaları yaradılıb, onların hamısı əyani vəsaitlər və tədris avadanlıqları ilə təchiz olunub. Müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şəraitin yaradıldığı akt zalından əlavə, 540 kvadratmetr sahəsi olan və müxtəlif avadanlıqlarla təchiz edilən idman zalı da şagirdlərin ixtiyarına verilib.*

*Məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçiliblər. Son illərin statistikasına görə, məktəbi bitirən məzunların 70–80 faizi tələbə adını qazanıb. Bu il məktəbi bitirənlərdən 12 nəfəri 500-dən, 5 nəfəri isə 600-dən çox bal toplayıb.*

*Bütün bunlar göstərir ki, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycanda bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir. Dövlətimizin başçısının təhsilin inkişafına verdiyi önəmin nəticəsidir ki, son illərdə müasir məktəb binaları tikilir, mövcud müəssisələr üçün yeni tədris korpusları inşa olunur. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, məktəblərin maddi-texniki bazası gücləndirilir. Heydər Əliyev Fondu da dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verir.*

*Sonra prezident İlham Əliyev məktəbin müəllim və şagird kollektivi ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Salam, sabahınız xeyir olsun! Sizi ürəkdən salamlayıram. Bu gün ölkəmizdə yeni dərs ili başlayır. Bu münasibətlə sizi təbrik edirəm. Eyni zamanda, bu gün məktəbin həyatında çox əlamətdar bir gündür. Məktəbin yeni binası tikilib istifadəyə verilir. Bu münasibətlə də sizi təbrik edirəm.

Bu əlamətdar hadisə onu göstərir ki, Azərbaycan dövləti təhsil sisteminin inkişafı üçün bütün lazımi tədbirləri görür. Məktəbin əvvəlki binası ilə bağlı mənə məlumat verildi. İndiki bina əsaslı şəkildə fərqlənir. Çox gözəl, keyfiyyətli tikilib. Burada ən müasir avadanlıqlar quraşdırılıb. İndi müəllimlərin də şəraiti yaxşılaşıb. Uşaqlar da yaxşı məktəbdə oxuyacaqlar. Yəni burada bütün standartlar ən yüksək səviyyədədir. Son illər ərzində Azərbaycanda tikilən və əsaslı təmir olunan məktəblərin şəraiti, bax, belədir.

Bu il Bakı şəhərində 10 tam orta məktəb və peşə məktəbi əsaslı təmir edilib. Yeni korpuslar tikilib. Bir məktəb – 311 saylı bu məktəb üçün isə yeni bina tikilibdir.

Son 4-5 il ərzində Bakı şəhərində məktəblərin mütləq əksəriyyəti əsaslı təmir olundu. Hələ ki, təmirsiz 17 məktəb var. Biz gələn il və 2018-ci ildə onları da təmir edəcəyik. Eyni zamanda, bəzi məktəblərdə uşaqlar iki növbədə oxuyurlar, o cümlədən bu məktəbdə. Ona görə bizim məqsədimiz ondan ibarətdir ki, bütün məktəblər birnövbəli fəaliyyətə keçsin. Əlbəttə, buna nail olmaq üçün ya yeni korpuslar, ya da yeni məktəblər tikilməlidir, o cümlədən bu ərazidə. Düzdür, burada yerlə bağlı problemlər var. Ancaq yerli icra hakimiyyətinə göstəriş verdim ki, baxsınlar, araşdırsınlar, bu ərazidə harada mümkündürsə, orada yeni məktəb tikilsin. Beləliklə, Bakı şəhəri məktəblərinin maddi-texniki bazası tam yeniləşəcək.

O ki qaldı ölkə üzrə gedən proseslərə, deyə bilərəm ki, son 10 il ərzində Azərbaycanda 3000-dən çox məktəb tikilib və ya əsaslı şəkildə təmir edilib. Düzdür, hələ də qəzalı vəziyyətdə məktəblər

var. Ancaq onların da tikintisi, bərpası nəzərdə tutulur və hesab edirəm ki, yaxın illər ərzində bir dənə də təmirsiz, qəzalı məktəb olmayacaq. Bütün bu işlər, əlbəttə ki, böyük vəsait tələb edir. Azərbaycan dövləti güclü dövlətdir və sosial sahə, təhsil sahəsi bizim üçün prioritetdir. Ona görə biz bu məqsədlərə nail olmaq üçün lazımi maliyyə resurslarını da təmin edirik.

Təhsil hər bir dövlətin gələcəyidir. Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. Bu çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır, eyni zamanda, müəllimlərin fəaliyyətini stimullaşdırmaq üçün islahatlar aparılır. Müəllimlərin əmək haqları qaldırılır. Əlbəttə ki, hər bir məktəbin əsas qiyməti onun fəaliyyətinin göstəriciləri ilə bağlıdır. Hər bir məktəb çalışmalıdır ki, təhsilin səviyyəsi yüksək olsun.

Azərbaycan uğurla inkişaf edən ölkədir. Son illər ərzində biz bütün istiqamətlər üzrə böyük nailiyyətlərə imza atmışıq. Elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün isə, əlbəttə ki, insanlar hazırlıqlı, gənclər bilikli olmalıdırlar. Əgər inkişaf etmiş ölkələrin tarixinə və bu gününə baxsaq görərik ki, o ölkələrdə təhsil, texnologiya, elm inkişaf edir. Biz də bu yolla gedirik. Azərbaycanda gənc nəslin bilikli, savadlı olması ölkəmizi gücləndirir. Çünki iqtisadiyyatda, sənayedə, bütün sahələrdə çox gözəl mütəxəssislər lazımdır. Ölkəmizin çox uğurlu inkişaf dinamikası var. Kadr hazırlığı, mütəxəssislər, peşəkarlar, əlbəttə ki, bu dinamikaya əlavə güc verəcək. Ona görə təhsilin keyfiyyəti ilə bağlı çox önəmli addımlar atılır, islahatlar aparılır.

Əlbəttə ki, müəllimlərdən və şagirdlərdən çox şey asılıdır. Şagirdlər bilməlidirlər ki, həyatda yaxşı yer tutmaq və Vətənə daha böyük fayda gətirmək üçün yaxşı oxumalıdırlar və təbii ki, müəllimlər bu əsas yükü öz üzərlərinə götürüblər. Ona görə də məktəb tikintisi həm şagirdlər, həm də müəllimlər üçündür. Bura müəllimlərin iş yeridir. Belə gözəl şəraitdə işləmək, əlbəttə, hər bir

insana zövq verir. Biz gələcəkdə də bu məsələlərin həlli ilə bağlı lazımi tədbirləri görəcəyik.

Eyni zamanda, bizim gənc nəslimiz vətənpərvər olmalıdır, milli ruhda böyüməlidir. Burada da müəllimlərdən çox şey asılıdır. Gənclərin həm ailədə, həm məktəbdə milli ruhda tərbiyə alması xüsusi əhəmiyyət daşıyır. Xüsusilə indiki şəraitdə ki, dünyada müxtəlif proseslər gedir, qloballaşma adı ilə faktiki olaraq, eyniləşmə siyasəti aparılır, kütləvi informasiya vasitələri ilə müxtəlif təxribatlar ortaya atılır. Ona görə Azərbaycan cəmiyyəti bundan sonra da çox möhkəm, milli-mənəvi dayaqlar əsasında inkişaf etməlidir. Bu gün bu belədir. Bu gün bizim siyasətimizin təməlində milli maraqlarımız, milli dəyərlərimiz, Azərbaycan dəyərləri dayanır. Bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün hər şeydən üstün olmalıdır. Elə etməliyik ki, gələcək nəsil də bu istiqamətdə inkişaf etsin. Ona görə vətənpərvərlik, Vətənə olan bağlılıq, milli-mənəvi dəyərlər məktəblərdə mütləq geniş vüsət almalıdır, müəllimlər də bu istiqamətdə daha fəal iş aparmalıdırlar. Xüsusilə nəzərə alsaq ki, xalqımız çox istedadlı xalqdır, dünya xəzinəsinə çox böyük töhfələr veribdir, tarixboyu bizim görkəmli nümayəndələrimiz ümumdünya əhəmiyyətli böyük işlər görmüşlər.

Bu gün Azərbaycan dövləti güclü dövlətlər sırasındadır. Bu il biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd edəcəyik və nəticələr də göz qabağındadır. Bu gün biz bütün istiqamətlər üzrə inkişafdayıq, güclü iqtisadiyyat qurmuşuq, güclü sosial sahə yaratmışıq, 3000-dən çox məktəb, 600-dən çox xəstəxana – bütün bunlar Azərbaycan dövlətinin gördüyü işlərdir. Bu gün Azərbaycan dünya miqyasında seçilən ölkələrdəndir ki, öz daxili imkanlarına arxalanaraq, irəliyə gedir. Biz heç bir yerdən yardım almırıq, buna ehtiyac da yoxdur, öz hesabımıza yaşayırıq və dünyada öz hesabına yaşayan ölkələrin sayı o qədər də çox deyil. Ona görə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq fəxr etməlidir ki, müstəqil dövlətdə yaşayır. Bu gün bizim taleyimiz öz əlimizdədir. Biz əsrlərboyu başqa dövlətlərin tərkibində yaşamışıq və o dövrü indiki dövrlə müqayisə edəndə görürük ki, ən sürətli

inkişaf dövrü müstəqillik dövrüdür. Nəyə görə? Çünki taleyimiz öz əlimizdədir.

Biz öz gələcəyimizi qururuq, biz qabağa gedirik. Ona görə bu müsbət dinamikanı davam etdirmək, inkişafı dayanıqlı etmək üçün bir daha deyirəm ki, vətənpərvərlik, milli dəyərlər, milli ruh xüsusi yer tutur. Çünki dünyada bizim önəmimiz artır. Bizim işimizə qarışmaq istəyənlərin sayı da az deyil. Bu illər ərzində müxtəlif niyyətlə bizim işimizə qarışmaq istəyənlər öz məqsədlərini güdürdülər. O məqsədlər bizim məqsədlərlə üst-üstə düşmür. Bizim məqsədimiz müstəqillikdir, azadlıqdır, xalqın firavanlığıdır. Bəzi xarici dairələrin məqsədi isə tam başqadır – bizə diktə etmək, Azərbaycanı alətə çevirmək, Azərbaycan xalqının iradəsini qırmaq və ondan sonra Azərbaycan kimi qüdrətli ölkədən öz məqsədləri üçün istifadə etməkdir. Bu isə bizim üçün fəlakət olar. Biz başqa ölkələrin təcrübəsini, yaxın tarixini görürük. O ölkələr ki, xaricdən idarə olunur, o ölkələr dağıdılır. O ölkələr ki, xarici mənfi təsirə qarşı müqavimət göstərmir, o ölkələr, xalqlar məhv olur. Son 10 il ərzində Yaxın Şərqdə milyonlarla insan həlak olub. On milyonlarla insan əlil, qaçqın, köçkün olub, ölkələr, bütün infrastruktur dağıdılıb. Bunu edənlər xarici qüvvələrdir. Ona görə bizim gənclər də, müəllimlər də bu reallığı bilməlidirlər. Bizə təzyiqlər ona görə artır ki, biz öz yolumuzla gedirik, heç kimin qarşısında baş əymirik, özümüzü ləyaqətlə aparırıq, milli maraqlarımızı qoruyuruq, Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tuturuq və bu siyasət davam etdirilməlidir. Bu gün bu siyasət var, bu siyasəti mən aparıram və heç bir qüvvə məni bu yoldan döndərə bilməz. Mən istəyirəm ki, burada, bu mərasimdə iştirak edən gənclər də gələcəkdə bu yolla getsinlər. Çünki gələcəkdə ölkəmizi gənclər idarə edəcəklər. Ölkələrin inkişafını şərtləndirən onun insanlarıdır. Ölkəni hansı insanlar idarə edirlərsə və xalq onları dəstəkləyirsə, bax, o siyasət də aparılır. Ona görə biz həmişə müstəqil olmalıyıq. Heç vaxt müstəqilliyimizi əldən verməməliyik. Müstəqillik deyəndə mən rəsmi atributları nəzərdə tutmuram. Müstəqil siyasət müstəqilliyin əsas amilidir və belə olan halda, həmişə inkişaf, əmin-amanlıq olacaq, Azərbaycan xalqı rahat, təhlükəsizlik

şəraitində yaşayacaq, necə ki, bu gün yaşayır. Bizim siyasətimiz bundan ibarətdir. Hesab edirəm ki, bizim nümunəmiz bir çox ölkələr üçün də cəlbedicidir. Ona görə bu gün dünyada Azərbaycanı böyük rəğbətlə qarşılayırlar, bizə inanırlar, sözümüzə inanırlar. Ona görə ki, biz ləyaqətli siyasət aparırıq və xalqın maraqlarını həmişə müdafiə edirik. Mən istəyirəm ki, gənclər də bu istiqamətdə inkişaf etsinlər. Əminəm ki, belə də olacaq.

Bizim gənclərimiz müstəqilliyimizi qoruyurlar. Bizim gənclərimiz bu ilin aprel ayında erməni işğalçıları üzərində parlaq hərbi qələbə qazanıblar. Şəhidlər vermişik. Ancaq bizim gənclərimiz bu ilin aprelində Azərbaycanın Dövlət bayrağını Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsində qaldırıblar. Bu böyük parlaq qələbəni bizim gənc əsgər və zabitlərimiz qazanıblar, bütün xalq qazanıbdır, ordumuz qazanıbdır. Amma əsas özünü qabağa verən, şəhidlik zirvəsinə ucalan bizim gənclərimizdir. Bizim gənclərimiz bayrağımızı Rio Olimpiya oyunlarında qaldırıblar. Biz medalların sayına görə dünya miqyasında 14-cü yerdəyik. Bu, tarixi qələbədir. Müsəlman aləmində 1-ciyik. Yenə də bunu gənclər edibdir.

Yəni gənclərimiz bu gün ölkəmizin şöhrətini, qüdrətini yüksəklərə qaldırırlar. Biz fəxr edirik ki, belə gənclərimiz var və gənclərimiz gələcəkdə də bütün istiqamətlərdə belə fədakar, vətənpərvər və peşəkar olmalıdır. Əminəm ki, belə gözəl məktəbdə nəticələr daha da yaxşı olacaq. Bir daha sizi təbrik edirəm.

* * *

**Şaməddin Babayev** *(məktəbin müəllimi):* Möhtərəm cənab Prezident, Sabunçu rayonuna xoş gəlmisiniz! Sizin Sabunçu rayonuna gəlişiniz rayonumuzun sakinlərini və biz müəllimləri ürəkdən sevindirir.

Cənab Prezident, Sizin tapşırığınıza əsasən inşa edilmiş bu gözəl məktəb yeni dərs ilində Sabunçu rayonunun təhsil işçilərinə ən gözəl hədiyyədir. Cənab Prezident, Sabunçu rayonunun təhsil işçilərinə, sakinlərinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, dünyada baş verən siyasi prosesləri yaxından izləyirik və fəxr edirik ki, Azərbaycan kimi qüdrətli bir dövlətdə yaşayırıq. Siz əmin-aman bir dövlət qurmusunuz. Sizə dərin minnətdarlığımızı bildiririk. Allah sizi qorusun!

**N u r l a n ə  B a ğ ı r o v a** *(müəllimə):* Möhtərəm cənab Prezident, biz müəllimlər əlimizdən gələni edəcəyik ki, şagirdlərimiz milli ruhda tərbiyə alsınlar, vətənpərvər olsunlar, zirvələrə ucalsınlar. Dəyərli vaxtınızı sərf edib bu müasir məktəbin açılışında bizimlə bərabər iştirak etdiyinizə görə Sizə kollektiv adından bir daha dərin minnətdarlığımızı bildiririk. Bu unudulmaz günü Sizinlə tarixə həkk etdiyimizə görə çox xoşbəxtik.

**E s m i r a  M u r a d o v a** *(məktəbin direktoru):* Cənab Prezident, çox sevinirik. Sevincimizin həddi-hüdudu yoxdur. Məktəbin yeni binası bizə gözəl hədiyyədir. Biz bu hədiyyəyə və həm də bu gün – Bilik Günündə bizimlə bir yerdə olmağınıza, bu gözəl bayramı bizimlə birlikdə keçirməyinizə görə Sizə təşəkkür edirik. Bizə etdiyiniz hədiyyəyə görə kollektivimiz adından, valideynlər və şagirdlər adından Sizə minnətdarlığımızı bildiririk. Tam qətiyyətlə deyirik ki, belə möhtəşəm, müasir avadanlıqlarla təchiz olunmuş məktəbdə işləmək nə qədər qürur, fərəh hissi doğurursa, bir o qədər də məsuliyyətimizi artırır.

Mən qısaca da olsa məktəbin nəticələri barədə məlumat vermək istəyirəm. Son 4 ildə bizim məktəbimizin məzunlarından ali məktəblərə qəbul olunanların sayı 70 faiz təşkil edir. Sonuncu ilin nəticələri isə bizim üçün daha fərəhləndiricidir. Bizim 5 şagirdimiz 600-dən, 12 şagirdimiz isə 500-dən yuxarı bal toplayaraq, ali məktəblərə qəbul olunub. Bu bizi daha yaxşı işləməyə ruhlandırır.

Cənab Prezident, biz Sizə güvənirik, Sizi sevirik, Sizinlə qürur duyuruq və daim Sizin siyasətinizi dəstəkləyirik. Biz Sizinlə fəxr edirik. Fəxr edirik ki, bu gün Siz buraya gəlmisiniz.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

## QIRĞIZ RESPUBLİKASINA SƏFƏR

*16 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün sentyabrın 16-da Qırğız Respublikasına səfərə gəlmişdir.*

*Bişkekin «Manas» Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Qırğız Baş naziri Sooronbay Jeenbekov və digər yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ PAVEL FİLİP İLƏ GÖRÜŞ

*Bişkek*

*16 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Bişkekdə Moldova Respublikasının Baş naziri Pavel Filip ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında münasibətlərin yaxşı səviyyədə olduğu bildirildi, əlaqələrimizin böyük potensiala malik olmasından məmnunluq ifadə edildi. Azərbaycan və Moldovanın beynəlxalq təşkilatlar çərçivəsindəki əməkdaşlığının yüksək səviyyədə olduğu vurğulandı. Ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsində hər iki tərəfin maraqlı olduğu diqqətə çatdırıldı, iqtisadi, ticari, nəqliyyat, energetika, sərmayə qoyuluşu, kənd təsərrüfatı sahələrində yaxşı əməkdaşlığın mövcudluğu qeyd edildi. Hökumətlərarası birgə Komissiyanın fəaliyyətinin daha da fəallaşdırılması, bu istiqamətdə qarşılıqlı səfərlərin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK

*Bişkek*

*16 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Bişkekdə MDB-nin yaradılmasının 25 illiyinə təsadüf edən MDB Dövlət Başçıları Şurasının növbəti iclasında iştirak etmişdir.*

*Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

*Sonra prezident Almazbek Atambayev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Qırğızıstana gələn digər qonaqları qarşıladı.*

*Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*Əvvəlcə MDB Dövlət Başçıları Şurasının iclası məhdud tərkibdə keçirildi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün bizim təşkilatın möhkəmlənməsinə şərait yaradacaq mühüm məsələlər müzakirəyə çıxarılıb. Biz işimizin optimallaşması ilə əlaqədar təşəbbüsləri dəstəkləyirik ki, ümumi maraq doğuran ən mühüm məsələlər üzərində diqqətimizi cəmləşdirə bilək.

MDB-nin yaradılmasının 25 illiyi ilə əlaqədar bu təşkilatın təsisçilərindən biri kimi, bizim dövlətimizin mövqeyini ifadə

etmək istərdim. Biz MDB-də üzvlüyə mühüm əhəmiyyət veririk və hesab edirəm ki, 25 il ərzində bu təşkilat çox böyük yol keçib, zamanın sınağından çıxıb.

Bizim təşkilatımız müəyyən tarixi hadisələr nəticəsində yaradılıb. Mənim fikrimcə, xalqlarımızın və onların rəhbərlərinin müdrikliyi sayəsində 25 ildən sonra bizim həm region, həm də dünya üçün çox böyük əhəmiyyətə malik olan bir təşkilatımız var. Ona görə ki, bizim təşkilatın coğrafiyası yetərincə genişdir. Biz xalqlarımızı, ölkələrimizi narahat edən mühüm məsələləri, həlli tələb olunan çoxsaylı məsələləri dostcasına müzakirə edirik.

Humanitar sahədə əməkdaşlığın möhkəmlənməsi işində Azərbaycanın fəal rolunu qeyd etmək istərdim. Biz buna çox böyük əhəmiyyət veririk. Hesab edirəm ki, humanitar sahədə əməkdaşlıq bizim ümumi əməkdaşlığımızın əsasını təşkil edir. Bəlkə də bunsuz qarşılıqlı etimad və anlaşma bugünkü səviyyədə olmazdı. Azərbaycan öz tərəfindən həm bizim təşkilat çərçivəsində, həm də bütövlükdə müxtəlif beynəlxalq tədbirlərlə bağlı təşəbbüslər irəli sürür. Bir neçə gündən sonra Bakıda Azərbaycan və Rusiya prezidentlərinin himayəsi ilə V Beynəlxalq Humanitar Forum keçiriləcək. Bu forum humanitar əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi üçün çox mühüm beynəlxalq məkana çevrilib. Bu məsələlər həmişə, xüsusən indiki vaxtda, bəzən humanitar əməkdaşlıq məsələlərinin müxtəlif ölkələrdə necə interpretasiya edildiyini gördüyümüz bir vaxtda diqqət mərkəzindədir. Biz miqrantlar böhranı adlanan böhranın şahidiyik. Təəssüf ki, xalqlar arasında qarşılıqlı anlaşmanı və humanitar sahədə əməkdaşlığı möhkəmləndirmək əvəzinə, əks istiqamətdə proseslərin baş verdiyini, etnik, dini prinsip və əlamət üzrə ayrı-seçkilik salındığını görürük. Bu bizi narahat edir. Çünki bizim təşkilat həm də ona görə güclüdür ki, burada müxtəlif mədəniyyətlərə, dinlərə və ənənələrə mənsub xalqlar təmsil olunub. Bizi əməkdaşlığımızın möhkəmləndirilməsi istiqamətində ümumi səylər birləşdirir.

Həmçinin həmkarlarıma onu da bildirməliyəm ki, bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilib. Bu gün Azərbaycan artıq dünya miqyasında multikulturalizm mərkəzlərindən biri kimi

tanınıb. Bu il Bakıda BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilib.

Eyni zamanda, onu da qeyd etmək istərdim ki, biz üzv ölkələrlə həm ikitərəfli, həm də çoxtərəfli formatda iqtisadi sahədə əməkdaşlığa böyük əhəmiyyət veririk. Dünyada iqtisadi fəallıq səviyyəsinin aşağı düşməsinə baxmayaraq, burada da yaxşı perspektivlər yaranır. Düşünürəm ki, biz iqtisadi əməkdaşlığı inkişaf etdirmək meyillərini qoruyub saxlaya biləcəyik.

İndiki şəraitdə nəqliyyat sahəsində əməkdaşlıqla bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir. Bizim ölkəmiz uzun illərdir bu sahəyə fəal sərmayə yatırır. Bu gün ölkəmizin ərazisindən keçən Şimal–Cənub və Şərq–Qərb dəhlizləri həm də əməkdaşlığın möhkəmlənməsi işinə xidmət edir və ölkələrimizə əlavə iqtisadi dividendlər gətirir. Biz həmçinin MDB-nin üzvü olan qonşu dövlətlərlə ölkələrimiz üçün böyük gələcəyə malik olacaq layihələr həyata keçiririk. Biz limanların, dəmir yollarının tikintisinə, dəniz nəqliyyatı ilə daşımalara, müasir beynəlxalq aeroportların inşasına sərmayə qoyuruq. Bu, daimi gəlir mənbəyi olan, həmçinin iqtisadi çərçivədən çıxan sahədir və həm də əməkdaşlığın möhkəmlənməsinə gətirib çıxarır. Əməkdaşlığın möhkəmləndirilməsi təhlükəsizliyin və qarşılıqlı etimadın möhkəmləndirilməsi deməkdir.

Biz təhdidlərin artdığı dövrdə yaşayırıq. Bu təhdidlərə hazır olmaq lazımdır. Yaxın tarixin göstərdiyi kimi, heç bir ölkə təhdidlərlə, beynəlxalq terrorçuluqla, ekstremizmlə, radikalizmlə təkbaşına bacara bilməz. Bizim ölkələri həm də bu meyillərin təhlükəsini dərk etməyimiz birləşdirir. Biz onu da anlayırıq ki, bütün beynəlxalq birlik beynəlxalq terrorçuluğa qarşı mübarizədə səylərini birləşdirməlidir.

Sonda ümidvar olduğumu bildirmək istərdim ki, MDB bundan sonra da fəal inkişaf edəcək. Biz düşünülmüş islahatlar yolu ilə gedirik. İslahatlar təkcə islahat xatirinə həyata keçirilməməlidir. Onlar çox dəqiq istiqamətləndirilməlidir ki, bizim təşkilatımız möhkəmlənsin, daha cəlbedici və daha fəaliyyət qabiliyyətli olsun.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm və işimizə uğurlar arzulayıram. Çox sağ olun.

* * *

*Sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirildi.*

*Dövlət Başçıları Şurasının iclasına gəldiklərinə görə tədbir iştirakçılarına təşəkkürünü bildirən Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev MDB-nin 25 illiyi münasibətilə təbriklərini çatdırdı.*

*İclasda sentyabrın əvvəlində dünyasını dəyişən Özbəkistan prezidenti İslam Kərimovun xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*

*Bütün ölkələrə MDB-də islahatlarla bağlı keçirilən müzakirələrdə əldə edilən kompromisə görə minnətdarlığını ifadə edən prezident Almazbek Atambayev bu gün dünyada hökm sürən və heç də asan olmayan vəziyyətdə dialoq üçün istənilən genişmiqyaslı meydançanın qorunub saxlanılmasının vacibliyini bildirdi. Qeyd etdi ki, bütün məsələlər yalnız kompromislər vasitəsilə öz həllini tapa bilər. Almazbek Atambayev 2017-ci il yanvarın 1-dən MDB Dövlət Başçıları Şurasına sədrliyin Rusiya Federasiyasına keçəcəyini diqqətə çatdırdı.*

*MDB-nin İcraiyyə Komitəsinin sədri Sergey Lebedev məhdud tərkibli iclasda Birliyin 25 illiyi ilə bağlı dövlət başçılarının Bəyanatının qəbul olunduğunu bildirdi. Diqqətə çatdırdı ki, iclasda, həmçinin MDB-nin müasir reallıqlara uyğunlaşdırılmasına dair qərar qəbul edilib, Birliyin fəaliyyəti ilə bağlı aktual məsələlər ətrafında fikir mübadiləsi aparılıb.*

*Daha sonra iclasda sənədlərin imzalanması mərasimi oldu.*

*MDB Dövlət Başçıları Şurasının budəfəki iclasında siyasi sahədə qarşılıqlı fəaliyyət, humanitar əməkdaşlıq və təhlükəsizliyin təmin edilməsi sahələrində bir çox sənəd layihəsi nəzərdən keçirilərək, qəbul olundu. İştirakçı ölkələrin təmsilçiləri Müstəqil Dövlətlər Birliyinin 25 illiyi ilə bağlı dövlət başçılarının Bəyanatını qəbul edərək, təşkilatın müasir reallıqlara uyğunlaşdırılması*

*məsələlərini Birliyin Nizamnamə və müvafiq sahə orqanlarının fəaliyyətinin səmərəsinin artırılması kontekstində müzakirə etdilər. Bundan əlavə, iqtisadi əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi məqsədilə MDB ölkələrində 2020-ci ildə əhalinin siyahıyaalma raundunun keçirilməsi və regionlararası əməkdaşlığın inkişafı məsələlərinə baxılması da müzakirə mövzusu oldu. Qərara alındı ki, MDB Dövlət Başçıları Şurasının növbəti iclası 2017-ci ildə Moskvada keçirilsin.*

* * *

*Həmin gün axşam Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak etdi.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İSLASINDA ERMƏNİSTAN PREZİDENTİNİN TƏXRİBAT XARAKTERLİ ÇIXIŞINA TUTARLI VƏ SƏRT CAVAB

*16 sentyabr 2016-cı il*

*MDB Dövlət Başçıları Şurasının sentyabrın 16-da Bişkekdə keçirilən məhdud tərkibli iclasında Ermənistan prezidenti Serj Sarkisyan bu ilin aprelində cəbhə bölgəsində baş vermiş hadisələrlə bağlı Azərbaycandan şikayət xarakterli çıxış etmişdir. O bu hadisələr zamanı Azərbaycanın guya atəşkəs rejimini pozduğunu deyib.*

*Ermənistan prezidentindən sonra Belarus prezidenti Aleksandr Lukaşenko çıxış etməli idi. Prezident İlham Əliyev Belarus Prezidentindən xahiş etdi ki, ona danışmaq üçün imkan versin. Belarus Prezidentinin razılığından sonra çıxış edən prezident İlham Əliyev Ermənistan prezidentinə tutarlı və sərt cavab verdi.*

**İlham Əliyev:** Ermənistan prezidentinin sözlərinə şərh verməyi özümə borc bildim. Mən Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinin başqa beynəlxalq strukturlarda həll edilməsini əsas tutaraq, bu gün bu mövzuda danışmağı lazım bilmədim. Amma erməni tərəfinin növbəti şikayətini eşidəndə, bunu şərh etməyi özümə borc saydım.

Erməni tərəfi bu şikayətlərlə artıq bütün beynəlxalq təşkilatları bezdirib. Təsəvvür edirsinizmi, vəziyyət kifayət qədər paradoksaldır: Ermənistan suveren dövlətin ərazisini işğal edir, onun ərazi bütövlüyünü pozur, Dağlıq Qarabağdan və ona bitişik 7 rayondan yerli azərbaycanlı əhalini qovur, 1 milyondan artıq insanı qaçqın və məcburi köçkün vəziyyətinə salır, işğal edilmiş ərazilərdə hər şeyi, o cümlədən tarixi, dini, mədəni abidələrimizi, bütün infrastrukturu dağıdır – bu, ATƏT-in iki missiyasının məruzələri ilə təsdiq edilib – sonra isə 20 ildən artıq müddətdə

danışıqlar prosesini imitasiya etməklə məşğul olur. Eyni zamanda, bu prosesin sonsuz olması üçün vaxtaşırı müxtəlif təxribatlara əl atır və onlardan biri məhz bu ilin aprelində oldu. Azərbaycanın dinc sakinlərinin 500-dən çox evi erməni ordusu tərəfindən artilleriya atəşinə məruz qaldı, 100-dən çox ev dağıdıldı, aralarında uşaqlar da olmaqla, 10-dan çox dinc vətəndaş qətlə yetirildi, həlak oldu.

Beynəlxalq təşkilatlar bu məsələnin necə tənzimlənməli olduğunu çox dəqiq anlayırlar. Ali beynəlxalq struktur var – BMT Təhlükəsizlik Şurası. Bu strukturdan yüksəyi yoxdur. Təhlükəsizlik Şurası keçən əsrin 90-cı illərinin əvvəllərində 4 qətnamə qəbul edib. Həmin sənədlərdə erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən qeyd-şərtsiz və dərhal çıxarılması tələb olunur. Bu qətnamələr yerinə yetirilmir. Ermənistan onlara məhəl qoymur və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərini süni şəkildə dəyişdirməklə, həmin ərazini qanunsuz məskunlaşdırmaqla yeni reallıqlar yaratmağa çalışır. Bu tamamilə qanunsuzdur, cinayətdir və bu cinayət indiyə qədər davam edir.

Biz sülh prosesinə sadiqik. Biz konstruktiv işləyirik. Minsk qrupu mövcuddur. Amma erməni tərəfi bu formatdan yalnız danışıqlar prosesinin sonsuz olması üçün istifadə edir. Onlar sülh istəmirlər. Onlar bizim ərazilərimizi daim nəzarət altında saxlamaq və hər yerdə Azərbaycanı bunda ittiham etmək istəyirlər ki, guya biz nəyisə pozuruq. Biz zərər çəkmiş tərəfik. Biz heç kəsin ərazisini işğal etməmişik. Bizim ərazilərimiz, beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycan ərazilərinin 20 faizi işğal altındadır. Reallıqlar bundan ibarətdir. Buna görə mən Ermənistan prezidentinin növbəti yersiz şikayətini nəzərə alaraq, bir daha bunları həmkarlarımızın diqqətinə çatdırmağı özümə borc bildim.

**Serj Sarkisyan:** Yalana cavab verməyin sadəcə, mənası yoxdur.

**İlham Əliyev:** Mən yalana artıq cavab verdim.

## Səfər başa çatdı

*MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri sentyabrın 16-da başa çatdı.*

*«Manas» Beynəlxalq Aeroportunda prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Qırğız Respublikasının yüksəkvəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

# SABİRABAD RAYONUNA SƏFƏR

*17 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Sabirabad rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sabirabad şəhərinin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov prezident İlham Əliyevə meydanda və rayonda görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

## Sosialist Əməyi Qəhrəmanı Fatma Hüseynovanın pambıq tarlası ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Sabirabad rayonunda Sosialist Əməyi Qəhrəmanı Fatma Hüseynovanın pambıq tarlası ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı İlham Əliyev pambıqçılarla görüşdü.*

**Fatma Hüseynova:** Cənab Prezident, özüm ali təhsilli aqronomam. Mən bunun sentnerini hesablamışam, təxminən 35–40 sentner arasında məhsul olacaq. Ümumiyyətlə, bizim Sabirabadda pambıq pis deyil.

**İlham Əliyev:** Amma son vaxtlar az əkilir. Ona görə gəlmişəm ki, bərpa edim.

**Fatma Hüseynova:** Bəli, bunu bərpa etmisiniz. Allah Sizə ömür versin. Bax, bu, qızların çörəyidir, həyatıdır. Vallah, hamısı sevinir. Eşidən də deyir ki, Allah Prezidentin köməyi olsun, bunu bərpa etdi, təzədən qaytardı.

**İlham Əliyev:** Mənə məlumat verilib ki, bu il 6000 hektar əkilib. Gələn il 15 min hektar olacaq.

*Fatma Hüseynova 15 min hektar sahədə yaxşı məhsul yetişdirmək üçün onlara hər cür şərait yaradıldığını bildirdi. O, ulu öndər Heydər Əliyevin bu tarlalara gəlişini xatırlatdı, yerli sakinlərin həmin səfərləri və ümumiyyətlə, ümummilli liderin xatirəsini daim ehtiramla yad etdiklərini diqqətə çatdırdı.*

*Sonra söhbət çay süfrəsi arxasında davam etdirildi.*

*Fatma Hüseynova ulu öndər Heydər Əliyevin Sabirabada səfərlərinin birində çəkilmiş fotoşəkli və səfərə həsr edilmiş yerli «Muğan» qəzetinin bir nüsxəsini dövlətimizin başçısına təqdim etdi.*

*Pambıqçılar prezident İlham Əliyev tərəfindən pambıqçılığın yenidən dirçəldilməsi ilə bağlı təşəbbüsünü mühüm hadisə kimi dəyərləndirdilər.*

**İ l h a m  Ə l i y e v:** Biz indi pambığın inkişafını planlı şəkildə aparmalıyıq. Ona görə indi işlər görülür, qısa müddət ərzində tədbirlər həyata keçirilib, texnika gətirilib, suvarma işləri təmin edilib. Ancaq bizim əsas işimiz gələn il olacaq. Gələn ilə hazırlıqlar ciddi gedəcək. Vaxtımız da çoxdur. Əgər bu il təxminən 51 min hektar əkilibsə, gələn il ölkə üzrə təqribən 120–130 min hektar əkilməlidir. Bu da iş yerləri deməkdir. İnsanları işlə təmin etmək üçün bu çox vacib sahədir. Yaxşı pul alacaqlar.

*Dövlətimizin başçısı rayonda torpaq sahələrinin vəziyyəti ilə maraqlandı.*

*Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov torpaqlardan təyinatı üzrə istifadə edilməsi üçün görülən tədbirlərlə bağlı Prezidentə məlumat verdi.*

*Prezident İlham Əliyev pambıqçılığın perspektivləri, pambığın məhsuldarlığının artırılması, hazır məhsulun satınalma qiymətləri ilə əlaqədar pambıqçılarla söhbət etdi.*

*Söhbət zamanı pambığın məhsuldarlığının artırılmasında müasir suvarma sisteminin tətbiqi, kənd təsərrüfatı texnikasının və gübrələrin alınmasının əhəmiyyəti qeyd edildi.*

## PAMBIQÇILIĞIN İNKİŞAFINA DAİR RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ İŞTİRAK *

*Sabirabad*

*17 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə sentyabrın 17-də Sabirabadın Mədəniyyət evində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilmişdir.*

*Mədəniyyət evinin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Sabirabad rayonuna səfərlərini əks etdirən fotoguşə yaradılıb. Burada, həmçinin pambıqçılığın inkişafı ilə əlaqədar ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələrin yenidən dirçəldilməsinə həsr olunmuş fotostend nümayiş etdirilir.*

*Dövlətimizin başçısı respublika müşavirəsində giriş nitqi söylədi.*

---

* Pambыqчылыьын inkiшafы mясялляrinя dair Sabirabad rayonunda keçirilən respublika mцшavirяsində Sabirabad Rayon Иcra Hakimiyyяtinin baшчысы Nazim İsmayılov, Aьcabяdi Rayon Иcra Hakimiyyяtinin baшчысы Şahin Məmmədov, «MKT Иstehsalat Kommersiya» MMC-nin baш direktorunun mцavini Bəhruz Camalov, Saatlы Rayon Иcra Hakimiyyяtinin baшчысы Siraqəddin Cabbarov, Иmiшli Rayon Иcra Hakimiyyяtinin baшчысы Vilyam Hacıyev, «CTS AGRO» MMC-nin baш direktor яvяzi Arif İbrahimov, Bяrdя Rayon Иcra Hakimiyyяtinin baшчысы Vidadi İcayev və Bilяsuvar Rayon Иcra Hakimiyyяtinin baшчысы Mahir Quliyev çıxış etdilər.

## Azərbaycan prezidenti İlham Əliyevin giriş nitqi

Bugünkü müşavirə ölkəmizdə pambıqçılığın inkişafına həsr olunur. Bu müşavirənin Sabirabad rayonunda keçirilməsi təsadüfi deyil.

Ötən əsrin 70-ci illərində və 80-ci illərinin əvvəllərində ulu öndər Heydər Əliyev Sabirabadda hər il zona müşavirəsi keçirirdi.

Pambıqçılıqla bağlı o müşavirələrdə çox dəyərli göstərişlər verilirdi. Bu ənənəyə sadiq olaraq, mən pambıqçılığın inkişafı ilə bağlı birinci ümumrespublika müşavirəsinin keçirilməsi üçün də Sabirabad rayonunu seçdim. Mən əminəm ki, Sabirabad rayonunda və bütün başqa pambıq əkilən rayonlarımızda pambıqçılığın bərpası işi sürətlə gedəcək, biz pambıqçılığın şöhrətini bərpa edəcəyik. Bu həm insanlar, həm dövlət üçün böyük gəlir gətirən bir sahədir.

Keçən əsrin 70–80-ci illərində ulu öndər Sabirabada və pambıqçılıqla məşğul olan digər rayonlara səfər edərkən, məni də özü ilə aparırdı. Mən də o illərdə dəfələrlə onunla bərabər Sabirabadda olmuşam, o müşavirələrdə iştirak etmişəm. Pambıq tarlalarında, tarla düşərgələrində pambıqçılarla görüşü zamanı onunla bərabər olmuşam. Yəni o xatirələr mənim ürəyimdə yaşayır və bu gün daha da aydın görünür ki, ulu öndər Heydər Əliyev nə qədər uzaqgörən və xalqa bağlı olan bir insan idi. Çünki o, yaxşı bilirdi ki, pambıqçılığın Azərbaycanın müttəfiq respublika kimi inkişafında və Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılmasında çox mühüm yeri var.

Əfsuslar olsun ki, bu gün pambıqçılıq Azərbaycanda tənəzzülə uğrayıb. Bunun müəyyən obyektiv və subyektiv səbəbləri var. Bugünkü müşavirə ona görə təşkil edilir ki, biz həm keçən bir neçə ay ərzində görülən işlərlə bağlı fikir mübadiləsi aparaq – burada məruzələr səslənəcək – həm də gələcək illər üçün fəaliyyət planı hazırlanır və biz bu gün bu barədə də danışacağıq.

Azərbaycanda müxtəlif istiqamətlər üzrə sürətli inkişaf dövrü yaşanır. Mən 2003-cü ildə ilk dəfə prezident vəzifəsinə seçilərkən bəyan etmişdim ki, fəaliyyətimin əsas istiqamətlərindən biri

regionların inkişafı ilə bağlı olacaq. Beləliklə, prezident seçkilərindən bir neçə ay sonra – 2004-cü ilin əvvəlində birinci regional inkişaf proqramı qəbul edildi. O proqram çərçivəsində ölkəmizdə 5 il ərzində 600 min iş yerinin yaradılması nəzərdə tutulurdu. 5 il ərzində – 2008-ci ilə qədər bu məqsəd təmin edildi.

Regionların inkişafı böyük investisiya qoyuluşu tələb edirdi. Çünki biz ilk növbədə, regionlarda çox möhkəm və müasir infrastruktur yaratmalı idik. Əfsuslar olsun ki, keçən əsrin 70-ci illərində regionlarda yaradılmış infrastruktur sıradan çıxmışdı – yollar bərbad vəziyyətdə idi, elektrik xətləri, demək olar ki, dağıdılmışdı, onların bir hissəsi kəsilib xaricə satılmışdı, qaz təchizatı, ümumiyyətlə, yox idi, su ilə bağlı böyük problemlər var idi və regionların inkişafından söhbət belə, gedə bilməzdi. Çünki inkişafı şərtləndirən əsas amillər infrastrukturla bağlıdır.

Məhz buna görə 2004-cü ildən başlayaraq bölgələrdə genişmiqyaslı infrastruktur layihələri icra olundu. Bu gün Azərbaycanın bütün bölgələri elektrik, qaz, içməli su ilə təmin edilir. Əgər 2003-cü ildə elektrik enerjisini və qazı xaricdən idxal edirdiksə, bu gün biz elektrik enerjisini, qazı ixrac edirik. Son illər ərzində Azərbaycanda tikilmiş elektrik stansiyaları nəinki tələbatımızı ödəyir, hətta ixrac potensialı da yaradır. Həmçinin qaz sahəsində də bu gün Azərbaycan həm regionda, həm gələcəkdə Avropada, dünyada çox önəmli qaz hasil və ixrac edən ölkəyə çevrilir.

Kənd yolları ilə bağlı problemlər həll olunur, o cümlədən Sabirabad rayonunda. Bu il bu məqsədlər üçün 200 milyon manatdan çox vəsait nəzərdə tutulubdur. Magistral yolların, demək olar ki, hamısı artıq yaxşı vəziyyətdədir. Bakı–Sabirabad yolu da – bilirəm, sabirabadlılar bu yoldan çox əziyyət çəkirdilər – artıq əsaslı təmir olunaraq, insanların istifadəsinə verilib. İnfrastruktur layihələrinin icrası əsas şərt idi. Bununla bərabər, işsizliyin aradan qaldırılması məsələsi də çox kəskin problem kimi mövcud idi. Bu məsələ də öz həllini tapdı. Bu gün Azərbaycanda işsizliyin səviyyəsi çox aşağıdır və işləmək istəyən özü üçün iş tapa bilər.

Bizim qarşımızda duran vəzifələrdən biri ərzaq təhlükəsizliyi məsələsi idi. Çünki sovetlər vaxtında biz əsas ərzaq məhsullarını

Azərbaycana başqa respublikalardan gətirirdik. Misal üçün, toyuq ətini, mal ətini, südü, şəkəri, digər əsas ərzaq məhsullarını biz Rusiyadan, Ukraynadan gətirirdik. Ona görə qarşıya vəzifə qoyulmuşdu ki, biz ərzaq təhlükəsizliyimizi təmin etməliyik. Odur ki, Azərbaycanda taxılçılığın, heyvandarlığın, ümumiyyətlə, bitkiçiliyin inkişafı sürətlə getmişdir. Bu gün biz özümüzü ətlə tam təmin edirik. Toyuq əti ilə 100 faiz, süd və süd məhsulları ilə təqribən 80 faiz səviyyəsində təmin edirik. Əminəm ki, növbəti 2-3 il ərzində öz tələbatımızı tam ödəyəcəyik və eyni zamanda, xaricə də süd məhsulları ixrac edəcəyik. Ona görə bizim əsas məqsədimiz bu məsələlərlə bağlı idi və deyə bilərəm ki, ərzaq təhlükəsizliyi məsələlərinin həlli işində çox böyük nailiyyətlər var.

Ancaq əfsuslar olsun ki, kənd təsərrüfatının digər sahələri bir qədər diqqətdən kənarda qalıb. Bunun da obyektiv və subyektiv səbəbləri var. Hesab edilirdi ki, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatı hər şeyi tənzimləyir, hər şeyi yoluna qoyur. Ancaq həyat göstərir ki, bu belə deyil. Əlbəttə ki, biz bazar iqtisadiyyatına sadiqik, bu gün iqtisadiyyatımızın 80 faizdən çoxu özəl sektorda formalaşır və sahibkarlığın inkişafına çox böyük dəstək verilir, o cümlədən çox böyük maliyyə dəstəyi. Son illər ərzində sahibkarlara müxtəlif layihələri icra etmək üçün 1 milyard manatdan çox məbləğdə güzəştli kreditlər verilib. Ancaq pambıqçılığın tənəzzülə uğraması göstərir ki, dövlət mütləq bu işlərə müdaxilə etməlidir. Bazar iqtisadiyyatı heç də o demək deyil ki, hər şey yolunda olacaq. Pambıqçılığın tənəzzülə uğraması bunun bariz nümunəsidir. Ona görə qərar qəbul edildi ki, bu gün bir halda ki, ərzaq məhsulları və ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərin böyük əksəriyyəti öz həllini tapıb və artıq icrada olan layihələr yaxın zamanlarda öz bəhrəsini verəcək, indi dövlət kənd təsərrüfatının inkişafına həm daha güclü dəstək verməlidir, həm də bu sahəyə daha böyük miqyasda müdaxilə etməlidir. O mənada müdaxilə etməlidir ki, biz fermerlərə kömək göstərək, onların problemlərini həll edək və ölkəmizdə ənənəvi olan, ancaq əfsuslar ki, tənəzzülə uğrayan sahələri bərpa edək və inkişaf etdirək.

Beləliklə, hesab edirəm ki, bu il bu sahədə dönüş ili olmuşdur. Bir daha qayıdıram sovet vaxtına. O vaxt ümumittifaq xalq təsərrüfatı bölgüsü aparılırdı. Bəzi respublikalarda heyvandarlıq, taxılçılıq inkişaf edirdi. Azərbaycanda isə qeyd etdiyim kimi, üzümçülük, pambıqçılıq, tütünçülük, çayçılıq, baramaçılıq və digər sahələr inkişaf edirdi. Sovet İttifaqı dağılandan sonra respublikalararası əlaqələr kəsildi və beləliklə, biz çətin bir vəziyyətlə üzləşdik. Bu gün biz respublika üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik və 2016-cı il bu istiqamətdə dönüş ili olmalıdır.

Bu il baramaçılıqda böyük inkişaf müşahidə olunur. Əgər 2015-ci ildə cəmi 200 kiloqram yaş barama istehsal olunubsa, bu il 70 tona çatıb. Görüləcək tədbirlər nəticəsində bir neçə ildən sonra Azərbaycanda 1000 ton barama tədarük ediləcək. Görün minlərlə, on minlərlə insan nə qədər böyük qazanc əldə edəcək.

Bu il tütünçülüklə bağlı ciddi addımlar atılıb. Biz tütün tədarükünü 2 dəfə artırmaq niyyətindəyik.

Əvvəlki illərdə üzümçülüklə bağlı görülmüş tədbirlər öz bəhrəsini verir. Ancaq hesab edirəm ki, bu, lazımi səviyyədə deyil və daha da böyük investisiyalar qoyulmalıdır.

İxrac qabiliyyətli məhsulların istehsalını artırmaq üçün müxtəlif bölgələrdə böyük fındıq bağları salınacaq. Demək olar ki, mövcud fındıq bağlarından 2 dəfə çox yeni bağlar salınacaq. Artıq yerlər də müəyyən edilib və işlər görülür. Səmərəsiz istifadə olunan torpaqlarda planlı şəkildə növbəli əkin təmin ediləcək.

İndi bizim böyük örüş sahələrimiz var. Kənd təsərrüfatı ilə məşğul olanlar yaxşı bilirlər ki, burada da normativlər var, bir hektarda nə qədər mal-qara saxlanmalıdır. Bu normativlər də pozulur. Heyvandarlıqla bağlı çox ciddi Dövlət Proqramı icra edilir, minlərlə, on minlərlə baş cins mal-qara gətirilir. İndi biz süni mayalanma sisteminə keçirik və 3-4 il ərzində Azərbaycanda mal-qaranın cinsi tam dəyişdiriləcək. Həm ətlik, həm də südlük mal-qara sahəsində böyük məhsuldarlıq təmin ediləcək. Bunun üçün iribuynuzlu mal-qaranın qapalı yerlərdə saxlanması layihələri icra edilir.

Böyük torpaq sahələri daha da səmərəli şəkildə dövriyyəyə buraxılacaq. Ona görə bu il çox ciddi təftiş aparılır. Bəzi torpaqlar müxtəlif adamlar tərəfindən qanunsuz olaraq zəbt edilib və o torpaqlarda heç bir fəaliyyət göstərilmir. O torpaqların icarə müqavilələri ləğv edilməlidir. Artıq bir çox icarə müqavilələri ləğv olunub, bu proses davam etdirilir. Dövlət orqanları, yerli orqanlar və ictimaiyyət tərəfindən çox ciddi nəzarət olmalıdır. Mən dəfələrlə demişəm ki, ictimai nəzarət Azərbaycanda güclü olmalıdır. İctimai nəzarət, yəni vətəndaşların nəzarəti güclü olarsa, onda biz bu işləri daha da böyük uğurla həll edə bilərik.

İxracyönümlü məhsulların istehsalı bu gün ölkə qarşısında prioritet vəzifə olaraq dayanır və bu vəzifə icra edilməlidir. Bu nə ilə bağlıdır? İlk növbədə, biz bunu ona görə etməliyik ki, ölkəmizin mövcud olan bütün kənd təsərrüfatı potensialını 100 faiz səviyyəsində həyata keçirək. Bir qarış torpaq boş qalmamalıdır. Bu, məhsuldarlığı artıracaq, insanlara daha da böyük maddi gəlir gətirəcək, dövlətə də bunun böyük xeyri olacaq.

Kənd təsərrüfatının inkişafı Azərbaycanda prioritet sahədir. İndi fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Böyük həcmdə subsidiyalar verilir. Fermerlərə subsidiya şəklində 200 milyon manata yaxın vəsait verilir. Kənd təsərrüfatı texnikası, gübrələr alınır və yanacaq fermerlərə güzəştli şərtlərlə verilir. Burada da həm dövlət nəzarəti, ictimai nəzarət güclü olmalıdır, həm də yerli icra orqanları bu işlərdə daha da fəal olmalıdır ki, dövlət tərəfindən ayrılan vəsait ünvana çatsın və bunun nəticəsi olsun. Ona görə subsidiyalarla bağlı məsələlər indi təhlil edilir, yeni təkliflər hazırlanır.

Bildiyiniz kimi, dünyada neftin qiymətinin düşməsi ilə bağlı bizim gəlirlərimiz də azalıb. Əgər qiymət 3-4 dəfə düşürsə, gəlirlər də 3-4 dəfə azalır. Biz Azərbaycana valyuta axınını təmin etməliyik. Ona görə ixracyönümlü məhsulların istehsalı xüsusi əhəmiyyət daşıyır. Pambıq da ixracyönümlü məhsuldur. Təsadüfi deyil ki, pambığa «ağ qızıl» deyirlər. Bu il pambıqçılığın bərpasının birinci ilidir. İndi statistikaya baxdıqda göz önünə çox acınacaqlı mənzərə çıxır. Əgər ulu öndərin yorulmaz səyləri və

zəhmətkeşlərin böyük fədakarlığı nəticəsində keçən əsrin 70–80-ci illərində 1 milyon ton pambıq tədarük edilirdisə, keçən il cəmi 35 min ton yığılıb. Əgər o illərdə 300 min hektarda pambıq əkilirdisə, keçən il cəmi 18 min hektarda pambıq əkilib. Bu nə deməkdir?! Bu, pambıqçılığın məhvi deməkdir. Bu dözülməzdir və artıq ciddi tədbirlər görülür. Düzdür, biz bu il bir az gecikmişik. Ancaq bu il yenə də yaxşı nəticələr gözlənilir. Bu gün burada rayonlar üzrə çıxış edənlər məruzələrində deyəcəklər. Bu il bütövlükdə 51 min hektar sahədə pambıq əkilib. Keçən illə müqayisədə bu təxminən 3 dəfə çoxdur.

Əgər keçən il 35 min ton pambıq yığılıbsa, bu il ən azı 100 min ton pambıq yığılmalıdır. Gələn il üçün bizim daha da böyük planlarımız var. Gələn ilə hazırlıq işləri artıq başlanıb. Bu il buna böyük vəsait sərf olunub, operativ olaraq bütün lazımi tədbirlər görülübdür. Suvarma ilə, elektrik enerjisi ilə bağlı tədbirlər görülüb, yeni pambıqyığan kombaynlar, yüzlərlə adda kənd təsərrüfatı texnikası gətirilib və bəzi texnikalar hələ ki, yoldadır. Gələn ay onlar da gəlib çatacaq və 2017-ci ildə də gətiriləcəkdir.

Dünyada iqtisadi böhranın davam etdiyi indiki şəraitdə gəlirlərimiz 3-4 dəfə azalıb. Buna baxmayaraq, biz yenə də kənd təsərrüfatı texnikası alıb fermerlərə güzəştli şərtlərlə vermək üçün yüz milyonlarla dollar vəsait xərcləyirik ki, onlar da pul qazansınlar və dövlətə də bunun xeyri olsun.

Pambıqçılığın inkişafı iqtisadi məsələlərin həlli ilə yanaşı, eyni zamanda, sosial məsələdir. Çünki mənə verilən məlumata görə, bu il 24 rayonda pambıq tarlalarında 70 minə yaxın insan işləyəcək və bu, məşğulluğun artırılması deməkdir. Son 13 il ərzində ölkəmizdə 1 milyon 300 min iş yeri yaradılıb. Bu, tarixi nailiyyətdir. İşsizliyin aradan qaldırılması istiqamətində çox ciddi addımlar atılıb. Ancaq bu, daimi proses olmalıdır. Nə üçün? Çünki bəzi başqa ölkələrdən fərqli olaraq, Azərbaycanda demoqrafik dinamika çox müsbətdir. Bu da bizim iqtisadi inkişafımızla bağlıdır və əhali artır. Əgər keçən əsrin 70-ci illərində əhali təqribən 7 milyon nəfər idisə, bu gün 10 milyona yaxınlaşır. Əgər o illərdə pambıq yığımına tələbələri cəlb edirdilərsə, bu gün buna ehtiyac yoxdur. Çünki

bizdə kifayət qədər əmək resursları var. Ona görə pambıqçılığın inkişafı yeni iş yerlərinin yaradılması deməkdir. Hesab edirəm ki, gələn il əkin sahələri daha da artacaq və beləliklə, işləyənlərin sayı da artmalıdır. Pambıq əkilən rayonlarda yüz minlərlə insan bu işlərə cəlb ediləcək. Biz bu il pambığın alış qiymətini 20 faiz qaldırdıq. Ancaq yenə də baxmalıyıq, bəlkə yenə də qaldırmaq lazımdır. Bu gün buraya gələrkən görkəmli pambıqçı, Sosialist Əməyi Qəhrəmanı Fatma xanım Hüseynovanın briqadasında oldum. Sağ olsun, mənim üçün çay süfrəsi də açmışdı. Biz yaxşı xatirələri bölüşdük, gəlin Fatma xanımı salamlayaq. Orada da söhbət əsnasında deyildi ki, bəli, alış qiymətləri artıb, ancaq yaxşı olar ki, bir az da artsın. Əlbəttə, yaxşı olar, biz də bunu istəyirik, fəhlələr üçün daha yaxşı olacaq. Ona görə mən indi müvafiq orqanlara tapşırıq verirəm ki – Prezident Administrasiyası, Kənd Təsərrüfatı, İqtisadiyyat nazirlikləri, pambıqla məşğul olan firmalar da baxsınlar – biz nə qədər mümkünsə, əlbəttə, alış qiymətini qaldırmalıyıq. İlk növbədə ona görə ki, insanlar daha da çox pul əldə etsinlər. Eyni zamanda, biz pambıqçılığın inkişafının stimullaşdırılması üçün əlavə tədbirlər görməliyik. Biz bu il qısa müddət ərzində – cəmi bir neçə ayda inzibati yollarla böyük işlər gördük, texnikanın cəlb edilməsi, suvarma, elektrik ilə bağlı məsələləri operativ qaydada həll etdik. Ancaq biz elə etməliyik ki, kəndlilər özləri də maraqlı olsunlar. Belə olan halda, əlbəttə ki, biz daha da çox məhsul əldə edəcəyik.

Əlbəttə, məhsuldarlıqla bağlı olan məsələlər də gündəlikdədir. Ötən əsrin 70-ci illərindən fərqli olaraq, bu gün dünyada daha da müasir texnologiyalar var və biz o texnologiyaları Azərbaycana gətiririk və gətirməliyik ki, məhsuldarlıq daha da artsın. Əgər keçən il hektardan məhsuldarlıq 20 sentner idisə, hesab edirəm ki, biz görüləcək tədbirlər nəticəsində bunu təqribən 30–35, bəlkə də 40 sentnerə qaldıra bilərik. Beləliklə, özünüz yaxşı bilirsiniz ki, bu nə deməkdir. Mən Prezident Administrasiyasının bu işlərdə fəaliyyətini xüsusilə vurğulamaq istəyirəm. Vaxt məhdudiyyətinə baxmayaraq, biz məhz Prezident Administrasiyasının səyi və yerli icra orqanlarının rəhbərlərinin fəaliyyəti nəticəsində bu il bu

dönüşə nail ola bildik. İcra başçıları da, fəallar da, zəhmətkeşlər də çox yaxşı işlədilər.

Bir daha demək istəyirəm ki, 2016-cı il pambıqçılığın inkişafı üçün həlledici il olacaq. Bu, bir başlanğıcdır və əminəm ki, bundan sonra pambıqçılıq Azərbaycanda sürətlə inkişaf edəcək, geniş vüsət alacaq. Dediyim kimi, bunun həm insanlara, həm dövlətə böyük xeyri olacaq.

## YEKUN NİTQİ

Bugünkü müşavirədə 6 rayonun icra hakimiyyətinin başçısı çıxış etdi. O rayonlar ən çox pambıq rayonlarıdır. 2 şirkətin nümayəndəsi çıxış etdi. Səslənən məruzələrdə artıq görülən işlər haqqında kifayət qədər dolğun məlumat verildi. Hesab edirəm ki, görülən işlər təqdirəlayiqdir və biz bu işləri davam etdirməliyik. İndi yığımın əsas mərhələsi başlanır. Yığım vaxtı bütün lazımi tədbirlər görülməlidir. Bu gün mən öz fikirlərimi bildirəcəyəm və tapşırıqlarımı verəcəyəm. Amma əvvəlcə istərdim ki, bəzi statistik göstəricilər haqqında sizi məlumatlandırım.

Ulu öndər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçiləndə respublikada pambığın istehsalı 300 min ton idi, 1981-ci ildə isə 1 milyon 15 min tona çatmışdı. Yəni 10 il ərzində pambıq istehsalı 3 dəfədən çox artdı. Heydər Əliyev Azərbaycandan Moskvaya gedəndən sonra hər sahədə olduğu kimi, pambıqçılıq sahəsində də tənəzzül dövrü başlandı və bu, statistikada özünü göstərir. Artıq 1985-ci ildə Azərbaycanda pambıq istehsalı 1 milyon tondan 780 min tona düşmüşdü. Ondan sonra tənəzzül daha da sürətlə getdi. Qeyd etdiyim kimi, nəticədə, keçən il cəmi 35 min ton pambıq yığılmışdır ki, bu da ən aşağı göstəricidir.

Bu il görülən tədbirlər nəticəsində biz ən azı 100 min ton pambıq tədarükünü gözləyirik, əgər məhsuldarlıq 20 sentner ətrafında olarsa. Burada çıxışlarda digər rəqəmlər də səsləndi. Biz bəzi yerlərdə 20 sentner, bəzi yerlərdə ondan da çox məhsuldarlıq əldə edə bilərik. Ona görə bu rəqəmlər təbii ki, şərtidir. Biz mövsümün sonunda bu məsələlərlə bağlı tam dolğun mənzərə hasil edəcəyik.

Gələn il üçün daha da böyük istehsal gözlənilir, əgər məhsuldarlıq 20 sentner səviyyəsində olarsa. Mən hesab edirəm ki, daha da çox olmalıdır. Gələn il 200 min tondan çox pambıq istehsal ediləcək. Mən heç bir rəqəm səsləndirmək istəmirəm. Heç bir xüsusi göstəriş vermək istəmirəm, onu həyat göstərər. Amma biz bilməliyik ki, pambığın istehsalını hansı ardıcıllıqla artırmalıyıq. Hesab edirəm ki, 2017-ci ildə əgər bütün tapşırıqlar yerinə yetirilərsə – belə də olmalıdır – biz 250 min, hətta 300 min ton pambıq istehsal edə bilərik.

Pambığın məhsuldarlığı ilə bağlı rəqəmlər də artıq hər şeyi özlüyündə göstərir. 1970-ci ildə hektardan məhsuldarlıq 17 sentner, 1981-ci ildə təxminən 36 sentner idi. Bu gün isə bu, 18,8 sentnerə bərabərdir. Kənd təsərrüfatı bitkilərinin əkin sahəsinin strukturunda pambığın payı da çox maraqlı statistikadır. Beləliklə, bu pay 1970-ci ildə 16 faiz təşkil edirdi, 1982-ci ildə 22 faiz, 2015-ci ildə isə 1,2 faiz. Mən deyəndə ki, pambıqçılıq Azərbaycanda batır, bax, bunu nəzərdə tuturam.

Azərbaycanda 1970-ci ildə 190 min hektar, 1982-ci ildə isə 305 min hektar sahədə pambıq əkilmişdir. Keçən il ən aşağı səviyyəyə düşmüşdür – 18700 hektar. Bu il 52 min hektar əkilib. Gələn il hədəf 128 min hektardır. Əgər biz indiki səviyyəni götürsək, qeyd etdiyim kimi, 128 min hektar torpağın əkilməsi ən azı 250 min ton pambıq deməkdir. Ancaq yenə də deyirəm, biz hədəfi 300 min ton götürməliyik.

Rayonlar üzrə pambıq əkininin statistikası belədir: bu il ən çox Saatlı rayonunda əkilibdir – 8100 hektar, ondan sonra Sabirabad – 6100 hektar, daha sonra Biləsuvar – 6000 hektar, İmişli – 5000 hektar, Beyləqan – təxminən 4000 hektar, Ağcabədi 3600 hektar, Bərdə 3000 hektar və sair. Beləliklə, 24 rayonda pambıq əkilib.

Gələn ilin hədəfləri isə bundan ibarətdir: yenə də birinci yerdə Saatlı rayonudur – 17000 hektar, ondan sonra Sabirabad – 15000 hektar, Biləsuvar – 10500 hektar, Neftçala – 10000 hektar – bu il cəmi 1500 hektar, yəni Neftçala rayonunda yəqin ki, ən sürətli artım gözlənilir, İmişli – 10000 hektar, Beyləqan – 8500 hektar, Bərdə – 8500 hektar, Ağcabədi – 8000 hektar, Salyan – 7000

hektar. Salyan rayonunda ancaq bu il pambıq əkilib – 2180 hektar sahədə. Keçən il əkilməmişdi. Gələn il 7000 hektarda əkin gözlənilir. Yəni bu da çox sürətli inkişaf dinamikasıdır. Xüsusilə nəzərə alsaq ki, Salyan rayonunda artıq neçə ildir ki, pambıq, ümumiyyətlə, əkilmirdi. Goranboy rayonunda 5000 hektar, Kürdəmirdə 4000 hektar, Yevlax, Ağdaş, Tərtər, Zərdab, Ağdamda 3000 hektar, Ağsu və Ucarda 2500 hektar, Füzulidə 1500 hektar, Hacıqabulda 1200 hektar, Göyçayda 1000 hektar, Samuxda 500 hektar, Cəlilabadda 500 hektar, Cəbrayılda 60 hektar. Bu statistika bizə hər şeyi göstərir. Həm vəziyyəti, həm də ki, bizim hədəflərimizi göstərir. Bir daha demək istəyirəm, əminəm ki, biz istədiyimizə nail olacağıq.

İndiki dövr üçün vəzifələr nədən ibarətdir?! İlk növbədə, pambığın yığımı vaxtında və itkisiz təmin edilməlidir. Yerli icra orqanları, mərkəzi icra orqanları, sahibkarlar bu vəzifələri icra etməlidirlər. Artıq burada səsləndirildi, bu il 100 min tondan çox məhsul gözlənilir. Bu, ən sürətli dinamikadır. Biz pambığın istehsalını 35 min tondan 100 min tona çatdıracağıq. Bir il ərzində biz 3 dəfə istehsalı artıracağıq. Nəzərə alsaq ki, biz bu işlərlə cəmi bir neçə ay ərzində məşğul olmağa başlamışıq, göstəricilər doğrudan da təsiredicidir. Pambığın qəbul məntəqələrinə və emal zavodlarına daşınması üçün magistral yollarda təhlükəsiz hərəkət təmin edilməlidir. Daxili İşlər Nazirliyi və yerli icra orqanları bu işlərlə ciddi məşğul olmalıdır. Yanğından mühafizə tədbirləri görülməlidir. Pambığın tədarükü və emalı dövründə emal zavodları və qəbul məntəqələri fasiləsiz elektrik enerjisi ilə təmin edilməlidir. Bu çox vacib məsələdir və «Azərişıq» şirkəti bu məsələni icra etməlidir.

Mən bunu artıq qeyd etdim, pambığın alış qiyməti 40 qəpikdən 50 qəpiyə qaldırıldı. Əlbəttə ki, çox ciddi artımdır. Ancaq baxmaq lazımdır ki, bu işlərlə məşğul olaraq, alış qiymətini bir daha qaldıraq. Burada, əlbəttə ki, insanların gəlirləri xüsusi diqqət mərkəzində olmalıdır. Eyni zamanda, bu işin iqtisadi səmərəliliyi təmin edilməlidir. Giriş sözümdə qeyd etdiyim kimi, biz kəndliləri stimullaşdırmalıyıq ki, özləri də bu işə geniş şəkildə qoşulsunlar.

Tədarükçü şirkətlər fermerlərin pulunu ləngitmədən və dəqiq verməlidir. Burada artıq səsləndirildi və hesab edirəm ki, bu məsələ ilə bağlı heç bir şikayət yoxdur. Əgər olarsa, mənim bundan xəbərim olmalıdır. Bu il 60 mindən çox insan bu işlərə cəlb edilib. Bu, yaxşı göstəricidir. Ancaq biz çalışmalıyıq ki, pambıqçılıqla məşğul olanların sayı artsın. Çünki bu eyni zamanda, sosial məsələdir, iş yerlərinin yaradılmasıdır. Burada iri şirkətlər sosial məsələləri də nəzərə almalıdır. Əlbəttə, hər bir şirkət çalışır ki, öz işini optimallaşdırsın.

İndi dünyanın inkişaf etmiş ölkələrində müasir texnologiyalara keçid əmək qüvvəsinə tələbatı azaldır. Bu təbiidir, bu, texnoloji tərəqqidir. Ancaq bizim şirkətlər, əlbəttə ki, sosial məsuliyyəti də hiss etməlidir. Ona görə optimallaşma ilə paralel olaraq mütləq bu sosial məsələ diqqətdən kənarda qalmamalıdır. Əlbəttə ki, nə qədər çox insan bu işlərə cəlb edilərsə, o qədər də yaxşı olar. Mənə bəzi rəqəmlər təqdim olunur. Hesablamalar aparılıb ki, hər hektarda orta hesabla iki nəfər işləyə bilər. Bəziləri deyir ki, bu çoxdur. Ancaq mən hesab edirəm ki, ilk növbədə, burada sosial məsələ ön planda olmalıdır. Gələn il pambıqçılıq 100 mindən çox iş yerinin yaradılmasına gətirib çıxaracaq. Biz əkin sahələrini genişləndirdikcə, bu rəqəm daha da artacaq. Əgər biz gələcəkdə 200 min hektarda pambıq əkəcəyiksə, bu təqribən 350–400 min insanın işlə təmin edilməsi deməkdir.

Pambıq tarlalarında işləyənlər üçün yaxşı şərait yaradılmalıdır. Əlbəttə ki, hər yerdə tarla düşərgəsi olmalıdır. Orada lazımi ərzaq təminatı, içməli su təşkil edilməlidir ki, işləyənlərin şəraiti yaxşı olsun, çünki pambıqçılıq ağır sahədir. Biz hamımız bunları yaxşı bilirik və insanlara maksimum dərəcədə qayğı, diqqət göstərilməlidir. Həm tədarükçü şirkətlər, həm iri şirkətlər, eyni zamanda, yerli icra hakimiyyəti orqanları bu məsələni daim diqqət mərkəzində saxlamalıdır.

Bu il pambıqçılığın sürətli inkişafı üçün 3700 kənd təsərrüfatı texnikası alınıb. Onlardan 100-dən çoxu pambıqyığan kombayndır. Əlavə 100-dən çox kombayn oktyabr ayının birinci yarısında ölkəmizə gətirilməlidir. Gələn il isə 60 kombayn gətiriləcək.

Burada bəzi çıxışlarda səsləndi ki, texnika ilə təminat daha da yaxşı olmalıdır. Bütün bu işlər nəzərə alınıb və giriş sözümdə də qeyd etdiyim kimi, dövlət büdcəsindən bu məqsədlər üçün kifayət qədər böyük maliyyə vəsaiti, özü də valyutada olan maliyyə vəsaiti ayrılıb.

Biz artıq pambıqçılığın inkişafı ilə bağlı uzunmüddətli strategiya üzərində işləyirik. İlkin rəqəmlər var. Onlar dəqiqləşdirilməlidir ki, biz burada səhvə yol verməyək. Ancaq ilkin hesablamalar onu göstərir ki, əgər biz bu yolla getsək – əlbəttə ki, gedəcəyik – və lazımi maliyyə təminatı olarsa, 2020-ci ildə təqribən 200 min hektarda pambıq əkə bilərik. Yəni biz bunu əsas hədəf kimi götürərək, bütün lazımi işləri bu istiqamətdə aparmalıyıq.

Gözlənilən məhsuldarlıqla bağlı yəqin ki, bu gün danışmaq bir qədər tezdir. Ancaq bu hesablamalar da aparılmalıdır və onlar görüləcək tədbirlər üzərində qurulmalıdır. Çünki indi burada qeyd olunduğu kimi, yeni texnologiyalar mövcuddur, xüsusilə suvarma sahəsində pilot sistemi artıq tətbiq edilir. Pilot sistemi ilə məhsuldarlıq 35–45 sentner səviyyəsində mümkündür. Açıq suvarma yolu ilə 20–30 sentner məhsul götürmək olar. Biz çalışmalıyıq ki, pilot sistemini Azərbaycanda maksimum dərəcədə tətbiq edək. Əgər 2020-ci ildə 200 min hektarda pambıq əkiləcəksə, bunun minimum üçdəbir hissəsi pilot sistemi ilə təmin edilməlidir. Belə olan halda, biz məhsuldarlığı xeyli artıra bilərik. Bu, insanların da gəlirlərinə müsbət təsir göstərəcək, eyni sahədə onlar indikindən təxminən 2 dəfə çox qazanc götürə biləcəklər. Çalışmalıyıq ki, biz orta məhsuldarlığı keçən əsrin 80–81-ci illərində ən pik nöqtədə olan məhsuldarlığın səviyyəsinə qaldıraq – təqribən 35 sentnerə. Əgər orta məhsuldarlıq olarsa, 200 min hektardan 700 min ton pambıq yığılacaq. Bu da pambıqçılığın faktiki olaraq, tam bərpası, özü də müasir səviyyədə bərpası demək olacaq.

Bu işləri bundan sonra da səmərəli təşkil etmək üçün burada çox ciddi koordinasiya olmalıdır. Bu il biz buna qısa müddət ərzində nail ola bilmişik. Ümumi koordinasiya işlərini Prezident

Administrasiyası öz üzərinə götürüb. Zeynal Nağdəliyev bu işlərlə şəxsən məşğuldur. Yerli icra başçıları, qeyd etdiyim kimi, fəal işləyiblər. Bütün dövlət qurumları – Kənd Təsərrüfatı, İqtisadiyyat, Daxili İşlər, Fövqəladə Hallar nazirlikləri, yerli icra orqanları, «Meliorasiya və Su Təsərrüfatı», «Azərişıq», «Azəravtoyol» şirkətləri arasında çox ciddi koordinasiya işləri aparılmalıdır. Bir daha demək istəyirəm, əvvəlki illərin təcrübəsi onu göstərir ki, əgər biz pambıqçılığın inkişafını ancaq biznes qurumlarının öhdəsinə buraxsaq, pambıqçılığı itirərik, necə ki, itiririk. Ona görə çox ciddi dövlət siyasəti aparılmalıdır və dövlət burada əsas rol oynayır. Dövlətin rolu təkcə koordinasiya işlərinin təşkili ilə məhdudlaşmır. Dövlət vəsait xərcləyir, texnika gətirir, meliorativ tədbirlər görür, yarımstansiyalar yaradır, elektrik xətləri çəkir. Biz bütün bunları dövlət hesabına edirik ki, fermerlər, fəhlələr daha yaxşı yaşasınlar, daha çox pul qazansınlar.

Bir daha qeyd etmək istəyirəm ki, pambıqçılıq özündə bir çox önəmli amili birləşdirir. Bu, kənd təsərrüfatının sürətli inkişafı, yüz minlərlə iş yerinin yaradılması, ixrac potensialımızın inkişafı deməkdir və dövlətin özəl sektora praktiki diqqətinin, dəstəyinin təzahürüdür. Ona görə də koordinasiya mütləq olmalıdır və bütün işlər vahid mərkəzdən idarə edilməlidir. Biz ancaq bu təqdirdə istədiyimizə nail ola bilərik.

Torpaqların münbitliyi ilə bağlı tədbirlər görülməlidir. Münbitliyin və məhsuldarlığın artırılması üçün növbəli əkin sisteminə keçməliyik – pambıq, yonca, taxıl. Bunu kənd təsərrüfatı mütəxəssisləri yaxşı bilirlər. Növbəli əkin sisteminə keçmək üçün, əlbəttə ki, həm mövcud torpaq fondu, həm də gələcək torpaq fondu dəqiqliklə müəyyən edilməlidir. Çünki gələcəkdə torpaq fondu böyük dərəcədə artacaq. Bu, bəzi çıxışlarda səsləndi. Mən bu təklifləri dəstəkləyirəm ki, növbəti mövsümdə biz əkin sahəsinə görə deyil, yığılan məhsula görə subsidiya verməliyik. Aidiyyəti qurumlar indidən bu məsələni işləsinlər, hazırlasınlar, təkliflər versinlər. Bu daha da məqsədəuyğun və ədalətli olacaq.

Azərbaycanda sahibkarlığın inkişafı sürətlə gedir. Son illər ərzində dövlət xətti ilə sahibkarlara güzəştli şərtlərlə, aşağı faizlə 1

milyard manatdan çox kreditlər verilib. Bu kreditlər hesabına yüzlərlə, minlərlə kənd təsərrüfatı müəssisəsi, emal müəssisələri yaradılıb. Biz ərzaq təhlükəsizliyimizi böyük dərəcədə bu kreditlər hesabına təmin edə bilmişik. Çünki fermerlər və sahibkarlar üçün bu kreditlər xüsusi əhəmiyyət daşıyır. Onlar həm güzəştli vəsait əldə edirlər, həm də dövlətlə ünsiyyətdə olurlar. Bilirlər ki, dövlət bəzi hallarda tənbeh etsə də, onları həmişə dəstəkləyəcək. Bəzən sahibkarlar ödənişləri vaxtında edə bilmirlər. Əgər hər hansı kommersiya bankı ilə onların əlaqələri olarsa – əlbəttə, bu da lazımdır – orada çox sərt cəza tədbirləri ola bilər. Dövlət isə, əlbəttə ki, burada sahibkarlar üçün ən yaxşı tərəfdaşdır.

Verilmiş kreditlərin böyük əksəriyyəti qaytarılır. Misal üçün, bu il yenə güzəştli kreditlər verilib. Onların böyük əksəriyyəti əvvəlcə verilmiş və qaytarılmış kreditlər hesabına verilib. Yəni 1 milyard dəyərində kredit şəklində verilmiş bu vəsait artıq dövriyyədədir və özlüyündə bir canlanma gətirir. Bu müsbət təcrübəni nəzərə alaraq, biz pambıqçılığın inkişafına da güzəştli kreditlər verməliyik. Əvvəllər bu olmayıb. Yəni bu ildən İqtisadiyyat Nazirliyi bunu nəzərə alacaq və sonra mənə ayrıca məruzə edəcək ki, ayrılmış kreditlərin neçə faizi pambıqçılığın inkişafına gedəcək.

Bir daha qeyd etmək istəyirəm ki, biz torpaqlardan çox səmərəli şəkildə istifadə etməliyik. Bizim çox böyük torpaq sahələrimiz yoxdur. Biz ancaq yeni texnologiyalar, meliorativ tədbirlər nəticəsində yeni, böyük torpaq sahələrini dövriyyəyə cəlb edə bilərik. Misal üçün, bu yaxınlarda Salyan rayonunda olarkən, pambıq tarlalarında pambıqçılarla görüşlər əsnasında gördüm ki, orada vaxtilə şoranlaşmış torpaqlarda böyük pambıq sahələri yaradılıb. Bu mümkündür və belə şoranlaşmış torpaqlar bizdə kifayət qədər çoxdur. Yəni kənd təsərrüfatı üçün yararsız torpaqlar kifayət qədər çoxdur. Ancaq orada da məhsul yetişdirmək olar. Mən Salyandan Bakıya qayıdarkən fikir verdim ki, Qaradağ rayonuna qədər yolboyu sağ, sol, hər tərəf boş torpaqlardır. Orada heç nə əkilmir, heç nə bitmir. Onları da əkin dövriyyəsinə cəlb etmək olar. Sadəcə olaraq, yeni texnologiyalar gətirilməlidir,

suvarma sistemi qurulmalıdır, digər tədbirlər görülməlidir. Çünki bizim əsas məqsədimiz torpaqlardan səmərəli şəkildə istifadə etməkdir. İndi mövcud torpaq fondunun nə qədər olduğu bəllidir. Qeyd etdiyim kimi, istifadəsiz torpaqlar dövriyyəyə qaytarılmalıdır. Torpağı icarəyə götürən mütləq torpaqda işləməlidir, onu əmanət kimi saxlamamalıdır. Eyni zamanda, rayonlaşma getməlidir, hansı rayonda hansı məhsullar daha çox gəlir gətirir, daha çox sərfəlidir. Biz buna da baxmalıyıq, müvafiq göstərişlər verilib. Hesab edirəm ki, biz subsidiyalarla bağlı da artıq rayonlaşma sisteminə keçməliyik. Mən bu yaxınlarda Masallı rayonunda idim. Orada icra başçısından soruşdum ki, sizdə indi taxılçılıqda məhsuldarlıq nə qədərdir, dedi hektardan 20 sentner. Bizdə ölkə üzrə bu göstərici 30 sentnerdir. Amma elə təsərrüfatlar var ki, yeni texnologiyalara və iqlim şəraitinə görə hektardan 40–50 sentner taxıl götürülür. Ona görə bəlkə də Masallıda taxılçılığa subsidiya vermək lazım deyil, tərəvəzçiliyə, çayçılığa vermək lazımdır. Bu göstərişlər verilib. Mən bu barədə dəfələrlə danışmışam və son vaxtlar konkret tapşırıqlar verilib, indi təkliflər verilməlidir. Regionlar üzrə subsidiyalaşma təmin edilməlidir və bu özlüyündə kənd təsərrüfatının stimullaşdırılmasına gətirib çıxaracaq. Xoşbəxtlikdən elə gözəl ölkədə yaşayırıq ki, bizim 9 təbii iqlimimiz var. Biz hər şeyi yetişdirə bilərik, çaydan tutmuş, pambığa qədər, üzümdən tutmuş, meyvə-tərəvəzə qədər. Qeyd etdiyim kimi, şimal-qərb zonasında böyük fındıq bağları salınacaq. Ancaq səmərəli yanaşma olmalıdır və fermerlərə çox ciddi kömək göstərilməlidir.

Bir daha qayıdıram bu məsələyə, bazar iqtisadiyyatı çox məsələləri həll edir və həll edib. Amma bütün məsələləri həll edə bilməz. Biz əgər öz işimizi ancaq bazar iqtisadiyyatı prinsipləri əsasında qursaydıq, heç bir sosialyönümlü layihəyə pul ayırmazdıq. Görün Azərbaycanda dövlət büdcəsi hesabına nə qədər böyük sosialyönümlü layihələr icra edilir. Yollar, içməli su, kanalizasiya layihələri, məktəblərin, xəstəxanaların tikintisi, yeni iş yerlərinin yaradılması – bütün bunlar sosial xarakterli işlərdir. O cümlədən mən iqtisadi inkişafla bağlı həmişə demişəm ki, bizim

iqtisadiyyatımız sosialyönümlü olmalıdır. Çünki insanlar siyasətimizin mərkəzindədir. Nəyi ediriksə, Azərbaycan vətəndaşları üçün edirik. Pambıqçılığı inkişaf etdiririk ki, insanlar daha da yaxşı yaşasınlar, daha da yaxşı pul qazansınlar. Ona görə bu sosial sfera mütləq və mütləq prioritet olmalıdır. Amma bazar iqtisadiyyatı şəraitində yaşayan ölkələrdə bu belə deyil. Orada da zəlzələlər olur, dövlət zərərçəkənlərə bir manat və ya bir dollar pul verirmi? Yox! Bizdə zəlzələ olub, minlərlə ev dövlət hesabına bərpa edilib, özü də əvvəlkindən 10 dəfə yaxşı şərait yaradılıb. Bunu dövlət edir. Ona görə biz iqtisadi inkişafla bağlı da sosial məsələləri mütləq diqqətdə saxlamalıyıq. Dövlətin iqtisadi inkişafdakı rolu əvəzolunmazdır. Əgər bazar iqtisadiyyatına qalsaydı, 2004-cü ildə birinci regional proqram qəbul olunmasaydı, indi bizim vəziyyətimiz necə olacaqdı? Ovaxtkı vəziyyətimizi yadınıza salım – nə işıq, nə qaz, nə su var idi. Yol yox idi, iş yerləri yox idi. Bu bölgələrdə yaşayan insanlar bunu yaxşı xatırlayırlar. Biz o proqramı qəbul etdik, maliyyə resursları cəlb etdik, investisiya qoyduq, canlanma getdi. Bizim bütün bölgələrimiz çiçəklənir, şəhərlərimizin siması yaxşılaşır, iş yerləri yaradılır. Dünyada gedən xaos, böhran, anarxiya, toqquşmalar, tənəzzül bizə ən az təsir edir. Nəyə görə? Çünki biz düzgün siyasət aparırıq. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı durur. Ölkəmizi inkişaf etdiririk, ölkəmizin maraqları hər şeydən üstündür.

Kənd təsərrüfatının inkişafı bizim gələcəyimizdir. Hər bir ölkə nəyin hesabına yaşayır? İxrac hesabına. Ölkə ixrac etməsə yaşaya bilməz. İnkişaf etmiş ölkələr nəyi ixrac edir? Ağlı, zəkanı, texnologiyanı ixrac edir. Maşınlar, mexanizmlər, dəzgahlar, müasir texnologiyalar ixrac olunur və o ölkələr bununla da çox inkişaf edir. Biz nə ixrac edə bilərik? Hələ ki, biz texnologiya ixrac edə bilmirik və yəqin ki, edə bilməyəcəyik. O böyük dövlətlərlə ayaqlaşmaq mümkün deyil. Onların texnoloji inkişafla, tərəqqi ilə bağlı minlərlə beyin mərkəzləri var. Ən mütərəqqi, qabaqcıl alimlər, Nobel mükafatı laureatları işləyir. Biz ixrac edə bilərikmi? Əgər açıq danışsaq, əlbəttə ki, yox. Ona görə də bizim kimi böyük problemlərlə üzləşmiş gənc müstəqil dövlət əvvəlcə təbii

imkanlarının hesabına yaşamalıdır – ilk addım kimi. Bunun üçün biz ulu öndərin uzaqgörənliyi ilə neft strategiyasını həyata keçirdik və böyük maliyyə vəsaiti əldə etdik.

İndi Azərbaycanda sənayeləşmə prosesi gedir. Biz indi sənaye müəssisələri yaradılması istiqamətində böyük işlər görürük. Emal sənayesi, kənd təsərrüfatı inkişaf etdirilir. Biz kənd təsərrüfatı məhsullarının ixracı üçün yeni bazarlara çıxmalıyıq və çıxırıq. Halbuki bu o qədər də asan məsələ deyil. İndi dünyada bazarlar uğrunda mübarizə gedir. Avropa bazarlarına çıxmaq üçün çox problemlər var. Məncə bu gün bu çox çətin məsələdir. Biz regional bazarlara çıxırıq. Amma Azərbaycanda elə məhsul istehsal edilməlidir ki, bazarlardan asılı olmasın. Bax, pambıq o məhsullardandır. Çünki dünya birjalarında satılır. Pambığın hansısa birbaşa alıcısı yoxdur, dünya birjasında satılır. Biz yaxın vaxtlarda böyük poladtökmə-metallurgiya komplekslərinin yaradılmasına start verəcəyik. Daşkəsən filiz yataqlarının istismarı və qurulacaq bir neçə zavodun fəaliyyəti sayəsində yüz milyonlarla dollar ixrac potensialımız yaradılacaq. İndi biz Sumqayıtda Kimya Sənaye Parkını yaradırıq və 2018-ci ildə Polimer zavodu fəaliyyətə başlayacaq. O da təqribən yüz milyonlarla dollar ixrac potensialı yaradacaq. Sumqayıtda Gübrə zavodu tikilir. Biz özümüzü gübrə ilə 2018-ci ildən sonra tam təmin edəcəyik və bu, kənd təsərrüfatının inkişafına da müsbət təsir göstərəcək. Çünki daha idxaldan asılı olmayacağıq və məhsul ixrac edəcəyik. Ona görə pambıqçılıq bu sıradan olan məhsuldur. Biz çalışmalıyıq ki, daha çox məhsul yetişdirək, xarici bazarlara sataq, həm mahlıc, həm də hazır məhsul formasında. Mən bir qədər sonra bu barədə də fikirlərimi bildirəcəyəm.

Pambıqçılığın inkişafı, ümumiyyətlə, bizdə sənayenin inkişafına çox müsbət təsir göstərəcək. Yaxın gələcəkdə Mingəçevir şəhərində yeni sənaye komplekslərinin təməlini qoyacağıq. Mingəçevir sənaye şəhəridir və Mingəçevirin inkişafı ilə bağlı bizim konkret planlarımız var. Hesab edirəm ki, Mingəçevir Azərbaycanın sənaye mərkəzlərindən birinə çevrilməlidir. Necə ki, bu gün Bakı, Sumqayıt nəinki Azərbaycanın, hətta Cənubi Qafqazın ən böyük

sənaye şəhərləridir. Gəncə şəhərində sənayeləşmə prosesi sürətlə gedir. Hesab edirəm ki, Mingəçevirdə yüngül sənayenin inkişafı prioritet olaraq qalmalıdır. Yaxın illərdə Mingəçevirdə bir neçə zavod və fabrikin yaradılması nəzərdə tutulur. Oraya qoyulacaq sərmayənin həcmi 100 milyon dollardan çox olmalıdır. İnşaat zamanı minlərlə insan işləyəcək. Zavodların fəaliyyətini təmin etmək üçün birinci mərhələdə 2000, sonrakı mərhələdə isə 7000 iş yeri yaradılacaq. Orada pambıq-iplik, yun-iplik fabrikləri, digər fabriklər yaradılacaq. O fabriklərin əsas xammal bazası pambıqçılıq olacaq.

Biz buna da hazır olmalıyıq. Eyni zamanda, nəzərə alsaq ki, biz pambığın istehsalının çox sürətli şəkildə artırılmasını planlaşdırırıq, yəqin – burada çıxışların birində bu səsləndirildi – əlavə emal zavodlarının da tikintisi nəzərdə tutulmalıdır. Bizim aidiyyəti qurumlar – Prezident Administrasiyası, nazirliklər indidən müəyyən etməlidirlər ki, harada, neçə dənə, hansı istehsal gücü ilə, hətta müasir texnologiyalarla işləyən müəssisələr yaradılmalıdır. O müəssisələrin fəaliyyətə başlaması da pambıqçılığın inkişafı ilə uzlaşmalıdır ki, biz istədiyimiz hədəfə çatanda artıq həmin müəssisələr də hazır olsun.

Mən bəzi statistik göstəriciləri diqqətinizə çatdıranda, əlbəttə, istərdim sizdə və bütün Azərbaycan ictimaiyyətində dolğun fikir olsun ki, biz harada idik, hara düşmüşük və haraya qalxmaq istəyirik. Bir məqsədim də var idi – göstərim ki, hansı rayonlarda işlər necə gedir.

Vaxtilə rayonlararası rəqabət mexanizmləri də var idi. Hesab edirəm ki, biz bunu təbii yolla bərpa etməliyik. Biz bunu necə bərpa edə bilərik ki, ictimaiyyət bilsin – hansı rayonda nə qədər əkin sahələri var, hansı rayonda nə qədər pambıq yığılır, hansı rayonda məhsuldarlıq nə qədərdir. Hesab edirəm ki, rayonlar, bax, bu 3 parametr üzrə də bir-biri ilə yarışa çıxmalıdır. Əlbəttə ki, bu, sağlam rəqabət olmalıdır. Hesab edirəm ki, bu rəqabət rayon rəhbərlərini də, pambıqçıları da stimullaşdıracaq. Çünki yadımdadır, vaxtilə belə bir məlumat mütəmadi qaydada Azərbaycan mətbuatında dərc edilirdi. Keçən əsrin 70-ci illərində

bizim mərkəzi qəzetlərdə pambığın, üzümün tədarükü ilə bağlı belə bir cədvəl verilirdi ki, hansı rayon nə qədər istehsal edib. Rayon əhalisi də baxırdı, qabaqda olanlar sevinirdi. Ondan sonra mükafatlandırma aparılırdı. Əfsuslar olsun ki, bu çox müsbət prinsiplər ya yaddan çıxır, ya tarixdən silinir. Biz buna bir daha baxmalıyıq, onları bərpa etməliyik.

Eyni zamanda, mən hesab edirəm ki, Azərbaycanda yeni bir orden təsis edilməlidir. Son vaxtlar mənim sərəncamımla bir neçə yeni orden təsis edilib. Ən ali ordenimiz «Heydər Əliyev» ordenidir. Ondan sonra mənim sərəncamımla «Şərəf» ordeni, «Dostluq» ordeni təsis edilib. Hesab edirəm ki, biz «Əmək» ordeni də təsis etməliyik. Müxtəlif sahələrdə – istər özəl, istər dövlət, fərqi yoxdur, yaxşı göstəricilər nümayiş etdirən insanları biz ordenlərlə, medallarla təltif etməliyik. Hesab edirəm ki, biz bu ənənəni bərpa etdirməliyik. Göstəriş verirəm, Prezident Administrasiyası bu məsələ ilə bağlı öz təkliflərini mənə təqdim etsin. «Əmək» ordeninin bir neçə dərəcəsi ola bilər. Əgər yaxşı nəticələr olsa, birinci ordeni biz pambıqçılara təqdim edə bilərik.

Bir sözlə, hesab edirəm ki, bugünkü müşavirənin çox böyük əhəmiyyəti var. Bu bizim gözəl tariximizə qayıdışdır. Qeyd etdiyim kimi, şadam ki, biz Sabirabadda toplaşmışıq. Növbəti müşavirələrdə yəqin ki, digər yerlərdə görüşəcəyik. Bu gün doğrudan da müasir ölkəmizin tarixində əlamətdar gün kimi qalacaq. Çünki biz bu gün pambıqçılığın şöhrətini bərpa edirik. Görülən bütün işlərə, çəkilən zəhmətə görə sizə minnətdarlığımı bildirmək istəyirəm. İndi fəal dövr – yığım dövrü başlanır. Sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Dövlətimizin başçısının yekun nitqindən sonra əmək veteranı, Cəbrayıl rayonundan məcburi köçkün Kamilxan Rüstəmova və Sosialist Əməyi Qəhrəmanı Fatma Hüseynova çıxış üçün söz istədilər.*

**Kamilxan Rüstəmova:** Mən bu gün çox şadam. Mən Heydər Əliyev məktəbini qurtarmışam, diplomum Heydər Əliyev məktəbinin diplomudur. 1963-cü ildə əmək fəaliyyətinə başlamışam. «Lenin» ordeni, «Şərəf» ordeni, «Qırmızı Əmək Bayrağı» ordeni almışam. 1976-cı ildə Heydər Əliyev də, mən də «Lenin» ordeni almışıq. Dedi ki, ikimiz də eyni orden aldığımıza görə sənə bir dənə maşın mükafat verirəm.

Mənim bu xalqa, bu camaatımıza, Azərbaycana tövsiyəm var. İndi biz məcburi köçkünük, torpaqlarımızın bir hissəsi işğal altındadır. Hörmətli İlham müəllim, mən 14 ton pambığı əl ilə yığıb «Lenin» ordeni almışam. 2 hektar 70 sot yerim var idi. İndiki Heydər Əliyev sarayının açılışında mənim bir pambıq kolumu Cəbrayıldan götürüb gətirdilər, sarayın qarşısında göstərdilər. O kolun üstündə 138 sağlam qoza var idi.

Mən əməklə ucalmışam. İndi icra başçılarından pul istəyənlərə, şəraiti olmayanlara, bir iş bacarmayanlara tövsiyəm budur ki, pul pambıqdadır, baramadadır, üzümdədir. Nə qədər sağlamlıq var, bundadır. 4 hektar üzüm becərmişəm. Hörmətli İlham müəllim, 1993-cü ildə ermənilərin hücumu zamanı elə sahədən qaçqın düşmüşəm. Bir o qədər qazancımın hamısı qaldı.

Allah ulu öndərə rəhmət eləsin. Ömrümüz boyu ailəm də, nəvəm də, özüm də ona minnətdarıq. Ruhuna dualar, Quran oxuduram. Mənim birinci problemim məcburi köçkünlük problemidir. Biz cəbrayıllıyıq, qonaqpərvərik. Biz baramaçı, üzümçü, sağıcı, pambıqçı idik. İndi vəziyyət belə alınıb. Allaha dua edirəm, elin duasını Allah eşidər, inşallah İlham Əliyevin rəhbərliyi ilə Qarabağı alacağıq. Prezidentimiz gecə-gündüz dincəlmir, xaricdə hara gedirsə öz sözünü deyir, hamını yerinə oturdur. Mən Sizə minnətdaram. Mən Heydər Əliyev ailəsindən başqa, dövlət başçısı görmürəm, görmək istəmirəm. Yaşım 70-ə

çatıb, bəlkə əcəl macal vermədi. Arzum budur ki, İlham Əliyev bu ölkəni daha da çiçəkləndirsin, 90 il prezident olsun, balaca Heydəri prezident seçək.

Diqqətinizə görə minnətdaram. Hamınızı öpürəm.

**Fatma Hüseynova:** Hörmətli müşavirə iştirakçıları!

Mən Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsüyəm. Bu «Qızıl ulduz»u mənim yaxama sancana Allah-Taala qəni-qəni rəhmət eləsin. 1969-cu ildə ulu öndər hakimiyyətə gəldi. 1973-cü ildə bizim sahələri gəzərkən, briqadirin yerini alaqlı görüb, məni oraya briqadir təyin etdi. O vaxtdan bu vaxtadək hələ də işləyirəm. Deyirlər ki, qadının yaşını, kişinin pulunu soruşmazlar. İndi yaşım neçədir, özünüz nə qədər bilsəniz, verərsiniz. O vaxtdan indiyədək işləyirəm. Allahın köməyi ilə yorulmamışam. Canımda nə qədər can var, əlim işdən, ayağım köçdən qalana qədər öz Vətənimə sadiqəm. Öz Vətənim üçün işləyəcəyəm, nə qədər ömrüm var öz xalqım üçün işləyəcəyəm.

İlham Əliyev həm mənim prezidentimdir, həm rəhbərimdir, həm də mənim qardaşımdır. Çünki ulu öndər heç vaxt mənim adımı deməyib. Həmişə mənə «qızım» deyib, alnımdan öpüb. O mənim atamı soruşanda kövrəldim. Atam müharibədən əlil qayıdaraq, 42 yaşında rəhmətə getmişdi. Ulu öndər mənim boynumu qucaqlayıb alnımdan öpdü, mənə «qızım» dedi. Dedi, kim xəbər alsa, deyəcəyəm ki, mənim iki qızım, bir oğlum var. Ona görə mən o ailəyə ömrüm boyu minnətdaram. O gün olsun, Allah mənə ömür versin ki, balaca Heydəri prezident görüm. Mən onu Heydər Əliyev deyib çağıranda bəlkə də yaşım azalacaq. Vicdan haqqı, ürəkdən deyirəm.

İlham müəllim, Sizin ailənizi, özünüzü öpürəm, bir bacı kimi bağrıma basıram. Allah Sizə ömür versin, Allah Sizi nəzərdən qorusun. Çünki Sizin daxildə və xaricdə gördüyünüz işlər bütün ölkələrdə, Yer üzündə deyilir.

Mən Mehriban xanımı da Sizdən ayırmıram. O Sizin cinah yoldaşınızdır, sirdaşınızdır. O Sizinlə birgə işləyir. Mehriban xanımın əməyi Sizinlə birgədir. Ona da öz təşəkkürümü bildirirəm. Xahiş edirəm, mənim təşəkkürümü ona çatdırın.

Diqqətinizə görə çox sağ olun. Danışmağa sözüm çoxdur, amma sizi yormaq istəmirəm.

**RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Sizin başçılıq etdiyiniz «Yedinaya Rossiya» partiyasının Rusiya Federasiyası Dövlət Dumasına seçkilərdə inamlı qələbəsi münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu qələbə Sizin partiyaya və onun dövlətçiliyin möhkəmləndirilməsi, sabitliyin qorunub saxlanması, demokratik dəyərlərin bərqərar olması və ölkə əhalisinin rifahının yüksəldilməsi istiqamətində həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasətə Rusiya xalqının yüksək etimadına dəlalət edir.

Əminəm ki, bizim birgə səylərimiz bundan sonra da xalqlarımızın firavanlığı naminə Azərbaycan ilə Rusiya arasında mehriban, ənənəvi dostluq münasibətlərinin genişlənməsinə, əməkdaşlığın və qarşılıqlı fəaliyyətin dərinləşməsinə kömək edəcək.

Hörmətli Dmitri Anatolyeviç, fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost Rusiya naminə dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2016-cı il*

## MALTA RESPUBLİKASININ PREZİDENTİ
## XANIM MARİ-LUİZ KOLEYRO PREKAYA

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, dostluq və əməkdaşlıq münasibətlərimizin möhkəmləndirilməsi və inkişafı yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malta xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 sentyabr 2016-cı il*

## YENİ BİTUM İSTEHSALI QURĞUSUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*19 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Bakıda Heydər Əliyev adına Neft emalı zavodunun yenidən qurulması layihəsi çərçivəsində yeni bitum istehsalı qurğusunun təməlqoyma mərasimində iştirak etmişdir.*

*SOCAR-ın prezidenti Rövnəq Abdullayev prezident İlham Əliyevə yeni bitum istehsalı qurğusunun inşası və Heydər Əliyev adına Neft emalı zavodunda aparılacaq yenidənqurma layihəsi çərçivəsində görüləcək işlər barədə ətraflı məlumat verdi. Qeyd edildi ki, Heydər Əliyev adına Neft emalı zavodunda inşa ediləcək yeni bitum istehsalı qurğusunun illik istehsal gücü 400 min ton olacaq. Bu qurğuda «EN 40/60» markalı yol bitumu istehsal ediləcək və qurğunun 2018-ci ilin ortalarında istismara veriləcəyi gözlənilir.*

*Yeni bitum istehsalı qurğusunun inşası Heydər Əliyev adına Neft emalı zavodunda aparılacaq yenidənqurma tədbirlərinin ilkin mərhələsi olacaq. Bu qurğunun inşası məqsədilə detallı layihələndirmə, satınalma və tikintinin idarə edilməsi işlərinin həyata keçirilməsi üçün bu sahədə qabaqcıl təcrübəyə malik Avstriyanın «Poerner» şirkəti ilə Heydər Əliyev adına Neft emalı zavodu arasında müvafiq müqavilə imzalanıb. Yeni bitum istehsalı qurğusunun inşası ilə keçmiş «Azərneftyağ» neft emalı zavodunun mövcud infrastrukturu tamamilə istismardan çıxarılacaq, dənizkənarı ərazilər boşaldılaraq, «Ağ şəhər» layihəsinin reallaşdırılması üçün təhvil veriləcək. Bundan əlavə, Heydər Əliyev adına Neft emalı zavodunun istismar xərcləri optimallaşdırılacaq və ölkə yüksəkkeyfiyyətli neft bitumu ilə təmin ediləcək.*

*Heydər Əliyev adına Neft emalı zavodunda aparılacaq yenidənqurma işlərinin növbəti mərhələləri çərçivəsində müəssisədə yüksəkeyfiyyətli neft məhsullarının istehsalı nəzərdə tutulub. Proqrama əsasən, 2019-cu ildə Heydər Əliyev adına Neft emalı zavodunda «avro-5» standartı üzrə dizel yanacağı, 2020-ci ildə isə «avro-5» standartı üzrə benzin istehsalı planlaşdırılıb. Layihənin reallaşdırılması ilə Heydər Əliyev adına Neft emalı zavodunun emal gücü 7,5 milyon tona qədər artırılacaq, nəticədə ölkənin növbəti 15–20 il üçün avtomobil yanacaqlarına olan daxili tələbatı tam ödəniləcək və keyfiyyətli neft məhsulları üzrə ixrac potensialı daha da artırılacaq. Sözsüz ki, layihənin icrası Bakı şəhərində ekoloji durumun yaxşılaşdırılmasına və ümumilikdə ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verəcək.*

*Prezident İlham Əliyev Heydər Əliyev adına Neft emalı zavodunun yenidən qurulması layihəsi çərçivəsində yeni bitum istehsalı qurğusunun təməlini qoydu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, son vaxtlarda 80-dən çox müasir texnika alınaraq, ölkəyə gətirilib. Müxtəlif texnoloji nəqliyyat vasitələrindən, traktor-maşın mexanizmlərindən və stasionar güc aqreqatlarından ibarət olan bu avadanlıqlar uğurla sınaqdan çıxarılaraq, neft və qazın hasilatının sabit saxlanmasına, quyuların yeraltı əsaslı və cari təmirinə geniş imkanlar yaradır.*

**İlham Əliyev**: Neftçilərin peşə bayramı ərəfəsində gözəl bir hadisə baş verir, bitum qurğusunun təməlini qoyuruq. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm.

Heydər Əliyev adına Neft emalı zavodunun yenidən qurulması layihəsinə bu gün start verilir. Gələcəkdə görüləcək işlər, əlbəttə, ona gətirib çıxaracaq ki, bu zavod dünya səviyyəli bir zavoda çevriləcək. Bu zavodun böyük tarixi var. Ancaq həyat yerində durmur, yeni texnologiyalar tətbiq olunmalıdır və bu neftayırma zavodu dünyanın ən yüksək standartlarına cavab verməlidir. Bu zavodun yenidən qurulması təqribən 2-3 il çəkəcək. Ondan sonra ən yüksək səviyyəli yanacaq istehsal olunacaq – dizel yanacağı, benzin, aerokerosin. Burada ən yüksək ekoloji standartlar təmin

ediləcək, neftayıranların iş şəraiti yaxşılaşacaq. Ölkəmizin inkişafı üçün bu zavodun xüsusi əhəmiyyəti var.

Hazırda bizdə yanacağın mütləq əksəriyyəti, demək olar ki, bu zavodda istehsal olunur. Bu bizim inkişafımız, təhlükəsizliyimiz üçün çox böyük məna daşıyan bir müəssisədir. Çünki bizim böyük neft ehtiyatlarımız var və neft sənayesinin bütün zənciri Azərbaycanda mövcuddur – hasilat, daşıma, emal, satış, ixrac, həm neft məhsulları, həm xam neft. İndi son vaxtlar qaz ixracı ilə məşğul olmağa başlamışıq. Orada da çox böyük potensial var. Bu zavodun yenidən qurulması ölkəmizin inkişafına veriləcək çox böyük töhfə olacaq. Eyni zamanda, Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün də bunun çox böyük əhəmiyyəti var. Bu ərazidə külək əsəndə bəzi hallarda hiss olunan iylər aradan qalxacaq, dəniz kənarında yerləşən neftayırma zavodu köçürüləcək, onun yerində gözəl ictimai yerlər salınacaq. Necə ki, indi yeni bulvar və «Ağ şəhər» bulvarı yaradılıbdır.

İndi «Ağ şəhər» bulvarı gəlib Neft emalı zavoduna çatıb. Bu yenidənqurmadan sonra o zavod oradan köçürüləcək və beləliklə, Bakı sakinləri üçün əlavə bir neçə kilometr gözəl ictimai istirahət zonası da yaradılacaq.

Bu işlər bir-biri ilə bağlıdır – ekoloji təmizlik, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, şəhərimizin gözəlləşdirilməsi. Bu işlərin bir məqsədi var – Azərbaycanın inkişafı və daha da güclü ölkəyə çevrilməsi. Ona görə bu gün – Neftçilər Günü ərəfəsində gəldim ki, sizinlə bərabər bu təməlqoyma mərasimində iştirak edim. Bir daha qeyd etmək istəyirəm ki, bu gün Heydər Əliyev adına Neft emalı zavodunun əsaslı modernləşdirilməsinin birinci günüdür. Sizi təbrik edirəm və bütün Azərbaycan neftçilərinə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

## AVROPA İTTİFAQI–AZƏRBAYCAN PARLAMENT ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev nümayəndə heyətini salamlayaraq, bu səfərin maraqlı keçəcəyinə ümidvar olduğunu və ölkəmiz, reallıqlarımız, planlarımız haqqında daha çox məlumat əldə etmək üçün yaxşı fürsət yaratdığını bildirdi.*

*Avropa Parlamentinin Böyük Britaniyadan olan deputatı, mühafizəkarlar və islahatçılar qrupunun təmsilçisi Səyyad Kərim Bakıda yüksək səviyyədə qarşılandıqlarını bildirdi. O, Bakıda keçirilən görüşlərin səmərəli və konstruktiv olacağına əminliyini ifadə etdi.*

**İ l h a m  Ə l i y e v:** Təşəkkür edirəm. Ümidvaram ki, Azərbaycanda yaxşı vaxt keçirəcəksiniz. Düşünürəm ki, bu gün burada aparılacaq və sonra həmkarlarınızla keçiriləcək müzakirələr əməkdaşlığımızın gələcək inkişafına daha çox aydınlıq gətirəcək. Lakin ilk növbədə, mən 1 il bundan əvvəl baş verənləri və niyə bu gün bizim əlaqələrin bir növ bərpası ilə bağlı danışmalı olduğumuzu qeyd etmək istəyirəm. Bu gün yəqin ki, bir çox məsələlərə aydınlıq gətirmək və gələcək işlərimizi planlaşdırmaq üçün çox açıq müzakirələrin aparılması baxımından yaxşı imkan olacaq. Çünki təəssüf ki, Avropa Parlamentinin 1 il bundan əvvəl qəbul etdiyi qətnamə bizim münasibətlərimizdə ciddi geriləmə yaratdı. Bu çox böyük təəccüb doğurdu. Biz Azərbaycanda bunu çox düşməncəsinə, qeyri-düzgün, səhv informasiya və qərəzə əsaslanan addım və ölkəmizin reputasiyasına zərər vermək cəhdi

kimi qəbul edirik. Buna aydınlıq gətirmədən irəliləmək və gələcək işlərimizi planlaşdırmaq çətin olacaq. Məndə bununla bağlı sənəd var. Bilmirəm sizin hamınız bu barədə məlumatlısınız, yoxsa yox, yəqin ki, məlumatlısınız. Lakin mən bəzi məsələləri qeyd etmək istərdim. Burada çox məsələ var, lakin düşünürəm ki, bəzilərini qeyd etməyə dəyər. Yəqin ki, sizin üçün mənim bununla bağlı şərhlərimi öyrənmək yaxşı olar.

Burada deyilir ki, son bir neçə ildə, ümumilikdə, Azərbaycanda insan haqları ilə bağlı vəziyyət pisləşib. Bu, doğru deyil. Azərbaycanda insan haqları ilə bağlı vəziyyət yaxşılaşır. Ölkəmiz demokratik inkişafa və insan haqlarının qorunması işinə sadiqdir. Düşünürəm ki, burada insan haqlarının qorunması ilə bağlı vəziyyət daha müsbət qiymətləndirmə tələb edir. Burada bilmirəm qəsdən və ya yanlışlıqla səhv informasiyaya əsaslanan bir neçə məsələ var. Onlardan biri odur ki, jurnalistlər və vətəndaş cəmiyyəti nümayəndələri guya davamlı hədə və təqiblərə məruz qalırlar. Onların arasında Meydan TV-nin direktoru Emin Milli ölümlə hədələnib. Bu səhvdir və yalandır. O heç vaxt ölümlə hədələnməyib. Bilmirəm niyə burada belə yazılıb. Ola bilsin ki, bu, yenə də Azərbaycan əleyhinə kampaniyanın bir hissəsidir. Hüquq müdafiəçisi Emin Hüseynov saxta ittihamlarla üzləşəndən sonra İsveçrədən sığınacaq istəyib və Azərbaycan vətəndaşlığından məhrum edilib. Bu da səhv informasiyaya əsaslanır. Bu şəxs mənə məktub yazaraq, onu vətəndaşlıqdan məhrum etməyi xahiş edib. Bu, Azərbaycan qanunvericiliyinə əsasən edilib. Onu bir neçə ay səfirliyində gizləndiyi İsveçrənin Xarici İşlər naziri buraya gələrək, öz təyyarəsi ilə İsveçrəyə aparıb. Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi və İsveçrə Xarici İşlər Nazirliyi arasında razılıq əldə olunub. Sənədlər var, Hüseynovun məktubu var. Heç kim onu vətəndaşlıqdan çıxarmayıb. Bu yenə də daha bir yalandır.

Bildirilir ki, 2006-cı ildən bu yana dinc nümayişçilərə Bakının mərkəzində nümayişlər keçirmək qadağan olunub. Yalandır. Nümayişlər qadağan olunmayıb. Sərbəst toplaşma azadlığı ölkəmizdə tam şəkildə təmin olunur. 2006-cı ildən bu yana, 2006-cı ildən əvvəl və indi Bakının mərkəzində müxalifət azad şəkildə

mitinqlər keçirib. Onlar bir neçə yüz adam toplayıblar. İnsanların niyə bu nümayişlərə getməməsi ayrı məsələdir. Lakin onlar dinc, azad olub və hər kəs, o cümlədən səfirlik bunu sübut edə bilər. Beləliklə, daha bir yalan.

Daha bir məsələ, guya jurnalist Rasim Əliyev sosial şəbəkələr vasitəsilə prezident Əliyevi tənqid etdiyinə görə davamlı hədə və təhdidlər alandan sonra amansızcasına döyülərək, Bakıda xəstəxanada dünyasını dəyişib. Bu məni cinayət törətməkdə birbaşa ittiham etməkdir. Mən bunu yazanları məhkəməyə verə bilərəm. Təəssüf ki, idman xəbərləri yazan jurnalist Rasim Əliyev faciə nəticəsində dünyasını dəyişib. O, bəzi hərəkətlərinə görə tənqid etdiyi bir futbolçunun qohumları və fanatları tərəfindən döyülüb. Onlar onu döyüblər və bu, bədbəxt hadisə olub. Bunun bizimlə heç bir əlaqəsi yoxdur. O heç vaxt məni tənqid etməyib və hətta heç kim bu şəxsi tanımırdı. Bu, qəsdən manipulyasiya, mənim bununla əlaqəmin olmasına dair ittihamdır.

Burada deyilir ki, Azərbaycan strateji tərəfdaşlığı hədəfləyərək, Avropa İttifaqı ilə əlaqələrini genişləndirməyə və dərinləşdirməyə can atır. Təkcə biz deyil, Avropa İttifaqı da bizimlə münasibətləri dərinləşdirməyə çalışır. Ona görə də düşünürəm ki, bu mətn bizim əməkdaşlığımızın əsl məğzini əks etdirmir. Bizim Avropa İttifaqı ilə əməkdaşlığımız qarşılıqlı maraqlar və qarşılıqlı hörmətə əsaslanır. Yeri gəlmişkən, ümumiyyətlə, bizim Avropa İttifaqı ilə çox yaxşı münasibətlərimiz var. Biz Avropa İttifaqına 9 üzv ölkə ilə strateji tərəfdaşlıqla bağlı Bəyannamə imzalamışıq. Ona görə də bizim Avropa İttifaqı, üzv ölkələr və Avropa Parlamenti ilə münasibətlərimiz arasında böyük fərq var.

Burada o da deyilir ki, ATƏT-in Bakıdakı ofisi Azərbaycan hökuməti ilə ATƏT arasındakı Anlaşma Memorandumuna xitam verməklə əlaqədar Azərbaycan hökumətinin qərarı ilə 2015-ci ilin iyulunda bağlanıb. Bəli, buna xitam verilib, lakin məlumat üçün deyim ki, bunun səbəbi olub. ATƏT ofisinin yerli nümayəndəsi Azərbaycan əsilli Fransa vətəndaşı, Fransanın Xarici İşlər Nazirliyində çalışan yeganə azərbaycanlı idi. O çox məşhur bir ailənin nümayəndəsidir. Onun mənsub olduğu nəslin

nümayəndələri 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Demokratik Respublikasının yaradıcılarından olub. Bu ailəyə Azərbaycanda çox hörmətlə yanaşılır. Bu şəxs Azərbaycanda cəmi 1 il fəaliyyət göstərəndən sonra iş otağında mənimlə fotosu olduğuna görə onu daimi komitənin iclasında günahlandıran ABŞ-ın ATƏT-dəki səfiri Baerin ciddi müdaxiləsi nəticəsində işdən azad olunub. Məndə olan məlumata görə, onlar Fransa hökumətinə təzyiq göstəriblər və ATƏT-in buradakı nümayəndəsi Şahtaxtinskiyə heç bir izahat verilmədən o, işdən azad olunub. Onun karyerasına son qoyuldu, o, Fransa Xarici İşlər Nazirliyindən çıxarıldı. Sadəcə, mənimlə fotosu olduğuna görə. Əgər ABŞ-ın ATƏT-dəki nümayəndəsinin fikrincə mənimlə şəkil çəkdirmək cinayətdirsə, biz nədən danışa bilərik?! Mən nə dedim? Mən dedim ki, əgər Şahtaxtinski işdən azad olunsa ofis bağlanacaq. Mən onlara xəbərdarlıq etdim, onlar qulaq asmadılar və biz bunu etdik. İndi onlar ofisin fəaliyyətini bərpa etmək istəyirlər. Mən şərt qoydum. Şahtaxtinskini geri qaytarın, ədaləti, onun karyerasını bərpa edin və o zaman biz ofisi yenidən açarıq. Bütün bunların arxasında duran məsələ bundan ibarətdir.

Buradakı bir cümlədə isə deyilir ki, biz heç bir izahat vermədən ofisi bağlamışıq. «Freedom House» Azərbaycanın azad olmadığını, internetin qismən azad olduğunu, son 10 ildə bütün Avrasiyada demokratik idarəetmədə ən çox geridə Azərbaycanın qaldığını hesab edir. Təsəvvür edirsiniz? Bu tamamilə gülüncdür və yəqin ki, şərh etməyə dəyməz.

«Freedom House»a gəlincə. «Freedom House» ermənipərəst mövqe tutduğuna və Azərbaycana davamlı hücumlar etdiyinə görə ölkəmizin onunla heç bir əlaqəsi olmayan təşkilatdır. Uzun illər «Freedom House»un rəhbəri müxtəlif səbəblər üzündən Dövlət Departamentindən qovulmuş və Azərbaycanın ən fəal tənqidçilərindən birinə çevrilmiş Kramer olub. Deyim ki, «Freedom House»un hesabatlarının bizim üçün heç bir əsası yoxdur və bu təşkilatın bu sənəddə qeyd olunması məndə təəccüb doğurur. Bu, qeyri-hökumət təşkilatıdır, yüzlərlə belə təşkilat müxtəlif hesabatlar dərc edir. Avrasiyada ən böyük geriləmənin

Azərbaycanda olduğunu deməsi bu təşkilatın və Avropa Parlamentinin Azərbaycana münasibətini nümayiş etdirir.

Burada deyilir ki, 2015-ci ilin noyabrında Azərbaycanda parlament seçkiləri keçiriləcək. Avropa Parlamenti seçkiləri müşahidə etmək üçün missiya göndərməkdən imtina edib. Siz imtina etdiniz, digərləri isə etmədi. Avropa Şurası Parlament Assambleyası gəldi, seçkiləri müşahidə etdi və çox müsbət bəyanat verdi. Beləliklə, Avropa Parlamentinin iştirak etməməsi heç nəyi dəyişmədi, nəticələrə və müsbət rəyə təsir etmədi. Həmçinin bir çox başqa məsələlər... Bundan sonra parlamentimiz qətnamə qəbul etdi. Mən bunu tam oxuya bilərəm, lakin düşünürəm ki, siz bununla bağlı məlumatlısınız. Ona görə də ona toxunmayacağam. İndi vəziyyət belədir. Faktiki olaraq, 1 ildir heç bir əlaqəmiz yoxdur. Bu bizim ucbatımızdan baş verməyib. Biz digər Avropa təsisatları – Avropa İttifaqı, Avropa Şurası, ATƏT-lə işləməyə davam edirik. Lakin Avropa Parlamenti Azərbaycanla bağlı bu mövqeni tutmağı qərara aldı. Bizdə olan məlumata görə, bu sənəd qurumun rəhbərləri, xüsusilə də bilmirəm hansı səbəbdən Azərbaycana nifrət edən və hər dəfə bizim nüfuzumuza xələl gətirməyə çalışan Şults və Lunaçek tərəfindən təşkil olunub. Bizdə olan məlumata görə, bu qətnamə Avropa Parlamentinin prosedurlarına zidd olaraq qəbul edilib. Avropa Parlamentinin bəzi üzvləri bunu etməməklə bağlı xəbərdarlıq ediblər. Mən onlardan birinin «biz Azərbaycanı itirəcəyik» dediyini eşitmişəm, yəqin ki, o haqlı idi. Avropa Komissiyasının komissarı da danışıb, xəbərdarlıq edib, lakin onları dinləməyiblər və nəticədə nə oldu? Heç bir münasibət, heç bir əlaqə yoxdur. Biz parlamentimizdə işçi qrupu yaratmadıq. Biz Avronestdəki fəaliyyətimizə xitam verdik. Vəziyyət belədir. Biz heç nə olmamış kimi davrana bilmərik. Biz buna aydınlıq gətirməliyik. Biz bunu aradan qaldırmaq üçün nə edə biləcəyimizə nəzər salmalıyıq. Əgər bu belə qalsa və heç nə baş verməsə, biz nə barədə danışa bilərik?

* * *

*Avropa Parlamentinin Böyük Britaniyadan olan deputatı, mühafizəkarlar və islahatçılar qrupunun təmsilçisi Səyyad Kərim prezident İlham Əliyevə açıq və konstruktiv çıxışına görə minnətdarlıq etdi. O, ötən il qəbul olunan sənədlə bağlı yaranan çətinliklərin dəf ediləcəyinə və əlaqələrimizin irəliyə aparılacağına ümidvar olduğunu bildirdi. Hazırda Azərbaycanla əhatəli müqavilə üzərində işə böyük önəm verildiyini diqqətə çatdırdı. «Azərbaycan bizim üçün mühüm ölkədir. Biz bütün mümkün imkanlardan istifadə edərək, Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlıyıq» – deyən Səyyad Kərim ölkəmizlə «Cənub Qaz Dəhlizi» ilə bağlı əməkdaşlıq işinə sadiq olduqlarını, Avropa Parlamentinin Azərbaycanın ərazi bütövlüyünü və suve-renliyini dəstəklədiyini bildirdi.*

*Avropa Parlamentinin Finlandiyadan olan deputatı, Yaşıllar qrupunun təmsilçisi Heydi Hautala prezident İlham Əliyevə səmimi və konstruktiv çıxışına görə minnətdarlıq etdi. O, Azərbaycan ilə əlaqələrin möhkəmləndirilməsində maraqlı olduqlarını bildirdi. Azərbaycanda dünyəvi cəmiyyətin qurulduğunu və bunun çox mühüm hal olduğunu, Azərbaycanın islam aləmində mühüm dünyəvi ölkələrdən birinə çevrildiyini deyən Heydi Hautala Avropa və Azərbaycan vətəndaşları arasında təmasların genişləndirilməsinin əhəmiyyətli olduğunu vurğuladı.*

*Avropa Parlamentinin Rumıniyadan olan deputatı, Avropa Xalq Partiyasının təmsilçisi və xarici ölkələr komitəsinin üzvü olan Ramona Manesku dedi ki, dünyəvi cəmiyyətin qurulması, uğurlu islahatların həyata keçirilməsi baxımından Azərbaycan müsəlman ölkələri içərisində bir nümunədir. Ölkəmizin müdrik xarici siyasət yürütdüyünü deyən Ramona Manesku bu siyasət nəticəsində Azərbaycanın uğurlu balans əldə etdiyini bildirdi. Daha sonra o, Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini vurğuladı və bu siyasəti davam etdirəcəklərini qeyd etdi.*

*Prezident İlham Əliyev Avropa Parlamenti ilə münasibətlərdə böhran vəziyyətinin əmələ gəlməsinə baxmayaraq, Avropa İttifaqı ilə əlaqələrin qarşılıqlı maraq əsasında uğurla inkişaf etdiyini dedi. Azərbaycan–Avropa İttifaqı əlaqələrinin geniş gündəliyinin ol-*

*duğunu deyən dövlətimizin başçısı bunun təhlükəsizlik, energetika, nəqliyyat, elm, təhsil və digər sahələri əhatə etdiyini bildirdi, Avropa İttifaqının artıq 9 üzv dövləti ilə strateji tərəfdaşlıq barədə Bəyannamənin imzalandığını dedi. Zəngin tarixə və milli dəyərlərə sadiq olan Azərbaycanın müstəqil siyasət həyata keçirərək, öz inkişaf yolunu seçdiyini deyən dövlətimizin başçısı ölkəmizin siyasi, iqtisadi, sosial və bütün digər sahələrdə sürətli inkişafa nail olduğunu bildirdi və respublikamızda ictimai-siyasi sabitliyin hökm sürdüyünü, söz, mətbuat, həmçinin sərbəst toplaşma və digər azadlıqların təmin edildiyini, azad internetin olduğunu, demokratik inkişaf yolunda mühüm addımların atıldığını diqqətə çatdırdı. Daha sonra prezident İlham Əliyev qeyd etdi ki, Avropa Parlamentinin keçənilki qətnaməsində Azərbaycanda demokratiya ilə bağlı heç bir əsası olmayan və qərəzli mövqe nümayiş etdirildiyi halda, Avropa Parlamenti Ermənistandakı demokratiyanın bərbad vəziyyəti və boğulması ilə bağlı hər hansı bir reaksiya verməyib. Dövlətimizin başçısı Azərbaycanın Avropa ölkələri ilə əlaqələrə böyük önəm verdiyini deyərək, Azərbaycanın da Avropa ölkələrinin inkişafına mühüm töhfə verə biləcəyini vurğuladı. Prezident İlham Əliyev bəzi Avropa ölkələrində genişlənən islamofobiya hallarına qarşı mübarizə aparılmasının önəmini bildirdi. Dövlətimizin başçısı Avropada yüksək səviyyəli rəsmi şəxslərin bu məsələlərlə bağlı yolverilməz ifadələrinə Avropa strukturlarında hər hansı bir reaksiya verilməməsinin də bir müsəlman xalqı kimi, Azərbaycan xalqını da narahat etdiyini vurğuladı. Prezident İlham Əliyev Avropa Parlamentinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsini Azərbaycan tərəfinin yüksək qiymətləndirdiyini bildirdi. Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunaraq, Ermənistanın təcavüzkar və qeyri-konstruktiv siyasətinin bu münaqişənin həllinə mane olduğunu diqqətə çatdırdı.*

*Görüşdə korrupsiya halları ilə mübarizənin önəmi qeyd edildi, avropalı qonaqlar bu sahədə Azərbaycanda həyata keçirilən tədbirlərə, o cümlədən «ASAN xidmət»in fəaliyyətinə böyük maraq göstərdiklərini dedilər.*

*Prezident İlham Əliyev ölkəmizdə korrupsiya ilə mübarizə istiqamətində qətiyyətli addımların atıldığını, gömrük, vergi və digər sahələrdə səmərəli islahatların artıq öz bəhrəsini verdiyini dedi, bu sahədə «ASAN xidmət»in fəaliyyətinin səmərəli olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## BELARUS RESPUBLİKASI TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİ STANİSLAV ZASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Belarus Respublikası Təhlükəsizlik Şurasının Dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Belarus prezidenti Aleksandr Lukaşenko ilə bu yaxınlarda Bişkekdə görüşünü məmnunluqla xatırlatdı. Azərbaycan ilə Belarusun çox yaxın və dost münasibətdə olduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə əməkdaşlıq etdiyini, bir-birilərinə etibar və hörmət göstərdiklərini, həmişə dəstək verdiklərini dedi. Prezident İlham Əliyev hər iki ölkə rəhbərinin münasibətlərinin bütün qurumların, o cümlədən iqtisadi blok, xarici siyasət, təhlükəsizlik və digər məsələlərlə məşğul olan strukturlar arasında əməkdaşlığın genişləndirilməsi işinə təkan verdiyini vurğuladı. Dövlətimizin başçısı indiki mürəkkəb dövrdə təhlükələrin düzgün qiymətləndirilməsinin və bu təhlükələrə qarşı qüvvələrin birləşdirilməsinin vacibliyini də bildirdi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərin inkişafı baxımından Belarusun Təhlükəsizlik Şurasının Dövlət katibi Stanislav Zasın ölkəmizə səfərinin önəmini vurğuladı və səfərin əməkdaşlığımızın inkişafı və ikitərəfli münasibətlərimizin gündəliyində duran məsələlərin müzakirəsi və operativ həlli baxımından əhəmiyyətini qeyd etdi.*

*Belarusun Təhlükəsizlik Şurasının Dövlət katibi Stanislav Zas 1981–1985-ci illərdə Bakı hərbi məktəbində təhsil aldığını məmnunluqla xatırlatdı. Bakıda çox böyük inkişafın şahidi olduğunu*

*deyən qonaq bütün Azərbaycanın, xüsusilə paytaxtımızın dinamik şəkildə inkişafının onda böyük sevinc hissi doğurduğunu dedi. O, Azərbaycan xalqının qazandığı bütün bu nailiyyətlərdə şəxsən prezident İlham Əliyevin xüsusi xidmətini ehtiramla qeyd edərək, bu böyük işlərin onda dərin təəssürat yaratdığını vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, hərbi-texniki və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıqdan məmnunluq ifadə olundu.*

# RUSİYA FEDERASİYASI FÖVQƏLADƏ HALLAR NAZİRİ VLADİMİR PUÇKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Rusiya Federasiyasının Mülki Müdafiə, Fövqəladə Hallar və Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması naziri Vladimir Puçkovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimizin müvafiq nazirlikləri arasında uzun illərdir sıx qarşılıqlı fəaliyyətin mövcud olduğunu vurğuladı, bu gün imzalanacaq sənədin əlaqələrin daha da genişləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan Fövqəladə Hallar Nazirliyinin yaradılmasında Rusiya tərəfinin yardımına görə təşəkkürünü bildirdi, ilkin mərhələdə aparılan qarşılıqlı məsləhətləşmələri və texniki təchizatla bağlı köməyi yüksək qiymətləndirdi. Azərbaycan Fövqəladə Hallar Nazirliyinin 10 ildən artıqdır səmərəli fəaliyyət göstərdiyini qeyd edən dövlətimizin başçısı ölkələrimizin müvafiq qurumlarının ikitərəfli əməkdaşlıq həyata keçirdiyini, gözlənilməz situasiyalar və qarşıya çıxan çətinliklər zamanı bir-birinə yardım göstərdiklərini vurğulayaraq, bunu dostluq və tərəfdaşlıq əlaqələrinin təsdiqi kimi qiymətləndirdi, bu dostluğun artıq xeyli sınaqlardan keçdiyini vurğuladı.*

*Rusiya və Azərbaycanın dost dövlətlər olduğunu qeyd edən nazir Vladimir Puçkov ölkələrimizi bir çox məsələlərin birləşdirdiyini dedi. Birgə əməkdaşlığımızın parlaq perspektivləri olduğunu bildirən Vladimir Puçkov Azərbaycanın və Rusiyanın Fövqəladə Hallar nazirliklərinin uzun illərdir qarşılıqlı fəaliyyət*

*göstərdiklərini, idarəetmə orqanlarının və xüsusi bölmələrin hazırlığının artırılması, eləcə də mütəxəssislərin təlimləri ilə bağlı birgə işlərin aparıldığını, yeni texnologiyaların tətbiq edildiyini diqqətə çatdırdı. Vladimir Puçkov bildirdi ki, bu gün imzalanması nəzərdə tutulan növbəti 2 illik plan məqsədlərin müəyyənləşdirilməsi, tapşırıqların formalaşdırılması, həm Azərbaycan, həm də Rusiya tərəfindən məsul şəxslərin təyin olunması üçün yaxşı imkan yaradacaq. O dedi ki, birgə fəaliyyətin əsas məqsədi Rusiya və Azərbaycan əhalisinin həyat təhlükəsizliyi, iqtisadiyyatın, sosial infrastrukturun inkişafı üçün şəraitin yaradılması, eləcə də təhlükə və fəlakətlərin azaldılması üçün müasir forma və metodların tətbiqidir.*

# MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN «AZAD SİSTEMLƏR» MÜƏSSİSƏSİNDƏ «ZƏRBƏ» PİLOTSUZ UÇUŞ APARATLARININ TƏQDİMATI MƏRASİMİ

*21 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Müdafiə Sənayesi Nazirliyi «Şərq» İstehsalat Birliyinin «AZAD Sistemlər» müəssisəsində hazırlanan müasir kəşfiyyat element bazasına və taktiki məhvedici hücum sisteminə malik «Zərbə» pilotsuz uçuş aparatlarının təqdimat mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə müəssisənin qarşısında ümummilli lider Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoydu.*

*Müdafiə Sənayesi naziri Yavər Camalov görülən işlərlə bağlı prezident İlham Əliyevə məlumat verdi.*

*Dövlətimizin başçısının diqqəti və qayğısı nəticəsində xüsusi təyinatlı avadanlıqların və texniki vasitələrin alınıb elmi-texniki işlərə tətbiqi geniş vüsət alıb. Bu, müəssisədə istehsal prosesinin daha səmərəli olmasına zəmin yaradıb. Bildirildi ki, Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində digər hərbi təyinatlı məhsulların istehsalı ilə bərabər, taktiki-texniki parametrli müxtəlif sinifli pilotsuz uçuş aparatlarının yaradılması, istehsalı, həmçinin texniki qulluq göstərilməsi istiqamətində ardıcıl planlı işlər davam etdirilir. Təcrübi-konstruktor işləri başa çatdıqdan sonra məhsulların istehsalı həyata keçirilir. O cümlədən pilotsuz uçuş aparatlarının texnoloji proseslərə uyğun istehsalı işləri də görülür.*

*Prezident İlham Əliyev «Zərbə» pilotsuz uçuş aparatı ilə tanış oldu.*

*Dövlətimizin başçısı müəssisədə istehsal edilən məhsulların nümayiş olunduğu filmə baxdı.*

*Diqqətə çatdırıldı ki, məmulatların istehsalı üçün hissələr ilkin mərhələdə konstruksiya ölçülərinə uyğun kompozit materiallardan hazırlanır. Daha sonra xüsusi qəliblərdə hazırlanan hissələr yoxlanılaraq yığım sexinə verilir və quraşdırma prosesi aparılır. Qurğuda xüsusi izləmə mini optik kamerası yerləşdirilir. Aparat xüsusi elektron mühafizə sisteminə malik olmaqla, elektron maneə vasitələrinə qarşı dayanıqlıdır. Peyk GPS əlaqəsi itən zaman aparat sərbəst döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Məhsulun istehsalı ilə müxtəlif ixtisaslar üzrə xüsusi təlim-tədris kursu keçmiş milli kadrlar məşğul olurlar. Xüsusi test yoxlamalarından sonra pilotsuz uçuş aparatları Silahlı Qüvvələrin istifadəsinə verilir.*

*Son illər müəssisənin mühəndisləri tam yeni sinif PUA-ların yaradılması istiqamətində elmi-texniki axtarışlar aparıblar və nəticədə daha mükəmməl məhsulların istehsalına başlanılıb. Yeni yaradılan «Zərbə» PUA gecə və gündüz, istənilən hava şəraitində sərbəst şəkildə düşməni izləmək və ona zərbə endirmək imkanına malikdir. Həmçinin partladıcı gücə malik yeni aparat qəlpəli fuqaslı piyada əleyhinə, müxtəlif texnikaya və canlı qüvvəyə qarşı effektivdir. Aparat əməliyyat baxımından xüsusi avadanlıqlarla təchiz edilmiş yüksək keçid qabiliyyətinə malik «K1-Zərbə» mobil xüsusi zirehli maşına quraşdırılıb və istənilən zaman düşmənə sarsıdıcı zərbə endirə bilər. Bildirildi ki, 2016-cı ilin aprel hadisələri zamanı müəssisə fasiləsiz iş rejiminə keçib və müxtəlif tipli PUA-lar qısa müddətdə təmir edilərək, döyüş zonasına göndərilib.*

*Dövlətimizin başçısına müəssisədə istehsal olunacaq «Orbitr 4» və «Orbitr 3» müşahidə-kəşfiyyat xarakterli pilotsuz uçuş aparatları barədə də məlumat verildi.*

*Prezident İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin muzeyində saxlanmaq üçün hazırlanan pilotsuz uçuş aparatının qanadını imzaladı.*

*Bildirildi ki, müəssisədə təşkil edilən kurslara Müdafiə Nazirliyinin PUA üzrə hərbi qulluqçuları arasında xüsusi seçim aparılmaqla, 70-ə yaxın kursant cəlb olunub. Təlim-tədris kurslarını müvəffəqiyyətlə bitirən kursantlara müxtəlif ixtisaslar üzrə*

*sertifikatlar verilib. Bu müdavimlər hazırda PUA-ları idarə etməklə, düşmənin bütün hərəkətlərini günün istənilən vaxtında – gecə və gündüz nəzarətdə saxlayaraq, verilən tapşırıqları yerinə yetirmək məharətinə malikdirlər.*

*Əldə olunan nəticələrlə kifayətlənməyən müəssisənin kollektivi ölkəmizin müdafiə qüdrətinin artırılması istiqamətində qarşıya qoyulan yeni vəzifələrin icrası məqsədilə elmi-texniki və konstruktor-texnoloji layihələr üzərində işləri davam etdirir.*

*Sonda dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

# KÜRDƏMİR–UCAR–YEVLAX AVTOMOBİL YOLUNUN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*21 sentyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Mingəçevirə səfərə gedərkən, yolüstü Bakı–Ələt–Qazax–Gürcüstan dövlət sərhədi avtomobil yolunun Kürdəmir–Ucar–Yevlax hissəsinin açılışında iştirak etmişdir.*

*İstər Şərq–Qərb, istərsə də Şimal–Cənub istiqamətlərində beynəlxalq yükdaşımaları dəhlizi üzərində yerləşən avtomobil yollarının prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına əsasən müasir səviyyədə yenidən qurulması və bu istiqamətdə aparılan uğurlu islahatlar nəticəsində son illər birinci texniki dərəcəli yolların uzunluğu 500 kilometrə qədər artıb.*

*Beynəlxalq miqyaslı Böyük İpək yolunun tərkib hissəsi olan Bakı–Ələt–Qazax–Gürcüstan dövlət sərhədi avtomobil yolunun uzunluğu 503 kilometrdir. Magistralın Bakı–Ələt, Ələt–Hacıqabul, Hacıqabul–Kürdəmir, Kürdəmir–Ucar–Yevlax, Yevlax–Gəncə hissələrinin birinci texniki dərəcəyə təkmilləşdirilməsi işləri yekunlaşdırılıb. Yolun Hacıqabul–Kürdəmir, Kürdəmir–Ucar–Yevlax hissələrində yenidənqurma tədbirləri avtonəqliyyat vasitələrinin hərəkəti dayandırılmadan yerinə yetirilib, bütün işlər beynəlxalq tikinti normalarının tələblərinə uyğun keyfiyyətlə aparılaraq həmin hissələr istismara hazır vəziyyətə gətirilib. Yaxın gələcəkdə isə magistralın Gəncə–Qazax–Gürcüstan dövlət sərhədi hissəsinin də yenidən qurulmasına başlanılması planlaşdırılır. Layihə tam reallaşdırılandan sonra şərqdən qərbə və əks istiqamətdə Böyük İpək yolunun Azərbaycandan keçən hissəsi olan Bakı–Ələt–Qazax–Gürcüstan dövlət sərhədi avtomobil yolu Av-*

*ropa ilə Asiya arasında avtomobillə beynəlxalq və daxili yükdaşımaların artmasında önəmli rol oynayacaq.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən reallaşdırılan Kürdəmir–Ucar–Yevlax–Tərtər avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində 87,8 kilometr uzunluğunda olan yolun Kürdəmir–Ucar–Yevlax hissəsi 2 zolaq əlavə edilməklə, birinci texniki dərəcəyə təkmilləşdirilib. Layihəyə əsasən yolun bir istiqamət üzrə hərəkət hissəsinin eni 13,75 metr olmaqla, ümumi eni 27,5 metrdir. Hər birinin eni 3,75 metr olmaqla, 4–6 hərəkət zolağından ibarət yolun örtüyü polimer asfalt-betondur. Yol yatağının qalınlığı hamarlayıcı qat 30 santimetr, əsasın alt layı 25 santimetr, əsas lay 20 santimetr olmaqla, ümumilikdə 75 santimetrdir. Asfalt-beton örtüyü isə üçqat olmaqla, qalınlığı 25 santimetr təşkil edir.*

*Layihə çərçivəsində 4 yol qovşağı və su üzərində 5 hidravlik körpü inşa olunub. Bundan başqa, yolda 25 yeraltı keçid, 39 düzbucaqlı drenaj qurğusu, 124 suötürücü boru və 16 avtobus dayanacağı tikilib.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## QEYDLƏR

**1. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 5–7, 20, 74–77, 79–95, 127, 172, 183, 299, 311, 331, 346–347.

**2. Sergey Lavrov** (d.1950) – 1994–2004-cü illərdə Rusiya Federasiyasının BMT-də daimi nümayəndəsi, 2004-cü ildən Xarici İşlər naziri və Rusiya Federasiyası Təhlükəsizlik Şurasının üzvüdür. – 5–7.

**3. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqarı hələ də erməni silahlı qüvvələrinin işğalı altındadır. – 5, 6, 18, 54, 68, 72,73, 83, 125, 126,234, 303, 304, 329, 342.

**4. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident

Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 6,7, 79–95, 127.

**5. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 8, 9, 45, 136.

**6. Sercio Mattarella** – (d.1941) – 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. – 8, 136.

**7. Ukrayna,** U k r a y n a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 10–19, 135, 311.

**8. Petro Poroşenko** (d.1965) – biznesmen və siyasətçi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali Radasının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014-cü ildən Ukrayna Respublikasının Prezidentidir. – 10–19, 135.

**9. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və

qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 15, 83, 303, 339, 340.

**10. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. Avropa Şurasının ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 150, 86, 340.

**11. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 16, 22, 84, 162, 164, 165, 167, 169.

**12. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 16.

**13. İpək yolu**, b ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. –16, 351.

**14. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də

Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 17, 19, 34, 35, 40,41, 58, 110, 113, 114, 151, 159, 165, 166, 168, 169, 179, 186, 199, 200, 205, 207, 209, 210, 232, 234, 240, 259, 262, 264, 273, 279, 282, 288, 306,308, 309, 316, 328, 348.

**15. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 18, 73, 83, 84, 304.

**16. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997-ci il) və 2005-ci ildə qurumu tərk etdi. – 18.

**17. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (viayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 20–21, 25, 134, 162, 165.

**18. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 20–21.

**19. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriy-

yətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 20, 21, 25, 134.

**20. Binəli Yıldırım** (d.1955) – Türkiyənin tanınmış siyasi xadimi, 2015–2016-cı illərdə Nəqliyyat naziri, 2016–2018-ci illərdə isə Baş nazir olmuşdur. 2018-ci ilin iyul ayından Türkiyə Böyük Millət Məclisinin Sədridir. – 20, 21.

**21. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 22, 53, 227–228, 337.

**22. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 23, 338.

**23. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 23.

**24. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan

şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 24, 336.

**25. Tereza Mey** (d.1956) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2016-cı ildən Böyük Britaniyanın Baş naziridir. – 24.

**26. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 26, 133.

**27. Filipp** (d.1960) – 2013-cü ildən Belçika kralı. Kral II Albertin böyük oğlu. – 26.

**28. Azad Rəhimov,** A z a d  A r i f  o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 34–38.

**29. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyəimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin

Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 40, 45, 114, 154, 157, 161, 174, 180, 199, 272, 330.

**30. Namiq Abdullayev,** Namiq Yadulla oğlu (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya oyunlarında gümüş, 2000-ci ildə Sidney Olimpiya oyunlarında isə qızıl medal qazanmışdır. Azərbayan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 40.

**31. Rəsul Çunayev,** Rəsul Abakar oğlu (d.1991) – Yunan-Roma güləşçisi, dünya və I Avropa oyunlarının (2015) çempionu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 41–42.

**32. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 45, 97, 113, 114, 283.

**33. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i -k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 48, 49, 130–131.

**34. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 48, 131.

**35. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i k a- s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 50, 90, 132.

**36. Məhəmməd Qani,** Ə ş r ə f Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 50, 132.

**37. Mərakeş,** M ə r a k e ş  K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 51.

**38. VI Məhəmməd,** b i n  ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. VI Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alauitlər sülaləsindən 18-ci kraldır. – 51.

**39. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 326,7 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 54, 339.

**40. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. – 54.

**41. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 54.

**42. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 55–56, 65–78, 82–95.

**43. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 55, 56, 65–78, 82–95.

**44. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 57–58, 116.

**45. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyasi Mərkəzi Komitəsinin Baş katibi, 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 57, 58.

**46. Gürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 59, 148, 165.

**47. Məhəmməd Cavad Zərif** (d.1960) – İran diplomatı və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Xarici İşlər naziridir. – 69, 70.

**48. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə

Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 69.

**49. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 72, 73, 83.

**50. Valentina Matviyenko** (d.1949) – Rusiyanın dövlət xadimi. 2003–2011-ci illərdə Sankt-Peterburq şəhərinin meri, 2011-ci ildən Rusiya Federasiya Federal Məclisi Şurasının Sədridir. – 80.

**51. İqtisadi Əməkdaşlıq Təşkilatı,** İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT-in tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzil-qərargahı Parisdədir. – 83.

**52. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul Zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 83.

**53. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir.

İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 96.

**54. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 96.

**55. Amerika Birləşmiş Ştatları Konqresi ,** K o n q r e s – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 125.

**56. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 126, 336–343.

**57. Sergey Şoyqu** (d.1955) – Rusiyanın dövlət xadimi, ordu generalı. 1994–2012-ci illərdə Rusiya Federasiyasında Mülki Müdafiə və Fövqəladə Hallar naziri olmuşdur. 2012-ci ildən Rusiya Federasiyasının Müdafiə naziridir.– 127.

**58. Qabon,** Qabon Respublikası – Mərkəzi Afrikada dövlət. Sahəsi 267,7 min $km^2$, əhalisi 1,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Librevildir. – 128.

**59. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min $km^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 138.

**60. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min $km^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 139, 296–305.

**61. Almazbek Atambayev** (d.1956) – Qırğız Respublikasının dövlət və siyasi xadimi. 2011–2017-ci illərdə Qırğız Respublikasının Prezidenti olmuşdur. – 139, 298, 301, 302.

**62. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 144–145.

**63. Şəhriyar Məmmədyarov,** Şəhriyar Həmid oğlu (d.1985) – Azərbaycan şahmatçısı, Beynəlxalq qrossmeystr. 20 yaşadək şahmatçılar arasında ikiqat dünya çempionu tituluna sahib olan yeganə şahmatçıdır. 2017-ci ilin may ayında dünya şahmatçıları arasında «2800 Elo» reytinq balını keçmiş 13-cü şahmatçı olmuşdur. – 151, 152, 171–173.

**64. Teymur Rəcəbov** (d.1987) – Azərbaycan şahmatçısı, Beynəlxalq qrossmeyster. 14 yaşında ikən dünyanın ən gənc qrossmeysteri olmuşdur. 2004-cü ildə FİDE dünya çempionatında yarımfinala yüksəlmişdir. – 151, 158.

**65. Vüqar Həşimov,** V ü q a r Q a s ı m o ğ l u (1986–2014) – Azərbaycan şahmatçısı, Beynəlxalq qrossmeyster, üçqat Azərbaycan çempionu. 2009-cü ildə Azərbaycan yığmasının heyətində Avropa çempionu olmuşdur. 2011-ci ildə İtaliyada keçirilən Resso–Emiliya şahmat turnirinin qalibi olmuşdur. – 151.

**66. Kirsan İlyumjinov** (d.1962) – Rusiyanın dövlət xadimi, Kalmıkiyanın birinci (1993–2005) prezidenti. 2005–2010-cu illərdə Kalmıkiya Respublikasının başçısı olmuşdur. 1995-ci ildən Beynəlxalq Şahmat Federasiyasının prezidentidir. – 157–159, 161, 171–173.

**67. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. – 159.

**68. Fikrət Əmirov,** F i k r ə t C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti,

Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. – 159.

**69. Rövnəq Abdullayev,** Rövnəq İbrahim oğlu (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 162–169, 333.

**70. Xoşbəxt Yusifzadə,** Xoşbəxt Bağı oğlu (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şərəf», «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 162–169.

**71. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 165, 341.

**72. Toğrul Əsgərov,** Toğrul Şəhriyar oğlu (d.1992) – sərbəst güləşçi, Olimpiya (2012) və I Avropa oyunlarının (2015) çempionu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 180.

**73. Mariya Stadnik** (d.1988) – sərbəst güləşçi, I Avropa oyunlarının (2015) çempionu. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 182.

**74. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 120,5 min km$^2$, əhalisi 24,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali

qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyan şəhəridir. – 230.

**75. Kim Çen In** (d.1982) – Şimali Koreyanın siyasi xadimi. 2011-ci ildən Koreya Əmək Partiyasının Birinci katibi, Koreya Xalq Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin Birinci Sədri, Koreya Xalq Ordusunun Ali Baş Komandanıdır. – 230.

**76. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 231.

**77. Emoməli Rəhmon,** E m o m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi.1992–94-cü illərdə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 231.

**78. Adilə Namazova,** A d i l ə Ə v ə z q ı z ı (d.1926) – pediatr-kardioloq. Tibb elmləri doktoru, professor, SSRİ Tibb Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Rusiya Federasiyası Tibb Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. SSRİ Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 235.

**79. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qa-

zaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 258, 296–305.

**80. Əziz Əliyev,** Əziz Məmmədkərim oğlu (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 259, 260.

**81. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zilhiccə ayının 10-cu günü başlanır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın

bəndələrinin günahlarının bağışlanması günü kimi qeyd edirlər. – 274–275.

**82. Meksika,** Meksika Birləşmiş Ştatları – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon km$^2$, əhalisi 121 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 281.

**83. Enrike Penya Nyeto** (d.1966) – Meksikanın siyasi xadimi. 2012-ci il dekabrın 1-dən Meksika Birləşmiş Ştatlarının Prezidentidir. – 281.

**84**. **Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 286–287.

**85. Villem-Aleksandr** (d.1967) – 2013-cü ildən Niderland Krallığının kralı. – 287.

**86. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 294, 318.

**87. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 294, 318.

**88. Sergey Lebedev** (d.1948) – Rusiyanın dövlət xadimi, RF Xarici Kəşfiyyat Xidmətinin direktoru (2000–2007), ordu generalı. 2007-ci ildən MDB-nin icraçı katibidir. – 301.

**89. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 318.

**90. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi. 2005–2008-ci illərdə Rusiya Federasiyasının Baş naziri, 2008–2012-ci illərdə prezidenti olmuşdur. 2012-ci ilin may ayından isə Rusiya Federasiyasının Baş naziridir. – 331.

**91. Malta,** M a l t a R e s p u b l i k a s ı – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 $km^2$, əhalisi 430 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 332.

**92. Mari-Luiz Qreka** (d.1958) – Malta siyasətçisi. 2014-cü ildən Malta Respublikasının Prezidentidir. – 332.

## Şəxsi adlar göstəricisi


**Abdullayev Namiq** – 40
**Abdullayev Rövnəq** – 162–169, 333
**Abdullayev Səbuhi** – 97
**Abutalıbov Hacıbala** – 223, 232, 236, 280, 283, 288
**Adeli Seyid Məhəmməd** – 146
**Ağabəyli Nuranə** – 108–109
**Axundi Abbas** – 69
**Alxasov Şair** – 262
**Amanov Elnur** – 180–181
**Aslanova Reyhan** – 259
**Atambayev Almazbek** – 139, 298, 301, 302
**Babayev Şaməddin** – 294–295
**Badlişah əl-Mutasimu** – 138
**Bağırova Nurlanə** – 295
**Berti Can** – 147
**Cabbarov Mikayıl** – 264, 284
**Camalov Yavər** – 348
**Conson-Serlif Ellen** – 47
**Ciannini Stefania** – 45
**Çan Day Kuanq** – 143
**Çarnetski Riçard** – 276
**Çavuşoğlu Mövlud** – 20–21
**Çunayev Rəsul** – 41–42
**Dramond Yuan** – 162–169
**Dündar Saliha** – 162–169
**Eyyubov Yaqub** – 154–157
**Əl-Məktum Məhəmməd** – 238, 239
**Əliyev Akif** – 38–40
**Əliyev Aydın** – 13
**Əliyev Əziz** – 259, 260

**Əliyev Heydər** – 17, 19, 34, 35, 40,41, 58, 110, 113, 114, 151, 159, 165, 166, 168, 169, 179, 186, 199, 200, 205, 207, 209, 210, 232, 234, 240, 259, 262, 264, 273, 279, 282, 288, 306,308, 309, 316, 328, 348
**Əliyev Rasim** – 339
**Əliyeva Lətifə** – 121
**Əliyeva Mehriban** – 40, 45, 114, 154, 157, 161, 174, 180, 199, 272, 330
**Əmirov Fikrət** – 159
**Əmirbəyova Stella** – 272
**Ərdoğan Rəcəb Tayyib** – 20, 21, 25, 134
**Əs-Sisi Əbdülfəttah** – 44
**Əsədov Heydər** – 70, 249
**Əsgərov Toğrul** – 180
**Fayziyev Şerzod** – 229
**Filipp** (*Belçika kralı)* – 26
**Filip Pavel** – 297
**Grant Araksamita** – 172
**Həsənov Cəbrayıl** – 181
**Hautala Heydi** – 341
**Harunov Cəlal** – 256
**Həşimov Vüqar** – 151
**Həsənov Faiq** – 160
**Həsənov Sevindik** – 202
**Həsənova Vəsilə** – 206
**Hüseyn Məmnun** – 96
**Hüseynov Emin** – 337
**Hüseynov Qədir** – 153
**Hüseynov Qorxmaz** – 211
**Hüseynov Rafil** – 186
**Hüseynova Fatma** – 306–307, 315, 329–330
**Höccətova Aydan** – 153

**Xanbabayev Şəmsəddin** – 240
**İbrahimbəyli İlahə** – 198–199
**İlyumjinov Kirsan** – 157–159, 161, 171–173
**İsmayılov Nazim** – 306, 307
**İvanov George** – 222
**İsayev Radik** – 181
**Jeenbekov Sooronbay** – 296
**Kadırov Əhməd** – 183
**Kanner Yuri** – 184–185
**Kervers Onno** – 285–286
**Kərim Səyyad** – 336
**Kərimov İslam** – 140, 170, 229
**Kim Çen In** – 230
**Kindsqrab Mixael** – 130–131
**Klimkin Pavlo** – 13
**Kostenyuk Aleksandra** – 172
**Kovalyov Yuri** – 232
**Kuçinski Pedro** – 52
**Kvirikaşvili Giorgi** – 59, 148
**Qani Məhəmməd** – 50, 132
**Qarayev Əbülfəs** – 13
**Qarayev Qara** – 159
**Qauk Yoaxim** – 49
**Qəyyum Abdulla** – 46
**Qomelauri Vaxtanq** – 59
**Quliyev Elçin** – 111
**Quliyev Mahir** – 200
**Quliyev Namiq** – 153
**Quluzadə Ramin** – 70
**Lauder Ronald** – 184–185
**Lavrov Sergey** – 5–7
**Lebedev Sergey** – 30
**Lukaşenko Aleksandr** – 344–345
**Makoto Rodvel** – 171–173
**Manesku Ramona** – 341

**Mattarella Sercio** – 8, 136
**Maurer Ulrix** – 22
**Matviyenko Valentina** – 80
**Maynl Julius** – 184–185
**Mey Tereza** – 24
**Merkel Angela** – 48, 131
**Medvedev Dmitri** – 331
**VI Məhəmməd** – 51
**Məhsimov Məhsim** – 258–259
**Məmmədova Aynur** – 198
**Məmmədova Gülnar** – 153
**Məmmədov Rauf** – 153
**Məmmədov Saleh** – 60, 207
**Məmmədov Ziya** – 69
**Məmmədyarov Elmar** – 69
**Məmmədyarov Şəhriyar** – 151,152,171–173
**Məmmədyarova Zeynəb** – 153
**Məmmədzadə Günay** – 153
**Mirzəməmmədov Zöhrab** – 272
**Muradlı Məhəmməd** – 153
**Muradova Esmira** – 295
**Mustafayev Şahin** – 249
**Nağdəliyev Zeynal** – 321
**Namazova Adilə** – 235
**Nəsirov Roman** – 13
**Nyeto Enrike** – 281
**Nisanov Qod** – 184–185
**Obama Barak** – 54
**Odanq Oesman** – 277–278
**Olland Fransua** – 23
**Ondimba Ali** – 128
**Orucova Rəhilə** – 234
**Poroşenko Petro** – 10–19, 135
**Preka Mari-Luiz** – 332
**Puçkov Vladimir** – 346–347

**Putin Vladimir** – 6, 7, 79–95, 127
**Renzi Matteo** – 9
**Rəcəbov Teymur** – 151, 153
**Rəhimov Azad** – 34–38
**Rəhmon Emoməli** – 231
**Ruhani Həsən** – 55, 56, 65–78, 82–95
**Rüstəmova Kamilxan** – 328–329
**Rütte Mark** – 286
**Sadıqov Mirdaməd** – 113
**Salber Herbert** – 126
**Səmədov Zabit** – 183
**Səlimli Səlimağa** – 216–217
**Si Cinpin** – 57, 58
**Sinqer Robert** – 184
**Skufs Bert** – 133
**Sotomayor Lorenzo** – 182
**Stadnik Mariya** – 182
**Sultanifər Məsud** – 69
**Sulaim Əhməd** – 238–239
**Şabot Stiv** – 125
**Şahtaxtinski** – 339
**Şıxəliyev İmran** – 162–169
**Şoyqu Sergey** – 127
**Şnayder-Amman Yohan** – 53
**Ştaynmayer Frank-Valter** – 130, 131
**Təhməzov Mirqiyas** – 199
**Timofti Nikolae** – 137
**Takisava Motome** – 144–145
**Uqolini Massimo** – 147
**Vaezi Mahmud** – 55–56, 70
**Villem-Aleksandr** *(Niderland kralı)* – 287
**Vinter Herbert** – 227–228
**Vudodo Coko** – 129, 278
**Vey Cinhuan** – 57– 58
**Yam Toni** – 64

**Yuldaşev Niqmatulla** – 170
**Yıldırım Binəli** – 20, 21
**Yusifov Miryusif** – 225
**Yusifzadə Xoşbəxt** – 162–169
**Zaxaryayev German** – 184–185
**Zas Stanislav** – 344–345
**Zeynalov Elçin** – 180
**Zəkiyev İlham** – 40–41
**Zərif Məhəmməd** – 70

## Coğrafi adlar göstəricisi

**Ağcabədi** – 318
**Ağdam** – 318
**Ağdaş** – 318
**Ağsu** – 106, 318
**Albaniya** – 165
**Almaniya** – 48, 49, 130–131
**Amerika Birləşmiş Ştatları** – 54, 339
**Astara** – 37, 85
**Atlanta** – 35
**Avropa** – 15, 30, 31, 35, 36, 141, 162, 174, 176
**Balkan** *(yarımada)* – 165
**Balakən** – 37, 106
**Basqal** – 118
**Belarus** – 344–345
**Belçika** – 26, 133
**Beyləqan** – 318
**Bərdə** – 104, 318
**Biləsuvar** – 200–206, 317
**Bişkek** – 296–305
**Birləşmiş Ərəb Əmirlikləri** – 236–237
**Bolqarıstan** – 116, 165
**Bosniya və Herseqovina** – 165
**Böyük Britaniya** – 24, 336
**Braziliya** – 27–43, 174–183
**Cəbrayıl** – 294, 318
**Cəlilabad** – 318
**Cənubi Qafqaz** – 126, 270
**Çin** – 57–58, 116

**Dağıstan** – 259, 260
**Danimarka** – 116
**Dağlıq Qarabağ** – 5, 6, 18, 54, 68, 72,73, 83, 125, 126,234, 303, 304, 329, 342
**Davos** – 14
**Əfqanıstan** – 50, 90, 132
**Ərkivan** – 189
**Fars körfəzi** – 77
**Finlandiya** – 341
**Fransa** – 23, 338
**Füzuli** – 294, 338
**Gəncə** – 37,104
**Göyçay** – 318
**Gürcüstan** – 59, 348, 165
**Hacıqabul** – 318
**Hindistan** – 77
**Xaçmaz** – 122, 240–261
**Xəzər dənizi** – 6, 15, 56, 680 76, 81, 85, 90, 163
**Xızı** – 268
**Xorvatiya** – 165
**Xudat** – 244
**İmişli** – 85
**İndoneziya** – 129, 277–278
**İran** – 55–56, 65–78, 82–95
**İsmayıllı** – 106, 113–124
**İtaliya** – 8, 9, 45, 136
**İsveçrə** – 22, 53, 227–228, 337
**Koreya XDR** – 230
**Kosagül** – 189
**Kürsəngi** – 217
**Kürdəmir** – 318
**Qabon** – 128
**Qafqaz** – 77
**Qax** – 106

**Qaziantep** – 134
**Qəbələ** – 37, 97–112
**Qırğız Respublikası** – 139, 296–305
**Qobustan** – 106, 268
**Qroznı** – 183
**Quba** – 267, 268
**Qusar** – 262–263
**Lahıc** – 118
**Lənkəran** – 37
**Liberiya** – 47
**London** – 35, 152
**Mahaçqala** – 259, 260
**Makedoniya** – 222
**Malayziya** – 138
**Maldiv** – 46
**Malta** – 332
**Masallı** – 85, 186–199, 329
**Meksika** – 281
**Mərakeş** – 51
**Misir** – 44
**Moldova** – 137, 297
**Monteneqro** – 165
**Moskva** – 302, 316
**Mingəçevir** – 37, 326
**Münhen** – 48
**Naxçıvan** – 37
**Neftçala** – 73, 212, 318
**Niderland** – 116, 286–287
**Nil** *(kənd)* – 264–265
**Oğuz** – 106
**Orta Asiya** – 16, 77
**Özbəkistan** – 140, 170, 229
**Pakistan** – 96
**Peru** – 52
**Rio de Janeyro** – 27–43, 174–189

**Rusiya** – 5–7, 20, 74, 77, 79–95, 127, 172, 183, 299, 311, 331, 346–347
**Saatlı** – 317
**Sabirabad** – 104, 306–330
**Salyan** – 207–221
**San-Marino** – 147
**Sankt-Peterburq** – 5
**Sinqapur** – 64
**Sofiya** – 116
**Sumqayıt** – 37, 104
**Şamaxı** – 106, 318
**Şəki** – 106
**Şərqi Avropa** – 77
**Şimali Avropa** – 77
**Tacikistan** – 231
**Tehran** – 68
**Tokio** – 180, 182, 183
**Türkiyə** – 20–21, 25, 134, 162, 165
**Ukrayna** – 10–19, 135, 311
**Varşava** – 20, 130
**Vyetnam** – 143
**Yaxın Şərq** – 77, 90
**Yalama** – 122, 245–247
**Yaponiya** – 144–145
**Yunanıstan** – 165
**Zaqatala** – 106
**Zimbabve** – 171

# MÜNDƏRİCAT

RUSİYA FEDERASİYASININ XARİCİ İŞLƏR NAZİRİ
SERGEY LAVROV İLƏ GÖRÜŞ

*11 iyul 2016-cı il*.......................................................................................5

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

*13 iyul 2016-cı il*.......................................................................................8

İTALİYA RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB MATTEO RENZİYƏ

*13 iyul 2016-cı il*.......................................................................................9

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
PETRO POROŞENKONUN AZƏRBAYCANA RƏSMİ
SƏFƏRİ

*14 iyul 2016-cı il*.....................................................................................10

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
PETRO POROŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*14 iyul 2016-cı il*.....................................................................................11

AZƏRBAYCAN VƏ UKRAYNA PREZİDENTLƏRİ
ŞURASININ BEŞİNCİ İCLASI

*14 iyul 2016-cı il*.....................................................................................12

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*14 iyul 2016-cı il*.....................................................................................13

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
PETRO POROŞENKO İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*14 iyul 2016-cı il*........................................................................................*14*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ
ZİYAFƏTDƏ İŞTİRAK

*14 iyul 2016-cı il*........................................................................................*19*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 iyul 2016-cı il*........................................................................................*20*

İSVEÇRƏ KONFEDERASİYASININ MALİYYƏ NAZİRİ
ULRİX MAURERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*15 iyul 2016-cı il*........................................................................................*22*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB FRANSUA OLLANDA

*15 iyul 2016-cı il*........................................................................................*23*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA
BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ
XANIM TEREZA MEYƏ

*15 iyul 2016-cı il*........................................................................................*24*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*16 iyul 2016-cı il*........................................................................................*25*

BELÇİKA KRALI ƏLAHƏZRƏT FİLİPƏ

*18 iyul 2016-cı il*........................................................................................*26*

RİO DE JANEYRODA KEÇİRİLƏCƏK XXXI YAY
OLİMPİYA OYUNLARINDA İŞTİRAK EDƏCƏK
AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN RƏSMİ
YOLASALMA MƏRASİMİNDƏ İŞTİRAK

*18 iyul 2016-cı il*..........................................................................................*27*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*20 iyul 2016-cı il*..........................................................................................*44*

İTALİYA RESPUBLİKASININ TƏHSİL, UNİVERSİTETLƏR
VƏ TƏDQİQAT NAZİRİ XANIM
STEFANİA GİANNİNİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 iyul 2016-cı il*..........................................................................................*45*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLA YAMİN ABDUL QƏYYUMA

*22 iyul 2016-cı il*..........................................................................................*46*

LİBERİYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM ELLEN CONSON-SERLİFƏ

*22 iyul 2016-cı il*..........................................................................................*47*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ
FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ

*23 iyul 2016-cı il*..........................................................................................*48*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
YOAXİM QAUKA

*23 iyul 2016-cı il*..........................................................................................*49*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*24 iyul 2016-cı il*..........................................................................................*50*

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*27 iyul 2016-cı il*..........................................................................................*51*

PERU RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PEDRO PABLO KUÇİNSKİYƏ

*28 iyul 2016-cı il*..........................................................................................*52*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB YOHAN ŞNAYDER-AMMANA

*29 iyul 2016-cı il*..........................................................................................*53*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*1 avqust 2016-cı il* .......................................................................................*54*

İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ
İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD
VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*2 avqust 2016-cı il* .......................................................................................*55*

ÇİN XALQ RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ
TƏYİN OLUNMUŞ SƏFİRİ VEY CİNHUAN
İLƏ GÖRÜŞ

*3 avqust 2016-cı il* .......................................................................................*57*

GÜRCÜSTAN RESPUBLİKASI DÖVLƏT
TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN RƏİSİ
VAXTANQ QOMELAURİ İLƏ GÖRÜŞ

*3 avqust 2016-cı il* .......................................................................................*59*

PAYTAXTIN KEÇMİŞ «SOVETSKİ» ADLANAN ƏRAZİSİNDƏ
YENİ YOL-NƏQLİYYAT İNFRASTRUKTURUNUN TƏMƏLQOYMA
MƏRASİMİ

*4 avqust 2016-cı il* .......................................................................................*60*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TONİ TAN KENQ YAMA

*5 avqust 2016-cı il* ........................................................ *64*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN
RUHANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*7 avqust 2016-cı il* ........................................................ *65*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN
RUHANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*7 avqust 2016-cı il* ........................................................ *66*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*7 avqust 2016-cı il* ........................................................ *67*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*7 avqust 2016-cı il* ........................................................ *69*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN
RUHANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA
ÇIXIŞLAR

*7 avqust 2016-cı il* ........................................................ *71*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR
PUTİN İLƏ GÖRÜŞ

*8 avqust 2016-cı il* ........................................................ *79*

AZƏRBAYCAN, İRAN VƏ RUSİYA DÖVLƏT
BAŞÇILARININ ÜÇTƏRƏFLİ ZİRVƏ GÖRÜŞÜ

*8 avqust 2016-cı il* ........................................................ *82*

AZƏRBAYCAN, İRAN VƏ RUSİYA PREZİDENTLƏRİNİN
GÖRÜŞÜ

*8 avqust 2016-cı il* ........................................................ *94*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
VLADİMİR PUTİN İLƏ ÇAY SÜFRƏSİ ARXASINDA SÖHBƏT

*8 avqust 2016-cı il ............................................................................................95*
PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*9 avqust 2016-cı il ............................................................................................96*

QƏBƏLƏ RAYONUNA SƏFƏR

*10 avqust 2016-cı il ..........................................................................................97*

QƏBƏLƏ REGİONAL «ASAN XİDMƏT» MƏRKƏZİNİN
AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 avqust 2016-cı il ........................................................................................101*

İSMAYILLI RAYONUNA SƏFƏR

*10 avqust 2016-cı il ........................................................................................113*

İSMAYILLIDA VELOSİPED İSTEHSALI
ZAVODUNUN AÇILIŞI MƏRASİMİNDƏ
ZAVODUN KOLLEKTİVİ İLƏ GÖRÜŞ

*10 avqust 2016-cı il ........................................................................................116*

ABŞ KONQRESİNİN NÜMAYƏNDƏSİ STİV ŞABOT İLƏ
GÖRÜŞ

*11 avqust 2016-cı il ........................................................................................125*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ HERBERT SALBER İLƏ GÖRÜŞ

*11 avqust 2016-cı il ........................................................................................126*

RUSİYA FEDERASİYASININ MÜDAFİƏ NAZİRİ SERGEY
ŞOYQUNUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 avqust 2016-cı il ........................................................................................127*

QABON RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALİ BONQO ONDİMBAYA

*15 avqust 2016-cı il* ........................................................................... *128*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*15 avqust 2016-cı il* ........................................................................... *129*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ AZƏR-
BAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MİXAEL
KİNDSQRAB İLƏ GÖRÜŞ

*15 avqust 2016-cı il* ........................................................................... *130*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*16 avqust 2016-cı il* ........................................................................... *132*

BELÇİKA KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN
OLUNMUŞ SƏFİRİ BERT SKUFS
İLƏ GÖRÜŞ

*16 avqust 2016-cı il* ........................................................................... *133*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*21 avqust 2016-cı il* ........................................................................... *134*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PYOTR POROŞENKOYA

*22 avqust 2016-cı il* ........................................................................... *135*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

*24 avqust 2016-cı il* ........................................................................... *136*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NİKOLAE TİMOFTİYƏ

*24 avqust 2016-cı il* ............................................................................ *137*

MALAYZİYANIN XIV ALİ BAŞÇISI ƏLAHƏZRƏT ƏL-
MUTASİMU BİLLAHİ MUHİBBUDDİN TUANKU ƏL-HAC
ABDUL HALİM MUADZAM ŞAH İBNİ ƏL-MƏRHUM
SULTAN BADLİŞAHA

*29 avqust 2016-cı il* ............................................................................ *138*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALMAZBEK ATAMBAYEVƏ

*29 avqust 2016-cı il* ............................................................................ *139*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*29 avqust 2016-cı il* ............................................................................ *140*

42-ci ÜMUMDÜNYA ŞAHMAT OLİMPİADASININ
İŞTİRAKÇILARINA

*30 avqust 2016-cı il* ............................................................................ *141*

VYETNAM SOSİALİST RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
ÇAN DAY KUANQA

*30 avqust 2016-cı il* ............................................................................ *143*

YAPONİYA XARİCİ İŞLƏR NAZİRLİYİNİN PARLAMEN-
TAR VİTSE-NAZİRİ MOTOME TAKİSAVA İLƏ GÖRÜŞ

*30 avqust 2016-cı il* ............................................................................ *144*

QAZ İXRAC EDƏN ÖLKƏLƏRİN FORUMUNUN
BAŞ KATİBİ SEYİD MƏHƏMMƏD HÜSEYN ADELİ
İLƏ GÖRÜŞ

*30 avqust 2016-cı il* ............................................................................ *146*

SAN-MARİNO RESPUBLİKASININ KAPİTAN-REGENTLƏRİ ZATİ-ALİLƏRİ CƏNAB CAN NİKOLA BERTİYƏ VƏ CƏNAB MASSİMO ANDREA UQOLİNİYƏ

*31 avqust 2016-cı il ........................................................................147*

GÜRCÜSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ GİORGİ KVİRİKAŞVİLİ İLƏ GÖRÜŞ

*31 avqust 2016-cı il ........................................................................148*

42-ci ŞAHMAT OLİMPİADASINDA YARIŞACAQ AZƏRBAYCAN İDMANÇILARI İLƏ GÖRÜŞ

*1 sentyabr 2016-cı il ........................................................................149*

42-ci ÜMUMDÜNYA ŞAHMAT OLİMPİADASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİ

*1 sentyabr 2016-cı il ........................................................................152*

BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASININ PREZİDENTİ KİRSAN İLYUMJİNOV İLƏ GÖRÜŞ

*1 sentyabr 2016-cı il ........................................................................161*

«ŞAHDƏNİZ-2» LAYİHƏSİ ÜZRƏ DAYAQ BLOKUNUN DƏNİZƏ YOLA SALINMASI MƏRASİMİ

*1 sentyabr 2016-cı il ........................................................................162*

ÖZBƏKİSTAN RESPUBLİKASI ALİ MƏCLİSİ SENATININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB NİQMATULLA YULDAŞEVƏ

*2 sentyabr 2016-cı il ........................................................................170*

42-ci ÜMUMDÜNYA ŞAHMAT OLİMPİADASINA START VERMİŞ BİRİNCİ TURUN AÇILIŞINDA İŞTİRAK

*2 sentyabr 2016-cı il ........................................................................171*

XXXI YAY OLİMPİYA OYUNLARINDA İŞTİRAK ETMİŞ İDMANÇILARLA GÖRÜŞ

*2 sentyabr 2016-cı il..........................................................................174*

ÜMUMDÜNYA YƏHUDİ KONQRESİNİN
PREZİDENTİ RONALD LAUDERİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2016-cı il..........................................................................184*

MASALLI RAYONUNA SƏFƏR

*3 sentyabr 2016-cı il..........................................................................186*

MASALLIDA «ASAN HƏYAT» KOMPLEKSİNİN AÇILIŞI
MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2016-cı il ..........................................................................191*

BİLƏSUVAR RAYONUNA SƏFƏR

*3 sentyabr 2016-cı il..........................................................................200*

BİLƏSUVAR MƏRKƏZİ RAYON XƏSTƏXANASININ
ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA
AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2016-cı il..........................................................................202*

SALYAN RAYONUNA SƏFƏR

*3 sentyabr 2016-cı il..........................................................................207*

SALYAN ŞƏHƏRİNƏ ŞİRVAN–MUĞAN MAGİSTRAL
KƏMƏRİNDƏN ÇƏKİLMİŞ YENİ İÇMƏLİ SU XƏTTİNİN
AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 sentyabr 2016-cı il..........................................................................211*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB GEORGE İVANOVA

*5 sentyabr 2016-cı il..........................................................................222*

XƏTAİ RAYONUNDA 245 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ TƏDRİS KORPUSUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*5 sentyabr 2016-cı il..........................................................................223*

XƏTAİ RAYONUNDA 265 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*5 sentyabr 2016-cı il*.........................................................................*225*

İSVEÇRƏ YƏHUDİ İCMALARI FEDERASİYASININ PREZİDENTİ HERBERT VİNTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 sentyabr 2016-cı il*.........................................................................*227*

ÖZBƏKİSTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏKİ SƏFİRLİYİNDƏ

*5 sentyabr 2016-cı il*.........................................................................*229*

KOREYA ƏMƏK PARTİYASININ SƏDRİ, KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASININ DÖVLƏT İŞLƏRİ ÜZRƏ KOMİSSİYASININ SƏDRİ, KOREYA XALQ ORDUSUNUN ALİ BAŞ KOMANDANI ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN INA

*5 sentyabr 2016-cı il*.........................................................................*230*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*6 sentyabr 2016-cı il*.........................................................................*231*

NİZAMİ RAYONUNDA 229 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*6 sentyabr 2016-cı il*.........................................................................*232*

NİZAMİ RAYONUNDA 109 SAYLI TAM ORTA MƏKTƏBİN BİNASINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*6 sentyabr 2016-cı il*.........................................................................*234*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ PROFESSOR ADİLƏ NAMAZOVAYA

*7 sentyabr 2016-cı il..........................................................................235*
NƏSİMİ RAYONUNDA 247 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*7 sentyabr 2016-cı il..........................................................................236*

«DP WORLD» ŞİRKƏTLƏR QRUPUNUN SƏDRİ SULTAN ƏHMƏD BİN SULAİM İLƏ GÖRÜŞ

*7 sentyabr 2016-cı il..........................................................................238*

XAÇMAZ RAYONUNA SƏFƏR

*8 sentyabr 2016-cı il..........................................................................240*

XUDAT ŞƏHƏRİNİN SAKİNLƏRİ İLƏ GÖRÜŞ

*8 sentyabr 2016-cı il..........................................................................244*

YALAMA QƏSƏBƏSİNDƏ HEYDƏR ƏLİYEV PARKINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*8 sentyabr 2016-cı il..........................................................................245*

YALAMA AQROPARKININ AÇILIŞI MƏRASİMİNDƏ XAÇMAZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*8 sentyabr 2016-cı il..........................................................................248*

QUSAR RAYONUNA SƏFƏR

*8 sentyabr 2016-cı il..........................................................................262*

QUSARIN İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN YENİDƏN QURULMASI LAYİHƏSİNİN BAŞA ÇATMASI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*8 sentyabr 2016-cı il..........................................................................266*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*9 sentyabr 2016-cı il*.............................................................................*275*
AVROPA PARLAMENTİNİN VİTSE-PREZİDENTİ RİÇARD ÇARNETSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2016-cı il*.............................................................................*276*

İNDONEZİYA XALQ MƏŞVƏRƏT MƏCLİSİNİN SƏDR MÜAVİNİ OESMAN SAPTA ODANQIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 sentyabr 2016-cı il*.............................................................................*277*

XƏTAİ RAYONUNDA 58 SAYLI TAM ORTA MƏKTƏBDƏ ƏSASLI YENİDƏNQURMA İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*13 sentyabr 2016-cı il*...........................................................................*279*

BAKIDA 261 SAYLI MƏKTƏB-LİSEYDƏ ƏSASLI TƏMİRDƏN SONRA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*13 sentyabr 2016-cı il*...........................................................................*280*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ENRİKE PENYA NYETOYA

*14 sentyabr 2016-cı il*...........................................................................*281*

NİZAMİ RAYONUNDA 32 SAYLI TAM ORTA MƏKTƏB ÜÇÜN TİKİLMİŞ YENİ TƏDRİS KORPUSUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*14 sentyabr 2016-cı il*...........................................................................*282*

NİZAMİ RAYONUNDA 12 SAYLI TAM ORTA MƏKTƏB ÜÇÜN TİKİLMİŞ YENİ TƏDRİS KORPUSUNDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*14 sentyabr 2016-cı il*...........................................................................*283*

9 SAYLI BAKI PEŞƏ LİSEYİNİN BAZASINDA

YARADILMIŞ IT STEP AKADEMİYASINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*14 sentyabr 2016-cı il..........................................................................284*

NİDERLAND KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ONNO KERVERS İLƏ GÖRÜŞ

*14 sentyabr 2016-cı il..........................................................................286*

SABUNÇU RAYONUNDA 311 SAYLI TAM ORTA MƏKTƏBİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2016-cı il..........................................................................288*

QIRĞIZ RESPUBLİKASINA SƏFƏR

*16 sentyabr 2016-cı il..........................................................................296*

MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ PAVEL FİLİP İLƏ GÖRÜŞ

*16 sentyabr 2016-cı il..........................................................................297*

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK

*16 sentyabr 2016-cı il..........................................................................298*

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA ERMƏNİSTAN PREZİDENTİNİN TƏXRİBAT XARAKTERLİ ÇIXIŞINA TUTARLI VƏ SƏRT CAVAB

*16 sentyabr 2016-cı il..........................................................................303*

SABİRABAD RAYONUNA SƏFƏR

*17 sentyabr 2016-cı il..........................................................................306*

PAMBIQÇILIĞIN İNKİŞAFINA DAİR RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*17 sentyabr 2016-cı il..........................................................................308*

YEKUN NİTQİ

*17 sentyabr 2016-cı il*..........................................................................................*316*
RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ ZATİ-
ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*19 sentyabr 2016-cı il*..........................................................................................*331*

MALTA RESPUBLİKASININ PREZİDENTİ
XANIM MARİ-LUİZ KOLEYRO PREKAYA

*19 sentyabr 2016-cı il*..........................................................................................*332*

BAKIDA YENİ BİTUM İSTEHSALI QURĞUSUNUN
TƏMƏLQOYMA MƏRASİMİ

*19 sentyabr 2016-cı il*..........................................................................................*333*

AVROPA İTTİFAQI–AZƏRBAYCAN PARLAMENT
ƏMƏKDAŞLIQ KOMİTƏSİNİN NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*20 sentyabr 2016-cı il*..........................................................................................*336*

BELARUS RESPUBLİKASI TƏHLÜKƏSİZLİK ŞURASININ
DÖVLƏT KATİBİ STANİSLAV ZASIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*20 sentyabr 2016-cı il*..........................................................................................*344*

RUSİYA FEDERASİYASI FÖVQƏLADƏ HALLAR NAZİRİ
VLADİMİR PUÇKOVUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 sentyabr 2016-cı il*..........................................................................................*346*

MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN «AZAD
SİSTEMLƏR» MÜƏSSİSƏSİNDƏ «ZƏRBƏ» PİLOTSUZ
UÇUŞ APARATLARININ TƏQDİMATI MƏRASİMİ

*21 sentyabr 2016-cı il*..........................................................................................*348*

KÜRDƏMİR–UCAR–YEVLAX AVTOMOBİL YOLUNUN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*21 sentyabr 2016-cı il*........................................................................*352*

QEYDLƏR........................................................................................*354*

*Şəxsi adlar göstəricisi*........................................................................*375*

*Coğrafi adlar göstəricisi* ....................................................................*381*

**Texniki redaktor** ***Zoya Nəcəfova***

**Yığım üzrə operator** ***İlhamə Kərimova***

**Kompüter tərtibatı** ***Məhəbbət* Orucov**

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.